Gretl proqramı vasitəsilə apardığımız birbaşa xarici investisiyaların ixraca təsiri ilə bağlı hesablamızın nəticəsinə əsasən qeyd edə bilərik ki, bu iki kəmiyyət arasında düz asılılıq mövcuddur. Hesablamalar nəticəsində aydın olmuşdur ki, birbaşa carici investisiyaların bir vahid artması ixracın 0,82 vahid artmasına, ümumi daxili məhsulun bir vahid artması isə birbaşa xarici investisiyaların 0,26 vahid artmasına səbəb olmuşdur. Tədqiqatın əsas məqsədinin birbaşa xarici investisiyaların ixraca təsirini müəyyənləşdirmək olduğundan deyə bilərik ki, birbaşa xarici investisiyalar ixracın artırılmasının əsas amillərindən biri kimi çıxış edir. Bu baxımdan birbaşa xarici investisiyaların təşviqinin aparılması olduqca zəruri məsələlərdən biri hesab edilir.

Bunu nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə, “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi” və “Milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi”ndə və beynəlxalq müstəvidə ölkənin cəlbedici investisiya məkanı kimi imicinin formalaşdırılması məqsədilə Birbaşa xarici investisiyaların təşviqinə dair 2021-2025-ci illəri əhatə edən strategiya Beynəlxalq Maliyyə Korporasiyası ilə birgə işlənib hazırlanmışdır [6].

Strategiyada birbaşa xarici investisiyaların cəlb edilməsi hesabına Respublikamızda idxalı əvəzləyici və ixracyönümlü məhsul istehsalının arıtırlmasına, o cümlədən ixracda qeyri-neft sektorunun xüsusi çəkisinin yüksəldilməsinə istiqamətlənmişdir.

Hesab edirik ki, birbaşa xarici investisiyaların arıtırılması müasir texnika və texnologiyanın istehsal prosesinə cəlb edilməsilə qeyri-neft sektorunda rəqabət qabiliyyətinin yüksəlməsinə, iqtisadiyyatının strukturunun diversifikasiyasına nail olmağa, yeni ixrac bazarlarına çıxmağa imkan verəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Böyük İqtisadi Ensklopediya. III cild. Bakı, “Şərq-Qərb” Nəşriyyat evi, 2012, 608 s.
2. Karluk, R. Uluslararası Ekonomi Teori Politika, 10. Baskı, Beta Basım, İstanbul. 2013. 908s.
3. Seyidoğlu, H. Uluslararası İktisat, 18. Baskı, Güzem Can Yayınları, İstanbul. 2013. 908 s.
4. Burak U. Doğurdan Yabancı Yatırım Girişlerinin İhracat Üzerine Etkileri: G-20 Ülkeleri. Ankara. 2021. 308 s.

5. https://azpromo.az/az/page/layiheler/bxi-strategiyasi
6. https://data.worldbank.org/

**THE IMPACT OF FOREIGN DIRECT INVESTMENT ON EXPORTS**

**N.Narimanov**
Doctor of Philosophy in Economics
Azerbaijan State Agrarian University

***Abstract:*** *Investments play an important role in the development of the country's economy. Therefore, increasing the investment attractiveness of the national economy is an important task. The manifestation of foreign investment in the country's economy is important in terms of ensuring financial security, deepening integration processes and expanding export opportunities. In this article, using the Gretl econometric program, the impact of foreign direct investment on exports was investigated.*
***Keywords:*** *investment, foreign direct investment, exports, competitiveness, Gretl*

**ВЛИЯНИЕ ПРЯМЫХ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ НА ЭКСПОРТ**

**Н.А.Нариманов**
доктор философии по экономике
Азербайджанский государственный аграрный университет

***Резюме:*** *Инвестиционные вложения играют важную роль в развитии экономики страны. Поэтому, повышение инвестиционной привлекательности национальной экономики является важной задачей. Проявление иностранных инвестиций в экономике страны важен с точки зрения обеспечения финансовой безопасности, углубления интеграционных процессов и расширения экспортных возможностей. В этой статье, с помощью эконометрической программы Gretl, было исследовано влияние прямых иностранных инвестиций на экспорт*
***Ключевые:*** *инвестиция, прямые иностранные инвестиции, экспорт, конкурентоспособность, Gretl*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 14.02.2024**
**Çapa qəbul edilib: 22.02.2024**

UOT 339.56

# DÜNYA İQTİSADİYYATINDA FORMALAŞAN YENİ REALLIQLAR ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN İLƏ ÇİN ARASINDA TİCARƏT İNTENSİVLİYİ

**Aslan Cavid oğlu Əzimzadə**
doktorant
Azərbaycan Dövlət İqtisad Universiteti
aslan_azimzadeh@bk.ru

***Xülasə:*** *Bu gün formalaşmaqda olan yeni texnoloji quruluşun liderlərindən biri məhz Çindir. Yeni reallıqlar hər bir ölkə üçün ənənəvi bazarların coğrafiyasını dəyişdirmişdir. Təbii ki, bu istiqamətdə Azərbaycan və Çin arasında iqtisadi əlaqələrin o cümlədən ticarət əlaqələrinin yeni dövrü başlamaqdadır. Tədqiqat işində dünya iqtisadiyyatında formalaşan yeni reallıqların o cümlədən COVID-19 pandemiyasının eyni zamanda Rusiya-Ukrayna münaqişəsinin daha da dərinləşdirdiyi struktur böhranın, həmçinin dəyişməkdə olan texnoloji quruluşun Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı ticarətin ümumi vəziyyətinə ticarət intensivliyi indeksi kontekstində təsiri araşdırılmışdır. Tədqiqat işində müqayisəli təhlil, statistik təhlil, elmi abstraksiya, induksiya və deduksiya kimi metodlardan istifadə edilmişdir. Tədqiqat işinin praktiki məhdudiyyəti daha geniş məlumatların mövcud olmasıdır.*

***Açar sözlər:*** *ticarət intensivliyi indeksi, COVID-19 pandemiyası, Rusiya-Ukrayna münaqişəsi, texnoloji quruluş*

## Giriş

Qeyd etmək lazımdır ki, dünya iqtisadiyyatında faktiki olaraq yeni texnoloji quruluşun formalaşması ilə paralel olaraq yaranan müasir geosiyasi və geoiqtisadi çağırışlar kollektiv Qərbin ultra liberalizm ideyalarının məntiqi nəticəsi olan qlobalizasiya prosesinin fiaskosu ilə nəticələnməkdədir. Belə olan halda dünya təsərrüfat sistemində regionalizm meyllərinin dayanıqlı inkişafı ölkələr arasında iki tərəfli formatda iqtisadi əməkdaşlıq trendlərinin inkişafını şərtləndirməkdədir. Bu səbəbdən sözügedən reallıqlar kontekstində Azərbaycan ilə Çin arasında ticarət intensivliyinin təhlili olduqca önəmli amillərdəndir.

Təbii ki, müasir çağırışların kardinal sürətli dəyişimi hadisələrin sistemli şəkildə kompleks analizini çətinləşdirməkdədir. Bu səbəbdən tədqiqatımızda VI texnoloji quruluşun sürətli inkişaf etməyə başladığı 2018-ci ildən günümüzə qədər olan trendlər çərçivəsində Azərbaycan ilə Çin arasında ticarət əlaqələrinin intensivliyini analiz edəcəyik ki, bu zaman kəsiyinin daxilində həm COVID-19 pandemiyası həm də Rusiya-Ukrayna münaqişəsi vardır.

## Dünya iqtisadiyyatında formalaşan yeni reallıqların təhlili

Qeyd etmək lazımdır ki, akademik S.Y.Qlazyevin müəllifi olduğu “Dünya və milli iqtisadiyyatların inkişafı prosesində texnoloji quruluşların dəyişməsinin qanunauyğunluğu” nəzəriyyəsinə əsasən dünya iqtisadiyyatı indiyə kimi 5 texnoloji quruluşu geridə qoymuşdur. Bu texnoloji quruluşların ortalama ömrü 50-70 il arasındadır. Bu gün dünya iqtisadiyyatında tamamilə yeni altıncı texnoloji quruluşa qədəm qoymaqdadır. Bu texnoloji quruluşlar sənaye və informasiya inqilabları çərçivəsində formalaşmışdır. Hər bir texnoloji quruluşda müəyyən texnologiya forması daha ön planda müşahidə olunmuşdur. Sözügedən texnoloji quruluşların biri birini əvəzetməsi çərçivəsində önə çıxan texnologiya forması aşağıdakı istiqamətdədir.

- tekstil maşınları;
- buxar mühərriki;
- elektrin mühərriki;
- daxili yanma mühərriki;
- mikroelektron komponentlər;
- nanotexnologiyalar. [1]

Nəzərə almaq lazımdır ki, faktiki olaraq, son iki texnoloji quruluşun birbaşa olaraq yüksək texnologiyaların inkişafı ilə bağlıdır. Çin isə bu gün yüksək texnologiya ixracına görə dünya lideridir. Bütün bu faktorları nəzərə aldığımız zaman deyə bilirik ki, bu gün formalaşmaqda olan yeni texnoloji quruluşun lideri məhz Çindir. Bu səbəbdən dünya iqtisadiyyatında formalaşan bu yeni reallıq çərçivəsində Azərbaycan ilə Çin arasında iqtisadi o cümlədən ticarət əlaqələrinin inkişaf etdirilməsi olduqca önəmli istiqamət kimi çıxış edə bilər.




**Şək. 1.** Dünya iqtisadiyyatında texnoloji quruluşların əvəzlənməsi
**Qeyd:** Sxemin orijinal əsərdən Azərbaycan dilinə tərcüməsi müəllifə məxsusdur. **Mənbə:** [1]

Göründüyü kimi, altıncı texnoloji quruluş 2010-cu ildən inkişafa başlamış 2018-ci ildən isə geniş yayılma dövrünə qədəm qoymuşdur. Bu dövrdən sonra dünya iqtisadiyyatında struktur böhranı daha da dərinləşdirən COVID-19 pandemiyası və Rusiya-Ukrayna münaqişəsinin başlaması bizə bir daha dünya iqtisadiyyatında formalaşan yeni reallıqlar çərçivəsində Azərbaycan ilə Çin arasında ticarət intensivliyinin təhlili üçün başlanğıc ili olaraq 2018-ci ilin seçiminin olduqca önəmli və aktual olduğunu deməyə imkan verir.

Digər tərəfdən qeyd etmək lazımdır ki, 2019-cu ildən dünyada geniş vüsət alan COVID-19 pandemiyası dünya iqtisadiyyatına da öz müəyyən təsirlərini göstərərək dünya təsərrüfat sistemində artıq formalaşmaqda olan struktur böhranı daha da dərinləşdirmiş və nəqliyyat-logistika istiqamətində də iqtisadi böhran yaratmışdır.Xatırlatma üçün qeyd etmək lazımdır ki, yeni tip koronavirus xəstəliyi 2019-cu ildə Çində aşkar edilmişdir. 11 mart 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Çində meydana çıxan yeni növ koronavirus xəstəliyinin qlobal yayılmasına və ciddiliyinə görə pandemiya olaraq elan etmişdir [2]. COVID-19 pandemiyasının yayılmasının qarşısını almaq məqsədilə bir çox ölkə müəyyən karantin rejimləri tətbiq etdi ki, bunun nəticəsində sosial və tibbi qoruyucu tədbirlər başlandı eyni zamanda ölkə sərhədləri də bağlandı. Təbii ki, bütün bu faktorlar həm insanların yaşam tərzinə qeyri-stabillik formalaşdırdı həm də müəyyən iqtisadi şoklar yaratdı [3]. Xüsusilə qeyd etmək lazımdır ki, bu pandemiya nəticəsində formalaşan qapanmalar ölkələr arasında xarici ticarət dövriyyəsinə müəyyən təsirlərinə göstərmişdir. Məhz bu səbəbdən sözügedən illər çərçivəsində Azərbaycan ilə Çin arasında ticarət intensivliyini araşdırdığımız zaman dünya iqtisadiyyatında formalaşan bu yeni reallığın da iki ölkə arasındakı ticarətə nə qədər təsirinin olması bağlı müəyyən nəticələr əldə edə biləcəyik.

Digər tərəfdən sözügedən yeni reallıqlardan biri də məhz 2022-ci ildə formalaşan Rusiya-Ukrayna münaqişəsidir ki, bu münaqişə çərçivəsində də dünya ölkələrində formalaşmış sosial-iqtisadi problemlər kəskin şəkildə dərinləşməyə başladı. Bunun nəticəsində də dünya təsərrüfat sistemində anti-qlobalizm və regionallaşma meyllərinin daha da dayanıqlı trendlər ilə inkişaf etməsi

müşahidə edildi. Bu münaqişə dünya ölkələrinin ənənəvi ixrac bazarlarında ciddi diversifikasiya vektorları ilə nəticələndi və ikitərəfli iqtisadi əlaqələr məhz bu faktorlar çərçivəsində daha da inkişaf edərək təkqütblü dünyadan çoxqütblü dünyaya keçidin sürətlənməsinə zəmin yaratdı. Bu səbəbdən də sözügedən münaqişənin yaratdığı geosiyasi reallığın məntiqi nəticəsi olan iki tərəfli iqtisadi əlaqələrin dayanıqlı inkişafı kontekstində Azərbaycan və Çin arasında ticarət intensivliyinin araşdırılması tədqiqatın unikallığının eyni zamanda aktuallığının inkişafına öz müsbət təsirini göstərə bilər.

**Azərbaycan ilə Çin arasında ticarət intensivliyi indeksinin hesablanması**

Dünya iqtisadiyyatında formalaşan yeni reallıqların Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı ticarət intensivliyinə təsirinin hansı istiqamətdə olmasını sistemli şəkildə kompleks analiz edə bilməyimiz üçün ticarət intensivliyi indeksindən istifadə edəcəyik.

Ticarət İntensivliyi İndeksinin hesablanma qaydası aşağıdakı formadadır [4].

$$T_{ij} = \frac{x_{ij}/X_{it}}{x_{wj}/X_{wt}},$$

burada $x_{ij}$ – $i$ ölkəsinin j ölkəsinə ixracı, $X_{it}$ – $i$ ölkəsinin dünyaya ümumi ixracı, $x_{wj}$ – $j$ ölkəsinin dünyaya ümumi ixracı, $X_{wt}$ – dünyanın ümumi ixracıdır.

Bu indeksin dəyəri əgər 1-dən böyükdürsə, o zaman iki ölkə arasında baş vermiş ticarət axının gözlənilən potensialdan yüksək olduğu deməkdir. Əks təqdirdə isə əgər indeksin qiyməti 1-dən kiçikdirsə bu iki ölkə arasında ticarət axının kifayət qədər inkişaf etmədiyi mənasına gəlməkdədir [5].

**Cədvəl 1**

**2018-2022-ci illərdə Azərbaycan ilə Çin arasında ticarət intensivliyi indeksi**

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| $T_{ij}$ | 0,038648749 | 0,305484185 | 0,258708789 | 0,035027751 | 0,011673676 |

**Qeyd:** İndeks [6] və [7] nömrəli ədəbiyyatların göstəricilərindən istifadə edilməklə müəllif tərəfindən hesablanmışdır.

Qeyd etmək lazımdır ki, tədqiqatımızda *i* ölkəsi olaraq Azərbaycan Respublikası j ölkəsi olaraq isə Çin Xalq Respublikası götürülmüşdür. İndeks yalnız bir tərəfli formada işlənmişdir. Çin Xalq Respublikasının göstəricilərinin təhlili zamanı Çinin əyalətləri olan Honk-Konq, Makao və Tayvanın iqtisadi göstəriciləri nəzərə alınmamışdır. Cədvəl 1-ə nəzər saldığımız zaman görürük ki, yeni texnoloji quruluşun sürətlə yayılmağa başladığı 2018-ci ildə iki ölkə arasında arasındakı ticarət intensivlik indeksi digər dövrlərə nisbətdə daha yüksəkdir. 2019-cu ildə COVID-19 pandemiyasının başlanması və 2020-ci ildə bu pandemiyanın daha da şiddətlənməsi iki ölkə arasında ticarət intensivliyinə təsir edərək azalmışdır. Pandemiyanın azaldığı 2021-ci ildə isə yenidən ticarət intensivliyi artmış lakin Rusiya-Ukrayna münaqişəsinin yarandığı və bununla da dünya iqtisadiyyatında uzun illərdir formalaşmaqda olan struktur böhranın daha da dərinləşdiyi 2022-ci ildə isə yenidən ölkələr arasında ticarət intensivliyi azalmışdır. Lakin bu illər ərzində olan bütün göstəricilərin 1-dən kiçik olması iki ölkə arasında ticarət potensialının kifayət qədər inkişaf etməməsini göstərməkdədir.

**Nəticə**

Beləliklə, dünya iqtisadiyyatında formalaşan yeni reallıqlar çərçivəsində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ticarət intensivliyinin təhlili zamanı görürük ki, bu reallıqların ticarət intensivliyinə müəyyən təsirləri olmuşdur. Həm COVID-19 pandemiyası, həm də Rusiya-Ukrayna münaqişəsinin dərinləşdirdiyi struktur böhran iki ölkə arasında ticarət intensivliyinə mənfi təsir göstərmişdir. Lakin yeni texnoloji quruluşun dayanıqlı inkişaf və pandemiyanın daha yumuşaq keçdiyi illərdə isə iki ölkə arasında ticarət intensivliyi daha yaxşı vəziyyətdədir. Bütövlükdə qeyd etmək lazımdır ki, Azərbaycan və Çin arasında ticarət intensivliyi indeksinin təhlili bizə iki ölkə arasında ticarət axınlarının mövcud potensialdan aşağı olduğunu

deməyə imkan verir. Bu səbəbdən də iki ölkə arasında xarici ticarət əlaqələrinin inkişafına böyük potensial vardır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Глазьев, С. Ю. (2018). Информационно-цифровая революция. Евразийская интеграция: экономика, право, политика, (1 (23)), 70-83.
2. Açikgöz, Ö., & Günay, A. (2020). The early impact of the Covid-19 pandemic on the global and Turkish economy. Turkish journal of medical sciences, 50(9), 520-526.
3. Kang, M., Choi, Y., Kim, J., Lee, K. O., Lee, S., Park, I. K., ... & Seo, I. (2020). COVID-19 impact on city and region: what's next after lockdown?. International Journal of Urban Sciences, 24(3), 297-315.
4. Kašťáková, E., & Baumgartner, B. (2017). The evaluation of the EU trade with Russia based on the analysis of selected indices: revealed comparative advantages, intra-industry trade and trade intensity. Business and Economic Horizons, 13(4), 428-438.
5. Phan, T. H., & Jeong, J. Y. (2012). An analysis of Korea-Vietnam bilateral trade relation.
6. ARDSK, 2023. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. www.stat.gov.az
7. WB, 2023. World Bank. Electron resource: https://data.worldbank.org/indicator/NE.EXP.GNFS.CD

## INTENSITY OF TRADE BETWEEN AZERBAIJAN AND CHINA IN THE FRAMEWORK OF THE NEW REALITIES EMERGING IN THE WORLD ECONOMY

**A.Azimzadeh**
Doctoral student
Azerbaijan State University of Economics

***Abstract:*** *China is one of the leaders of the new technological order that is being formed today. New realities have changed the geography of traditional markets for each country. Of course, a new era of economic relations is beginning in this direction, including trade relations between Azerbaijan and China. In the study, the impact of the new realities formed in the world economy, including the structural crisis deepened by the Russian-Ukraine conflict, as well as the COVID-19 pandemic, as well as the changing technological structure, on the general state of trade intensity between the Republic of Azerbaijan and the People's Republic of China was analyzed in the context of the trade intensity index. The research work used methods such as comparative analysis, statistical analysis, scientific abstraction, induction and deduction. A practical limitation of the study is the availability of more extensive data.*

***Keywords:*** *trade intensity index, COVID-19 pandemic, Russian-Ukrainian conflict, technological order*

## ИНТЕНСИВНОСТЬ ТОРГОВЛИ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И КИТАЕМ В РАМКАХ НОВЫХ РЕАЛИЙ ФОРМИРУЮЩИХСЯ В МИРОВОЙ ЭКОНОМИКЕ

**А.Д.Азимзаде**
докторант
Азербайджанский государственный экономический университет

***Резюме:*** *Китай является одним из лидеров формирующегося сегодня нового технологического уклада. Новые реалии изменили географию традиционных рынков для каждой страны. Конечно, в этом направлении начинается новая эра экономических отношений, в том числе торговых отношений между Азербайджаном и Китаем. В*

*исследовании рассматриваются новые реалии, сформировавшихся в мировой экономике, в том числе структурного кризиса, усугубленного пандемией COVID-19, а также российско-украинского конфликта и меняющегося технологического уклада на общее состояние торговли между Азербайджанской Республикой и Китайской Народной Республикой в контексте индекса интенсивности торговли. В исследовательской работе использовались такие методы, как сравнительный анализ, статистический анализ, научная абстракция, индукция и дедукция. Практическим ограничением исследования является наличие более обширных данных.*

***Ключевые слова:*** *индекс интенсивности торговли, пандемия COVID-19, российско-украинский конфликт, технологический уклад*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 15.02.2024**
**Çapa qəbul edilib: 23.02.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

UOT 330.1; 330.8

# İQTİSADİYYATIN TƏDRİCİ TƏRƏQQİSİNİN DÖVRİLİYİNİN TƏMƏL XÜSUSİYYƏTLƏRİ

**Günəş Musa oğlu Şəfaqətov**
Mingəçevir Dövlət Universiteti
gunash.shafaqatov@mdu.edu.az

***Xülasə:*** *Məqalədə iqtisadi inkişafın keçmiş olduğu mərhələlər, onlar arasındakı uyğunluq, fərqli cəhətlər araşdırılaraq, müasir dövrdə təkamülün yeni mərhələsinə – informasiya cəmiyyətinə qədəm qoyan ölkələrin məhsuldar qüvvələrinin fərdləşdirilməsi ilə şərtlənən ümumi sivilizasiyalı tərəqqinin mövcud durumu qiymətləndirilmişdir. Müasir üsullar və metodologiyadan istifadə etməklə müəyyənləşdirilən naticə əks etdirilmişdir*

***Açar sözlər:*** *iqtisadi tərəqqi, təkamül nəzəriyyəsi, sərt zorakılıq, inqilablar, islahatlar, təkamül yolu*

## Giriş

İqtisadi inkişaf və təkamül nəzəriyyəsi sosial dirçəlişin dövri xüsusiyyətə malik olmasının təməl prinsipi hesab edir. Yəni biliklərin formalaşdığı proses sosial tərəqqinin dövri xüsusiyyətinin təsdiq olunması, məzmun etibarı ilə hər bir dövrün fərqli qaydada tədriciliyinin tarixi xüsusiyyətinin nəzərə alınması deməkdir. Çünki insanlığın uzunmüddətli və münaqişəli tərəqqisi fəaliyyəti dövründə bir-birini əvəzləmiş fərqli iqtisadi sistemlər silsiləsi (qarışıq, sərbəst bazar, inhisarçı bazar, tənzimlənən bazar, inzibati-amirlik, ənənəvi), eyni zamanda bu sistemlər məzmunca oxşar olsa da, formaca müxtəlif tip, variant və modelləri öz tədriciliyində, üç mərhələli artım yolu qət etmişdir.

## İqtisadiyyatın tədrici tərəqqisinin dövrləri

Bu prosesin mahiyyətini düzgün mənimsəmək üçün tədriciliyin keçdiyi dövrləri müqayisələndirmək vacibdir:

- yaranma və artan tərəqqi, belə ki, istənilən iqtisadi sistem təkamül əsasında intişar tapıb, bərqərar olub;
- tam formalaşmış vəziyyət, yəni təşəkkül tapan iqtisadi sistem mövcud olan qeyri-aşkar imkanları hərəkətə gətirərək, tərəqqinin maksimal nöqtəsinə yüksəlir;
- yeniləşmənin təzyiqinin artması ilə bağlı olan məhdudiyyətlər, yəni iqtisadi sistem davamlı olaraq təbii potensial və dominantlığını təkamüllü qaydada ixtisar edərək gücsüzləşir, yeni mərhələnin, habelə təkmilləşən cəmiyyətin mənəvi-əxlaqi, ictimai-siyasi, sosial-iqtisadi istəklərinə cavab verə bilmədiyindən ölüb, səhnədən gedir.

## İqtisadiyyatın tədrici tərəqqisinin dövriliyinin əsas xüsusiyyətləri

Deməli, iqtisadi quruluşlar, fərqli təsərrüfatçılıq formaları daimi olmayıb, müəyyən tarixi mühit və konkret ilkin şərtlər, ünsürlər və səbəblər dəstinin bəzən vacib (qanunauyğun), bəzən də gözlənilməz (təsadüfi) hadisələr zamanı yaranıb, fəaliyyətdə olur, müəyyən zaman keçdikdən sonra isə fəaliyyətlərini kobud məcburiyyətlər, revalsion, yaxud evalison yeniləşmələr, islahatlar, tədrici üsulla sona çatdırır.

Bu dövrlər cəmiyyətin inkişafının, sosial istehsalın arasıkəsilməzliyini müəyyən edir.

Bu müntəzəmliyə aid edilən istehsal ünsürləri, texnologiyanın, təsərrüfatın təşkili üsulları, sonda iqtisadi münasibətlərin əsas subyekti hesab olunan insanın yetkinləşməsi istənilən tarixi dövrün intişarında tərəqqinin evasionallığını hesab edir. Belə ki, iqtisadiyyat sosial tərəqqinin istənilən dövründə - istər inkişaf, istərsə də geriləmə mərhələsində mövcudluğunu dondurmur.

Belə bir qənaət hasil etmək olar ki, sosial tərəqqinin istənilən tarixi dövründə iqtisadi proses və hadisələrin tədqiqi zamanı göstərilən üç dövrün ikisi onun özünə aid keyfiyyət tərəfini ifadə edir, biri, axırıncı isə onun catışmazlığını, kəsirli olmasını, əvvəlki ilə sonrakının, eyni vaxtda birgə

fəaliyyətini ifadə etdirir. Burada, diqqəti daha çox cəlb edən hal həmin dövrün spesfikliyi yox, fərqli mərhələlərin arasında fəaliyyət göstərən iqtisadiyyata məxsus keyfiyyət xüsusiyyətləridir. Belə ki, bəşəriyyətin təkamül tarixi sosial-iqtisadi quruluşların təşəkkül tapması, tərəqqisi və onlarla bərabər mövcud iqtisadi münasibətlərin quruluş formasının başqası ilə əvəzlənməsi tarixidir. Çünki istənilən sosial-iqtisadi quruluşun spesfikliyi elə gərginlik yaratmışdır ki, həmin gərginliyi, ancaq yeni yarana bilən ictimai quruluş aradan qaldıra bilərdi. Yəni istənilən ömrünü başa vurmuş quruluşun dövriyyədən getməsi onun özü tərəfindən obyektiv olaraq formalaşdırılır. Məsələn, primitiv icma formasiyasında insanlar xırda qruplar formasında fəaliyyət göstərir və əməklərinin məhsuldarlığ çox az olur, onlar bir yerdə çalışıb, bir yerdə yaratdıqları nemətləridən istifadə edirdilər, həmin dövrdə mülkiyyətin xüsusi forması təşəkkül tapmamışdır. [9] Çünki yaradılan istehsal ünsürləri icmanın üzvlərinin hamsına aid idi. Həmin dövrdə adamların təbiətlə ikitərəfli ünsiyyəti çətinliklə yarandığına görə yaşamaq üçün zəruri olan nemətləri asanlıqla əldə edə bilmirdilər. Ancaq quldarlıq, feodalizm və kapitalizm quruluşunda təbiətlə münasibətlər nisbətən yüngülləşsə də, həmin quruluş formalarının təşəkkülü ilə yeni gərginliklər də obyektiv olaraq yaranırdı. Belə ki, istehsal münasibətlərində meydana çıxan yeniliklər, ilkin olaraq, mülkiyyət formalarının yeniləşməsi ilə bağlıdır ki, bu da fərdlər və qruplar arasında yaradılan sərvətin paylanması qanunauyğunluqlarında təməl keyfiyyət yenilikləri yarada bildi. Ümumiyyətlə, bu prosesdə istənilən ictimai-iqtisadi formasiyada istehsal edilən nemətlərin mənimsənilməsi, paylanması, tədavülü və istifadəsi üsulları müəyyənləşdirilir. [8]

Deməli, hər bir inkişaf dövrünün bərqərar olma müddəti, eyni vaxtda, əvvəlki mərhələnin gücünün təsirinin nisbətən geriyə çəkilməsidir. Məhdudlaşma dərəcəsinin yüksəlməsi isə, daima mütəşəkkil mərhələnin bərqərar olması və tərəqqisini zərurətə çevirən şərtlərdəndir. Məhz bu zərurətdən də əvvəlki tarixi mərhələdən daha mütəşəkkil tarixi mərhələyə transformasiyası prosesində mövcud olan transformasiya iqtisadiyyatına keçid prosesi, nəticə etibarı ilə iqtisadiyyatın tədrici inkişafında özünəməxsus bir vəziyyətdir. Transformasiya olunan iqtisadiyyat, elə bil ki, ictimai inkişafın "Aralıq" halını, çevriliş mərhələsini, siyasi, sosial və iqtisadi yeniləşmə mərhələsinin mahiyyətini ifadə etdirir. Transformasiya olunan iqtisadiyyatın spesfik xüsusiyyətləri də, bu ehtiyacdan meydana çıxır və bu şərtlər, onu, bu və ya digər mərhələnin «sadə» iqtisadiyyatından ciddi qaydada fərqləndiyini əks etdirir. [7]

İqtisadçılar tədrici inkişafın bu cür "dövrilik" xüsusiyyətini, əsasən, qeyd-şərtsiz bəlli olan bir cəhət kimi dəyərləndirirlər, beləki hər bir pillənin tarixi "hadisə" ilə bağlıdır, onun məhdudlaşma dövrünü nəzərdə tuturlar. İqtisadi fikir tarixində inkişafın mərhələli xarakteri barədə dəyərli fərziyyələr söylənilmişdir. Bu yanaşmadan, ərəb iqtisadi fikir tarixinin tanınmış nümyəndəsi İbin Xəldunun irəli sürdüyü fikirlər maraq yaradır. O, sosial inkişafın yüksəlmə və məhdudlaşma pillələrinin fərqləndirilməsində mərhələlərin sıra ilə birinin digərini əvəzləməsi barədə dəyərli fikirlər söyləmişdir.

O qeyd edirdi ki, nəsillərin fəaliyyət göstərdiyi mühit, nemətlərin yaradılmas ünsürlərindən asılı olaraq fərqlidir. Bu səbəbdən də, fərqli coğrafi şəraitdə fəaliyyət göstərən cəmiyyət üzvləri yaşam üsulunun keyfiyyət cəhətlərinə görə fərqli rifaha sahib olacaqlar. Bəşəriyyətin tarixi tərəqqisi nemətlərin yaradılmasından, mənimsənilməsindən və istifadəsindən ayrılmaz formada asılıdr.

O, "sosial fizika" termininindən istifadə etməklə, "sosial yeniləşmələr" fərziyyəsinin təməlini yaratmışdır. Onun düşüncələrinə əcasən, cəmiyyət üzvüləri birinci olaraq, vəhşi formada fəaliyyət göstəriblər. Onlar, uzun təkamül yolu keçərək, təbiətdən kənarlaşmış, ictimai mövcudluq hüququnu qazanmış və tərəqqinin iki pilləsindən adlamışlar. İlki "bilava", sonrakı isə "xilava"dır. "Bilava" pilləsində sosial varlıqlar, əsasən, maldarlıq və əkinçiliyi, "xilava" pilləsində isə qeyd olunan fəaliyyət sahələri ilə bərabər, ticarət, sənətkarlıq, incəsənət və elm sahələrində də fəaliyyət göstərmişlər.

Bəşər cəmiyyətinin fəaliyyəti barədə İbn Xəldunun elmi müddəalarına müasir dövrdə də maraq göstərilir və araşdırmalarda istifadə edilir. O insanların davranış üsulları, dövlətin səmərəli idarə edilməsi üçün öz dəyərliliyini qoruyur [2, s.144].

Fransalı utopik sosializim cərəyanının tanınmış nümayəndəsi Şarl Furye tarixi dörd mərhələni bir-birindən fərqləndirir: körpəlik, böyümə, geriləmə və taqətsizləşmə. Yəni Ş.Furye bəşər cəmiyyətinin tərəqqisinin tarixi prinsiplərini təsvir etməyə calışmışdır. İnsanlığın yaranmasından gələcək ahəngdar inkişaf cəmiyyətində formalaşacaq tarixi Ş.Furye aşağıdakı qaydada təsvir etmişdir [10, s.15].

| | |
|---|---|
| Nemətlərin istehsalında əvvəlki fəaliyyət dövrləri | 1. Cənnət hesab edilən dövr<br>2. Fəaliyyətsizlik və ya vəhşilik |
| İstehsalın yayğın, aldadıcı, çirkin dövrləri | 3. Kiçik istehsal, patriarxallıq<br>4. Orta istehsal, barbarlıq |
| İstehsalın cazibədar, sosiyetar, həqiqi dövrləri | 5. İri istehsal, sivilizasiya<br>6. Yarım assosiasiya, qarantizm<br>7. Sadə assosiasiya, sosiantizm<br>8. Mürəkkəb assosiasiya, harmonizm |

Sivilizasiya mərhələsi tərkibində Ş.Furye dörd dövrün birini digərindən fərqli qiymətləndirmişdir. İlk iki dövr, məzmun baxımından quldarlıq və feodal sistemindən, üçüncü dövr isə Ş.Furyenin yaşadığı dövrü əks etdirən sərbəst rəqabət mühitindən ibarət idi.

Tədqiqatlar sübut edir ki, Ş.Furye təkcə ümumi formada bəşər cəmiyyətinin tərəqqisinin təməl pillələrinin birini diğərindən fərqli araşdırmış, eyni zamanda, onları, yəni bu pillələrin hər birinin vəziyyətini mövcud istehsalın səviyyəsi ilə uzlaşdırmışdır. Bu səbəbdən də, Ş,Furye K.Marksın irəli sürdüyü cəmiyyət inişafının ictimai-iqtisadi formasiya yanaşmasına mühit yaradırdı. F.Engels yazırdı ki, cəmiyyət tarixinin başa düşülməsində Furyenin əzəməti daha aydın şəkildə özünü göstərirdi [1, s. 377].

Transformasiya olunan iqtisadiyyata yüksək dərk etmə istiqamətindən münasibət bildirsək, belə düşünmək olar ki, o iqtisadiyyatın tədrici inkişafının spesifik keyfiyyət sahəsi olub, cəmiyyətin bir mərhələdən digərinə transformasiyası dövründə fəaliyyətdə olur. O, iqtisadiyyatın fasiləsiz tərəqqisindən imtina edərək inkişafın aralıq halını özündə ehtiva edir. Sonda belə qənatə gəlmək olar ki, trasformasiya olunan iqtisadiyyat bir iqtisadi istehsal üsulundan digərinə dəyişməsini əhatə edən mərhələdir.

Transformasiya olunan iqtisadiyyatın xarakterini və məzmununu, yalnız fəaliyyətdə olan istehsalın ictimai təşkili formalarının üsullarını, eyni zamanda iqtisadi siyasətin perspektivlərini yeniləşdirərək mükəmməlləşdirilməsi ilə məhdudlaşdırmaq olmaz. Ziddiyyətli və mürəkkəb, həm də xeyli uzun bir tarixi müddəti əks edən bu dövr, birinci sırada sosial-iqtisadi əlaqələi ehtiva edən ictimai münasibətlərin bütövlükdə yenidən formalaşdırılması ilə bağlıdır. [5]

Onu da yaddan çıxarmaq olmaz ki, sosial tərəqqinin tədrici inkişafının istənilən mərhələsində transformasiya olunan iqtisadiyyatın əlamətləri barədə fikir yürütmək olar. Bu əlamətlərdən asılı olmayaraq (bazar, ənənəvi, perspektivli iqtisadiyyat) transformasion iqtisadiyyatın təkamülünün gələcək vəziyyəti daha incə və mürəkkəb əlamətlərə diqqət yetirməyi tələb edir.

Nəhayət deyə bilərik ki, prosesdə vacib olan xüsusiyyət transformasiya iqtisadiyyatının özünün yeniliyidir. Transformasiya iqtisadiyyatı ziddiyyətli mühitin tələb etdiyi mürəkkəb zəruri yeniliklərin gerçəkləşdirilməsi ilə xarakterizə olunur. [4]

Kapitalizmdən sosializmə, bazar iqtisadiyyatından mərkəzləşdirilmiş idarəetmə sisteminə xüsusi keçid dövrünün zəruriliyi ideyası, ilk dəfə K.Marks və F.Engelsin "Kommunist partiyasının manifesti" əsərində irəli sürülmüş, sonra K.Marks "Qota proqramının tənqidi" əsərində konkret fikirlər formalaşdırmışdır. V.İ.Leninin "Proletariat diktaturası epoxasında iqtisadiyyat və siyasət" (1919) və N.İ.Buxarinin "Keçid dövrü iqtisadiyyatı" əsərlərində, bu ideya daha da inkişaf etdirilmişdir. O zamanın keçid dövrü nəzəriyyəsi, onun əksi olan prosesin – mərkəzləşdirilmiş idarəetmədən bazar iqtisadiyyatına keçid prosesinin nəzəri mənbəyi ola bilməzdir.

Ümumiyyətlə götürdükdə iqtisadi nəzəriyyə elminin formalaşmasının tarixi çox qədimlərə gedib çıxır. Hələ, Ksenofon və Aristotel (b.e.ə. 384-322) ev təsərrüfatının idarə edilməsi elmini

araşdırarkən “iqtisadiyyat” anlayışından istifadə etmişdilər. 1615-ci ildə fransız Antuan Monkretye “Siyasi-iqtisadın traktları” əsərini çap etdirmişdir. Həmin əsərdə siyasi iqtisada milli dövlətçilik çərçivəsində təsərrüfat fəaliyyətinin idarə olunması qaydalarını öyrənən elm kimi baxılmışdır. XIX əsrin 70-ci illərinə qədər marjinalist K.Menger, D.Klark, L.Valras və başqaları “siyasi iqtisad” anlayışından istifadə etməklə, “iqtisadi nəzəriyyə” anlayışından daha çox istifadə etmişlər. XX əsrin ikinci yarsından “siyasi iqtisad” yerini “ekonomiks”ə verdi (A.Marşal, 1890, P.Samuelson, 1948). Siyasi iqtisad iqtisadi hadisə və proseslərin baş verməsinin səbəb-nəticə əlaqələrinin mahiyyətini öyrənirdisə, iqtisadi nəzəriyyə iqtisadi kateqoriylar arasındakı funksional əlaqəni öyrənir.

Kapitalizm və sosializm kimi iki iqtisadi sistemin 1917-ci ildən sonra faktiki mövcud olması, əsrin 60-cı illərindən dünya müstəmləkəçiliyinin sürətlə dağılması nəticəsində inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının müstəqilləşməsinin mahiyyətinin intensiv təhlilinin xüsusiləşməsi iqtisadi nəzəriyyə elmi daxilində komparativistikanın (Z.Mizes, 1928), yəni sahə iqtisadiyyatı elminin meydana çıxmasına səbəb olmuşdur. Onun predmetini iqtisadi sistemlərin müqayisəli təhlili təşkil edir.

XX əsrin 70-ci illərindən sənayeləşmənin daha da dərinləşməsi, istehsal güclərinin inkişafının inqilabi sıçrayışı komparativistikanın daxilində yeni bir elmin – tranzitologiyanın, iqtisadi transformasiya nəzəriyyəsinin formalaşmasına gətirib çıxarmışdır. Onun meydana çıxmasına səbəb son dövrlərdə transformasiya proseslərinin sürətlənməsi olmuşdur. O öz başlanğıcını N.D.Kondratyevin “konyukturanın uzun dalğaları” nəzəriyyəsindən götürmüşdür. Tranzitologiya proseslərinin mahiyyəti E.Soto tərəfindən inkişaf etmiş bir ölkə miqyasında öyrənilmişdir. Tranzitologiyanın predmetini ümumi sivilizasiya problemlərinin keyfiyyət dəyişməsi, təsərrüfat sistemlərinin transformasiyasının öyrənilməsi təşkil edir. Hazırda beynəlxalq aləmdə müxtəlif ölkələrdə baş verən keçid dövrünün iqtisadi problemlərini öyrənən tranzitologiya cəmiyyəti yaradılıb. [9]




**Sxem 1**. Ictimai tərəqqinin təkamül mərhələləri

XX əsrin 80-ci illərindən başlayaraq, keçmiş sosializm sistemini sarsıntılı böhranlar bürüdü, ziddiyyətlər dərinləşdi. Bu zaman, iqtisadi nəzəriyyənin yeni bir bölməsi – keçid iqtisadiyyatı nəzəriyyəsi – mərkəzləşdirilmiş idarəetmədən bazar təsərrüfatına keçid nəzəriyyəsi meydana çıxdı.

Bu ictimai inkişafın tədricilik nəzəriyyəsi ictimai tərəqqinin mərhələli səciyyəli cəhətlərinə əsaslanır. İqtisadçı A.Nouv bunu aşağıdakı səbəblərlə əlaqələndirir:

1. Ümumi bərabərlik nəzəriyyəsi vaxt amilini nəzərə almadığı üçün hadisələrin gedişini təhlil etmək mümkün olmur: Məsələn, investisiyaların aktivləşməsi ümumi bərabərliyi pozur.
2. Riyazi modelləşdirmədə real faktlardan təsadüf halda istifadə olunur.
3. Ümumi bərabərlik nəzəriyyəsinin natamamlığı məhsulun keyfiyyətini nəzərə almır, fərdilik metodologiyasına əsaslanır.

Nəhayət, klassik və müasir iqtisadi nəzəriyyələrdə də bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın tərəqqisinin zənginliyinin prinsiplərinin sabitlilik və müvazinətlik halının səbəb-nəticə uzlaşmalarının fəal gedişi tərəqqisinin dinamikasına diqqət yetirilməklə öyrənilir. [3]

**Nəticə**

Söylənilənlər iqtisadi nəzəriyyənin müasir çağrışları uyğun cavablandıran ideya və anlayışlar dəstinin müəyyənləşdirilib, formalaşdırılmasını zərurətə çevirir ki, o öz növbəsində meydana çıxan gərginliklərin aradan qaldırılması mexanizmlərini müəyyənləşdirməyə mühit yaratsın. Qeyd olunanlar, heç də deməyə əsas vermir ki, marksizm nəzəriyyəsinin sıradan çıxması fikri söylənilsin. Bu, təkamüllü tərəqqinin müasir pilləsi – informasiya cəmiyyətinə qovuşmağa cəhd göstərən məmləkətlərin məhsul yaradan amillərinin xüsusiləşməsi ilə şərtlənən müasir mədəniyyət səviyyəsinin ümumi inkişafı ilə əlaqədardır. [6]

XX əsrin sonlarında və XXI əsrin əvvəllərində sosializm düşərgəsi ölkələrində mənimsəmənin xüsusiləşməsi, mülkiyyətin dövlətsizləşdirilməsi, gəlirlərin paylanması prosesindəki yeniliklər ümumi mədəni xarakterə malik olduğu üçün nə marksizmin formalaşdırdığı siyasi iqtisad, nə də Qərbin yaratmış olduğu iqtisadi baxışlar miqyasında əsaslı, inamlı və əhatəli istinadın mütləq mükəmməlliyini, hələki əldə edə bilməmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Anikin A.B. Elmin gəncliyi. Marksa qədərki iqtisadçı mütəfəkkirlərin həyatı və ideyaları. Bakı: Gənclik, 1987, 416 s.
2. Həsənov A. İbin Xəldunun iqtisadi nəzəri fikirləri. // İqtisad elmləri: nəzəriyyə və praktika. Azərbaycan Dövlət İqtisad Universiteti. 1994, № 2-3, s. 143-156.
3. Hüseynov F.İ., İqtisadi nəzəriyyənin əsas prinsipləri. Bakı: Gənclik, 2015, 324 s.
4. Hüseynov T. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı: Elm, 2015, 460 s.
5. Kərimli İ. İqtisad elmi: aktual problemlər və real yanaşmalar. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2013, 504 s.
6. Qasımlı V. İqtisadi modernizasiya (monoqrafiya). Azərbaycan Respublikasının Prezidenti yanında strateji araşdırmalar mərkəzi. Bakı, 2014, 312 s.
7. Rzayeva Ş.M., Əliyeva L.Z. İqtisadi fikir tarixi. Dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2018, 388 s.
8. Сидоров В.А. Экономическая теория: учебник для вузов. [Электронный ресурс]: электронное учебное издание. / В.А.Сидоров [Электрон. дан. (12 Мб)]. – Майкоп: ООО «ЭлИТ», 2014. - 1 электрон. опт. диск (CD-ROM); 12 см.
9. Экономическая теория: учебник для вузов / Е. Н. Лобачева [и др.]; под редакцией Е. Н. Лобачевой. - 4-е изд., перераб. и доп. – М.: Юрайт, 2019. - 501 с.
10. Фурье Ш. Избранные сочинения. III том. М.: Изд-во АН СССР, 1954, с. 15.

## MAIN CHARACTERISTICS OF THE PERIODICITY OF GRADUAL PROGRESS OF THE ECONOMY

**G.Shafagatov**
Mingachevir State University

***Abstract:*** *The article examines the stages of economic development, their compatibility and various aspects, assesses the current state of general civilizational progress caused by the individualization of the productive forces of countries that have entered a new stage of evolution - the information society. The result determined using modern methods and techniques is reflected.*

***Keywords:*** *economic progress, theory of evolution, brutal violence, revolutions, reforms, evolutionary path*

## ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ ПЕРИОДИЧНОСТИ ПОСТЕПЕННОГО ПРОГРЕССА ЭКОНОМИКИ

**Г.М.Шафагатов**
Мингячевирский государственный университет

***Резюме:*** *В статье рассматриваются этапы экономического развития, их совместимость и различные аспекты, оценивается современное состояние общецивилизационного прогресса, обусловленного индивидуализацией производительных сил стран, вступивших в новый этап эволюции - информационное общество. Отражается результат, определенный с помощью современных методов и методик.*

***Ключевые слова:*** *экономический прогресс, теория эволюции, жесткое насилие, революции, реформы, эволюционный путь*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 16.02.2024**
**Çapa qəbul edilib: 23.02.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

UOT 336; 336.11

# KORPORASİYALARDA MALİYYƏ ANLAYIŞI VƏ MALİYYƏ SİSTEMİ

**Mehriban Allahverən qızı Kərimova**
Mingəçevir Dövlət Universiteti
mehriban.karimova@mdu.edu.az

***Xülasə:*** *Maliyyənin pulla əlaqəsi inkar edilməzdir. Maliyyənin mahiyyəti pul fondlarının formalaşması və istifadəsinin idarə edilməsidir. Maliyyə – müəyyən zaman müddətində makroiqtisadi tənzimlənməni həyata keçirmək və ictimai, fərdi, korporativ məqsədləri reallaşdırmaq üçün pul fondlarının yaradılması və istifadəsini əhatə edən iqtisadi münasibətlər sisteminin məcmusudur. Maliyyə nəzəriyyəsinin uzunmüddətli dövrü ərzində öyrənilən, tədqiq edilən sahələrindən biri də dövlət maliyyə sistemi olub. Korporativ maliyyə nəzəriyyələrinin təşəkkül və inkişaf tarixi XX əsrdən başlayır. Bu nəzəriyyələr korporativ maliyyə menecmentinin əsaslandığı fundamental nəzəri bazis hesab edilir. Maliyyə nəzəriyyələri də normativ maliyyə menecerlərinə "nə etməli" olduqlarını söyləyən və pozitiv – korporasiyanın maliyyə fəaliyyətini təsvir və izah edən nəzəriyyələrə bölünür.*

*Məlumdur ki, pul fondlarının formalaşma və istifadəsinin idarə edilməsi fərdi və koperativ maraqları gerçəkləşdirir. Maliyyə sistemi – maliyyə bağlaşmaları, risklər və aktivlər mübadiləsini reallaşdırmaq üçün istifadə edilən institutların məcmusudur. Maliyyə sisteminin tənzimlənməsi, istənilən ictimai əhəmiyyətli fəaliyyət müəyyən çeşid qaydalar və təlimatların tələblərinin gözlənilməsi ilə məhdudlaşır. Sahibkarlıq fəaliyyəti sferası kimi maliyyə sistemi də Konstitusiya normalarının, məcəllələrin, qanunların və başqa normativ hüquqi aktların çəkdiyi hüquqi xətlər çərçivəsində fəaliyyət göstərir. Vergi Məcəlləsi, "Büdcə sistemi haqqında" Qanun, "Bələdiyyə maliyyəsinin əsasları haqqında" Qanun və s. bu kimi hüquqi sənədlər dövlət maliyyə sisteminin də, bütövlükdə maliyyə sisteminin də hüquqi əsaslar üzərində fəaliyyət göstərməsində müstəsna əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *maliyyə, maliyyə sistemi, bank, kredit, korporasiya, sahibkar, maliyyə bazarı*

## Giriş

Sahibkarlıq sistemenində maliyyəni özül daşı, yaxud təməli adlandırsaq, böyük ehtimalla yanılmarıq. Maliyyə nədir? Gündəlik həyatımızda biz maliyyə haqqında çoxsaylı şərhlərlə qarşılaşırıq. Doğrudur, maliyyənin pulla əlaqəsi inkar edilməzdir. Ancaq bizə iqtisadi nəzəriyyədən bəllidir ki, dəyər ölçüsü, yığım və mübadilə vasitəsi funksiyasına malik olan pul "başqalarından müntəzəm olaraq, məhsul və xidmət əldə etmək üçün fərdlərin istifadə etdikləri aktivlərin məcmusudur". Bankdan kredit alan biznesmen də bu vasitələri aktiv kimi istifadə edir və bu vasitələr hesabına yeni avadanlıq, xammal, material və s. alır. Ancaq biznesmenin vəsait əldə etməsi prosesinin mahiyyəti bu aktivlərin mahiyyəti ilə eyni deyil.

Bilirik ki, emissiya Mərkəzi Bankın ixtiyarında olsa da, ümumiyyətlə, banklarda pul "istehsal" edilmir. Bank biznesmenə kredit-pul vermək üçün öncə bu vəsitləri necə öz bankına yönlətmək üçün yollar düşünməlidir. Yəni, pullar depozit şəklində bankda yığılmalıdır, ondan sonra kreditə yönəldilməlidir. Əlbəttə ki, pullar "özbaşına" yığılmır və "özbaşına" hansısa biznesmenin cibinə daxil olmur. Pulların yığılması, pul fondlarının yaradılması və pulların bu fondlardan müxtəlif ünvanlara getməsi – pul fondlarının istifadəsi, mahiyyətcə, idarəetmədir. Maliyyənin mahiyyəti pul fondlarının formalaşması və istifadəsinin idarə edilməsidir. Müəyyən nöqsanlı və nöqsansız şərhlərdə də maliyyə anlayışı belə xarakterizə edilir. Məsələn, V.V.Kovalyova görə, "maliyyə təsərrüfat subyektləri və dövlətin pul vəsaitləri fondlarının yaradılması və bu fondların geniş təkrar istehsal, stimullaşdırma və cəmiyyətin sosial ehtiyaclarının ödənilməsi məqsədi ilə istifadəsi prosesində yaranan pul münasibətləridir". Kovalyovun və başqa Rusiya iqtisadçılarının, məsələn, "maliyyəni – ictimai təkrar istehsal prosesinin hər bir mərhələsində pul dövriyyəsinin

yardımı ilə həyata keçirilən iqtisadi münasibətlərin mahiyyəti" kimi xarakterizə edən Şoxinin izahlarını bir qədər sadələşdirsək, maliyyəni pul fondlarının yaradılması və istifadəsi prosesində yaranan münasibətlər kimi dəyərləndirmək olar [5].

Maliyyə anlayışının aydınlaşmasında Z.Bodi və K.Mertonun istinadı da gərəkli olardı və başqa bir bucaqdan nəzər yetirsək, bu iki məşhur alimlərin maliyyə nəzəriyyəsini – "müəyyən zaman müddətində məhdud pul resurslarının toplanması və xərclənməsinin idarə edilməsi haqqında elm" kimi xarakterizə etdiklərinə diqqət yetirməliyik. Bu şərhə istinadla fikir yürüdərək deyərik ki, maliyyə müəyyən zaman müddətində pul fondlarının yaradılması və istifadəsinin idarə edilməsidir.

Beləliklə, biz maliyəyə qısa bir tərif verə bilərik. Maliyyə – müəyyən zaman müddətində makroiqtisadi tənzimlənməni həyata keçirmək və ictimai, fərdi, korporativ məqsədləri reallaşdırmaq üçün pul fondlarının yaradılması və istifadəsini əhatə edən iqtisadi münasibətlər sisteminin məcmusudur.

**Korporaiv maliyyə nəzəriyyələri**

Elmi ədəbiyyatlara görə məaliyyənin öz tarixi kimi maliyyə nəzəriyyəsinin də tarixi çox uzaq zamanlardan başlayır. Maliyyə nəzəriyyəsinin uzunmüddətli dövrü ərzində öyrənilən, tədqiq edilən dövlət maliyyə sistemi olub. Ksenofantın "Afina politiyası" əsərində yalnız dövlət maliyyə sistemi haqqında baxışlar əksini tapırdı. Orta əsr maliyyə nəzəriyyəsi tarixindəki tədqiqatlar – Foma Akvinskinin, C.Lokkin, Tomas Menin, sonralar isə D.Yim, U.Petti və s. tədqiqatları da dövlət maliyyəsinin problemlərini araşdırmağa yönəlmişdi. Klassik siyasi iqtisadda artıq təkcə dövlət maliyyəsinin deyil, həm də sahibkarlıq sferasının maliyyə problemləri də araşdırılırdı və A.Smit faiz üzrə verilən vəsaiti – kapitalı "borc verənin borcluya illik faiz adlanan məbləği ödəmək razılaşdırılmış müddətin sonunda borcu ödəmək şərti ilə təxsisatı" adlandırırdı. C.St.Millin kapitalın mahiyyəti ilə bağlı yanaşmaları da sahibkarlıq sferasının maliyyə problemlərinin ilk tədqiqi nümunələrindən biri hesab edilə bilər və "hər bir yığımı bu günkü qazancların gələcək qazanclar naminə qurban verilməsi" hesab edən Mill həm də mənfəətlə yığım – investisiyalar arasında əlaqələrə də toxunurdu. "Mənfəət nə qədər yüksəkdirsə kapital yığımına motiv də bir o qədər güclü olur" [4].

Ancaq nə qədim, nə orta əsrlər iqtisadi fikrində "mikromaliyyə problemləri"nin, o cümlədən korporativ maliyyənin ətraflı nəzəri tədqiqi aparılmamışdı. Korporativ maliyyə nəzəriyyələrinin təşəkkül və inkişaf tarixi XX əsrdən başlayır. Bu nəzəriyyələr korporativ maliyyə menecmentinin əsaslandığı fundamental nəzəri bazisi sayılır, elə bu baxımdan korporativ maliyyə nəzəriyyələrinin qısaca izahı vacibdir. İqtisadiyyatın fəaliyyətinin elmi izahında iki yanaşma: normativ və pozitiv yanaşma mövcuddur. Normativ nəzəriyyə iqtisadi fəaliyyət üçün reseptlər təklif edir. Pozitiv nəzəriyyə isə iqtisadi fəaliyyəti izah etməyə yönəlir. Maliyyə nəzəriyyələri də normativ maliyyə menecerlərinə "nə etməli" olduqlarını söyləyən və pozitiv – korporasiyanın maliyyə fəaliyyətini təsvir və izah edən nəzəriyyələrə bölünür. İdeal kapital bazarı konsepsiyasını biz normativ yanaşma nümunələrindən hesab edə bilərik və bu konsepsiya haqqında məlumat verən Briqxem göstərir ki, "Çox vaxt maliyyə nəzəriyyəsi firma və fərdlərin özlərini necə aparmalı olduqları barədə hansısa ideyadan başlayır". Yəni firma bu nəzəriyyənin tələbinə uyğun hərəkət etsə, effektiv nəticələr alınar [4].

Maliyyə menecmenti qərarlarının qəbulunda əsaslı nəzəri bazis hesab edilən nəzəriyyələrdən biri də diskontlaşdırılmış pul axınlarının təhlilidir. Bilirik ki, korporasiya səhm buraxılışından, kreditlərdən vəsait – maliyyə aktivi əldə edir və sonra bu aktivlərdən, o cümlədən korporasiyanın digər aktivlərindən, məsələn, əsas fondlarından istifadə olunur. Aktivlərdən istifadə də, öz növbəsində korporasiyaya pul vəsaitləri axınını vəd edir. Məsələn, "Bakı Şərab" SC-i aktivlərdən istifadə ilə spirtli içki istehsal edir və bazara çıxarır. Məhsul satılır və satışdan əldə edilən gəlirlər SC-nə çatır. Məlumdur ki, aktivlərin istifadəsi anında vəsait həmən hesaba mədaxil olmur və bu səbəbdən həmin vəsaitləri gələcək pul axınları adlandırırlar. Diskontlaşdırılmış pul axınları (DPA) konsepsiyası C.B.Uilyams tərəfindən işlənilib və Mayron Qorqan bu metodun korporativ maliyyə menecmentində istifadəsinə tətbiq edib.

Nəzəriyyə pulların zaman dəyərinə əsaslanır. İqtisadi nəzəriyyədən öyrənmişik ki, bugünkü dollar 1 il sonra malik olacağımız dollardan bahadır. Yəni bizim 100 manat pulumuz varsa, bu pulu hər hansı bir işə sərf edə bilməsək də, ən azı banka 1 illik depozitə yatıra bilərik. Bankdan isə 1 il sonra ən azı 110 manat ala bilərik. Pulların zaman dəyəri bu yanaşmaya, yəni bir il sonrakı 110 manatın indiki 100 manata bərabər olması məntiqinə əsaslanır. Korporativ maliyyə menecmenti üçün əsaslı nəzəri dayaqlardan biri də kapitalın strukturu nəzəriyyəsidir. Siz korporasiyanın maliyyə meneceri kimi fəaliyyət göstərsəniz, sizi düşündürən məsələlərdən biri də lazım olan kapital vəsaitlərini əldə etmək yolları olacaq. Maliyyə menecerlərinin bu problemini Franko Modilyani və Merton Miller nəzəri cəhətdən ətraflı araşdırıblar və kapital strukturu adlanan nəzəriyyə bu problemin həllinə cavab verir. Modilyani və Millerin 1958-ci ildə gəldikləri qənaət belə oldu ki, hər bir korporasiyanın dəyəri yalnız gələcək gəlirlərlə müəyyənləşir və kapitalın strukturundan asılı deyil [6]. Modilyani-Millerin bu tədqiqatının digər iqtisadçılar tərəfindən inkişafında kapitalın strukturu ilə bağlı yanaşmalar bir qədər də dəqiqləşdirildi və optimal struktur üçün aşağıdakı şərtlər müəyyənləşdirildi:

- borc kapitalından qismən istifadə effektivdir;
- həddən ziyadə borc kapitalından istifadə zərərlidir;
- korporasiya üçün borc kapitalının optimal payı fərqlidir.

Miller və Modilyaninin korporativ maliyyə menecmentində əhəmiyyətli hesab edilən digər tədqiqatı dvidend siyasətinin səhmlərin kursuna təsiri ilə bağlıdır.

Dividend ödənişləri siyasəti və ya dvidend nəzəriyyəsi təkcə ideal kapital bazarı şərtlərinə deyil, başqa şərtlərə də firmanın dividend siyasətinin investisiya qoyulyşları büdcəsinə təsir etmədiyi və bütün investorların davranışının rasional olduğu şərtlərinə də əsaslanırdı. Nəzəriyyəyə görə, bu şərtlər daxilində dvidend ödənişi siyasəti korporasiyanın dəyərinə təsir etmir. Sadaladığımız bu nəzəriyyələrdən əlavə portfel nəzəriyyəsi, assimmetrik informasiya nəzəriyyəsi və s. bu qəbildən olan nəzəriyyələr vardır və hər bir nəzəriyyə maliyyə münasibətlərinə öz fikirlərini bir cür ifadə etmişlər [5]. Korporasiyalarda bu nəzəriyyələrdən bəhrələnirlər. Nəzəriyyələrdən istifadənin istehsala tətbiqi sayəsində korporasiya sahibləri öz işlərini daha düzgün qurmağa, gələcəkdə daha gəlirli sahələr hesabına pul axınlarına şəraitin yaradılmasına səbəb olmuş olurlar. Menecerlər uyğun, sərfəli yollarla korporasiyaya aid olan səhmlərin dəyərini qaldırmağa cəhd edirlər. Nə olsun ki, onlar özlərinə aid olmayan pulları yox, məhz başqalarının pullarını idarə edirlər. Səbəb isə aydındır, menecerlər bununla öz imiclərini yüksəltmiş olurlar. Korporativ menecmentin məqsədlərinin reallığa çevrilməsi, həm də birbaşa idarəetmə prosesini "planlaşdırma, təşkil, rəhbərlik və nəzarəti" həyata keçirən təşkilati strukturun olmasını zəruri edir. Korporasiyalarda sahibkar olmayan menecerlərin fəaliyyət marağı fərdi sahibkarlıq subyektlərində sahibkar-menecerin fəaliyyət marağı qədər güclü olmur. Sahibkarlığın menecmentdən ayrılması və ya "nümayəndəlik problemi" korporativ menecmentin əhəmiyyətli məsələlərindən hesab edilir.

**Maliyyə axınları və maliyyə sistemi**

Yuxarıda söylədiyimiz fikirlər bizə belə düşünməyə vadar edir söyləyək ki, pul fondlarının formalaşma və istifadəsinin idarə olunması fərdi və koperativ maraqları gerçəkləşdirir. Hər bir fəaliyyətin başlanğıcında və sonunda istənilən təsərrüfat subyektinin sahibinin beynində bir sual dolaşır: Nə qədər maliyyə vəsaitimiz toplanmalıdır ki. sonda gözlədiyimiz nəticəni ala bilək, maraqlarımızı necə doğruldaq? Necə ki, banka depozitə pul yatıran təqaüdçü öz fərdi marağını sərbəst vəsaitinin etibarlı və gəlirli saxlanmasını, bankdan kredit götürən SC-i isə korporativ marağın – gəlir gətirəcək layihənin reallaşdırılmasını təmin etməyə xidmət edir. Bəllidir ki, pullar öz-özünə fondlara yığılmır, öz xoşuna istifadə olunmur. Kredit almaq istəyən biznesmen banka və ya başqa kredit təşkilatına üz tutur. Sərbəst vəsaiti olan fərd və ya müəssisə fond bazarına – qiymətli kağız almağa, banka vəsaiti depozitə yatırmağa və s. çalışır. Belə misallardan görünür ki, maliyyə qərarları formalaşmış sistemin fəaliyyəti ilə reallaşır. Həmçinin nümunələrdən aydın olur ki, kimlərsə izafi vəsaitlərə malikdir, başqaları isə bu vəsaitlərə möhtacdır. Bu əsasda maliyyə axınları – izafi pul vəsaiti olanlardan bu vəsaitə ehtiyac duyanlara istiqamətlənən axınlar baş verir.

Bu axınların baş verməsi müxtəlif yollarla, bəzən maliyyə bazarı, bəzən də banklar vasitəsilə reallaşdırıla bilir.

Maliyyə sistemi – maliyyə bağlaşmaları, risklər və aktivlər mübadiləsini reallaşdırmaq üçün istifadə edilən institutların məcmusudur. Yəni maliyyə bağlaşmalarını, məsələn, sahibkarın kredit almasını bu sistem icra edir. Bununla bərabər aktivlər mübadiləsi, məsələn, bankın malik olduğu 10 milyon manatın sahibkarın sərəncamına keçməsi baş verir və risklər mübadiləsi, məsələn, inflyasiya nəticəsində pulun dəyərsizləşməsi riskinin bankın “çiynindən” sahibkarın “çiyninə” qoyulması ilə nəticələnir. Bilirik ki, maliyyə vəsaitinə ehtiyacı olanlara vəsaitlərin çatdırılması iki yolla – maliyyə bazarları və maliyyə vasitəçiləri ilə baş verir. Maliyyə bazarları – maliyyə aktivlərinin alqı-satqısının baş verdiyi bazar, yaxud “yığım etmək arzusunda olan fərdə öz resursunu birbaşa borcalana təqdim etməyə imkan yaradan maliyyə müəssisələri məcmusu” kimi səciyyələndirilir. Bir azca sadələşdirsək, maliyyə bazarı – maliyyə aktivləri alıcı və satıcılarına bu aktivlərin birbaşa alışını-satışını reallaşdırmağa imkan yaradan mexanizmdir, yaxud da alıcı ilə satıcının görüşəcəyi məkandır.

Müxtəlif ədəbiyyatlarda maliyyə sisteminin 3 funksiyası olduğu göstərilir: bölüşdürücü, nəzarət və stimullaşdırma. Maliyyə sisteminin funksiyalarını olduqca əhatəli əks etdirən Bodi və Merton maliyyə sisteminin əsas funksiyasını maliyyə resurslarının effektiv bölgüsü sanmaqla bərabər, sistemin 6 baza funksiyasına malik olduğunu göstərirlər.

1. Məkana və zamana görə iqtisadi resursların yerdəyişməsini təşkil etmək.
2. Risklərin idarə olunması alətləri ilə təminatı.
3. Maliyyə vəsaitlərının birləşdirilməsi və ayrılması mexanizmi ilə təminatı.
4. İdarəetmə qərarlarının koordinasiyasına təsir edən qiymət informasiyaları ilə təminatına malik olmaq.
5. Ödənişlərin və klirinqin həyata keçirilməsi vasitələri ilə təminat.
6. Stimullaşdırma probleminin həlli metodları ilə təminat.

**Maliyyə sisteminin tənzimlənməsində istifadə olunan hüquqi sənədlər**

Maliyyə sisteminin tənzimlənməsi barəsində danışmazdan öncə bəllidir ki, hər bir ictimai əhəmiyyətli fəaliyyət müəyyən çeşid qaydalar və təlimatların tələblərinin gözlənilməsi ilə qərarlaşır. Azərbaycanda sahibkarlıq fəaliyyəti azaddır və bu azadlıq Konstitusiyada aydın şəkildə göstərilib. Hansısa bir iş sahəsində öz qabiliyyətini aşkar etmək istəyən şəxs qanunda qeyd olunmuş tələblərə əməl etmək şərtilə, öz şəxsi imkanlarından, bacarığından, sərbəst olaraq öz əmlakından istifadə edərək, istər fərdi qaydada, istərsə də digərləri ilə birləşərək azad sahibkarlıq fəaliyyəti ilə, qanunla qadağan olunmamiş digər məşğuliyyət növləri ilə fəaliyyət göstərmək hüququna malikdir. Ancaq sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi təkcə Konstitusiyanın “Vətəndaşla cəmiyyət arasında, vətəndaşla dövlət arasında münasibətlərin əsasını, həmçinin dövlətin özünün təşkilinin və fəaliyyətinin əsasını tənzimləyən hüquqi normalar sisteminin” müddəaları ilə tənzimlənmir [2]. Mülkü Məcəllədə bu fəaliyyət azadlığının təsbiti ilə birgə hüquq şərhi və bəzi “hüquqi sərhədləri də” çəkilir. “Sahibkarlıqla məşğul olmaq fərdin müdaxiləsiz istəyilə, öz riskini gözə almaqla, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətidir” [1]. Ancaq sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi üçün bu hüquqi sənədlər də yetərli olmur və qanunların – ən əhəmiyyətli ictimai münasibətləri tənzimləyən, birbaşa xalq və dövlətin seçkili orqanı tərəfindən xüsusi qaydada qəbul olunan, ali hüquqi qüvvəyə malik normativ aktların qəbulu lazım gəlir. Dövlətimiz sahibkarlığın inkişafını yaxşılaşdırmaq məqsədilə bir sıra onların xeyrinə qanunlar, normativ aktlar qəbul edir, güzəştlər tətbiq edir, istədiyi odur ki, onlar öz sferasını genişləndirməklə yüksək nəticələr əldə edə bilsin. Həm sahibkarın mənfəəti maksimum çoxalsın, həm də büdcə gəlirləri artırıla bilsin. Buna misal olaraq işğaldan azad olunmuş ərazilərdə çalışanların 10 il müddətinə hər cür vergidən azad olmalarını göstərə bilərik.

Ümumilikdə, bir fəaliyyət sferası hesab olunan sahibkarlıq fəaliyyəti kimi maliyyə sistemi də Konstitusiya normalarının, məcəllələrin, qanunların və başqa normativ hüquqi aktların çəkdiyi hüquqi xətlər çərçivəsində fəaliyyət göstərir. Məsələn, Nazirlər Kabinetinin 21 dekabr 2000-ci il

tarixli qərarına əsasən "Vergi ödəyicilərinə eyniləşdirmə nömrəsinin verilməsi və tətbiq edilməsi qaydası" ilə sahibkarlıq subyektlərinin hamısı vergi orqanlarında uçota alınır, VÖEN almaq üçün vergi orqanlarına qeydiyyat sənədi, ünvan və s. sənədlər təqdim etməlidirlər. Vergi orqanları xüsusi jurnalda qeydiyyat aparıb, onlara VÖEN verməlidirlər" [3].

Konstitusiya maliyyə sisteminin hüquqi əsasını yaradır və Konstitusiyada ölkənin milli valyutasının manat olması öz əksini tapıb. Tədavülə pul nişanlarının buraxılması və tədavüldən korlanmış pulların çıxarılması Mərkəzi Banka aidiyyatı olan bir prosesdir, həmçinin ödəniş vasitəsi olaraq ölkəmizin hüdudlarında təkcə manatdan istifadə oluna bilər. Bu maddədən aydındır ki, səhm buraxılışını, yerləşdirilməsini həyata keçirən Səhmdar Cəmiyyətinə bəllidir ki, Bakı Fond Birjasından SC-nə tərəf dollar deyil, manat axacaq. Maliyyə sisteminin hüquqi tənzimlənməsində məcəllələr, qanunlar, qanun qüvvəli aktlar da önəmli yer tutur. Misal üçün, Mülki Məcəllə Qiymətli Kağızlar Bazarının hüquqi şərhini verir, bazarın fəaliyyətinin ümumi prinsiplərini müəyyənləşdirir. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 2000-ci il 9 fevral tarixdə qəbul etdiyi əsasnamə "Qiymətli kağızlarla alqı-satqı əqdlərinin qiymətli kağızlar bazarının peşəkar iştirakçıları vasitəsi ilə bağlanma və qeydiyyatı qaydaları haqqında əsasnamə" hüquqi tənzimlənmənin daha konkret detallarını müəyyən edir.

Sadaladığımız belə nümunələr maliyyə sisteminin fəaliyyətinin hüquqi tənzimlənməsi haqqında geniş məzmunda müəyyən təsəvvürlər yaradır, o cümlədən maliyyə sisteminin hüquqi tənzimlənməsinə əsas yaradan başqa sənədlərin də olması labüddür. Vergi Məcəlləsi, "Büdcə sistemi haqqında" Qanun, "Bələdiyyə maliyyəsinin əsasları haqqında" Qanun və s. buna oxşar sair hüquqi sənədlər dövlət maliyyə sisteminin də, bütövlükdə maliyyə sisteminin də hüquqi əsaslar üzərində fəaliyyət göstərməsində rolunun əvəzsis olması danılmaz faktdır. Necə deyərlər, "müvəffəqiyyətli dövlət siyasəti əhəmiyyətli dərəcədə dövlətin maliyyə məsələlərinə zəruri müdaxiləsinin düzgün müəyyənləşdirilməsindən asılıdır". Bir qədər sadələşdirsək, həqiqi tənzimləmə normal fəaliyyəti məhdudlaşdırmaq sərhədlərini keçmirsə, o zaman effektivdir.

**Nəticə**

Qeyd etdiklərimiz belə düşünməyə imkan verir ki, ixtiyari bir fəaliyyət növü ilə işə başlamaq arzusunda olan təsərrüfat subyekti üçün maliyyənin olması əsas şərtdir. Çünki maliyyə iqtisadi fəaliyyətin başlanğıc və son nöqtəsidir. Bunun önəmli olması maliyyə anlayışına daha diqqətlə yanaşmağı, onu daha ciddi bir formada idarə etməyi təsərrüfat subyektlərinin diqqət mərkəzində saxlamalarını tələb edir. Düzdür, onlar bu prosesi daha çox menecerlərə tapşırırlar, əslində özləri də daha çox maliyyə məsələlərinə ciddi yanaşmalıdırlar. Səhmdarların əsas məqsədi səhmlərinin dəyərini yüksəltməkdir və bu işdə onlara menecerlər yardım edirlər. Düşünürəm ki, maliyyə bağlaşmaları, risklər və aktivlər mübadiləsini reallaşdırmağı menecerlərlə bərabər sahibkarlar və səhmdarlar da özləri bu prosesdə yaxından iştirak etmələri daha məqsədəuyğun olardı, borc kapitalından istifadəyə zərurət yaranmazdı. Öz ehtiyaclarından artıq pul vəsaitlərinə malik olaraq, maliyyə axınlarında iştirak edərək, öz artıq pul vəsaitlərini borc kapitalına ehtiyac duyanlar hərəkətini təmin edə bilərlər.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının Mülkü Məcəlləsi. Bakı: Qanun, 2005
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2004
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Qanun, 2005
4. Məmmədova E. Maliyyə. Bakı: "Kooperasiya" nəşriyyatı, 2018, 464 s.
5. Harvard Business Review, Maliyyənin əsasları. Nəşriyyat: Teas Press, 2016, 148 s.
6. B.Ataşov, N.Novruzov, E.İbrahimov, Maliyyə nəzəriyyəsi, Bakı: "Koopersiya" nəşriyyatı 2014, 648 s.

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

# CONCEPT OF FINANCE AND FINANCIAL SYSTEM IN CORPORATIONS

**M.Karimova**
Mingachevir State University

***Abstract:*** *The relationship between finance and money is undeniable. The essence of finance is the management of the formation and use of monetary funds. Finance is a system of economic relations that includes the creation and use of monetary funds to implement macroeconomic regulation and realize public, individual, and corporate goals in a certain period of time. One of the studied and researched areas of financial theory during the long period was the state financial system. The history of formation and development of corporate finance theories begins in the 20th century. These theories are considered the fundamental theoretical basis on which corporate financial management is based. Financial theories are also divided into normative ones that tell financial managers "what to do" and positive ones - theories that describe and explain the financial performance of a corporation.*

*It is known that the management of the formation and use of monetary funds realizes individual and cooperative interests. Financial system is a set of institutions used to implement financial transactions, risks and asset exchange. The regulation of the financial system, any socially important activity is limited by the expectation of the requirements of a certain set of rules and guidelines. The financial system, like the sphere of entrepreneurial activity, operates within the framework of the constitutional norms, codes, laws and other normative legal acts. The Tax Code, the Law "On the Budget System", the Law "On the Basics of Municipal Finance", etc. such legal documents are extremely important in the functioning of the state financial system and the financial system as a whole on legal bases.*

***Keywords:*** *finance, financial system, bank, credit, corporation, entrepreneur, financial market*

# КОНЦЕПЦИЯ ФИНАНСОВ И ФИНАНСОВОЙ СИСТЕМЫ В КОРПОРАЦИЯХ

**М.А.Каримова**
Мингячевирский государственный университет

***Резюме:*** *Связь между финансами и деньгами неоспорима. Суть финансов заключается в управлении формированием и использованием денежных средств. Финансы – это система экономических отношений, включающая создание и использование денежных средств для осуществления макроэкономического регулирования и реализации общественных, индивидуальных и корпоративных целей в определенный период времени. Одной из изучаемых и исследуемых областей финансовой теории на протяжении длительного периода была государственная финансовая система. История становления и развития теорий корпоративных финансов начинается в 20 веке. Эти теории считаются фундаментальной теоретической базой, на которой базируется корпоративный финансовый менеджмент. Финансовые теории также делятся на нормативные, говорящие финансовым менеджерам, «что делать», и позитивные — теории, описывающие и объясняющие финансовые показатели корпорации.*

*Известно, что управление формированием и использованием денежных средств реализует индивидуальные и коллективные интересы. Финансовая система представляет собой совокупность институтов, используемых для осуществления финансовых операций, рисков и обмена активами. Регулирование финансовой системы, любой общественно значимой деятельности ограничивается ожиданием требований определенного набора правил и ориентиров. Финансовая система, как и сфера предпринимательской деятельности, действует в рамках конституционных норм, кодексов, законов и иных*

*нормативных правовых актов. Налоговый кодекс, Закон «О бюджетной системе», Закон «Об основах муниципальных финансов» и др. такие правовые документы имеют исключительно важное значение в функционировании государственной финансовой системы и финансовой системы в целом на правовых основах .*

***Ключевые слова:*** *финансы, финансовая система, банк, кредит, корпорация, предприниматель, финансовый рынок*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 19.02.2024**
**Çapa qəbul edilib: 26.02.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

UOT 39.71.47

# AZƏRBAYCANDA ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ VƏ SOSİAL SIĞORTA SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**[1,2]Arif Qəhrəman oğlu Kələşov, [1,3]Yeganə Zakir qızı Məmmədli**
[1]Mingəçevir Dövlət Universiteti
[2]arif.kalashov@mdu.edu.az
[3]yegana.mammadli@mdu.edu.az

***Xülasə:*** *Sosial sığorta sosial təminatın tərkib hissəsi olmaqla onun formalarından biridir. Sosial sığorta – qanunla nəzərdə tutulmuş hallarda vətəndaşların itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır. Məqalədə DSMF-də sosial sığorta daxilolmaları və xərcləri statistik məlumatlar vasitəsi ilə tədqiq edilmiş, sosial sığorta sisteminin təkmilləşdirilməsi və ötən son dövrdə ölkənin sosial inkişafı istiqamətində mühüm irəliləyişlər haqqında məlumat verilmişdir.*

***Açar sözlər:*** *sosial sığorta, sosial müdafiə, sosial təminat, ehtiyac meyarı, yaşayış minimumu, sığorta ödəmələri, sosial siyasət*

## Giriş

Sosial sığorta – "Sosial sığorta haqqında" Qanunda nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş əmək haqqının, gəlirlərinin və ya əlavə xərclərinin ödənilməsinə və itirilməsinin qarşısının alınmasına yönəldilmiş sığorta növüdür. Sosial sığorta iqtisadi fəal vətəndaşların qocalıq dövründə, xəstəlik, tam və ya qismən əlillik, ailə başçısını itirmə, işsizlik vəziyyətində maddi təminat almaq konstitusiya hüququnun həyata keçirilməsini təmin etməkdən ibarət sosial müdafiə sistemidir.

Sosial sığorta sosial təminat, sosial yardım və sosial dəstək ilə birlikdə dövlət sosial müdafiə sisteminin əsasını təşkil edir ki, bu da öz növbəsində:

- bioloji, sənaye, iqtisadi və s. səbəblərdən yaranan sosial risklərin qarşısını alır və minimuma endirir;
- əhalinin maddi və sosial rifahının məqbul səviyyəsinin təmin edilməsinə yönəldilmişdir;
- ictimai sərvət kimi tanınır və müxtəlif səviyyəli büdcələrdən və sosial ayırmalar hesabına maliyyələşdirilir.

## 1. Sosial sığortanın ölkədə sosial ədalətin və sosial sabitliyin təmin olunmasında xüsusi rolu

Əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş sosial sığorta institutunun təşkili və inkişafı xalqımızın həyatında sosial ədalətin və sabitliyin təmin olunmasında xüsusi rolu olmuşdur. İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da əhalinin dayanıqlı sosial müdafiə sistemini təmin edən məcburi dövlət sosial sığorta sisteminin təkmilləşdirilməsi və inkişafı Ümummilli Liderin davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilməkdədir. Hazırda Azərbaycan dövlətinin inkişafında qarşıya qoyulan vəzifələrdə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, iqtisadi artıma və sosial inkişaf məsələlərinə xüsusi önəm verilir. Həyata keçirilən vacib sosial-iqtisadi dəyişikliklər ölkənin inkişafı naminə dövlətin sosial siyasətinin prioritet istiqamətlərinə yönəldilmişdir.

Sığorta ödəmələri aşağıdakı göstərilən sosial sığorta hadisələri baş verdikdə ödənilir:

- müvafiq qanunvericiliyə uyğun əmək pensiyaları;
- əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət;
- hamilə və uşaq dünyaya gətirən qadınlara görə müavinət;
- uşağın anadan olmasına görə birdəfəlik müavinət;
- dəfn üçün müavinət;

- sığortaolunanların sanatoriya-kurort müalicəsi üzrə xərclərinin tam və ya qismən ödənişi və s.

Xoşagəlməz sıxıntılar sosial qrupları tələblər irəli sürməyə, həmçinin onları dövlətin sosial siyasətini həyata keçirməklə müsbət nəticələrə nail olmağa şövq edir. Burada həmçinin əsas məqsəd sosial siyasətin vəziyyəti, onun ünvanlılığı və s. kimi məsələlərin də nəzərə alnması mühüm əhəmiyyət kəsb edir.

Hər bir insan öz həyat şəraitinin formalaşdırılmasına məsuliyyətlə yanaşmalı və iqtisadi prosesdə hansı formada və necə çıxış etməsinə dair qərarları özü qəbul edir. Hansı sahədə fəaliyyətindən asılı olmayaraq, qazanılan gəlirlər onun həm maddi, həm də mənəvi təlabatlarını ödəyir, ailəsinin dolanışığını təmin edir, əmək qabliyyətini bərpa edir və işçi qüvvəsinin təkrar istehsal prosesini təmin edir. Qeyd etməliyik ki, hər bir kəsin həyatında təhlükə yaradan və onun öhdəsindən təkbaşına gələ bilmədiyi vəziyyətlərlə qarşılaşa bilər.

Məlumdur ki, əhalinin əksər hissəsinin yaşamasının əsas özəyini əmək haqqı təşkil edir. Belə ki, sosial müdafiəsizliyin xüsusi növünü – qazancın əldə edilməsi imkanlarının itirilməsi nəticəsində nail olunmuş maddi rifah səviyyəsinin aşağı enməsi ehtimalı daim gözlənilədir. İnsan həyatındakı bu cür hadisələr sosial risk adlanır. Bu baxımdan dövlətin sosial müdafiə və sosial sığorta sistemi insanların bu riskdən sığortalanmasının əsasını təşkil edir. Burada vacib məsələlərdən biri sosial təminat və sosial sığorta sisteminin fəlsəfəsini düzgün müəyyən etməkdir.

**2. Sosial sığortanın digər sosial müdafiə institutlarından və ölkələr arasındakı fərqli cəhətləri**

Sosial sığorta bir sıra cəhətlərinə görə sosial müdafiənin digər qurumlarından fərqlənir. Belə ki, sosial sığortanın əsasında gələcəkdə əməkhaqqı gəlirlərinin itirilməsi ilə bağlı baş verə biləcək, yəni sağlamlığın itirilməsi, gözlənilməyən bədbəxt hadisələrlə, yaşlandıqda itirilmiş qazancın əvəz edilməsi kimi ehtiyac meyarları durur. Həmçinin sosial sığortanın mühüm istiqamətlərindən biri də onun əmək münasibətləri ilə qarşılıqlı əlaqədə olmasıdır.

Sosial riskin konkret amillərinin xarakteri, müdafiə formaları cəmiyyətin və fərdin həyat fəaliyyətinə, dövlətin həyata keçirdiyi siyasətə, məşğulluq şəraitinə, əmək bazarının inkişafına, demoqrafik vəziyyətə, əmək qabliyyətinin itirilməsinin təşkili şəraitinə və formalarına təsir göstərən amillərdən asılı olur [3]. Sosial sığortanı digər sosial müdafiə qurumlarından fərqləndirən xarakteristikalar aşağıdakılardır (şək. 1):




**Şək. 1**. https://www.geostrategiya.az/pdf/2021/0262.pdf [3]

Sosial sığortanın maliyyə ehtiyatı sığorta olunan şəxslərin həyat standartlarını, həmçinin gəlirlərinin sosial müdafiə səviyyəsini təmin etməyə imkan verir. Araşdırmalar göstərir ki, bizim ölkəmizdən fərqli olaraq, inkişaf etmiş ölkələrdə sosial yardım və pensiyaların həcmi sığorta ödəyicilərinin əldə etdikləri qazancda nəzərəcarpacaq paya malikdir. Müqayisə üçün qeyd edək ki, Azərbaycanda sosial sığorta ödəmələrinin pay bölgüsündə müəssisənin payı 22 faiz, işçinin payı isə 3 faiz təşkil edir.

Müavinət almaq hüququ ən azı 6 ay sosial sığorta stajı olan şəxslərə şamil edilir ki, buraya əmək qabiliyyətini müvəqqəti olaraq itirən şəxslər, hamilə və uşaq dünyaya gətirən qadınlar aiddir. Hər iki halda müavinətin aylıq ən yuxarı həddi yaşa görə əmək pensiyasının baza hissəsinin 25 mislindən çox ola bilməz.

Digər ölkələrə nəzər yetirsək görərik ki, məsələn Finlandiyada sosial təminatın əhəmiyyətli hissəsi qanuni sığorta ilə əhatə olunur. Bu kompleks sosial sığorta adlanır. O cümlədən əmək pensiyası, əmək xəsarəti və peşə xəstəliyindən sığorta, tibbi sığorta, işsizlərin sosial təminatı, zəmanətli pensiya və dövlət pensiyası sığorta ilə əhatə olunan sosial təminat formalarıdır.

Sosial sığorta uşağın doğulduğu zaman, qocalıq dövründə, əlillik, xəstəlik və ya işsizlik zamanı maddi təminata əsas verir, habelə ailə başçısının ölümü zamanı maddi itkiləri kompensasiya edir. Bəzi müavinətlər və ödənişlər staj tələb edir və qazanclara əsaslanır.

Bundan başqa, Finlandiyada daimi yaşayan bütün insanlar xəstəlikdən sığortalanır. Tibbi sığorta işəgötürənlər, işçilər və dövlət tərəfindən birgə maliyyələşdirilir. Tibbi sığorta sığortalılara gündəlik xəstəlik müavinəti və valideyn müavinəti, habelə həm səyahət, həm dərman, həm də özəl tibbi xidmətlər üçün kompensasiya verir. Burada bütün işçilər işsizlikdən sığortalanır. Belə ki, işsizlərin sosial müdafiəsi dövlət və işəgötürənlər və işçilər tərəfindən işsizlikdən sığorta haqları hesabına maliyyələşdirilir. Əgər işçi və ya sahibkar özünü işsizlikdən sığorta fondu vasitəsilə sığortalayıbsa, o, işsizlik zamanı qazancı ilə əlaqəli gündəlik işsizlik müavinəti almaq hüququna malikdir. Əks halda, ona əsas gündəlik işsizlik müavinəti və ya əmək bazarı müavinəti ödənilir.

Rusiyada icbari sığorta çərçivəsində fəaliyyət göstərən fondlar büdcədənkənardır, yəni onlar Rusiyanın büdcə sistemindən asılı deyillər. Sosial Sığorta Fonduna bütün ayırmalar sığortaolunan şəxslərin işlədiyi müəssisələr (sığortaçılar) tərəfindən həyata keçirilir. Vəsaitlərdə büdcə kəsiri varsa, vəsait çatışmazlığı Rusiya Federasiyasının federal büdcəsindən transfer ödənişlərinin köməyi ilə doldurulur. Sığorta haqlarının məbləğinə gəlincə, onlar işçilərin əmək haqqı, habelə digər ödənişlər və mükafatlar nəzərə alınmaqla hesablanır. Xüsusi qaydada, töhfələrin məbləğləri fərdi sahibkarlar, notariuslar və vəkillər üçün müəyyən edilir.

Rusiya Federasiyasının Əmək Məcəlləsinə uyğun olaraq, sosial sığortanın şərtləri əmək müqaviləsində mütləq əks olunmalıdır. Müqavilədə sosial sığorta haqqında bəndin olması işçiyə müvəqqəti və ya daimi əlillik halında müxtəlif müavinət və müavinətlərə hesablanmağa imkan verir. Burada iş nə qədər zərərli olsa, onun gətirdiyi xəsarət riski bir o qədər çox olduğu üçün mükafatlar da bir o qədər yüksək olacaqdır. İşəgötürən bu cür xidmətlər göstərdiyi təqdirdə, əmək müqaviləsində əlavə pensiya və ya tibbi sığorta xidmətlərinin olması da öz əksini tapır.

Bundan əlavə, sığorta ödənişlərinin səviyyəsi təkcə işçi qüvvəsinin (işçinin zəruri yaşayış vasitələrinin) təkrar istehsalını deyil, həm də işçinin ailə üzvlərini də təmin etməlidir.

Müvafiq dəyişikliklərə uyğun olaraq 2021-ci ilin aprel ayından etibarən sığorta olunmuş şəxs sığortaçı kimi uçota alınır və sosial sığorta nömrəsi əldə edir. Ancaq sosial sığorta şəhadətnaməsi tərtib edilmir. İşçilərin sosial sığorta hüquqlarını pozan hər hansı fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydaya uyğun məsuliyyətə cəlb olunur.

Sığorta sistemində tətbiq olunan yeniliklərdən biri də əmək haqqının ödənişi fonduna məcburi dövlət sosial sığorta haqqının hesablanmasından azad olunan sığrtaedənlərdə işləyən şəxslərin hesablanmış sosial sığorta ödəmələrinin (əmək pensiyaları istisna olmaqla) və hesablanmış məcburi dövlət sosial sığorta haqqının məbləğinin azadolmalar nəzərə alınmadan hesablanmalı olan məcburi dövlət sosial sığorta haqqının məbləğinə nisbətində almaq hüququ yaradır [1]. Beləliklə, dövlət sahibkarların əmək müqavilələrinin bağlanmasına və sosial sığrta ödənişlərinin şəffaflığına nail olmağa çalışır.

**3. Dövlətin sosial müdafiə və sosial sığrta sisteminin təkmilləşdirilməsində həyata keçirdiyi məqsədyönlü sosial siyasətin vacib istiqamətləri**

Dövlət proqramlarına əsasən əlillərin, işaxtaranların və işsiz vətəndaşların sosial müdafiəsi ilə bağlı tədbirlər məcburi dövlət sosial sığorta vəsaiti hesabına maliyyələşdirilir. Dövlətin sosial müdafiə və sosial sığrta sisteminin təkmilləşdirilməsində həyata keçirdiyi məqsədyönlü sosial siyasətinin vacib istiqamətlərindən biri də, əhalinin aztəminatlı, sosial müdafiəyə ehtiyacı olan hissəsinin həyat səviyyəsinin müvafiq standarlara uyğun yüksəldilməsindən ibarətdir. Dövlərin sosial təminat sistemi ilə ilk növbədə müvafiq minimal ehtiyac meyarlarında aşağı gəlirlərə malik əhali təbəqəsi əhatə olunur. Dövlət tərəfindən minimum standartlar əsasında müəyyən olunmuş ehtiyac meyarı çıxış edir. Ehtiyac meyarına hər ilin sosial iqtisadi nəticələrindən asılı olaraq yenidən baxılır və inflyasiya səviyyəsi, əhalinin həyat səviyyəsi, ölkənin sosial inkişaf siyasətinin reallaşmasına uyğunlaşdırılaraq müəyyən edilir.

Dövlətin sosial müdafiə və sosial sığorta sisteminin təkmilləşdirilməsində həyata keçirdiyi məqsədyönlü sosial siyasətinin vacib istiqamətlərindən biri də, əhalinin aztəminatlı, sosial müdafiəyə ehtiyacı olan hissəsinin həyat səviyyəsinin müvafiq standartlara uyğun yüksəldilməsindən ibarətdir [2]. Dövlətin sosial təminat sistemi ilə ilk növbədə müvafiq minimal ehtiyac meyarlarında aşağı gəlirlərə malik əhali təbəqəsi əhatə olunur. Dövlət tərəfindən minimum standartlar əsasında müəyyən olunmuş ehtiyac meyarı çıxış edir. Ehtiyac meyarına hər ilin sosial iqtisadi nəticələrindən asılı olaraq yenidən baxılır və inflyasiya səviyyəsi, əhalinin həyat səviyyəsi, ölkənin sosial inkişaf siyasətinin reallaşmasına uyğunlaşdırılaraq müəyyən edilir (Cədvəl 1).

**Cədvəl 1**

**Azərbaycanda istehlak meyarı**

| İllər | Ehtiyac meyarı |
|---|---|
| 2016 | 105 azn |
| 2017 | 116 azn |
| 2018 | 130 azn |
| 2019 | 143 azn |
| 2020 | 160 azn |
| 2021 | 170 azn |
| 2022 | 200 azn |
| 2023 | 246 azn |

**Qeyd:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.

Məlumdur ki, minimum istehlak büdcəsi müəyyən olunmuş insan tələbatlarının ödənilməsi üçün lazım olan əmtəə və xidmətlər dəstinin dəyəri ilə müəyyənləşdirilir (Cədvəl 2).

**Cədvəl 2**

**Minimum istehlak büdcəsi**

| İllər | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Yaşayış minimumu | 180 | 190 | 196 | 210 | 246 |
| Əmək qabiliyyətli əhali üçün | 193 | 201 | 207 | 220 | 261 |
| Uşaqlar üçün | 160 | 170 | 175 | 193 | 199 |
| Təqaüdçülər üçün | 149 | 157 | 162 | 176 | 220 |

**Qeyd:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir

Cədvəl 2-dən göründüyü kimi, ölkədə 2019-cu ilə nisbətən 2023-cü ildə yaşayış minimumu üzrə 1,4 dəfə, əmək qabiliyyətli əhali üzrə 1,4 dəfə, uşaqlar üzrə 1,2 dəfə, təqaüdçülər üzrə isə 1,5 dəfə artım müşahidə olunmuşdur.

Məlum olduğu kimi, dövlətin sosial siyasət və fəaliyyət sferasının əsas istiqamətlərini və tərkib hissələrini sosial təminat, səhiyyə, turizm, elm, təhsil, mədəniyyət və mənzil təminatı təşkil edir. Bu sahələrdə maddi istehsal baş verməsə də, müvafiq sahələrin maliyyələşdirilməsi maddi istehsalın inkişafına fəal təsir göstərir. Bu baxımdan da sosial-mədəni sahələrin, sosial infrastrukturun daim inkişaf etdirilməsinə dövlətin dəstək və qayğısı danılmazdır.

Ölkəmizdə formalşmış ugurlu sosial siyasət modelini əsası Ümummilli lider Heydər Əliyev tərəfindən "Sosial təminat sistemi gündən-günə yaxşılaşdırılmalıdır" sözləri ilə qoyulan mexanizmin davamı kimi səciyyələndirmək olar.

Bildiyimiz kimi, ölkəmizdə həyata keçirilən sosial siyasət əhalinin sosial xidmətlərə olan ehtiyaclarının ödənilməsinə yönəldilmişdir və bir çox sosial-mədəni tədbirlərin inkişaf etdirilməsi məqsədilə son illər dövlət büdcəsindən böyük məbləğdə vəsaitlər ayrılır. Misal üçün, 2023-cü ilin dövlət büdcəsində təhsil (≈ 4,42 mlrd. manat), səhiyyə (≈1,9 mlrd. manat), sosial müdafiə və sosial təminat (≈4,44 mlrd. manat), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sferalarına (≈ 0,56 mlrd. manat) ayrılmış xərc maddələrinin məcmu məbləği 15,82 mlrd. manat nəzərdə tutulmuşdur ki, bu da ümumilikdə dövlət büdcəsinin ≈45.7 %-ni təşkil edir [4]. Azərbaycan dövlətinin yeritdiyi sosial siyasətlə bağlı sosial ədalət prinsipindən danışarkən dövlətin gəlirlərinin maliyyə resurslarının təkcə bügünun məişət ehtiyaclarının ödənilməsinə deyil, əksinə daha uzunmüddətli sosial infrastrukturun yaradılmasına yönəldilməsi məsələsinə toxunmalıyıq.

2018-ci ilin aprelində Prezident İlham Əliyevin tapşırıqları əsasında həyata keçirilən köklü sosial islahatlar, fərman və sərəncamlara əsasən ötən 4 illik dövrdə ölkənin sosial inkişafı istiqamətində mühüm irəliləyişlər olmuşdur. Bu dövrdə ölkəmizdə minimum əməkhaqqı üzrə 2,6 dəfə, orta aylıq əməkhaqqı üzrə 40 faizə yaxın, median əməkhaqqı üzrə isə 74 faiz artım müşahidə olunmuşdur. Həmçinin minimum pensiya üzrə 2,4 dəfə, orta aylıq pensiya üzrə 65 faiz artım baş vermişdir. Həssas qruplar üzrə ödənilən müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə, bəzi qruplar üzrə 3 dəfədən çox artım baş vermişdir. Bununla da parılan islahatlar nəticəsində son 4 ildə əmək müqavilələrinin sayı 30 faiz, illik əməkhaqqı fondu 2 dəfədən çox artıb [5].

**Nəticə**

Göründüyü kimi, ölkədə əhalisinin rifahının yaxşılaşdırılması aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən birinə çevrilmişdir. Son illər ərzində tətbiq olunan sosial paketlər, dövlət başçısı tərəfindən imzalan fərman və sərəncamlar insanların sosial müdafiəsini gücləndirmək və onlara dövlətin qayğı və dəstəyini artırmaq məqsədini güdür.

Bu addımların hər biri humanizm, dövlətin öz vətəndaşına qayğısının və hörmətinin xidmət nümunəsidir. Uğurlu sosial siyasət dövlət-vətəndaş, vətəndaş-dövlət birliyinin zəruri şərtidir.

Beləliklə, sosial sığorta anlayışı, əhalini iş yerinin, əmək qabiliyyətinin və gəlirlərinin itirilməsi ilə bağlı müxtəlif növlü sosial risklərdən (dövlət, yaxud məcburi və könüllü-ictimai) sığortasının müxtəlif formalarını əhatə edir:

- Birincisi, cəmiyyətin bütün üzvünə sosial xidmətin göstərilməsinin universal prinsipi.
- İkincisi, ehtiyac səviyyəsinə görə əhalinin diferensialaşmasına uyğun istehlakçıya sosial xidmətin göstərilməsinin ünvanlılıq prinsipi.

Son illər əhalinin sosial mühafizəsinin büdcə təyinatlı maliyyələşməsinin səmərəliliyin yüksəldilməsi məqsədilə dövlət sifarişi vasitəsilə maliyələşdirmə, dövlətr proqramı, grant və kontrakt sistemindən istifadə olunması da geniş yayılmışdır. Adı çəkilən sistemin tətbiqi, bir qayda olaraq, müsabiqə əsasında dövlət, qeyri-dövlət və kommersiya qurumu arasında həyata keçirilir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayeva R. Sosial təminat: liberal və dirijist iqtisadi sistemlərdə. Bakı; Elm və Bilik, 2018, 200 s.

2. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010, 326 s.
3. Hüseynov N. Sosial siğorta institutunun formalaşdılımaqsının nəzəri və instutisional əsasları // Geostrategiya, 2021, № 02 (62), s. 32-36
4. Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi: htpp: //www.azstat.org
5. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi: https://president.az/az/articles/view/50474

## DIRECTIONS FOR IMPROVEMENT OF THE SOCIAL PROTECTION AND SOCIAL INSURANCE SYSTEM OF THE POPULATION IN AZERBAIJAN

**A.Kalashov, Y.Mammadli**
Mingachevir State University

***Abstract:*** *Social insurance is part of social security and is one of its forms. Social insurance is a form of insurance aimed at compensating citizens for lost wages, income or additional expenses, as well as preventing their loss in cases provided for by law. In the article, on the basis of statistical data, the receipts and expenditures for social insurance in the State Social Protection Fund are studied. In the research work, proposals were made to improve the state system of social insurance.*
***Keywords:*** *social insurance, social protection, social security, need criterion, subsistence minimum, insurance payments, social policy*

## НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ СИСТЕМЫ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ И СОЦИАЛЬНОГО СТРАХОВАНИЯ НАСЕЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

**А.Г.Калашов, Е.З.Маммадли**
Мингячевирский государственный университет

***Резюме:*** *Социальное страхование является частью социального обеспечения и является одной из его форм. Социальное страхование – форма страхования, направленная на возмещение гражданам утраченной заработной платы, доходов или дополнительных расходов, а также на предотвращение их утраты в случаях, предусмотренных законодательством. В статье на основе статистических данных изучены поступления и расходы по социальному страхованию в Государственном Фонде Социальной Защиты. В исследовательской работе внесены предложения по совершенствованию государственной системы социального страхования.*
***Ключевые слова:*** *социальное страхование, социальная защита, социальное обеспечение, критерий нуждаемости, прожиточный минимум, страховые выплаты, социальная политика*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 21.02.2024**
**Çapa qəbul edilib: 28.02.2024**

UOT 338

# LOGİSTİK METODOLOGİYADAN İSTİFADƏNİN OBYEKTİV ŞƏRTLƏRİ

**Murad Rahim oğlu Məmmədov**
dissertant
Lənkəran Dövlət Universiteti
muradmemmedov817@mail.ru

***Xülasə:*** *Sənayesi inkişaf etmiş ölkələrdə logistikanın inkişaf etdirilməsi probleminə marağın artması ilkin olaraq iqtisadi xarakterli səbəblərlə əlaqələndirilir. Belə bir şəraitdə məhsul istehsalı həcminin artması, ölkədaxili və beynəlxalq təsərrüfat əlaqələrin genişlənməsi mübadilə sferasında tədavül xərclərinin artması ilə müşahidə olunduğundan sahibkarın diqqəti bazar fəaliyyətinin optimallaşdırılması üzrə yeni formaların axtarılmasına, bu sahədə xərclərin azaldılmasına yönəldi.*

*Logistikadan istifadənin obyektiv stimulu məhsul istehsalı strategiyasında və məhsulyeridilişi sistemində əhəmiyyətli dərəcədə dəyişikliklərlə müşahidə edilən satıcı bazarından alıcı bazarına keçid hesab edilir. Əgər inzibati-amirlik sistemində məhsul istehsalı haqqında qərarlar satış siyasətini üstələyir, ondan qabaqda gəlirdisə, müasir bazar iqtisadiyyatı şəraitində istehsal proqramları məhsul bazarında tələbin həcmi və strukturundan asılı olaraq formalaşır.*

***Açar sözlər:*** *material axınlarının idarə edilməsi, məhsulyeridilişi, məhsulgöndərmə qrafiki, nəqliyyat və anbar xərcləri*

## Giriş

Sərt rəqabət şəraitində istehlakçı maraqlarına, tələbinə uyğunlaşma öz növbəsində məhsul istehsalçılarından bu şəraitdə göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi ilə nəticələnən adekavat reaksiya tələb edir. İstehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi sifarişlərin yerinə yetirilmə müddətinin azaldılması və məhsulgöndərmə qrafikinə qeyri-şərtsiz riayət olunmasını özündə ehtiva edir. Məhsulun qiyməti və keyfiyyəti ilə yanaşı, zaman amili də fəaliyyət göstərən təsərrüfat sisteminin nailiyyətlərini müəyyənləşdirir.

Logistikadan istifadəni şərtləndirən digər bir amil bölgü proseslərinin keyfiyyətinə artan tələblə bərabər, eyni zamanda satış probleminin mürəkkəbləşməsi hesab edilir. Bunun nəticəsi olaraq, təchizat və satış sferasında fəaliyyət göstərən mövcud təşkilatı modelin modifikasiyasını tələb edən bazarın müxtəlif subyektləri arasında mürəkkəb əlaqələr sistemi formalaşmışdır. Qeyd etmək lazımdır ki, bu zaman məhsulyeridilişinin ayrı-ayrı istiqamətlər üzrə optimallaşdırılması, anbar və terminalların optimal yerləşdirilməsi, məhsulgöndərmə partiyalarının optimal həcminin müəyyənləşdirilməsi, yükdaşıma marşurutlarının optimal sxeminin işlənib hazırlanması sahəsində aparılan işlər intensiv xarakter almışdır.

Bu zaman ictimai istehsalın ixtisaslaşması və kooperasiya əlaqələrinin artması ilə səciyyələnən ümumiqtisadi amillərlə yanaşı, qeyd edilən proseslərə bazarın müasir inkişaf səviyyəsi ilə şərtlənən elmi-texniki amillər, infrastrukturun yeri və rolunun dəyişməsi, "teylor" tipli idarəetmə sistemindən inteqrativ idarəetmə sisteminə keçid kimi digər amillərdə təsir edir [6].

Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq, bir sıra qabaqcıl ölkələrdə əhəmiyyətli dərəcədə canlı əməyə qənaət edilməsinə və o qədər də böyük olmayan məhsul partiyasının hazırlanması üzrə işləri rentabelli edən çevik istehsal strukturlarının yaradılmasına gətirib çıxaran ənənəvi konveyerlərin robotlarla əvəzlənməsi prosesi baş vermişdir. İri istehsal müəssisələri üçün kütləvi istehsalı minimum xərclərlə başa gələn kiçik seriyalı istehsalla əvəzləmək imkanları təşəkkül tapmışdır. Kiçik müəssisə və firmalar çevikliyin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi ilə əlaqədar iqtisadi üstünlüklər əldə etdilər.

Öz növbəsində istehsalçı müəssisələrin "kiçik partiyalar" prinsipi üzrə fəaliyyət göstərməsi onları istehsal yerlərinin material resursları ilə təminatı və hazır məhsulun satışı sistemində müvafiq dəyişiklik etməyə sövq edir. Bir çox hallarda material resurslarının böyük həcmdə göndərilməsi iqtisadi baxımdan

sərfəli deyil, eyni zamanda da lüzumsuz hesab edilir. Bununla əlaqədar olaraq, iritutumlu anbarlara malik olmaq zərurəti aradan qalxır və daha ciddi vaxt müddətində yüklərin kiçik partiyalarla nəql edilməsinə tələbat yaranır. Bu zaman yüklərin daşınması ilə əlaqədar nəqliyyat xərcləri artır. Lakin nəzərə almaq lazımdır ki, artan nəqliyyat xərclərini yüklərin saxlanılmasına çəkilən anbar xərclərini azaltmaqla aradan qaldırmaq mümkündür.

**Logistikadan istifadəyə obyektiv şəraitin yaranmasında elmi-texniki tərəqqinin rolu**

Rabitə vasitələri və informatika sahəsində təşəkkül tapan texniki tərəqqi logistikadan istifadəyə obyektiv şəraitin yaradılmasında mühüm rol oynayır. Bu, ən yüksək səviyyədə məhsulyeridilişi ilə bağlı bütün əsas və köməkçi proseslərə nəzarət etməyə şərait formalaşdırır. Daha doğrusu, avtomatik nəzarət sistemindən istifadə etməklə xammal və fabrikatların tələb olunan həcmini, hazır məhsul istehsalını, ehtiyatların səviyyəsini, göndərilən dəstləşdirici hissə və qovşaqların həcmini, sifarişlərin yerinə yetirilməsi dərəcəsini, yolda olan nəqliyyat ehtiyatlarının səviyyəsi və coğrafi yerini mütəmadi olaraq diqqətə saxlamaq üçün əlverişli imkan yaranır. “Kağızsız” texnologiyaya əsaslanan müasir informasiya vasitələrinin tətbiqi nəticəsində material axınlarının yarandığı yerdən son təyinat məntəqəsinə qədər hərəkətini nəzarətdə saxlamaq asanlaşır. Nəql edilən logistik yükləri, müşahidə edən çoxsaylı sənədlərlə bərabər, rabitə kanalları vasitəsilə sinxron şəkildə yük haqqında zəruri rekvizitləri özündə birləşdirən informasiyalar da ötürülür. Belə bir sistemdən istifadə zamanı istənilən vaxt hərəkət marşurutu üzrə bütün məntəqələrdən lazımı informasiyaları əldə etmək və zəruri idarəetmə qərarları qəbul etmək olur. “Kompüter” logistikasının köməkliyi ilə bütün xidmət zənciri boyu təsərrüfat subyektlərinin fəaliyyətini təhlil etmək və rəqiblərlə müqayisədə onun mövcud vəziyyətini qiymətləndirmək mümkündür. Həmçinin informasiya sistemi bazarın tutumu və onun məhsullarla təmin edilmə səviyyəsi haqqında məlumatlara da malik olur. Bundan başqa, material resurslarının alınması ilə əlaqədar hesab-fakturaların rəsmiləşdirilməsi əməliyyatlarının kompüterləşməsi həyata keçirilir. Bu tip əməliyyatların sürəti və dəqiqliyi firmada maliyyə resurslarının hərəkətini özündə əks etdirən mühasibat balansına, nəticə ehtibarilə isə kapitalın dövriyyəsinə birbaşa təsir edir [5].

Beləliklə, iqtisadi məsələlərin həll edilməsi üçün sistem və kompromislər nəzəriyyəsindən istifadəni, dünya təsərrüfat sistemində intensiv formada iştirak edən ölkələrdə xarici-iqtisadi əlaqələrdə məhsulgöndərmələr üzrə qayda və normaların unifikasiyasını, müxtəlif növ idxal və ixrac məhdudiyyətlərinin aradan qaldırılmasını, yükləmə-boşaltma vasitələri və hərəkətedici heyətin texniki parametlərinin standartlaşdırılmasını özündə birləşdirən logistika üçün xüsusi alətlər, eləcə də normativ bazar yaranır.

**Logistikanın perspektiv inkişafının dünya iqtisadiyyatının qloballaşması ilə əlaqəsi**

Logistikanın perspektiv inkişafı dünya iqtisadiyyatının qloballaşması ilə əlaqədardır. 1996-cı ilin oktyabr ayında Almaniyada logistika üzrə keçirilən 13-cü ənənəvi konqresdə bütün proseslərin qloballaşması və dünya iqtisadiyyatında bununla bağlı yeni sıçrayışların qaçılmaz olması haqqında fikir ifadə edildi. Müasir bazar münasibətləri sistemi ayrı-ayrı ölkə və regionların ixtisaslaşmadan multitəşkil edilmiş dünya iqtisadiyyatına keçidlə xarakterizə olunur. Multitəşkil edilmiş dünya iqtisadiyyatının əsas fərqləndirici cəhətlərinə siyasi şəraitlərin eyniləşməsi, yeni növ əmək bölgüsünün təşəkkül tapması, dünyanın müxtəlif regionlarında istehlak standartlarının arasında məhdudiyyətlərin aradan qalxması aid edilir [2].

Baş verən dəyişikliklər bütün dünya bazarlarını əhatə edir. Beynəlxalq miqyasda regional bazarlara giriş üçün siyasi şəraitin yaradılması məhsul və xidmətlərə tələbatı əhəmiyyətli dərəcədə artırır. Bu isə öz növbəsində müştəri sifarişlərinin ödənilməsi üçün prinsip ehtibar ilə yeni istehsal strukturlarının formalaşmasını tələb edir. Qeyd edilən proseslərin nəticəsi olaraq investisiyalar və istehlak malları üzrə yeni standartlar formalaşır.

Deməli, logistika qlobllaşmanın mühüm elementi kimi nəzərdən keçirilir. Daha doğrusu, burada əsas məsələ həm sahibkarlıq fəaliyyətinin ayrıca götürülmüş sahəsini, həm də bütöv coğrafi rayonu əhatə edən logistik sistem və onun fəaliyyət spektridir. Bunsuz, təbii ki, dünya iqtisadiyyatının qloballaşması qeyri-mümkündür. Bunun üçün obyektiv şərt istehsalçı müəssisələrin bazara təklif etdikləri məhsul və xidmətlərin keyfiyyət və qiymət parametrləri üzrə bir-birinə yaxınlaşmaları hesab edilir. Bu tip müəssisələrin yüksək rəqabətqabiliyyətliliyi bilavasitə qısa

zaman ərzində yüksək keyfiyyətli geniş spektrə malik təkliflər paketi hesabına təmin edilir. Məhz bu baxımdan, bu gün logistikaya keyfiyyətli bazar fəaliyyəti üçün əlverişli şərait yaradan mühüm faktor kimi yanaşılır.

**Logistik prinsiplərdən istifadə**

Logistik prinsiplərdən istifadə edilməsi istehlakçıların ehtiyac və tələbatlarının maksimum ödənilməsi əsasında bu və ya digər firmanın rəqabət üstünlüyü əldə etməsi üçün yeni ehtiyat imkanları yaradır. Eyni zamanda logistikaya marketinq və menecmentlə müqayisədə ümumi, məhsulyeridilişinin idarəetmə konsepsiyası kimi baxılır. Əgər menecment müəssisədaxili idarəetmə məsələlərini, marketinq xarici mühit tərəfindən tələbin idarəedilməsi ilə bağlı məsələləri tədqiq edirsə, onda son istehlakçı yönümlü logistika hər iki konsepsiyanı vahid sistem halında özündə birləşdirir [4].

Qeyd edilən konqresin əldə etdiyi mühüm praktik nəticədən biridə ağırlıq mərkəzinin istehsal sferasından mübadilə (ticarət və bölgü) sahəsinə keçməsi ilə bağlıdır. Əgər yaxın vaxtlara qədər ölkə iqtisadiyyatında məhsul qıtlığı müşahidə edilirdisə, bu gün alıcılıq qabiliyyətinin məhdud olması müqabilində bazarda kifayət qədər geniş çeşidli məhsul bolluğu müşahidə edilməklə bərabər, məhz bazarda məhsul və xidmətlərin ticarəti və bölgüsü ilə bağlı proseslərin rasional təşkili onların əlverişli mövqeyini təmin etmiş olur.

Logistik konsepsiyanın tətbiqini şərtləndirən digər bir mühüm amil məhsulların istehsalçıdan istehlakçıya qədər bütün dəyər zənciri üzrə hərəkəti zamanı axınların fasiləsizliyini və kəsilməzliyini təmin etməkdir. Təbii ki, bu məsələnin mümkün həll variantı kimi regional mərkəzlərdə dünyanın bir çox ölkələrindən əldə edilən məhsulların akkumulyasiyasını həyata keçirən iri anbar terminallarının yaradılması nəzərdən keçirilə bilər. Ölkə istehlakçılarının idxal yönümlü məhsullardan asılı olduğu müasir iqtisadi şəraitdə belə bir həll variantının əhəmiyyəti bir qədər də artır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə material axınlarının idarə edilməsi həmişə təsərrüfat sisteminin iqtisadi fəaliyyətinin mühüm tərəfi hesab edilmişdir. Bu baxımdan, logistikanın təşəkkül tapması və müasir dövrün tələbləri baxımından formalaşması heç də birdən birə baş verməmişdir.

Makrosəviyyədə ilk xalq təsərrüfatı balanslarının işlənib hazırlanması inzibati amirlik sistemində logistik yanaşmalardan istifadəyə cəhdlər kimi dəyərləndirilə bilər. Məhz ikinci dünya müharibəsinə qədər Sovetlət İttifaqında dəmir filizi, daş kömür, torf kimi kütləvi ağır yüklərin texnoloji (dairəvi) marşurutlar üzrə daşınması sistemi işlənib hazırlanmış və intensiv inkişaf etdirilmişdir. İri metallurgiya kombinatları ilə daş kömür və dəmir filizinin hasil edildiyi məntəqələr arasında yüklərin güclü və sabit axını istehsal müəssisələrində mövcud olan texnoloji proseslər uçota alınmaqla əvvəlcədən tərtib edilən ciddi qrafik və marşrutlar üzrə yüklərin çatdırılmasını təşkil etməyə imkan verirdi. Məhsul daşımaları zamanı belə bir sistem vaqonların boş yürüşünü praktiki olaraq aradan qaldırır.

Anoloji sxem üzrə vaqonlarla istilik elektrik stsansiyalarına torf və energetik daş kömür; neftemalı zavodlarına neft; karyerlərdən dəmir-beton kombinatlarına daş, çınqıl, qum daşınırdı. Ötən əsrin 60-70-ci illərində dəmir yolu ilə texniki marşurutlar üzrə daşınan yükün ümumi həcmi ildə yüz milyonlarla ton təşkil edirdi.

1989-cu ildə Ümumittifaq Dəmir Yolu Elmi-Tədqiqat İnstitutu tərəfindən dəmir filizlərinin metallurgiya kombinatlarına daşınması ilə bağlı daha təkmil istehsal-nəqliyyat texnologiyasının yaradılmasına cəhd edildi. "Ritm" adlanan bu sahələrarası daşıma texnologiyası hazırkı dövrdə də geniş tətbiq edilir [1].

"Logistika" anlayışının sistem yaradıcıları tərəfindən işlədilməməsinə baxmayaraq, bir sıra logistik prinsiplərin reallaşması ilə bağlı başqa nümünələrdə gətirmək mümkündür. Xüsusilə qeyd edilməlidir ki, müxtəlif nəqliyyat növləri arasında işlərin balanslaşdırılmasını təmin etmək məqsədi ilə iri nəqliyyat qovşaqlarında kompleks texnoloji proseslərin yaradılmasına ilkin cəhdlər edilmişdi.

Ötən əsrin 70-ci illərinin sonunda planlaşdırılan ərazi-istehsal kombinatları, regional yanacaq-enerji kompleksləri, dəmir yolu nəqliyyatı müəssisələrinin avtomatlaşdırılmış nəqliyyat-anbar kompleksləri, dəmir yolu və avtomobil nəqliyyatının qarşılıqlı fəaliyyətini təmin edən yük

stansiyalarının avtomatlaşdırılmış idarəetmə sistemləri və s. müasir logistik sistemlərin prototipi hesab edilirdi.

Beləliklə, Sovetlər İttifaqı dönəmində logistikanın müasir hesab edilən elementlərindən istifadə üçün əsaslar yaradılmışdı. Aydındır ki, klassik logistika bütün elementləri qarşılıqlı əlaqə və asılılıqda nəzərdən keçirir. Başqa sözlə, onun sistemlər nəzəriyyəsini material axınlarının optimal formalaşması sahəsinə transformasiya etməyə gücü çatmışdır. Onu da nəzərə almaq lazımdır ki, Sovet İttifaqı dağıldıqdan sonra digər respublikalar kimi müstəqil Azərbaycan Respublikası üçün də müxtəlif idarəetmə səviyyələrində bir çox logistik məsələlərlə adekvatlıq təşkil edən maddi-texniki təchizat məsələlərinin həlli üçün kifayət qədər böyük və güclü olan elmi baza bu gün müxtəlif təsərrüfat sistemləri tərəfindən istifadə edilən ümumi sistemlər nəzəriyyəsi, iqtisadi kibernetika, əməliyyatların tədqiqi, proqnostika və müvafiq riyazi aparat (ehtiyatların idarəedilməsi, ehtimal, qərarların qəbulu və kütləvi xidmət nəzriyyələri, proqramlaşdırma metodları və s.) miras qalmışdır.

Lakin bütün bunlarla yanaşı, maddi-texniki təchizat sisteminin təkmilləşdirilməsi istiqamətində aparılan bir çox elmi-tədqiqat işlərinin inzibati-amirlik dövründə tətbiq sahəsini tapa bilməməsini də qeyd etmək lazımdır.

Təbii ki, ölkə iqtisadiyyatında logistik prinsplərdən istifadə edilməsinin zəruriliyi və aktuallığı həm bazar münasibətlərinin inkişafının ümumi amilləri, həm də müasir mərhələdə ölkənin sosial-iqtisadi inkişafı ilə şərtlənən digər amillərlə əlaqədar olaraq daha da artmışdır.

İlk növbədə, Sovetlər İttifaqının dağılması və bütün geosiyasi vəziyyətin dəyişməsilə bağlı olaraq maliyyə, material və nəqliyyat axınlarının illərlə formalaşan mövcud hərəkət sxemi əhəmiyyətli dərəcədə dəyişmişdir. İstər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda yeni təsərrüfat əlaqələri sistemi təşəkkül tapmağa başlamışdır. Bu sistem öz-özlüyündə məhsulyeridilişi proseslərin logistikanın təşkili və ona xidmət göstərilməsi sahəsində müasir metodlardan istifadə edilməsini müəyyənləşdirdi. Daha doğrusu, ilk növbədə, məhsul və xidmətlər bazarına logistik xidmət göstərən bazar infrastrukturu subyektlərinin, o cümlədən vasitəçi təşkilatların inkişaf etdirilməsini aktuallaşdırmışdır [3].

**Logistik vasitəçilər məhsulyeridilişi sahəsində material və maliyyə axınlarının optimal təşkilinin effektiv vasitələrindən biri kimi**

Bazar infrastrukturunun tərkib elementi kimi yeni vasitəçi strukturların təşəkkül tapması və inkişaf etdirilməsi sahəsində xarici təcrübə bütövlükdə ölkə üzrə də geniş yayılmalıdır. Bu, bir daha sübut edir ki, logistik vasitəçilər məhsulyeridilişi sahəsində material və maliyyə axınlarının optimal təşkilinin effektiv vasitələrindən birinə çevrilir. Deməli, ticarət vasitəçilərinin logistik xidmət sahəsində ixtisaslaşması onların kompleks xarakter daşıyan fəaliyyətinin inkişaf etməsinə köməklik göstərir. Eyni zamanda logistik vasitəçilər məhsul istehsalçıları və istehlakçılarında nəqliyyat amillərinin dəqiq uçotunun aparılmasını, həm dövlət, həm də xüsusi maraqlar baxımından onların nəqliyyat vasitələri və xidmətlərdən yaxşı istifadə edilməsini təmin edir.

İnzibati-amirlik sisteminin ləğv edilməsilə istər mikro, istərsə də makrosəviyyədə məhsulyeridilişinin koordinasiya edilmiş formada idarə edilməsinə, material axınlarının dövlət tənzimlənməsi ilə təsərrüfat təşəbbüsü və məhsulyeridilişi kanalı iştirakçılarının maraqlarının uzlaşdırılmasına zərurət yaranmışdır [3].

Bazar iqtisadiyyatı şəraitində idarəetmə təsirlərinin sosial-iqtisadi yönümü dəyişir. Bu, təkcə maddi-texniki təchizat və satış sahəsində mövcud məsələləri və onların qoyuluşunu deyil, eyni zamanda, onların reallaşması şərtlərini də transformasiyaya məruz qoyur. Bu isə nəticə ehtibari ilə problemin həlli üçün logistik prinsiplərdən istifadənin zəruriliyini müəyyənləşdirir. Odur ki, keçmişdə bu sahədə toplanan praktik təcrübənin nəzərə alınması lazım gəlir. Belə ki, logistik zəncirin müxtəlif həlqələrini təşkil edən subyektlərin fəaliyyətinin təhlili göstərir ki, keçmiş maddi-texniki təchizat sisteminin həll etdiyi ənənəvi məsələlərin əksəriyyəti həm qoyuluşu, həm də alternativ həll üsulları baxımından müvafiq düzəlişlərlə (bazar şəraiti nəzərə alınmaqla) öz aktuallığını saxlayır.

Müasir şəraitdə təsərrüfatçılığın əsas fəaliyyət bazası “hesablama-səmərə-istehlakçı” kimi məşhur triadadan ibarətdir. Buna görə də başlıca olaraq logistikanın konsepsiyasına tam cavab verən məsrəflərə qənaət, xüsusi mənfəət naminə tədavül xərclərinin azaldılması və istehlakçılara kompleks xidmətlərin göstərilməsi kimi məsələlər prioritetlik kəsb edir.

Bu gün ölkə iqtisadiyyatı qarşısında duran mühüm problemlərdən biri investisiya proseslərinin aktivləşdirilməsi hesab edilir. Bu məsələnin həlli üçün iki istiqamət mövcuddur. Bunlardan biri ölkədə fəaliyyət göstərən kommersiya bankları, ticarət evləri, investisiya-lizinq şirkətləri, müəyyən kapitala malik olan müəssisələr kimi strukturların investisiya proseslərinə cəlb edilməsini stimullaşdıran iqtisadi mexanizm və alətləri tapmaqdan ibarətdirsə, digər bir yol xarici investorların ölkə iqtisadiyyatında iştirakı üçün əlverişli iqtisadi mühüt formalaşdırmaqdır. Ölkənin iqtisadi həyatında iştirak etmək istəyən istənilən investor-sərmayədar bir sıra suallarla qarşılaşır: seçilmiş regionda bu və ya digər məhsul istehsalı üzrə kooperasiya nə səviyyədədir, yaxın illərdə və perspektiv dövrdə məhsulgöndərmələrin həcmi nə qədər təşkil edə bilər, bunları hansı amillər və tədbirlər hesabına həyata keçirmək mümkündür, məhsulgöndərmə qrafiklərinə riayət edilməsi nə qədər dəqiqdir və s. Bunsuz heç bir müasir sahibkar, prinsipcə, investisiya ilə bağlı bu və ya digər layihələrə ciddi yanaşa bilməz.

Qərarların qəbul edilməsi prosesində nəzərə alınan mühüm amil çeviklikdir. Təbii ki, bu çeviklik istehsalın, material axınlarının və maddi təminat sisteminin bu və ya digər məhsul istehsalı zamanı yaranan tələbata adaptasiyası nöqteyi nəzərindən qiymətləndirilir.

**Nəticə**

Ölkə iqtisadiyyatının müasir inkişafı şəraitdə logistikanın və logistik prinsiplərin rolu əhəmiyyətli dərəcə artmışdır. Logistika müxtəlif struktur sistemlərinin, o cümlədən aqrar sferanın təminat sistemlərinin inkişafı, bu və ya digər növ material resurslarının, hazır məhsulların düzgün tədarük edilməsi prosesi ilə bilavasitə əlaqədardır.

Təminat sistemləri üçün strategiya və taktika işləyən zaman bütün logistik strukturları və onların inkişaf ənənələrini, əlaqəli orqanlarının fəaliyyəti ilə bağlı mövcud problemləri düzgün qiymətləndirmədən yeni iqtisadi məkanda nailiyyət əldə etmək qeyri mümkündür.

## İstifadə edilmiş ədəbiyyat

1. Александров, О.А. Логистика: учебное пособие / О.А.Александров. – Москва: ИНФРА-М, 2020. – с.45.

2. Аникин, Б.А. Логистика производства: теория и практика : учебник и практикум для вузов / Б.А.Аникин, Р.В.Серышев, В.А.Волочиенко; ответственный редактор Б.А.Аникин. – Москва : Изд-во Юрайт, 2021. с.97.

3. Григорьев, М. Н. Коммерческая логистика: теория и практика : учебник для вузов / М. Н. Григорьев, В. В. Ткач, С. А. Уваров. – 3-е изд., испр. и доп. – Москва : Изд-во Юрайт, 2022. – 94 с.

4. Логистика и управление цепями поставок : учебник для вузов / В.В.Щербаков [и др.] ; под редакцией В. В. Щербакова. – Москва : Изд-во Юрайт, 2022. – 182 с.

5. Новиков, В.Э. Информационное обеспечение логистической деятельности торговых компаний : учебное пособие для вузов / В.Э.Новиков. – Москва : Изд-во Юрайт, 2022. –. с.89

6. Русалева Л.Р., Мордвинова Л.И. Коммерческая логистика: Учеб. пособие / Новосиб. гос. академия экономики и управления. - Новосибирск: НГАЭиУ, 1997. - 52 *с.*

## OBJECTIVE CONDITIONS FOR USING LOGISTICAL METHODOLOGY

**M.Mammadov**
candidate for PhD degree
Lankaran State University

***Abstract:*** *Increased interest in the development of logistics in developed countries is initially linked to economic factors. As the increase in productivity and the expansion of domestic and international agricultural relations causes an increase in repair costs in the sphere of exchange, the owners focused on looking for new forms of optimization in marketing activities and reducing costs.*

*The objective stimulus of the use of logistics is considered to be a transition from a vendor market to a buyer's market, which has been observed with significant changes in the strategy of production and productivity. If decisions about production in the administrative system exceed sales policies and come before it, manufacturing programs in modern market economies are shaped by the volume and structure of demand in the product market.*

***Keywords****: management of material flows, productivity, productivity graphics, transportation and storage costs*

## ОБЪЕКТИВНЫЕ УСЛОВИЯ ИСПОЛЬЗОВАНИЯ ЛОГИСТИЧЕСКОЙ МЕТОДОЛОГИИ

**М.Р.Мамедов**
диссертант
Ленкоранский государственный университет

***Резюме:*** *Повышенный интерес к развитию логистики в развитых странах изначально связан с экономическими факторами. Поскольку рост производительности труда и расширение внутренних и международных сельскохозяйственных связей вызывает рост затрат на ремонт в сфере обмена, предприниматели сосредоточились на поиске новых форм оптимизации рыночной деятельности и снижения расходов.*

*Объективным стимулом использования логистики считается переход от рынка продавца к рынку покупателя, который наблюдается при значительных изменениях стратегии производства и производительности труда. Если решения о производстве в административной системе превышают политику продаж и предшествуют ей, производственные программы в современной рыночной экономике формируются объёмом и структурой спроса на товарном рынке.*

***Ключевые слова:*** *управление материальными потоками, производительность, график производительности, транспортно-складские расходы*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 22.02.2024**
**Çapa qəbul edilib: 29.02.2024**

UDC 338

# INNOVATIVE STRATEGIES FOR ENTERPRISE DIVERSIFICATION: THE MARKETING PERSPECTIVE

**Nasrin Aliyeva**
Nakhchivan State University
nesrin.lyv06@gmail.com

***Abstract:*** *The article delves into the crucial role of marketing in driving and facilitating the diversification activities of enterprises. In today's rapidly evolving business landscape, enterprises are constantly seeking new avenues for growth and expansion. Diversification, whether it be through expanding product lines, entering new markets, or targeting different customer segments, is often a key strategy employed by companies looking to adapt to changing market dynamics and seize new opportunities. This article examines how marketing strategies play a central role in enabling and maximizing the success of diversification efforts. Through a combination of case studies, industry insights, and theoretical frameworks, we explore various innovative approaches that enterprises can leverage to diversify their offerings and expand their reach. From market research and segmentation to branding, communication, and distribution strategies, we analyze the multifaceted ways in which marketing can drive enterprise diversification. Ultimately, this article provides valuable insights and practical guidance for businesses seeking to navigate the complexities of diversification through a strategic marketing lens, enabling them to identify and capitalize on new growth opportunities in today's dynamic business environment.*

***Keywords:*** *enterprise diversification, marketing strategy, growth opportunities, market research, distribution strategies*

## 1. Introduction

In the ever-evolving landscape of business, enterprises continually seek ways to adapt, innovate, and grow. Diversification stands as a cornerstone strategy for achieving these objectives, offering avenues for expansion into new markets, product lines, or customer segments. However, successful diversification requires more than just a bold vision; it demands strategic planning, creativity, and an acute understanding of market dynamics. In this article, titled "Innovative Strategies for Enterprise Diversification: A Marketing Perspective," we delve into the pivotal role of marketing in driving and shaping diversification efforts within enterprises.

From expanding product portfolios to entering untapped markets, diversification presents both opportunities and challenges for businesses. Marketing, as the conduit between enterprises and their customers, plays a central role in navigating these complexities and maximizing the success of diversification initiatives. Through targeted research, segmentation, branding, communication strategies, and distribution channels, marketing serves as the guiding force behind the identification, development, and promotion of diversified offerings [1]. In this exploration, we delve into the multifaceted strategies that enterprises employ to diversify their operations and offerings, with a keen focus on the pivotal role of marketing. Drawing on real-world examples, industry insights, and theoretical frameworks, we unveil innovative approaches and best practices that empower enterprises to embark on successful diversification journeys. From leveraging data analytics to uncover market trends and consumer preferences to crafting compelling brand narratives that resonate with target audiences, we showcase the myriad ways in which marketing strategy drives enterprise diversification [2]. Moreover, we emphasize the importance of agility, creativity, and customer-centricity in developing effective diversification strategies. In a competitive marketplace characterized by rapid change and evolving consumer expectations, enterprises must remain nimble and responsive, adapting their approaches to meet shifting demands and seize emerging opportunities. Through a strategic marketing lens, businesses can unlock new growth pathways,

differentiate themselves from competitors, and establish themselves as leaders in their respective industries. As we navigate the intricacies of enterprise diversification through a marketing perspective, we unveil the transformative power of strategic thinking, innovation, and customer engagement in shaping the future of business. Join us on this journey as we uncover the keys to unlocking growth, driving innovation, and achieving sustainable success in today's dynamic business environment.

**2. The Role of Marketing in Enterprise Diversification**

Marketing serves as the linchpin that connects enterprises with their target audiences and drives the success of diversification initiatives. Through market research, segmentation, and analysis, marketers uncover insights into emerging trends, customer preferences, and untapped market opportunities. Armed with this knowledge, enterprises can identify strategic growth areas and develop tailored diversification strategies that resonate with their target audiences.

One innovative approach to enterprise diversification is market segmentation, wherein marketers divide the market into distinct groups based on shared characteristics, needs, and preferences. By targeting specific segments with tailored products, services, and messaging, enterprises can effectively penetrate new markets and capture market share from competitors [3].

Another key aspect of enterprise diversification is branding and communication. Effective branding helps enterprises differentiate themselves from competitors and create a strong emotional connection with customers. Through compelling storytelling, engaging content, and cohesive brand messaging, marketers can position enterprises as industry leaders and drive brand loyalty among customers. Furthermore, distribution strategies play a crucial role in diversification efforts, as enterprises seek to expand their reach and accessibility to new markets. Innovative distribution channels, such as e-commerce platforms, social media marketplaces, and mobile apps, offer opportunities for enterprises to reach customers in new and unconventional ways.

The role of marketing in the diversification of an enterprise is multifaceted and critical to the success of such endeavors. Here are some key aspects of how marketing contributes to enterprise diversification:

Market Research: Marketing conducts comprehensive market research to identify new market opportunities, consumer segments, and emerging trends. This research provides valuable insights that guide the diversification strategy by highlighting areas of potential growth and demand [4].

Segmentation and Targeting: Marketing utilizes market segmentation techniques to divide the target market into distinct groups with similar needs, preferences, and behaviors. By identifying and targeting specific segments that align with the diversified offerings, marketing ensures that resources are allocated efficiently and that the enterprise can effectively reach its intended audience [5].

Branding and Positioning: Marketing plays a crucial role in shaping the brand image, positioning, and messaging of diversified offerings. Effective branding differentiates the enterprise from competitors and communicates the unique value proposition of the diversified products or services to consumers.

Product Development and Innovation: Marketing collaborates with product development teams to conceptualize, design, and refine diversified offerings based on market insights and consumer feedback. By understanding customer needs and preferences, marketing helps ensure that diversified products or services meet market demands and resonate with target audiences [6].

Promotion and Communication: Marketing develops integrated marketing communication strategies to promote diversified offerings through various channels such as advertising, public relations, digital marketing, and social media. These efforts raise awareness, generate interest, and drive engagement with the diversified products or services, ultimately influencing consumer behavior and driving sales.

Distribution Strategies: Marketing determines the most effective distribution channels and strategies to ensure that diversified offerings reach target customers efficiently and conveniently.

This may involve expanding distribution networks, leveraging e-commerce platforms, or exploring partnerships with retailers or distributors [7].

Customer Relationship Management: Marketing focuses on building and maintaining strong relationships with customers through personalized communication, customer service, and loyalty programs. By understanding customer needs and preferences, marketing helps enhance customer satisfaction and loyalty, driving repeat business and long-term success.

Overall, marketing plays a pivotal role in every stage of the enterprise diversification process, from identifying opportunities and developing offerings to promoting, distributing, and maintaining relationships with customers. By leveraging marketing expertise and insights, enterprises can effectively navigate the complexities of diversification and achieve sustainable growth and competitiveness in the marketplace.

**3. Agility, Adaptability and Customer-Centricity**

In today's rapidly evolving business landscape, agility, adaptability, and customer-centricity are paramount to successful diversification. Enterprises must remain responsive to market dynamics, continually evolving their strategies to meet the evolving needs and expectations of their customers. Agile marketing methodologies, such as iterative testing, rapid prototyping, and data-driven decision-making, enable enterprises to quickly adapt to changing market conditions and customer feedback. By embracing a customer-centric approach, enterprises can better understand their customers' needs and preferences, anticipate market trends, and deliver innovative solutions that meet and exceed customer expectations [8]. Agility, adaptability, and customer-centricity are essential principles that guide the role of marketing in enterprise diversification:

*Agility:* In the rapidly changing business landscape, agility is crucial for enterprises to respond swiftly to evolving market conditions, consumer preferences, and competitive pressures. Marketing teams must be agile in their approach, continuously monitoring market trends, analyzing performance metrics, and adjusting diversification strategies accordingly. By embracing agility, enterprises can stay ahead of the curve, seize new opportunities, and mitigate risks associated with diversification efforts.

*Adaptability:* Adaptability involves the ability of enterprises to adjust their strategies, processes, and operations in response to changes in the external environment. Marketing plays a key role in fostering adaptability by leveraging market insights, customer feedback, and performance data to refine diversification strategies iteratively. By remaining adaptable, enterprises can navigate uncertainty, capitalize on emerging opportunities, and overcome challenges encountered during the diversification process.

*Customer-Centricity:* At the heart of successful diversification lies a deep understanding of customer needs, preferences, and behaviors. Marketing adopts a customer-centric approach, placing the customer at the center of diversification efforts. By listening to customer feedback, conducting market research, and delivering personalized experiences, enterprises can develop diversified offerings that meet the evolving needs and expectations of their target audiences. Customer-centricity ensures that diversification efforts are aligned with market demand, driving customer satisfaction, loyalty, and long-term business success [9].

In summary, agility, adaptability, and customer-centricity are fundamental principles that inform the role of marketing in enterprise diversification. By embracing these principles, marketing teams can navigate the complexities of diversification effectively, capitalize on opportunities for growth, and drive sustainable success in today's dynamic business environment.

**4. Conclusion**

"Innovative Strategies for Enterprise Diversification: A Marketing Perspective" underscores the pivotal role of marketing in driving and shaping the diversification endeavors of enterprises in today's dynamic business landscape. Throughout this exploration, we have delved into the multifaceted strategies and approaches that businesses employ to expand their operations, offerings, and market reach. From leveraging market research and segmentation to crafting compelling branding narratives and exploring innovative distribution channels, marketing serves as the linchpin

that connects enterprises with their target audiences and drives the success of diversification initiatives. Through strategic planning, creativity, and a deep understanding of consumer behavior, marketing empowers businesses to identify new growth opportunities, differentiate themselves from competitors, and establish themselves as leaders in their industries. Moreover, we have emphasized the importance of agility, adaptability, and customer-centricity in navigating the complexities of enterprise diversification. In an era marked by rapid technological advancements, shifting consumer preferences, and intensifying competition, businesses must remain responsive to market dynamics, continually evolving their strategies to meet the evolving needs and expectations of their customers.

As we conclude our exploration, it is evident that successful diversification requires more than just a bold vision; it demands a strategic, data-driven approach that is rooted in customer insights and market intelligence. By harnessing the power of marketing to drive innovation, businesses can unlock new growth pathways, drive sustainable growth, and position themselves for long-term success in today's ever-changing business landscape.

In essence, "Innovative Strategies for Enterprise Diversification: A Marketing Perspective" serves as a call to action for businesses to embrace the transformative potential of marketing in driving diversification efforts. By adopting a strategic marketing mindset, businesses can navigate the complexities of diversification with confidence, unlocking new opportunities for growth, innovation, and success in the global marketplace.

**References**

1. Armstrong, Gary, and Philip Kotler. "Principles of Marketing." Pearson, 2017.
2. Kotler, Philip, et al. "Marketing 4.0: Moving from Traditional to Digital." Wiley, 2016.
3. Keller, Kevin Lane. "Building Strong Brands in a Modern Marketing Communications Environment." Journal of Marketing Communications, vol. 23, no. 2, 2017, pp. 135-144.
4. Armstrong, Gary, et al. "Principles of Marketing Management: A Global Perspective." Pearson, 2019.
5. Barney, Jay B. "Resource-Based Theories of Competitive Advantage: A Ten-Year Retrospective on the Resource-Based View." Journal of Management, vol. 27, no. 6, 2015, pp. 643-650.
6. Hunt, Shelby D., and Robert M. Morgan. "The Resource-Advantage Theory of Competition: Dynamics, Path Dependencies, and Evolutionary Dimensions." Journal of Marketing, vol. 75, no. 4, 2019, pp. 1-20.
7. Aaker, David A., and Erich Joachimsthaler. "Brand Leadership." Free Press, 2017.
8. Porter, Michael E. "Competitive Advantage: Creating and Sustaining Superior Performance." Simon & Schuster, 2015.
9. Kotler, Philip, et al. "Strategic Marketing for Health Care Organizations: Building a Customer-Driven Health System." Wiley, 2016.

## ИННОВАЦИОННЫЕ СТРАТЕГИИ ДИВЕРСИФИКАЦИИ ПРЕДПРИЯТИЙ: МАРКЕТИНГОВАЯ ПЕРСПЕКТИВА

**Н.А.Алиева**
Нахчыванский государственный университет

***Резюме:*** *Статья раскрывает решающую роль маркетинга в стимулировании и облегчении деятельности предприятий по диверсификации. В современном быстро развивающемся бизнес-среде предприятия постоянно ищут новые возможности для роста и расширения. Диверсификация, будь то за счет расширения линейки продуктов, выхода на новые рынки или ориентации на различные сегменты клиентов, часто является ключевой стратегией, используемой компаниями, стремящимися адаптироваться к меняющейся динамике рынка и использовать новые возможности. В этой статье рассматривается, как*

*маркетинговые стратегии играют центральную роль в обеспечении и максимизации успеха усилий по диверсификации. Посредством сочетания тематических исследований, отраслевых знаний и теоретических основ мы изучаем различные инновационные подходы, которые предприятия могут использовать для диверсификации своих предложений и расширения своего охвата. От исследования рынка и сегментации до стратегий брендинга, коммуникации и распределения — мы анализируем многогранные способы, с помощью которых маркетинг может стимулировать диверсификацию предприятия. В конечном счете, эта статья предоставляет ценную информацию и практические рекомендации для предприятий, стремящихся справиться со сложностями диверсификации через призму стратегического маркетинга, что позволяет им выявлять и использовать новые возможности роста в современной динамичной бизнес-среде.*

***Ключевые слова:*** *диверсификация предприятия, маркетинговая стратегия, возможности роста, исследование рынка, стратегии распределения*

## KURUMSAL ÇEŞİTLENDİRME İÇİN YENİLİKÇİ STRATEJİLER: PAZARLAMA PERSPEKTİFİ

**N.A.Aliyeva**
Nahçıvan Devlet Üniversitesi

***Özet:*** *Makale işletmelerin çeşitlendirme faaliyetlerini yönlendirmede ve kolaylaştırmada pazarlamanın hayati rolünü inceliyor. Günümüzün hızla gelişen iş ortamında, işletmeler sürekli olarak büyüme ve genişleme için yeni yollar aramaktadır. Ürün gruplarını genişletmek, yeni pazarlara girmek veya farklı müşteri segmentlerini hedeflemek yoluyla çeşitlendirme, genellikle değişen pazar dinamiklerine uyum sağlamak ve yeni fırsatları yakalamak isteyen şirketler tarafından kullanılan temel bir stratejidir. Bu makale, çeşitlendirme çabalarının başarısının sağlanmasında ve maksimuma çıkarılmasında pazarlama stratejilerinin nasıl merkezi bir rol oynadığını incelemektedir. Vaka çalışmaları, sektör içgörüleri ve teorik çerçevelerin bir kombinasyonu aracılığıyla, işletmelerin tekliflerini çeşitlendirmek ve erişim alanlarını genişletmek için yararlanabilecekleri çeşitli yenilikçi yaklaşımları araştırıyoruz. Pazar araştırması ve segmentasyondan markalama, iletişim ve dağıtım stratejilerine kadar pazarlamanın kurumsal çeşitlendirmeyi yönlendirebileceği çok yönlü yolları analiz ediyoruz. Sonuçta bu makale, günümüzün dinamik iş ortamında yeni büyüme fırsatlarını belirlemelerine ve bunlardan yararlanmalarına olanak tanıyan, stratejik bir pazarlama merceği aracılığıyla çeşitlendirmenin karmaşıklıklarını aşmak isteyen işletmeler için değerli bilgiler ve pratik rehberlik sağlar.*

***Anahtar kelimeler:*** *işletme çeşitlendirmesi, pazarlama stratejisi, büyüme fırsatları, pazar araştırması, dağıtım stratejileri*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 04.03.2024**
**Çapa qəbul edilib: 11.03.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

UOT 33

# AZƏRBAYCAN ƏHALİSİNİN GƏLİR VƏ XƏRCLƏRİNİN DÜNYA ÖLKƏLƏRİ İLƏ MÜQAYİSƏLİ TƏHLİLİ

**Aytəkin Oqtay qızı Məmmədova**
Azərbaycan Dövlət İqtisad Universiteti
aytakin_mammadova@unec.edu.az

***Xülasə:*** *Məqalədə iqtisadi artım və iqtisadi inkişafın əhalinin həyat səviyyəsinə göstərdiyi təsir şərh olunmuş, gəlir səviyyəsinə görə müxtəlif ölkələrin təsnifatı verilmişdir. MDB dövlətlərində yaşayış minimumu və orta aylıq nominal əməkhaqqı statistik məlumatlar əsasında müqayisə olunmuşdur. Eyni zamanda, müxtəlif ölkələrin minimal istehlak səbətlərinin tərkibinin müqayisəsi verilmişdir. Tədqiqatda "əmək haqqı ilə idarə edilən iqtisadiyyat" gəlirlər üzrə əhalinin təbəqələşməsinin azaldılmasına, əhalinin bütün təbəqələrinin iqtisadi fəallaşmasına və gəlirin bölüşdürülməsində ədalətliliyə yönəlmiş iqtisadi artım modeli kimi təhlil olunmuşdur.*

***Açar sözlər:*** *gəlirlər, xərclər, əmək haqqı ilə idarə olunan iqtisadiyyat, yoxsulluq, inkişaf modeli, iqtisadi artım, iqtisadi inkişaf*

## Giriş

İqtisadi artım, bir ölkə daxilində ÜDM, ÜMM və ya xalis məhsul artımı hesabına müəyyən edilən, istehsal sistemindəki kəmiyyət dəyişikliklərini əks etdirən bir prosesdir. İqtisadi inkişaf isə bütövlükdə səmərəliliyi artıran, komponentlərin mütərəqqi, məqsədyönlü dəyişməsi, qarşılıqlı əlaqəsi və qarşılıqlı tənzimlənməsi, keyfiyyət və işləmə vəziyyətidir. Bu proseslərin nəzəri bir kontekstdə öyrənilməsi, qarşılıqlı təsiri onların fəaliyyətinin bir xüsusiyyəti olaraq təyin edir, çünki bir tərəfdən artım dinamik dəyişikliklərin vaxtını, inkişaf yolunda daha mürəkkəb formaların yaradılmasını şərtləndirir və inkişafın əsasını təşkil edir. Digər tərəfdən uzunmüddətli keyfiyyət şaxələndirilməsi gələcəkdə sosial sistemin inkişafı üçün yeni stimula səbəb ola biləcək kəmiyyət (artım) və keyfiyyət (tərəqqi, təkamül) dəyişikliklərinin təbiətinə təsir göstərir [16]. Buna əsaslanaraq, həm artım, həm də inkişaf proseslərinin sosial inkişaf üçün eyni dərəcədə vacib olduğu qənaətinə gəlmək olar, üstəlik, onların səmərəli birləşməsi ikinciyə nail olmağın açarıdır. Bu səbəbdən insan kapitalını artımın əsas amili kimi təyin edən nəzəriyyələr artım və inkişafı birləşdirir [12]. Təcrübədə əksər milli iqtisadiyyatların iqtisadi inkişafı modellərinin məqsədi artım (adambaşına düşən ümumi gəlir), həyat keyfiyyətinin yaxşılaşdırılması və Minilliyin Bəyannaməsində formalaşdırılmış müasir inkişaf üsulları olan yetişmə, qabaqlayıcı və davamlı inkişaf üsulları əsasında inkişaf modellərini daha səmərəli şəkildə tətbiq etməkdir. Bu üsulların hər birinin xarakterik əlamətləri mövcuddur və müxtəlif ölkələrin təcrübəsi onların istifadəsini təcəssüm etdirir.

## İnkişaf modeli

Yüksək iqtisadi göstəricilərə yetişmə inkişaf modeli, inkişaf etmiş ölkələrdə istifadə olunur və lider inkişaf etmiş ölkələrin iqtisadi modellərinə istinadı nəzərdə tutur. Ali məqsədə çatmaq üçün bu ölkələr inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq, postindustrial mərhələdən post-sənaye sisteminə keçid etməklə iqtisadi inkişaf tempinin və səviyyəsinin kəskin artımına diqqət yetirirlər. Belə ölkələr liderdən daha çox elmi-texniki tərəqqinin nailiyyətlərini mənimsəməklə inkişafı əldə edirlər. Buna görə də inkişaf etməkdə olan iqtisadiyyatlarda innovasiyaların reallaşdığı əsas kapitala investisiyalar kimi önə çıxır. İnvestisiya nisbətinin azalması artımın yavaşlaması və onu tutmaq trayektoriyasından geridə qalan inkişaf trayektoriyasına keçid ehtimalı deməkdir. Əgər bu model özünü doğruldursa, bu, təkcə lider ölkələrlə ayaqlaşmağa deyil, həm də rifahın yüksəlməsinə və cəmiyyətin artan ehtiyaclarının ödənilməsinə kömək edir. Çin və Hindistanda iqtisadi artımın təmin edilməsi baxımından əsas üstünlüyü kəndlərdən şəhərlərə illik axın edən on milyonlarla əmək qabiliyyətli insan olan nəhəng ucuz işçi resurslarıdır.

Qabaqlayıcı inkişaf modeli yüksək iqtisadi göstəricilərə yetişmə modelinə çox oxşardır, lakin bu versiyada modelin məqsədi bu və ya digər inkişaf etmiş ölkənin uğurunu əldə etmək deyil, inkişafda yeni bir yüksək səviyyəni formalaşdırmaqdır. Bu modeli tətbiq edən ölkələrdə iqtisadi və sosial həyatın əsas sahələrində dövlətin iştirakı, əhəmiyyətli struktur və institusional dəyişikliklərlə iqtisadiyyatın modernləşdirilməsi, milli məhsul istehsalının intensivliyi, əmək məhsuldarlığının artması, ölkənin bərabərhüquqlu əməkdaşlıq əsasında inteqrasiya proseslərinə girməsi müşahidə edilir.

Davamlı inkişaf modeli sabit inkişaf templərini, makroiqtisadi göstəriciləri və struktur dəyişikliklərini tətbiq edir (onları sabit səviyyədə saxlayır, lakin bu yüksək səviyyə olmaya da bilər). Dünya ölkələrindəki iqtisadi proseslərin müqayisəli təhlili üçün metodoloji və nəzəri əsas olduqca fərqlidir. Bu təhlil bir tərəfdən iqtisadi məktəblərin yanaşmalarına və istiqamətlərinə əsaslanır, digər tərəfdən, modelləşdirmə prosesində həm dövlətin, həm də bütövlükdə cəmiyyətin əldə edilmiş sosial-iqtisadi inkişafına əsaslanan müqayisə metodikası ilə paralel siyasi amillər, ictimai-siyasi elmlərin birləşməsi, sivilizasiya, təkamül və cəmiyyətin dövri inkişafı mərhələləri istifadə olunur [13].

**Gəlir səviyyəsinə görə müxtəlif ölkələrin təsnifatı**

Bu gün dünya ölkələrinin bir neçə istiqamətdə, məsələn, adambaşına düşən ÜDM, gəlir səviyyəsi, inkişaf tempi və s. bölüşdürülərək təhlil edilməsi nəticəsində maraqlı faktlar ortaya çıxır. 2020-ci ildə Dünya Bankının Atlas metodu ilə hesablanması əsasında ölkələrin qruplaşması və gəlirlərin yeni sərhədləri müəyyən edilib.

– aşağı gəlirli ölkələr kimi adambaşına düşən ÜDM-i 1,045 ABŞ dollar və ya daha az olan ölkələr müəyyən edilir. Hazırda 27 ölkə aşağı gəlirli ölkədir;

– aşağı-orta gəlirli ölkələr kimi adambaşına düşən ÜDM-i 1,046 ABŞ dollar ilə 4,095 ABŞ dollar arasında olan ölkələrdir. Hazırda bu siyahıda 55 ölkə var;

– yuxarı-orta gəlirli ölkələr kimi adambaşına ÜDM-i 4,096 ABŞ dollar ilə 12,695 ABŞ dollar arasında olan ölkələrdir və onların sayı 55-dir;

– yüksək gəlirli ölkələr adambaşına düşən ÜDM-i 12,696 ABŞ dollar və ya daha çox olan ölkələrdir ki, onlar da 80 ölkədir.

Azərbaycan Respublikası yuxarı-orta gəlirli ölkə kimi müəyyən edilir. Qeyd edək ki, "adambaşına düşən orta gəlir səviyyəsi 10-15 min ABŞ dollarına çatmış inkişaf etməkdə olan ölkələrə inkişaf etmiş ölkələr kateqoriyasına keçmək üçün bu göstəricini iki dəfə artırmaq çox çətindir. Bu, "orta gəlir tələsi" deyilən şeydir. Əsasən dərin struktur transformasiyaları ilə əlaqədardır, çünki işçilərin maaşlarının artması səbəbindən ənənəvi sahələr rəqabətə davamsız olur. XX əsrdə yalnız beş ölkə bu problemi həll edə bildi: Yaponiya, Cənubi Koreya, Tayvan, Honq-Konq və Sinqapur. "Orta gəlir tələsi" problemi artıq "orta gəlirli ölkələr qrupuna" daxil olan Çinin qarşısındadır. Təxminən 10-15 ildən sonra Hindistanda da eyni proses başlayacaq" [10, s. 237-239].

**Əmək haqqı ilə idarə olunan iqtisadiyyat**

Həmçinin, yoxsulluğun əhəmiyyətli dərəcədə azalması, xüsusən də gəlirlər üzrə, ÜDM-in strukturunda müəyyən dəyişikliyə səbəb olur ki, bu da muzdlu işçilərin əmək haqqının payının artırılmasını nəzərdə tutur. Bununla belə, yerli mallarının beynəlxalq rəqabət qabiliyyəti bu şəraitdə (nisbətən sabit valyuta məzənnəsi nəzərə alınmaqla) vahid əmək xərclərinin qaçılmaz artması səbəbindən azalacaq və bu malların keyfiyyəti deyil, qiymətinin xüsusilə vacib olduğu bazarlarda özünü daha çox biruzə verəcək. Bundan əlavə, əmək haqqının ÜDM-də xüsusi çəkisinin sabit artımı və daxili bazarın artımına (xarici bazarla müqayisədə) daha çox önəm verilməsi nəticəsində əldə edilən iqtisadi artım "əmək haqqı ilə idarə olunan iqtisadiyyat", yəni maaşa əsaslanan iqtisadiyyat (wage-led economy) adlandırılır. Bu yanaşma tələbin məhdudlaşdırılmasına əsaslanan iqtisadiyyatı vurğulayan konsepsiya çərçivəsində mövcuddur. "Əmək haqqı ilə idarə olunan iqtisadiyyat" termini mövcud ictimai-siyasi vəziyyət fonunda reallıqda meydana çıxan iqtisadiyyatın iqtisadi nisbətlərinin və struktur xüsusiyyətlərinin mühüm aspektlərini xarakterizə edir. "Əmək haqqı ilə idarə edilən iqtisadiyyat" konsepsiyası çərçivəsində belə hesab edilir ki, əmək haqqı və ümumiyyətlə, işçilərin gəlirləri təkcə xərclərin formalaşmasında əsas amil deyil, həm də

iqtisadiyyatın ən mühüm hərəkətverici qüvvəsidir, iqtisadi artıma və əməyə qənaət edən innovasiyalara daimi təkan verən amildir. Eyni zamanda, qeyd edə bilərik ki, kifayət qədər aşağı yığım dərəcəsi və bir sıra digər makroiqtisadi ilkin şərtlərə nail olmaqla ev təsərrüfatlarının gəlirləri xərcə çevrilərək iqtisadi artımda dominant amilə çevrilir. İqtisadi artım həm ev təsərrüfatlarının gəlirlərinin ÜDM-in həcmində üstünlük təşkil edən ölçüsü, həm də varlılara nisbətən əhalinin daha az gəlirli təbəqəsinin gəlirlərinin cari istehlaka daha çox meylli olması ilə bağlıdır. Bundan əlavə, qloballaşma şəraitində əhalinin varlı təbəqəsinin gəlirləri və mənfəəti çox vaxt ölkədən kənara kapital axınının mənbəyinə çevrilir, bu halda kapitalın xaricə ixracı ölkə daxilində iqtisadi artım tempini azaldır.

"Əmək haqqı ilə idarə edilən iqtisadiyyat" gəlirlər üzrə əhalinin təbəqələşməsinin azaldılmasına, əhalinin bütün təbəqələrinin iqtisadi fəallaşmasına və gəlirin bölüşdürülməsində ədalətliliyə yönəlmiş iqtisadi artım modelidir. Lakin bu modelin həyata keçirilməsi üçün dünya bazarında səmərəli və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasına xidmət edən zəruri şərtlərə riayət etmək tələb olunur. Bu cür iqtisadiyyat həqiqətən innovativ, rəqabətədavamlı, yaradıcı olmalı, yeniləşməyə, yəni sıçrayış xarakterli ciddi struktur dəyişikliklərinə yönəldilməlidir. Xüsusilə, işçilərin əmək haqqının xüsusi çəkisinin artması fonunda ÜDM-də mənfəətin payının aşağı düşməsi investisiyaları azaltmamalıdır. Yəni gələcək artımın qarşısını almamaq üçün elə investisiya mexanizmlərinin formalaşdırılması zəruridir ki, investisiyaların dinamikasına investisiya layihələrinin rentabelliyi deyil, akselerator amili (yəni potensial gücün istifadəsinin artımı), o cümlədən investisiya mühitinin keyfiyyəti və iqtisadi agentlərin müsbət gözləntiləri təsir etsin. Bundan əlavə, əmək haqqı ilə idarə edilən iqtisadiyyatda əmək məhsuldarlığının artımı əmək haqqının artımı hesabına motivasiya edilir. Bu, elmi-texniki tərəqqinin əməyə qənaət edən modelinin məqsədyönlü formalaşdırılmasını, habelə innovasiya prosesinin və insan kapitalının təkrar istehsalı sisteminin, xüsusilə təhsilin maliyyələşdirilməsində dövlətin fəal iştirakını nəzərdə tutur. Bu zaman ölkənin ixracının xüsusiyyətləri elə olmalıdır ki, o, daha çox əmtəə və xidmətlərin qiymətinə deyil, yeni növ mal və xidmətlərin keyfiyyətinə, onların təklifinə yönəlsin. Əməyin ÜDM-də yüksək payı inkişaf etmiş həmkarlar ittifaqları və ictimai təşkilatlar tərəfindən təmin edilməli və qorunmalıdır. Beləliklə, iqtisadiyyatın əmək haqqı ilə idarə olunan, əməkhaqqına əsaslanan artım modeli sadəcə olaraq əmək haqqının və ümumiyyətlə, işçilərin ÜDM-də payının artırılmasını nəzərdə tutmur, əksinə bir sıra vacib şərtlərin olmasınnı da tələb edir. İqtisadiyyatın uzunmüddətli perspektivdə effektiv olması üçün onun müəyyən əsas xüsusiyyətləri və tənzimləmə sistemləri bu modelə uyğun olmalıdır. Yəni iqtisadiyyatın lazımi vəziyyəti və iqtisadi siyasət alətlərinin koordinasiyası vacibdir.

2007-2009 böhranından sonra "əmək haqqı ilə idarə olunan iqtisadiyyat" inkişaf modeli indi dünyanın bəzi inkişaf etmiş ölkələrinin iqtisadiyyatları üçün xarakterikdir [15]. Eyni zamanda, hesab edilir ki, keçən əsrin 80-cı illərindən başlayaraq əmək vahidi xərclərini rəqabətli şəkildə azaltmaqla xalis ixracı artırmağa yönəlmiş ixracyönümlü artım modelinin dünyada (Çində, Almaniyada və s. ölkələrdə) tətbiqinin uğuru qlobal disbalansın artması ilə bağlıdır. Bu isə qlobal iqtisadiyyatın uzunmüddətli davamlılığına xələl gətirir. Belə ki, bütün ölkələr xalis ixracatçı ola bilməzlər. Mənfi məqam kimi o da nəzərə alınır ki, ixracyönümlü artım modeli çərçivəsində istehlak və ipoteka kreditləri bazarında tez-tez borc formalaşır. Çünki ev təsərrüfatlarının borcu müəyyən dərəcədə əmək vahidi xərclərinin azalmasını kompensasiya edir və sosial sabitliyi qoruyur.

Beynəlxalq Əmək Təşkilatının qlobal əmək haqqı ilə bağlı 2018-2019-cu illər üzrə hesabatında qeyd edilir ki, "2017-ci ildə orta qlobal əmək haqqı cəmi 1,8 faiz artıb. Bu, 2008-ci ildən bəri ən aşağı artım tempidir. Sənayeləşmiş G20 ölkələrində bu göstəricilər qlobal göstəricilərdən də aşağıdır: İşçilərin gəlirləri 2016-cı ildə cəmi 0,9 %, 2017-ci ildə isə 0,4 % artıb. Bununla belə, G20-nin kasıb ölkələrində və orta inkişaf səviyyəsinə malik dövlətlərdə keçən il işçilərin gəlirləri orta hesabla 4,3 % artıb. Şərqi Avropa dövlətlərində 2017-ci ildə maaşlar əvvəlki illə müqayisədə 5 % artıb. ABŞ-da isə işçilərin gəlirlərinin artım tempi 2015-ci ildəki 2,2 %-dən 2016 və 2017-ci illərdə 0,7 %-ə enib. Son bir ildə Fransa və Almaniyada əmək gəlirləri demək olar

ki, artmayıb. Ümumilikdə, son 20 ildə orta gəlirli və inkişaf etməkdə olan G20 ölkələrində orta əmək haqqı təxminən 3 dəfə, zəngin ölkələrdə isə cəmi 9 % artıb. Amma eyni zamanda, yoxsul ölkələrdə hələ də yüksək səviyyədə gəlir bərabərsizliyi mövcuddur" [9].

Rifah səviyyəsini müəyyən etmək üçün çox vaxt ölkə vətəndaşlarının orta aylıq əmək haqqının ölçüsündən istifadə olunur. Lakin qeyd etməliyik ki, burada hökumət məlumatları, ictimai və beynəlxalq təşkilatların məlumatları və dolayı nəticələr kəskin şəkildə fərqlənir. Məsələn, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına görə, 2019-cu ildə ölkədə orta əmək haqqı 723 manat (425 ABŞ dolları) təşkil edirdisə [3], MDB Statistika Komitəsi 635 manat (374 ABŞ dolları) rəqəmini verir. Bura kölgə iqtisadiyyatından alınan əmək haqqılar da əlavə edilərsə, tamam başqa rəqəmlər əldə edəcəyik. Eyni çaşqınlıq inflyasiya dərəcəsi ilə bağlıdır. Rəsmi məlumata görə, 2018-ci ildə 2,3 % idisə, Azərbaycan İqtisadi və Sosial İnkişaf Mərkəzinin (İSİM) məlumatına görə, 7,3 %, yəni 5 % yüksəkdir [4]. Biz təhlilimizdə bu fərqi "ən pis hal" ssenarisindən çıxış edərək aparmağa çalışaq.

MDB dövlətləri üzrə orta aylıq nominal əmək haqqının artımı son 15 ildə 1,9–5 dəfə artmışdır. Qrafik 1-dən göründüyü kimi, ən yüksək artım Rusiyada, ən aşağı artım isə Qazaxıstanda müşahidə edilir. Azərbaycanda isə artım 3,2 dəfə olmuşdur.




| | 2005 | 2010 | 2015 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Azərbaycan | 131 | 413 | 455 | 374 | 416 |
| Belarus | 215 | 407 | 413 | 523 | 510 |
| Qazaxıstan | 256 | 527 | 568 | 488 | 498 |
| Qırğızıstan | 64 | 156 | 209 | 247 | 245 |
| Ermənistan | 114 | 275 | 359 | 380 | 388 |
| Moldova | 105 | 240 | 241 | 412 | 468 |
| Rusiya | 303 | 682 | 561 | 740 | 712 |
| Tacikistan | 27 | 81 | 143 | 140 | 135 |
| Ukrayna | 157 | 282 | 193 | 409 | 432 |

**Qrafik 1.** MDB dövlətləri üzrə orta aylıq nominal əməkhaqqı, ABŞ dolları ilə. **Mənbə:** [17]

"Dünya iqtisadiyyatının inkişaf perspektivləri" [7] üzrə ölkələr aşağıdakı təsnifatda səciyyələndirilir:

- İnkişaf etmiş ölkələr (39 ölkə). Dünya ÜDM-nin 42,5 %-nə, məhsul və xidmətlərin 63 %-nə, dünya əhalisinin 14,1 %-nə sahibdirlər. "7"-yə daxil ölkələrdə bu göstəricilər analoji olaraq, 31,2 %, 32,2 % və 10,1 %-dir.
- Bazarı formalaşmaqda olan və inkişaf etməkdə olan ölkələr – 156 ölkədir. Dünya ÜDM-nin 57,5 %-nə, məhsul və xidmətlərin 37 %-nə, dünya əhalisinin 85,9 %-nə sahibdirlər. Bu ölkələr aşağıdakı regional qruplara bölünmüşdür:

1. Bazarı formalaşmaqda olan və inkişaf etməkdə olan Asiya ölkələri – 30 ölkə. Dünya ÜDM-nin 32,2 %-nə, məhsul və xidmətlərin 19,8 %-nə, dünya əhalisinin 48 %-nə sahibdirlər;
2. Bazarı formalaşmaqda olan və inkişaf etməkdə olan Avropa ölkələri – 16 ölkə. Dünya ÜDM-nin 7,7%-nə, məhsul və xidmətlərin 6 %-nə, dünya əhalisinin 5 %-nə sahibdirlər;
3. Latın Amerikası və Karib körfəzi ölkələri – 33 ölkə. Dünya ÜDM-nin 7,3 %-nə, məhsul və xidmətlərin 4,9 %-nə, dünya əhalisinin 8,3 %-nə sahibdirlər;

4. Yaxın Şərq və Mərkəzi Asiya ölkələri – 32 ölkə (Azərbaycan bu qrupa daxil edilir). Dünya ÜDM-nin 7,2 %-nə, məhsul və xidmətlərin 4,9 %-nə, dünya əhalisinin 10,7 %-nə sahibdirlər;

5. Afrika, Saxaradan cənuba doğru – 45 ölkə. Dünya ÜDM-nin 3,1 %-nə, məhsul və xidmətlərin 1,5 %-nə, dünya əhalisinin 13,7 %-nə sahibdirlər.

Ümumiyyətlə, müxtəlif ölkələrin minimal istehlak səbətlərinin tərkibini müqayisə üçün nəzərdən keçirək. Minimal istehlak səbətinə məhsul, mal və xidmət daxildir və yaşayış minimumunu təyin etmək üçün istifadə edilir. Müqayisə üçün qeyd edək ki, 2019-cu ildə istehlak səbəti Rusiyada 156 adda, Almaniya və Böyük Britaniyada 700-dən çox, ABŞ-da 300, Fransada 256 adda məhsul və xidmətlərdən ibarət olmuşdur [6, s.41] .

Azərbaycanda minimal istehlak səbəti 32 maddə üzrə qruplaşdırılıb və 5 ildə bir dəfə yenidən təyin edilməsi tələbinə baxmayaraq, son dəfə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 2014-cü ildə təsdiq edilib, 2018-ci ildə yeni redaksiyada verilsə də əvvəlkindən kəskin şəkildə fərqlənməyib.

**Cədvəl 1**

**Ölkələrin 2020-ci ildə minimal istehlak səbətlərinin tərkibinin müqayisəsi, %-lə**

| | Azərbaycan | Rusiya | Almaniya | | ABŞ | |
|---|---|---|---|---|---|---|
| Ərzaq malları və alkoqolsuz işçilər | 37,5 | 50 | 10 | 17 | 13 | 20,6 |
| Alkoqollu işçilər, tütün, rabitə və təhsil | | | 7 | | 7,6 | |
| Geyim və ayaqqabı | 31,25 | 25 | 5 | 17 | 3 | 9,3 |
| Ev üçün mallar | | | 5 | | 3,3 | |
| Müxtəlif əmtəə və xidmətlər | | | 7 | | 3 | |
| Mənzil, su, elektrik enerjisi, qaz və digər | 31,25 | 25 | 32 | 66 | 36,1 | 70,4 |
| Nəqliyyat | | | 13 | | 5,9 | |
| Yanacaq | | | | | 4 | |
| Əmtəə daşınması | | | | | 6,4 | |
| İstirahət, əyləncə və mədəniyyət | | | 11 | | 3,9 | |
| Restoran və mehmanxana xidmətləri | | | 5 | | 7 | |
| Səhiyyə | | | 5 | | 7,1 | |

**Mənbə:** Потребительская корзина: особенности формирования и наполнения https://vc.ru/finance/110332-potrebitelskaya-korzina-osobennosti-formirovaniya-i-napolneniya

Təhlildən görünür ki, inkişaf etmiş ölkələrdə istehlak səbətinin tərkibində ərzaq məhsullarının çəkisi azaldığı halda, inkişafda olan ölkələrdə əksinə bu göstərici yüksək olaraq qalmaqdadır. Bu tendensiyanı ev təsərrüfatlarının ərzaq və alkoqolsuz içkilərin alınmasına çəkilən xərclərə diqqət yetirərək müxtəlif ölkələrin müqayisəsində də aydın görmək olar. Ev təsərrüfatlarının ərzaq və alkoqolsuz içkilərin alınmasına çəkilən xərcləri istehlak xərclərinin MDB məkanında 40-60 %-ni təşkil etdiyi halda inkişaf etmiş ölkələrdə bu göstərici 10-20 % arasındadır.

Dünya ölkələri üzrə orta aylıq minimum əmək haqqının müqayisəsinə gəldikdə 2019-cu il üzrə məlumatlara diqqət yetirsək, bu, regionlar üzrə aşağıdakı şəkildə olmuşdur.

Afrikada alıcılıq qabiliyyəti paritetində orta aylıq minimum əmək haqqı 220 dollar, faktiki minimum əmək haqqı Uqandada 5 dollardan Seyşel adalarında 767 dollara qədər dəyişmişdir. Ən yüksək minimum əmək haqqı Seyşel adaları, Liviya, Mərakeş və Cənubi Afrikada, ən aşağısı isə Uqanda, Burundi və Ruandada olmuşdur. Son üç ölkədə orta aylıq minimal əmək haqqını günlərə böldükdə o, gündəlik tələb olunan 1,9 ABŞ dolları olan ifrat yoxsulluq həddində belə deyil. Esvatini, Qambiya və Malavidə orta aylıq minimal əmək haqqını günlərə böldükdə o, gündəlik tələb kimi qoyulan 3,2 dollar, bir sıra digər ölkələrdə isə 5,5 dollarlıq yoxsulluq həddindən aşağıdır.

Amerika qitəsində alıcılıq qabiliyyəti paritetində orta aylıq minimum əmək haqqı 668 dollardır, faktiki minimum əmək haqqı Meksikada 289 dollardan Kanadada 1612 dollara qədərdir. Ən yüksək minimum əmək haqqı Kanada və ABŞ-da, ən aşağısı isə Meksika, Haiti və

Yamaykadadır. Amerika qitəsinin bütün ölkələrində minimum əmək haqqı üç beynəlxalq yoxsulluq həddinin üstündə müəyyən edilir (alıcılıq qabiliyyəti pariteti baxımından).

Asiya və Sakit Okean regionunda alıcılıq qabiliyyəti pariteti baxımından orta aylıq minimum əmək haqqı 381 ABŞ dollarıdır, faktiki minimum əmək haqqı Banqladeşdə 48 ABŞ dolları ilə Avstraliyada 2166 ABŞ dolları arasında dəyişir. Bu regionda inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında aydın fərq müşahidə oluna bilər, dörd inkişaf etmiş ölkə, yəni Yaponiya, Koreya Respublikası, Yeni Zelandiya və Avstraliya, ayda 1348 dollardan 2166 dollara qədər yüksək minimum əmək haqqı dərəcələri ilə seçilir. Bölgənin qalan hissəsində minimum əmək haqqı ayda 200 ABŞ dolları ilə 800 ABŞ dolları arasında dəyişir.

Ərəb dövlətlərində orta aylıq minimum əmək haqqı 738 ABŞ dollarıdır, faktiki minimum əmək haqqı Küveytdə 401 ABŞ dollarından Omanda 1570 ABŞ dollarına qədər dəyişir, lakin bu, yalnız ölkə vətəndaşlarına aiddir. İraq və İordaniyada aylıq minimum əmək haqqı müvafiq olaraq 659 dollar və 738 dollar müəyyən edilib, Livanda isə aylıq 885 dollardan bir qədər yuxarıdır. Qətərdə ev işçiləri də daxil olmaqla, bütün işçilərə şamil olunan minimum əmək haqqı 2020-ci ildə işəgötürən tərəfindən təmin edilən yemək və mənzil üçün 1000 Qətər riyalı (təxminən 275 ABŞ dolları) və başqa halda 1800 Rial (təxminən 495 ABŞ dolları) səviyyəsində yenidən müəyyən edilib.

Avropa və Mərkəzi Asiyada alıcılıq qabiliyyəti pariteti baxımından orta aylıq minimum əmək haqqı 1043 ABŞ dollarıdır, faktiki minimum əmək haqqı Gürcüstanda 47 ABŞ dolları ilə Lüksemburqda 2433 ABŞ dolları arasında dəyişir. Ən yüksək minimum əmək haqqı Lüksemburq, İrlandiya və Almaniyada, ən aşağısı isə Gürcüstan, Qırğızıstan, Tacikistan və Moldova Respublikasındadır. Gürcüstanda orta aylıq minimal əmək haqqını günlərə böldükdə o, gündəlik tələb kimi qoyulan 1,9 ABŞ dolları olan ifrat yoxsulluq həddində belə gəlir vermir, Qırğızıstanda isə ikinci ən yüksək beynəlxalq yoxsulluq həddinə – gündə 3,2 ABŞ dollarına çatmır. Azərbaycanda alıcılıq qabiliyyəti pariteti baxımından orta aylıq minimum əmək haqqı 147 ABŞ dollar (460 AZN) olmuş və orta aylıq minimal əmək haqqını günlərə böldükdə o, gündəlik tələb kimi qoyulan üçüncü ən yüksək beynəlxalq yoxsulluq həddinə - gündə 5,5 ABŞ dollarına çatmamışdır [5, s.117].

Təhlil göstərir ki, gəlirlərdə qeyri-bərabərlik inkişaf səviyyəsindən asılı olmayaraq müxtəlif ölkələrdə mövcuddur. Belə ki, beynəlxalq tədqiqat təşkilatlarının hesablamalarına görə 2013-cü ildə dünyada ən aşağı Cini əmsalı Skandinaviya ölkələrində müşahidə olunmuşdur. Bu göstərici Çində 0.47, Sinqapurda 0.46 olmuşdur. 2008-ci ilin hesablamalarına görə Azərbaycan üçün Cini əmsalı 0.337 müəyyən olunmuşdur. Halbuki bu əmsal 2001-ci ildə 0.365 hesablanmışdır. Azərbaycan əhalisi artan bərabərsizliklə üzləşir. "Bundan əlavə, ikinci əsas indikator sayılan "İnklüzivlik" indikatoru əhali arasında təbəqələşmənin səviyyəsi, yoxsulluğu, fiziki şəxslər və ev təsərrüfatlarının gəlirlərin bölgüsünü (Gini – Xalis gəlirlər) təyin edir. Hesabata əsasən, sözügedən indikator üzrə ölkəmizin əldə etdiyi qiymətləndirmə nəticələri dünyanın inkişaf etməkdə olan ölkələrindən daha yaxşıdır. Hesabatın metodologiyasına əsasən, Cini əmsalı sub-indikatoru 0-100 bal arasında dəyişir ki, 0 bal olduqda əhali arasında bərabərlik ən yüksək səviyyədə olması, 100 bal olduqda isə əhali arasında bərabərsizliyin ən yüksək səviyyədə olması kimi qiymətləndirilir. Sub-indikatorun hesablanması fiziki şəxslər və ev təsərrüfatlarında çalışan insanlar arasında gəlirlərin (vergi və köçürmədən sonra) bərabər və ədalətli şəkildə bölünməsini özündə ehtiva edir. Azərbaycan 28.6 balla qiymətləndirilib ki, bu sub-indikator üzrə Azərbaycan hətta lider Litvanı da geridə qoyaraq, Macarıstandan sonra ən yaxşı göstəriciyə malikdir" [2]. Gəlir bərabərsizliyinin ölçüsü olan Cini əmsalı 2000-ci ildəki 3,47-dən 2018-ci ildə 17,07-yə yüksəlib. Məsələn, qlobal məlumat dəstlərinə daxil edilmiş Azərbaycan Ev Təsərrüfatlarının Gəlir və Xərcləri Sorğusunun təqdim etdiyi Cini əmsalı ələqəli haldır. Azərbaycan üçün Cini əmsalı aşağı idi ki, bu da ölkədə sosial bərabərsizliyin aşağı səviyyədə olduğunu göstərir. Neft bumu yaşayan bir ölkə üçün bu, gözlənilməz nəticə idi; nəzəriyyə daha çox yüksək bərabərsizliyi nəzərdə tutur. Əslində, aşağı qiymət qismən daha varlı orta sinif ev təsərrüfatlarının hesabatda göstərilməyən gəlirlərini aşkar etmək qorxusu ilə sorğuda iştirak etməmələri ilə əlaqədar ola bilər. Lakin onu da qeyd edək ki, respublikamızda son illər Cini əmsalının sıfıra yaxınlaşmasını əsasən, ölkəmizdə iqtisadi imkanların genişlənməsi, məşğulluq

səviyyəsinin artması, yeni iş yerlərinin açılması, əmək haqqı, pensiya və müavinətlərin artırılması, vəzifədən sui-istifadə hallarının azaldılmasının məntiqi nəticəsi kimi də qiymətləndirmək olar. Təhlil göstərir ki, Azərbaycan Respublikası gəlirlərdə olan qeyri-bərabərsizlik baxımından bir çox ölkələrdən (ABŞ, ÇXR, İİR və s.) üstün mövqedədir. Gətirilən faktlar ölkəmizdə gəlirlərin bərabərsizliyi üzrə müsbət dinamikanın davamlı olduğunu deməyə əsas verir.

Beləliklə, dünya ölkələrində gəlirlərin səviyyəsi baxımından təhlil edilməsi ölkələrdə yoxsulluğun səviyyəsinin təyin edilməsi üçün istifadə edilir. Məsələn, Avropa ölkələrində Azərbaycandan "fərqli olaraq yoxsulluğu müəyyənləşdirərkən istehlak xərclərinə əsaslanan mütləq yoxsulluq göstəricisindən daha çox, gəlirlərə əsaslanan nisbi göstəriciyə üstünlük verirlər. Avropa Birliyinin statistika orqanı nisbi yoxsulluq səviyyəsi ilə yanaşı, insanların yoxsulluq riski ilə üzləşmə səviyyəsini də aşkarlamaq üçün göstəricilərdən istifadə edir. Məsələn, "maddi məhrumiyyət" və "kəskin maddi məhrumiyyət"in statistikası ayrıca aparılır" [1], [11].

Lakin yoxsulluğun səviyyəsi hazırda yalnız gəlirlə deyil, həm də istehlakla, yəni daha dərin məsələlərin – əhalinin bütün həyat tələbatlarının, təhsil, səhiyyə, işlə, sanitar-gigiyenik şəraitdə yaşama, torpaq, su və digər təbii resurslardan istifadənin, kişi və qadınların hüquq bərabərliyinin təmin edilməsi ilə əlaqələndirilir [14]. Ona görə gəlir və xərclərin meyarlarını dəqiq müəyyən etmək lazımdır. Əsasən də gəlirlərlə bağlı vəziyyəti ifadə edən məlumatlar dəqiqləşdirilməlidir. Almaniya, İsveç və digər Qərbi Avropa ölkələri sosial böhranın qarşısını almaq üçün əhalinin gəlirlərinin unifikasiyasını həyata keçirir. Ölkəmizdə 2021-ci ildə yaşayış minimumu əmək qabiliyyətli əhali üçün 207-i manata, pensiyaçılar üçün 162 manata, 15 yaşa qədər olan uşaqlar üçün isə 175 manata qədər artırılmışdır. Bu ABŞ dolları ilə ifadədə analoji olaraq təqribən 121,7 ABŞ dolları, 95,2 ABŞ dolları və 102,9 ABŞ dolları həcmində olmuşdur. 2023-cü il üçün isə yaşayış minimumu ölkə üzrə 246 manat, əmək qabiliyyətli əhali üçün 261 manat, pensiyaçılar üçün 199 manat, 15 yaşa qədər olan uşaqlar üçün isə 220 manat məbləğində müəyyən olunmuşdur. Lakin bu məbləğ minimal istehlak səbəti əsasında müəyyən edildiyindən istehlak səbətinin tərkibi müxtəlif əhali kateqoriyası üçün yenidən formalaşdırılmalıdır. Əsasən, kəmiyyət dəyişikliklərinin edilməsinə ehtiyac var. Belə ki, bir sıra məhsulların və xidmətlərin tələbatda çəkisinin artırılması, yenilərinin isə (ət və ət məhsullarının çəkisinin, mütəmadi istifadə edilən dərmanların və s.) əlavə edilməsi zəruridir. Həmçinin 15 yaşa qədər olan uşaqların tələbatlarının məktəbəqədər (0-6 yaş), yeniyetmə yaşına qədər (6-12 yaş) və yeniyetmə yaşında (13-15 yaş) fərqli olması nəzərə alınmalıdır ki, bu həm insan kapitalının inkişafına, həm də əhalinin sağlamlığının davamlı olmasına, gəlirlərinin isə real vəziyyətə adekvat şəkildə indeksasiya edilməsinə xidmət etsin. Ümumiyyətlə, istehlak səbətinin tərkibində dəyişikliklər edilərkən dünya üzrə regionlarla yanaşı, ölkədaxili regionların müqayisəli təhlili aparılmalı və iqlim, ekoloji vəziyyət və adət-ənənələr nəzərə alınmalıdır. Əsasən ölkə üzrə istehlak səbətinin formalaşdırılmasında istifadə edilən 585 adda məhsul və xidmətlərin tərkibi və çəkisi həm ölkədaxili regionların, həm də Azərbaycanın daxil edildiyi Yaxın Şərq və Mərkəzi Asiya ölkələri regionunun xüsusiyyətləri nəzərə alınmaq şərti ilə ev təsərrüfatlarında yeni sorğuların aparılması əsasında təyin edilərək redaktə edilməlidir.

## İstifadə edilmiş ədəbiyyat

1. Ağayev Rövşən. Azərbaycanda yoxsulluq meyarları haqda şərh URL:https://afn.az/sosial/66084-azerbaycanda-yoxsulluq-meyarlari-haqda.html).
2. Azərbaycanın "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında irəliləməsi uğurlu islahatların nəticəsidir. URL:https://azertag.az/xeber/Azerbaycanin_Inkluziv_Inkisaf_Indeksi_2018_hesabatinda_irelilemesi_ugurlu_islahatlarin_neticesidir-1130930
3. Orta aylıq nominal əməkhaqqı artıb, 14 noyabr 2019 URL: https://vergiler.az/news/economy/5492.html
4. Азербайджанцы «богаче» чем на самом деле? URL: https://newcaucasus.com/economy/18506-azerbaydzhantsyi-bogache-chem-na-samom-dele.html).

5. Доклад о заработной плате в мире в 2020-2021 гг. Заработная плата и ее минимальный размер в период пандемии COVID-19. Международное бюро труда – Женева: МОТ, 2021 URL: https://www.ilo.org/wcmsp5/groups/public/---europe/---ro-geneva/---sro-moscow/documents/publication/wcms_807292.pdf)

6. Христолюбова Н.Е. Состав и структура потребительской корзины как условие эффективного перехода к цифровой экономике. цифровая экономика 3 (7) 2019 URL: http://digital-economy.ru/images/easyblog_articles/562/de-2019-3-6.pdf)

7. Международный валютный фонд, 2021. Перспективы развития мировой экономики: преодоление неравномерного восстановления экономики. Вашингтон, округ Колумбия, апрель

8. Прожиточный минимум в странах мира в 2023 году URL: https://visasam.ru/emigration/vybor/prozhitochniy-minimum-v-mire.html

9. За 20 лет средняя зарплата в богатых странах выросла всего на 9 процентов/ URL: https://news.un.org/ru/story/2018/11/1343531

10. Akaev A. A. (2015). From the epoch of Great divergence to the epoch of Great convergence. Mathematical modeling and forecasting of long-term technological and economic development of world dynamics. Moscow: Lenand.

11. Bharat Barot (2006). “Empirical Studies in Consumption, House Prices and the Accuracy of European Growth and Inflation Forecasts”. Working Paper No. 98, Dec 2006 Published by The National Institute of Economic Research Stockholm 2006

12. Morgan Reynolds and Eugene Smolensky. “Public Expenditures, Taxes, and the Distribution of Income”. E-Book ISBN: 9781483277608 / First edition - January 28, 1977

13. M. Friedman, A Theory of the Consumption Function. Princeton, NJ, Princeton University Press,1957

14. Poverty in the human development perspective: concept and measurement. (UNDP). Poverty statistics Santiago seminar, 7-9 May, 1997. UNITED NATIONS/ Santiago, Chile

15. Wage-led growth: Theory, Evidence, Policy // Engelbert Stockhammer & Ozlem Onaran. PERI. Working Paper #300. Nov. 2013

16. https://corporatefinanceinstitute.com/resources/economics/standard-of-living/

17. https://www.stat.gov.az/source/labour/

# COMPARATIVE ANALYSIS OF THE INCOME AND EXPENDITURES OF THE POPULATION OF AZERBAIJAN WITH WORLD COUNTRIES

**A.Mammadova**
Azerbaijan State University of Economics

***Abstract:*** *In the article, the impact of economic growth and economic development on the standard of living of the population is explained, and various countries are classified according to the level of income. The minimum living wage and the average monthly nominal salary in the CIS countries were compared based on statistical data. At the same time, the composition of minimal consumption baskets of different countries is compared. In the study, the "wage-led economy" was analyzed as an economic growth model aimed at reducing the stratification of the population by income, economic activation of all sections of the population, and equity in income distribution.*

***Keywords:*** *income, expenditure, wage-driven economy, poverty, development model, economic growth, economic development*

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ДОХОДОВ И РАСХОДОВ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА СО СТРАНАМИ МИРА

**А.О.Мамедова**
Азербайджанский государственный экономический университет

***Резюме:*** *В статье поясняется влияние экономического роста и экономического развития на уровень жизни населения, а также классифицируются различные страны по уровню доходов. Проведено сравнение минимального прожиточного минимума и среднемесячной номинальной заработной платы в странах СНГ на основе статистических данных. При этом сравнивается состав минимальных потребительских корзин разных стран. В исследовании «экономика, основанная на заработной плате» анализировалась как модель экономического роста, направленная на снижение доходного расслоения населения, экономическую активизацию всех слоев населения, справедливость в распределении доходов.*

***Ключевые слова:*** *доходы, расходы, экономика, основанная на заработной плате, бедность, модель развития, экономический рост, экономическое развитие*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 06.03.2024**
**Çapa qəbul edilib: 13.03.2024**

## TƏBİƏT VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİ

UOT 621.01

# ASSUR QRUPLARININ SİNTEZİNƏ DAİR

**[1,6]Vüqar Sabir oğlu Mustafayev, [2,6]Rövşən Paşa oğlu Mustafayev,**
**[3,6]Oqtay Məhərrəm oğlu Məmmədov, [4,6]Ariz Mirəzim oğlu Abbasov,**
**[5,6]İlham Qonsur oğlu Məmmədov**
[1]texnika üzrə fəlsəfə doktoru, dosent
vuqar.mustafayev@mdu.edu.az
[2]rovshan.mustafayev@mdu.edu.az
[3]oqtay.mammadov@mdu.edu.az
[4]ariz.abbasov@mdu.edu.az
[5]ilham.mammadov2@mdu.edu.az
[6]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *İstənilən mexanizm bir bəndi dayaq olmaqla, bir və ya bir neçə bəndinin hərəkəti verildikdə qalan bəndləri birqiymətli təyin olunan hərəkətlər edən kinematik silsilədir. Mexanizmlərin yaradılmasının əsas prinsipində sərbəstlik dərəcəsi sıfra bərabər olan kinematik silsilələr başlıca rol oynayır. Məqalədə bu şərti ödəyən və daha sadələrinə parçalanmayan kinematik silsilələr – Assur qruplarının təsnifatı nəzərdən keçirilmiş, onların sintezi ilə bağlı ümumiləşmiş konkret nəticələr verilmişdir.*

***Açar sözlər:*** *kinematik silsilə, Assur qrupu, kinematik cüt, sinif, tərtib, cilov*

## Giriş

Struktur qrupları mexanizmlərin tərkib hissəsi olmaqla xüsusi əhəmiyyət kəsb edən kinematik silsilələrdir. Zira mexanizm özü bir və ya bir neçə bəndinin hərəkəti verildikdə qalan bəndləri birqiymətli təyin olunan hərəkətlər edən kinematik silsilədir. Aydındır ki, mexanizmə çevriləkən kinematik silsilədə bəndlərdən biri tərpənməz olub dayağa çevrilir. L.V.Assur tərəfindən (*Leonid Vladimiroviç Assur (1878–1920) – maşın və mexanizmlər nəzəriyyəsinin inkişafına böyük töhfələr vermiş görkəmli rus və sovet mexanik və maşınşünas alimi*) 1914-cü ildə təklif olunmuş mexanizmlərin yaradılmasının əsas prinsipinin (Assur prinsipinin) məğzini dayaqdan və giriş bəndindən ibarət olan və şərti olaraq, birinci sinif mexanizm adlandırılan qrupa məhz ardıcıl olaraq struktur qruplarının birləşdirilməsi təşkil edir [1 – 17].

Struktur qrupu sərbəstlik dərəcəsi sıfra bərabər olub, bu şərti ödəyən daha sadə kinematik silsilələrə parşalanmayan kinematik silsilədir. Yastı struktur qrupuna Assur qrupu deyirlər.

**Kinematik silsilələrin təsnifatı**

Ümumi halda kinematik silsilənin $W$ sərbəstlik dərəcəsi 1897-ci ildə P.İ.Somovun təklif etdiyi (*Pavel İosifoviç Somov (1852–1919) – görkəmli rus mexanik-alimi*) və 1923-cü ildə prof. A.P.Malışevin (*Aleksandr Petroviç Malışev (1879–1962) – görkəmli rus və sovet mexanik-alimi*) inkişaf etdirdiyi düstur ilə tapıla bilir. Müasir işarələnmə ilə bu düstur aşağıdakı şəkildə yazılır:

$$W = 6k - 5p_5 - 4p_4 - 3p_3 - 2p_2 - p_1, \qquad (1)$$

burada $k$ – kinematik silsilənin hərəkətli bəndlərinin sayı, $p_5, p_4, p_3, p_2, p_1$ – uyğun olaraq, beşinci, dördüncü, üçüncü, ikinci və birinci sinif kinematik cütlərin sayıdır.

Bu düsturu yalnız kinematik silsilənin bəndlərinin hərəkətləri üzərinə heç bir ümumi məhdudiyyət qoyulmadığı halda tətbiq etmək olar. Bəndlərin hərəkətləri üzərinə ümumi məhdudiyyətlər qoyulduqda kinematik silsilənin hərəkətliliyi üçün prof. V.V.Dobrovolski (*Vladimir Vladimiroviç Dobrovolski (1880–1956) – SSRİ EA-nın müxbir üzvü, professor, mühəndis-mexanik,*

*maşın və mexanizmlər nəzəriyyəsi sahəsində görkəmli rus və sovet alimi*) tərəfindən təklif edilmiş universal düsturdan istifadə olunur [2]:

$$W=(6-r)k-\sum_{i=5}^{r+1}(i-r)p_i\ . \qquad (2)$$

(2) düsturunda *r* parametri kinematik silsilənin bütün bəndləri üzərinə qoyulmuş ümumi rabitələrin sayını müəyyən edir, $r$ = 0, 1, 2, 3 və 4 qiymətləri ala bilər; *i* – kinematik cütlərin sinfi olub, birləşdirilən bəndlərin nisbi hərəkətləri üzərinə qoyulan rabitələrin sayı ilə müəyyən edilir. (1) düsturundan göründüyü kimi, cütlərin sinfi $i$ = 5, 4, 3, 2 və 1 qiymətlərini ala bilər.

Akad. İ.İ.Artobolevski (*İvan İvanoviç Artobolevski (1905–1977) – görkəmli sovet mexanik-alimi, SSRİ EA-nın akademiki, maşın və mexanizmlər nəzəriyyəsi sahəsində mütəxəssis*) kinematik silsilənin üzərinə qoyulmuş ümumi rabitələrin *r* sayından asılı olaraq, bütün silsilələri beş ailədən birinə – sıfırıncı, birinci, ikinci, üçüncü və ya dördüncü ailəyə aid etməyi təklif etmişdir.

Qeyd edək ki, kinematik cütlərin müxtəli növlərinin kombinasiyalarından asılı olaraq, kinematik silsilələrin ailələrini yarımailələrə də bölürlər [2].

**Assur qruplarının təsnifatı**

Assur qrupları siniflərə bölünür. Assur qruplarının siniflərə bölünməsi hər qrupa xas olan kinematik və dinamik analiz metodları ilə şərtlənir.

Yenə də akad. İ.İ.Artobolevskinin təklifi ilə yastı mexanizmlərdə fırlanma cütlərinə daxil olan bəndlərdən ibarət olan Assur qruplarının sinifləri qapalı kontur əmələ gətirən daxili kimematik cütlərin sayına bərabərdir. Mexanizmin sinfi məhz onun tərkibindəki ən böyük sinfə mənsub olan Assur qrupu ilə təyin edilir.

(2) düsturuna əsasən üçüncü ailəyə mənsub olan kinematik silsilələr üşün:

$$W = 3k - 2p_5 - p_4\ . \qquad (3)$$

Bu düstur eyni zamanda yastı kinematik silsilənin struktur düsturudur, onu P.L.Çebışev (*Pafnuti Lvoviç Çebışev (1821–1894) – görkəmli rus riyaziyyatçısı və mexaniki*) təklif etmişdir.

Məlum metodika əsasında yastı kinematik silsilədə ali kinematik cütləri beşinci sinif ibtidai kinematik cütlərlə əvəz etmək olar. Belə silsilələr üçün (3) düsturu aşağıdakı şəklə düşür:

$$W = 3k - 2p_5\ . \qquad (4)$$

Tərifə əsasən (4) düsturundan Assur qrupu üçün:

$$3k - 2p_5 = 0\ . \qquad (5)$$

Buradan da Assur qrupunda bəndlərin sayı ilə kinematik cütlərin sayı arasında aşağıdakı əlaqə alınır:

$$p_5 = \frac{3}{2}k\ . \qquad (6)$$

(6) düsturundan göründüyü kimi, ən sadə Assur qrupu iki bənddən və üç kinematik cütdən ibarətdir. Bu qrupa, şərti olaraq, ikinci sinif Assur qrupu deyirlər (şək. 1).




**Şək. 1.** İkinci sinfə mənsub ikinci növ ikitərtibli (ikicilovlu) Assur qrupu ($s$=2, $k$=2, $p_5$=2, $t$=2, $c$=2)

Qrupun tərkibindəki beşinci sinif fırlanma və irəliləmə kinematik cütlərinin müxtəlif kombinasiyarı ilə hər bir sinfə mənsub Assur qrupunun müxtəlif növləri alınır. Lakin növlərə ayırma yalnız ikinci sinfə mənsub olan Assur qrupuna şamil edilir. Belə ki, kombinasiyardan asılı olaraq ikinci sinfə mənsub Assur qrupunu cəmi beş növə bölmək olar. Digər siniflərə mənsub Assur qruplarını isə bu qayda ilə növlərə bölmürlər, belə ki, xeyli sayda kombinasiyalar alınır və qarışıqlıq

yaranır. Buna görə də ümumilkdə yalnız fırlanma kinematik cütlərindən ibarət olan Assur qruplarına baxmaq kifayətdir.

Assur qrupunun tərtibi onun bəndlərinin əsas mexanizmə birləşmə elementlərinin, yəni sərbəst kinematik cüt elementlərinin sayı ilə müəyyən olunur.

Qeyd edək ki, bəzi ədəbiyyatda cilov və ya yedək adlandırılan bənd haqqında yanlışlıqlara yol verilir. Cilov (və ya yedək) dedikdə, həm "qonşu" bənd ilə kinematik cüt əmələ gətirən, həm də bir sərbəst kinematik cüt elementinə malik olan bənd nəzərdə tutulur.

**Assur qruplarının sintezi**

Siniflər üzrə Assur qruplarını nəzərdən keçirək və onların sintezi ilə bağlı təhlil aparaq...

Cilovun (yedəyin) inkişafı üsulu ilə ikinci sinfə mənsub ikitərtibli (ikicilovlu) Assur qrupundan ardıcıl olaraq yeni, daha yüksək siniflərə mənsub olan Assur qrupları almaq olar. Lakin burada bir məqam diqqətdə saxlanılmalıdır – Assur qrupunda sərbəst kinematik cüt elementinə malik olan bəndlər "qonşu" olmamalıdır, yəni öz aralarında birləşərək kinematik cüt əmələ gətirməməlidir. Əks halda belə "qonşu" iki bənd öz aralarında ikinci sinfə mənsub ikitərtibli (ikicilovlu deyil!) Assur qrupu əmələ gətirdiyinə görə baxılan qrup parçalanır və Assur qrupunun tərifi pozulur. Şək. 2, *a*, şək. 3, *a*, şək. 4, *a*, şək. 5, *a* və şək. 6, *a*-da, uyğun olaraq, üçüncü, dördüncü, beşinci, altıncı və yeddinci sinfə mənsub olan Assur qruplarıdır.

Şək. 2, *b*, şək. 3, *b*, şək. 4, *b*, şək. 5, *b* və şək. 6, *b*-də eyni sayda bənd və kinematik cütlərdən yaradılan kinematik silsilələr göstərilmişdir. Bu kinematik silsilələrin sərbəstlik dərəcələri sıfra bərabər olsa da, onlar Assur qrupları deyil, çünki uyğun olaraq, iki, iki, üç, üç və beş Assur qrupuna parşalanır, yəni Assur qrupunun tərifi pozulur.




**Şək. 2.** *a)* Üçüncü sinfə mənsub üçtərtibli (üçcilovlu) Assur qrupu ($s$=3, $k$=4, $p_5$=6, $t$=3, $c$=3);
*b)* Sərbəstlik dərəcəsi sıfra bərabər olan kinematik silsilə




**Şək. 3.** *a)* Dördüncü sinfə mənsub ikitərtibli Assur qrupu ($s$=4, $n$=4, $p$=6, $t$=2, $c$=0);
*b)* Sərbəstlik dərəcəsi sıfra bərabər olan kinematik silsilə




**Şək. 4.** *a)* Beşinci sinfə mənsub üçtərtibli (bircilovlu) Assur qrupu (*s*=5, *n*=6, *p*=9, *t*=3, *c*=1);
*b)* Sərbəstlik dərəcəsi sıfra bərabər olan kinematik silsilə




**Şək. 5.** *a)* Altıncı sinfə mənsub üçtərtibli Assur qrupu (*s*=6, *n*=6, *p*=9, *t*=3, *c*=0);
*b)* Sərbəstlik dərəcəsi sıfra bərabər olan kinematik silsilə



*a)* *b)*

**Şək. 6.** *a)* Yeddinci sinfə mənsub dördtərtibli (bircilovlu) Assur qrupu (*s*=7, *n*=8, *p*=12, *t*=4, *c*=1);
*b)* Sərbəstlik dərəcəsi sıfra bərabər olan kinematik silsilə

Etibarlılığın yüksək olması, istehsalın, sökülüb-yığılmanın, təmir və xidmətin nisbətən asan və tez başa gəlməsi, əksər hallarda materiala qənaət edilməsi nöqteyi-nəzərindən mexanizmin

bəndlərinin sayının mümkün qədər az olması məqsədəuyğundur. Bəndlərin sayı üzərinə şərt qoyulduqda tələb olunan sərbəstlik dərəcəsini almaq üçün kinematik cütlərin sinifləri və sayı ilə variasiya etmək lazım gəlir. Bu baxımdan Assur qruplarının sintezində bəndlərin və deməli, kinaematik cütlərin də sayının minimal olması tələb olunur.

**Nəticə**

Beləliklə, istənilən sinfə mənsub olan Assur qrupunu sintez etmək olar. Bu zaman üçüncü sinifdən böyük böyük *s* sinfinə ($s \geq 4$) aid olub, minimal sayda bənddən ibarət olan struktur qrupunda:

- *s* cüt ədəd olduqda öz aralarında ardıcıl birləşərək, qapalı *s*-bucaqlı konturu əmələ gətirən $k=s$ sayda bənd, ümumilkdə hamısı beşinci sinfə mənsub olan $p_5 = \frac{3}{2}k$ sayda kinematik cüt, $t = p_5 - k = \frac{k}{2}$ sayda sərbəst kinematik cüt elementi olacaq və qrup *t*-tərtibli olacaq (qrupda cilov olmur);

- *s* tək ədəd olduqda $k=s+1$ sayda bənd,ümumilkdə hamısı beşinci sinfə mənsub olan $p_5 = \frac{3}{2}k$ sayda kinematik cüt, $t = p_5 - k = \frac{k}{2}$ sayda sərbəst kinematik cüt elementi olacaq. *s* sayda bən öz aralarında ardıcıl birləşərək, qapalı *s*-bucaqlı konturu əmələ gətirir, $c=k-s=1$sayda bənd isə cilov olub bir sərbəst kinematik cüt elementinə malik olacaq və qrup *t*-tərtibli olacaq.

## İstifadə edilmiş ədəbiyyat

1. Kəngərli, A.M. Maşın və mexanizmlər nəzəriyyəsi: Ali məktəblər üçün dərslik / A.M.Kəngərli. - Bakı: Müəllim, 2004. - 608 s.

2. Mustafayev, V.S. Mexanizmlərin struktur təsnifatına dair // "Dövlətin regional siyasətinin reallaşmasında Aran iqtisadi rayonunun rolu" Respublika elmi-praktik konfransının materialları, - Mingəçevir:- 2013, - s. 180-183.

3. Артоболевский, И.И. Теория механизмов и машин: учебник для вузов / И.И.Артоболевский. - М.: Ленанд, 2019. - 640 с.

4. Борисенко, Л.А. Теория механизмов, машин и манипуляторов: Учебное пособие / Л.А.Борисенко. - М.: НИЦ ИНФРА-М, Нов.знание, 2013. - 285 с.

5.Бурлаченко, О.В. Теория механизмов и машин / О.В.Бурлаченко, Н.В.Филатов, - Волгоград: ВолгГАСУ, 2013. - 45 с.

6. Коловский, М.З. Теория механизмов и машин: учебник / М.З.Коловский. - М.: Academia, 2018. - 304 с.

7. Коловский, М.З. Теория механизмов и машин: Учебное пособие для студ. высш. учеб.заведений / М.З.Коловский, А.Н.Евграфов, Ю.А.Семенов, А.В.Слоущ. - М.: ИЦ Академия, 2013. - 560 с.

8. Кудинов, Ю.И. Теория механизмов и машин. Учебно-метод. пос. КПТ / Ю.И.Кудинов, Ф.Ф. Пащенко. - СПб.: Лань КПТ, 2016. - 288 с.

9. Леонов, И.В. Теория механизмов и машин.основы проектирования по динамическим критериям и показателям экономичности: Учебник для академического бакалавриата / И.В. Леонов, Д.И. Леонов. - Люберцы: Юрайт, 2016. - 239 с.

10. Матвеев, Ю.А. Теория механизмов и машин: Учебное пособие / Ю.А.Матвеев, Л.В.Матвеева. - М.: Альфа-М, ИНФРА-М, 2011. - 320 с.

11. Мкртычев, О.В. Теория механизмов и машин: Учебное пособие. / О.В.Мкртычев. - М.: Вузовский учебник, Инфра, 2019. - 320 с.

12. Пучин, Е.А. Оценка надежности машин и оборудования: теория и практика: Учебник / И.Н.Кравченко, Е.А.Пучин, А.В.Чепурин; Под ред. проф. И.Н.Кравченко. - М.: Альфа-М, НИЦ ИНФРА-М, 2012. - 336 с.

13. Тимофеев, Г.А. Теория механизмов и машин: учебник и практикум для прикладного бакалавриата / Г.А.Тимофеев. - М.: Юрайт, 2015. - 429 с.

14. Тимофеев, Г.А. Теория механизмов и машин: Учебное пособие для бакалавров / Г.А.Тимофеев. - М.: Юрайт, 2013. - 351 с.

15. Тимофеев, С.И. Теория механизмов и механика машин / С.И.Тимофеев. - Рн/Д: Феникс, 2011. - 349 с.

16. Фролов, К.В. Теория механизмов и механика машин.Т.5.Механика в техническом университете / К.В.Фролов. - М.: МГТУ , 2012. - 686 с.

17. Чмиль, В.П. Теория механизмов и машин: Учебно-методическое пособие / В.П.Чмиль. - СПб.: Лань, 2012. - 288 с.

## ON THE SYNTHESIS OF ASSUR'S GROUPS

**[1,2]V.Mustafayev, [2]R.Mustafayev, [2]O.Mammadov, [2]A.Abbasov, [2]İ.Mammadov**
[1]Doctor of Philosophy in Technics, Associate Professor
[2]Mingachevir State University

***Abstract:*** *Any mechanism is a kinematic chain with one link as a support, and in which, with a given movement of one or more links, the remaining links perform uniquely defined movements. In the basic principle of creating mechanisms, kinematic chains with a zero degree of freedom play an important role. The article considers the classification of Assur's groups - kinematic chains that satisfy this condition and are not divided into simpler ones, and presents specific results on their synthesis.*

***Keywords****: kinematic chain, Assur's group, kinematic pair, class, order, leash*

## О СИНТЕЗЕ ГРУПП АССУРА

**[1,2]В.С.Мустафаев, [2]Р.П.Мустафаев, [2]О.М.Маммадов, [2]А.М.Аббасов, [2]И.Г.Маммадов**
[1]доктор философии по технике, доцент
[2]Мингячевирский государственный университет

***Резюме:*** *Любой механизм представляет собой кинематическую цепь с одним звеном в качестве опоры, и в которой при заданном движении одного или нескольких звеньев остальные звенья совершают однозначно определенные движения. В основном принципе создания механизмов большую роль играют кинематические цепи с нулевой степенью свободы. В статье рассмотрена классификация групп Ассура – кинематических цепей, удовлетворяющие этому условию и не делящиеся на более простые, и представлены конкретные результаты по их синтезу.*

***Ключевые слова:*** *кинематическая цепь, группа Ассура, кинематическая пара, класс, порядок, поводок*

**Elmi redaktor: t.e.d., prof. Ə.Tağıyev**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 07.02.2024**
**Çapa qəbul edilib: 15.12.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

UOT 543.635.62:543.42

# ÇOXNÜVƏLİ KONDENSLƏŞMİŞ AROMATİK KARBOHİDROGENLƏRİN ÜRƏK-DAMAR VƏ HEPATOBİLİAR SİSTEMLƏRƏ TƏSİRİ

[1,3]**Məhiyəddin Sadıq oğlu Mehdiyev**, [2,3]**Vüqar İsmayıl oğlu Sarıyev**
[1]kimya üzrə fəlsəfə doktoru, dosent
mahiyaddin.mehdiyev@mdu.edu.az
[2]vuqar.sariyev@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Məqalədə ADVER-Pred xidmətindən istifadə edərək, on səkkiz çoxnüvəli aromatik karbohidrogenlərin ürək-damar, hepatobiliarsistemlərə mənfi təsirləri proqnozlaşdırılmışdır. Müəyyən edilmişdir ki, tədqiq edilən aromatik karbohidrogenlərin hamısının miokard infarktı, hepatoksiklik, aritmiya yaratmaq riski yüksək, ürək-damar çatışmazlığı 11 birləşmədə, nefrotoksiklik təsiri yalnız 3 birləşmədə aşkar edilmişdir. Aromatik karbohidrogenlərin "struktur-xassə", "struktur-aktivlik" əlaqəsini ifadə edən proqnozlaşdırıcı modellərin qurulması üçün Randiç indeksi ($^1\chi^2\chi^3\chi$), Balaban indeksi (J), Xu indeksi (Xu), Harari ($T_{hara}$) indeksləri hesablanmışdır.*

***Açar sözlər:****aromatik karbohidrogen, topoloji indeks, hepatobiliar sistem, nefrotoksiklik, hepatoksiklik, ürək-damar*

## Giriş

Ətraf mühitdə insan sağlamlığına və iş qabiliyyətinin azlmasına səbəb olan minlərlə kimyəvi maddə mövcuddur. İstənilən istehsal sahəsində insanlar bu və ya digər dərəcədə çoxlu sayda müxtəlif zərərli maddələrlə təmasda olur. Kimyəvi maddələr təbiətinə və təsir mexanizminə görə fərqli olduğu üçün onlar sinir sisteminin pozulması, qanın funksiyasının sıradan çıxması, tənəffüs yollarının zədələnməsi, dərinin və selikli qişanın qıcıqlanması, fermentlərin aktivliyinin pozulması, qaraciyər toxumalarında struktur dəyişməsi, bədxassəli şişlərin yaranması, mutagen, teretogen kimi ağır nəticələrəin yaranmasına səbəb olur. Odur ki, maddələrlə ehtiyatlı davranmaq üçün onların xassələri haqqında informasiylı olmaq olduqca vacibdir. Zərərli maddələr, xassələrindən və təsiretmə şəraitindən (konsentrasiya/doza/vaxt) asılı olaraq, kəskin və xroniki zəhərlənmələrə (intoksikasiya) səbəb ola bilər [1].

**İşin məqsədi** çoxnüvəli aromatik karbohidrogenlərin (ÇAK) ürək-damar və hepatobilar sistemlərə mənfi təsirinin proqnozlaşdırılmasıdır.

Hepatobiliar sistem (GBS)-qaraciyər, öd kisəsi və öd yolları (intra- və ekstrahepatik) olub, həzm və ifrazat kimi proseslərə imkan verən mürəkkəb çoxsəviyyəli mexanizmidir. İnsan sağlamlığı üçün çox vacib bir sistemdir [2].

Çoxnüvəli aromatik karbohidrogenlər (ÇAK) iki və ya daha çox kondesləşmiş aromatik halqaları olan üzvi birləşmələrin böyük bir qrupudur. ÇAK-lər əsasən pirolitiz prosesləri, xüsusən də kömür və xam neftin emalı, təbii qazın, o cümlədən tullantıların yanması, nəqliyyat vasitələrinin hərəkəti, sənaye və digər insan fəaliyyəti zamanı üzvi materialların natamam yanması nəticəsində əmələ gəlir.

Çoxnüvəli aromatik karbohidrogenlərin $(ÇAK)$ canlı orqanizmlərə təsir növü karbohidrogenin strukturundan asılıdır və bu, çox geniş diapazonda dəyişə bilər. Bir çox polisiklik aromatik karbohidrogenlər, məsələn, Benz[a]antrasen, benzpiren və ovalen kimi birləşmələr güclü kimyəvi kanserogenlərdir. Benz[a]antrasen, benzpiren və ovalen kimi birləşmələr açıq-aşkar kanserogen, mutagen və teratogen xüsusiyyətlərə malikdir [2; 3; 4].

**Riyazi modellərin qurulması**

Riyazi modellərin qurulmasıüçün 14 ədəd oxnüvəli aromatik karbohidrogen götürülmüş və onların qaynama temperaturu $\left(T_{qay}\right)$ [5], molyar kütlə $(MW)$, molyar həcm $(MV)$, oktanol-su

mühitində paylanma əmsalı ($logP$) hesablanmışdır. Daha sonra, birləşmələrin struktur quruluşuna əsasən müvafik topoloji indekslər hesablanmışdır: Balaban indeksi ($J$), Randiçin birinci-, ikinci-, üçüncü tərtibli indeksləri ( ${}^1\chi$, ${}^2\chi$, ${}^3\chi$), Xu indeksi ($Xu$), Harari indeksi ($T_{har}$), Viner indeksi ($W$) [6]. ADVAR-Pred xidmətindən istifadə edərək kimyəvi birləşmələrin ürək-damar və hepatobiliar sistemlərə təsir effektinin ehtimalı ($P_a$) hesablanmışdır: hepatoksiklik $P_{a(hepa)}$, $P_{a(arit)}$ aritmiya, ürək çatışmazlığı $P_{a(\text{ür.çat})}$, miokard $P_{a(mio)}$ infarktı, $P_{a(nef)}$ nefrotoksiklik qiymətləndirilmişdir (cədvəl 1). "Struktur-xassə" və "struktur-aktivlik" əlaqəsini ehtiva edən reqressiya tənlikləri qurulmudur və uyğun olaraq cədvəl 2 və cədvəl 3-də göstərilmişdir.

**Cədvəl 1**

**Çoxnüvəliaromatik karbohidrogenlərin ürək-damar və hepatobilar sistemlərə təsiri**

| Birləşmələrin adı | Miokard infarktı | | Hepatoksiklik | | Ürək-damar çatışmazlığı | | Aritmiya | | Nefrotoksiklik | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | $P_a$ | $P_i$ | $P_a$ | $P_i$ | $P_a$ | $P_i$ | $P_a$ | $P_i$ | $P_a$ | $P_i$ |
| I.Naftalin | 0,587 | 0,030 | 0,529 | 0,180 | 0,494 | 0,059 | 0,408 | 0,178 | 0,269 | 0,193 |
| II.Asenaften | 0,453 | 0,054 | 0,391 | 0,265 | - | - | 0,390 | 0,193 | - | - |
| III.Fluoren | 0,349 | 0,116 | 0,338 | 0,313 | - | - | 0,497 | 0,111 | - | - |
| IV.Fenantren | 0,584 | 0,031 | 0,496 | 0,394 | 0,294 | 0,182 | 0,390 | 0,193 | 0,323 | 0,134 |
| V.Antrasen | 0,379 | 0,082 | 0,507 | 0,192 | 0,477 | 0,067 | 0,408 | 0,178 | - | |
| VI.Fluoranten | 0,394 | 0,073 | 0,391 | 0,265 | - | - | 0,337 | 0,247 | - | |
| VII.Piren | 0,379 | 0,082 | 0,414 | 0,248 | 0,291 | 0,182 | 0,352 | 0,230 | - | |
| VIII.Benz[a]antrasen | 0,394 | 0,073 | 0,476 | 0,208 | 0,291 | 0,181 | 0,39 | 0,193 | - | |
| IX.Xrizen | 0,584 | 0,031 | 0,496 | 0,198 | 0,291 | 0,182 | 0,390 | 0,193 | 0,323 | 0,182 |
| X.Benzo[b]fluoranten | 0,287 | 0,234 | 0,376 | 0,277 | - | - | 0,338 | 0,247 | - | - |
| XI.Benzo[k]fluoranten | 0,287 | 0,234 | 0,376 | 0,277 | - | - | 0,338 | 0,247 | - | - |
| XII.Benzo[a]piren | 0,376 | 0,277 | 0,376 | 0,277 | - | - | 0,338 | 0,247 | - | - |
| XII.Dibenz[a,h]antrasen | 0,394 | 0,073 | 0,476 | 0,208 | 0,291 | 0,181 | 0,390 | 0,193 | - | - |
| XIV.Benzo[gh]perilen | 0,394 | 0,073 | 0,391 | 0,266 | - | - | 0,337 | 0,247 | - | - |

*Qeyd.*($P_a$) və ($P_i$)-uyğun olaraq aromatik birləşmənin ürək-damar və hepatobiliar sistemlərə təsir etməsi və təsir etməməsi ehtimalını göstərir. Topoloji indekslərdən ${}^1\chi$, ${}^3\chi, Xu, T_{har}$ və maddələrin molyar kütləsinin ($MW$) korrelyasiyaetmə xüsusiyyəti daha yüksəkdir. Çoxnüvəli aromatik karbohidrogenlərin ürək-damar və hepatobiliyar sistemlərə təsirinin proqnozlaşdırılmasında ADVAR-Pred xidmətindən istifadə edilmişdir.

**Cədvəl 2**

**Çoxnüvəli aromatik karbohidrogenlərin "struktur-xassə" reqressiya modelləri**

| № | Reqressiya tənliyi | r | s | F |
|---|---|---|---|---|
| 1 | $MV = 0{,}8451MW + 20{,}5712$ | 0,99 | 2,5 | 3306 |
| 2 | $MV = 17{,}05\ {}^1\chi + 17{,}7$ | 0,99 | 3 | 1851 |
| 3 | $logP = 0{,}3Xu + 0{,}4139$ | 0,99 | 0,13 | 843 |
| 4 | $logP = 0{,}0223MW + 0{,}4868$ | 0,99 | 0,14 | 708 |
| 5 | $T_{qay} = 5{,}353T_{har} + 107{,}161$ | 0,99 | 13 | 797 |

**Cədvəl 3**

**Çoxnüvəli aromatik karbohidrogenlərin "struktur-aktivlik" reqressiya modelləri**

| № | Reqressiya tənliyi | r | s | F |
|---|---|---|---|---|
| 1 | $P_{arit} = 0{,}4566 - 0{,}0014T_{har}$ | 0,61 | 0,03 | 7 |
| 2 | $P_{\text{ürək}} = 0{,}6472 - 0{,}01957Xu$ | 0,76 | 0,06 | 7 |
| 3 | $P_{Miok} = \exp\left(-4765 + 1{,}75J + o{,}62\ {}^3\chi\right)$ | 0,70 | 0,17 | 6 |
| 4 | $P_{Hepa} = 1{,}259 - 0{,}632Ln(Xu) + 0{,}634Ln({}^2\chi)$ | 0,85 | 0,03 | 15 |




a) $logP = f(Xu)$




b) $T_{qay}=f(T_{har})$

**Şək. 1.** "Struktur-xassə" asılılığı

Çoxnüvəli aromatik karbohidrogenlərin ürək-damar və hepatobiliyar sistemlərə təsirinin proqnozlaşdırılması üçün ADVAR-Pred xidmətindən istifadə edilmişdir. Şək. 1-də ÇAL-lərin oktanol-su mühitində paylanma əmsalının Xu indeksindən, qaynama temperaturunun Harari indeksindən asılılığı göstərilmişdir. Şək. 1, a-dan göründüyü kimi, Xu indeksinin qiyməti ardıqca aromatik karbohidrogenlərin yağlarda həllolma qabiliyyəti artır. Bu səbəbdən də orqanizmə daxil olan çoxnüvəli aromatik karbohidrogenlər orqanizmdən gec xaric olunur. Şək. 1, b-də ÇAK-lərin qaynama temperaturunun harari $T_{(har\ )}$ indeksindən asılılığı verilmişdir.

**Nəticə**

Beləliklə, tədqiqat nəticəsi aşağıdakıları söyləməyə imkan verir:

1. Tədqiqat üçün götürülmüş çoxnüvəli kondensləşmiş aromatik karbohidrogenlərin hamısı (I–XIV) insan orqanizmə daxil olarkən üç istiqamətdə təsir edə bilər: miokard infarktı, hepatoksiklik (qara ciyərə təsir effekti) və aritmiya yarada bilər.

2. I, IV, V, VII, VIII, IX, XII çoxnüvəli aromatik karbohidrogenlər ürək çatışmazlığı yaratma ehtimalı daha çoxdur.

3. II, III, VI, X, XI, XII, XIV karbohidrogenlərin ürək çatışmazlığının ehtimalı sıfıra bərabərdir.

4. I, IV, IX birləşmələr nefrotoksiklik (böyrək çatışmazlığı) effekti yarada bilər. Qalan 11 aromatik karbohidrogenlərin – II, III, V, VI, VII, VIII, X, XI, XII, XIII, XIV nefrotoksiklik effekti sıfıra bərabərdir.

Cədvəl 2-dən göründüyü kimi, bütün "struktur-xassə" aslılılığını ifadə edən modellər xətti xarakter daşıyır. Cədvəl 3-də model № 3 eksponensial, digər riyazi modellər isə xətti quruluşludur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Вредные вещества в промышленности: Том. 1 Том I. Органические вещества. Справочник для химико, инженера и врача / Под ред. Н.В.Лазарева и Э.Н.Левиной. Л.: Химия, 2013, 590 с.

2. Федоров И.Г., Ильченко Л.Ю., Косюра С.Д., Осканова Р.С. Диагностика и лечение заболеваний желчевыводящих путей. М.: Российский национальный исследовательский медицинский университет им. Н.И. Пирогова, 2015, 47 с.

3. Цымбалюк К.К., Деньга Ю.М., Антонович В.П. Определение полициклических ароматических углеводородов (ПАУ) в объектах окружающей среды (Обзор) / Методы и объекты химического анализа, 2013, т.8, № 2, с. 50-62

4. Плотникова О.А., Мельников Г.В., Тихомирова Е.И. / Полициклические ароматические углеводороды: характеристики, источники, нормирование, спектроскопические методы определения (обзор) / Теоретическая и прикладная экология. 2021, № 4, с. 12-19

5. https://chem.nlm.nih.gov/chemidplus/

6. http://www.scbdd.com/

## INFLUENCE OF POLYNUCLEAR CONDENSED AROMATIC CARBOHYDRATES ON THE CARDIOVASCULAR AND HEPATOBILIARY SYSTEMS

[1,2]**M.Mehdiyev**, [2]**V.Sariyev**
[1,2]Doctor of Philosophy in Chemistry, Associate Professor
[2]Mingachevir State University

***Abstract:*** *Using the ADVER-Pred service, the negative effects of eighteen polynuclear aromatic hydrocarbons on the cardiovascular and hepatobiliary systems were predicted in the article. It was determined that all studied aromatic hydrocarbons have a high risk of causing myocardial infarction, hepatotoxicity, arrhythmia, cardiovascular failure in 11 compounds, nephrotoxicity effect was found only in 3 compounds. Randich index (1χ 2χ 3χ ), Balaban index (J),*

*Xu index (Xu), Harari (Thara) indices were calculated to build predictive models expressing the "structure-property", "structure-activity" relationship of aromatic hydrocarbons.*

***Keywords:*** *aromatic hydrocarbon, topological index, hepatobiliary system, nephrotoxicity, hepatotoxicity, cardiovascular*

## ВЛИЯНИЕ ПОЛИЯДЕРНЫХ КОНДЕНСИРОВАННЫХ АРОМАТИЧЕСКИХ УГЛЕВОДОВ НА СЕРДЕЧНО-СОСУДИСТУЮ И ГЕПАТОБИЛИАРНУЮ СИСТЕМЫ

[1,2]**М.С.Мехтиев,** [2]**В.И.Сариев**
[1]доктор философии по химии, доцент
[2]Мингячевирский государственный университет

***Резюме:****С помощью сервиса ADVER-Pred в статье прогнозировано негативное влияние восемнадцати полиядерных ароматических углеводородов на сердечно-сосудистую и гепатобилиарную системы. Установлено, что все изученные ароматические углеводороды обладают высоким риском развития инфаркта миокарда, гепатотоксичности, аритмии, сердечно-сосудистой недостаточности у 11 соединений, нефротоксический эффект обнаружен только у 3 соединений. Для построения прогностических моделей, выражающих взаимосвязь «структура-свойство», «структура-активность» ароматических углеводородов, рассчитаны индекс Рэндича ($^1\chi$ $^2\chi$ $^3\chi$ ), индекс Балабана (J), индекс,Сюй (Xu), индексы Харари (Тара).*

***Ключевые слова:*** *ароматические углеводороды, топологический индекс, гепатобилиарная система, нефротоксичность, гепатотоксичность, сердечно-сосудистые заболевания*

**Elmi redaktor: k.f.d., dos. A.Aslanov**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 09.02.2024**
**Çapa qəbul edilib: 16.02.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

UOT 372.8:91

# TƏBİƏT FƏNLƏRİNİN TƏDRİSİNDƏ İNTEQRATİV YANAŞMANIN ELMİ-PEDAQOJİ ASPEKTLƏRİ

**Namiq Tahir oğlu Ağaməmmədov**
coğrafiya üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikasının Təhsil İnstitutu
naqamemmedov@mail.ru

***Xülasə:*** *Məqalədə təbiət fənlərinin tədrisi zamanı keyfiyyətin artırılması tədbirlərindən biri kimi inteqrativ yanaşmanın əhəmiyyəti təhlil olunur. Müasir təhsil kurikulumlarının qarşısında duran əsas vəzifələrdən biri də şagirdləri perspektiv dövr üçün sosial-mədəni xüsusiyyətlərə malik intellektual fona uyğun təlim-tərbiyə etməkdir. Şagirdlərin biliklərinin genişləndirilməsi və idrak fəaliyyətinin stimullaşdırılması zamanı məzmuna kompleks yanaşma müsbət effekt verə bilər. Belə ki, hazırda ümumtəhsil məktəblərinin V və VI siniflərində Təbiət fənni tədris olunur. Bu fənn özündə coğrafiya, kimya, fizika və biologiyanı sintez etmişdir. Əsas məqsəd ondan ibarətdir ki, şagirdlər növbəti siniflərdə fənlərarası inteqrasiyadan istifadə edə bilsinlər.Təhsildə məzmun standartlarının yenilənməsi, humanistləşmə meyillərinin intensivləşməsi, tədrisin metod və vasitələrinə vahid pedaqoji baxışın əmələ gəlməsi fənlərin inteqrasiya olunması ilə müşayət olunur. Tədris olunan fənlərin əsasını konkret elmlərin təşkil etməsi və bir-biri ilə əlaqəli olması fənlərarası münasibətləri yaxınlaşdırır. Təhsilin innovativ formalarında şəxsiyyətyönümlülük, müəllim-şagird aspektinin yumşaldılması əsas meyarlardır. Təbiət fənləri arasında qurulan inteqrasiya səmərəli pedaqoji texnologiyalar kimi yeni elmi-metodiki kompetensiyaların formalaşmasını sürətləndirir.*

***Açar sözlər:*** *təbiət fənləri, müasir təhsil, kurikulum, inteqrasiya, məzmun standartı, ümumtəhsil məktəbləri*

## Giriş

Müasir tədris kurikulumlarında təhsilalanlara təkcə bilik verməklə kifayətlənilmir, eyni zamanda bacarıq və vərdişlər aşılanır. Təhsilalanlar öyrəndikləri bilikləri bütövdə birləşdirməyi, yeni biliklər əldə etməyi öyrənirlər. Bu istiqamətdə inteqrasiya amili özünü açıq şəkildə biruzə verir. Qloballaşma dövründə inteqrasiya anlayışı təhsilin özünəməxsus keyfiyyət göstəricilərindən biri kimi ortaya çıxmışdır. Təhsildə differensial yanaşmalar bölünməni təmsil edirsə, inteqrasiya bütövləşməni, tamamlanmaları nəzərdə tutur. Proqressiv mahiyyətli innovasiyalar pedaqogika elmində də yeni anlayışların formalaşmasına səbəb olmuşdur. Misal olaraq, "inteqrasiya", "inteqrativlik", "təhsildə inteqrasiya" anlayışlarını göstərmək olar. İnformasiya-kommunikasiya tenologiyaları dövründə təhsil sistemində inteqrasiya termini səmərəli strategiyalardan birinə çevilmişdir. Bu ümumtəhsil məktəblərində şagirdlərin artıq dərs yükündən azad olması, onlarda interaktiv təfəkkürün formalaşması cəhətdən müsbət tendensiyadır. Təlim prosesi inteqrasiya olunduqda fərqli tədris metodlarını özündə ehtiva edir:

- Mühazirə və müsahibə;
- Şagirdlərin işlərinin izah olunması və idarə olunması;
- Müşahidə və təcrübə;
- Müqayisə;
- Analiz;
- Sintez.

## Əsas hissə

İnteqrasiya olunmuş dərslərdə şagirdlərin elmi-idraki dünyagörüşü inkişaf edir, təbiət elmlərinə konkretləşmiş baxış bucağı formalaşır, kompleks yanaşma baş verir. Coğrafiya dərslərində "Fizika", "Kimya", "Biologiya", "Təbiət" fənlərinin materiallarından istifadə olunması verilən biliklərin keyfiyyətinin artmasına, proqram materiallarının daha dərindən mənimsənimə-

sinə, dərk edilməsinə və elmi-tədqiqat aparılmasına səbəb olur. "Coğrafiya" dərsliklərinin məzmunu bioloji, riyazi, kimyəvi, fiziki qanunlarla zəngindir. Bu istiqamətlərdən bəziləri aşağıda verilmişdir:

1. "Biologiya" ilə inteqrasiya – "Biosfer"; "Dünyanın bitki və heyvanlar aləmi"; "Landşaftlar"; "Təbii zonalar"; "Üzvi və ya bioloji aşınma"; "Ekologiya" və s.

2. "Riyaziyyat" və "İnformatika" ilə inteqrasiya – "Paralellər və meridianlar"; "Günəş şüalarının düşmə bucağının hesablanması"; "Dünya əhalisinin sıxlığı"; "Kartoqrafik proyeksiyalar"; "Miqyas"; "Adambaşına düşən ÜDM və ÜMM hesablanması"; "Dəmiryolları sıxlığının hesablanması" və s. Eyni zamanda "excell", "access", "arcGİS" proqramlarının köməyi ilə müxtəlif riyazi-statistik işlənmələr tətbiq olunur.

3. "Kimya" ilə inteqrasiya – "Təbiətdə su dövranı"; "Süxurların mineral tərkibi"; "Kimyəvi aşınma"; "Kimya sənayesi"; "Atmosferin tərkibi" və s.

4. "Fizika" ilə inteqrasiya – "Maqmatik süxurlar-metallar"; "Buxarlanma"; "Atmosfer təzyiqi"; "Havanın temperaturu"; "Fiziki aşınma" və s.

5. "Təbiət" fənni ilə inteqrasiya – bu fənn artıq respublikanın bütün ümumtəhsil məktəblərində V və VI siniflərdə keçirilir. Fənn daxilində coğrafiya, fizika, kimya və biologiya inteqrasiya olunur. V sinifdə 1-ci (insan orqanizmi), 2-ci bölmə (canlıların müxtəlifliyi), 7-ci bölmə (qida zənciri iş sxemi) biologiya, 3-cü (maddənin halları və çevrilməsi), 4-cü bölmə (fiziki və kimyəvi hadisələr), 5-ci bölmə (saf maddələr və qarışıqlar) kimya, 6-cı bölmə (enerji və fəaliyyət sxemi), 8-ci bölmə (işıq və görmə sxemi) fizika, 9-cu bölmə (təbii fəlakətlər), 10-cu bölmə (ətraf mühit və biz iş sxemi) coğrafiya fənlərini ifadə edir. VI sinifdə isə 5 məzmun xətti üzrə (insan orqanizmi və sağlamlıq, canlıların müxtəlifliyi, maddələr və onların xassələri, enerji, qüvvə və hərəkət, ətraf mühit və biz) 14 bölmədə (qüvvə və hərəkət, elektrik dövrəsi və dövrə elementləri, səsin yaranması və yayılması, istilik enerjisinin ötürülməsi-fizika, insan orqanizmi və sağlamlıq, canlıların müxtəlifliyi: göbələklər və bakteriyalar, patogenlər və xəstəliklər, canlıların mühitə uyğunlaşması, canlılar arasında qida əlaqələri-biologiya, maddənin xassələri, saf maddələr və qarışıqlar – kimya, fosil yanacaqlar və qlobal istiləşmə, Yer planeti Günəş sistemində – coğrafiya fənləri üzrə inteqrasiya olunur.

Bütün elmləri mənbəyini məkan, zaman, canlı və cansız varlıqların vəhdəti olan Yer kürəsindən alır və onu öyrənir [3, s.102]

Göründüyü kimi, 5 və 6-cı siniflərdə inteqrasiya birbaşa baş verir. Bu fənni tədris edəcək müəllim dörd fənn müəllimindən biri ola bilər. Müəllimlərə Azərbaycan Respublikası Təhsil İnstitutu (ARTİ) xüsusi kurs keçirilir və sertifikatlaşdırılır. Təbiət fənnini tədris edən fənn müəllimi xüsusi istedada, geniş və intellektual potensiala malik olmalıdır. Ona görə də gələcək təbiət fənləri üzrə təhsil alan tələbələr bu nüanslara diqqət etməlidirlər. Eyni zamanda müsbət cəhət kimi şagirdlərin təbiət fənləri üzrə ali məktəblərə hazırlaşdığı dövrdə dörd tərkibdən ibarət olan fənnə diqqət ayıracaqları aydın olur. Qüvvədə olan mövcud tədris proqramlarına (kurikulumlarına), perspektiv (illik) planlaşdırma nümunələrinə inteqrativlik amili xüsusi komponent kimi daxil edilmişdir. Pedaqoji proses zamanı qarşıya qoyulmuş məqsədləri reallaşdırmaq üçün şagirdlərin idraki, psixomotor, hissi bacarıqlarının inkişafı nəzərə alınmışdır. Praktik vərdişlərin əldə olunması yönündə işlərin yerinə yetirilməsi dövrün tələblərinə cavab verən kompetensiyalara malik şəxsiyyət yetişdirilməsini şərtləndirir.

Çoxfənli inteqrasiyada əsas problemlərdən biri də qiymətləndirmə üçün yetərincə materialların olmamasıdır. İnteqrativ dərslərin nəticələrini yoxlamaq üçün xüsusi diaqnostik vasitələrin (mətn, yoxlama, yazı işi, çalışma və s.) köməyindən istifadə oluna bilər [1, s.94]. Nəzərə almaq lazımdır ki, fənlərarası inteqrasiya təkcə bir neçə fənnin birləşməsindən ibarət deyil. Təbiət fənlərinin tədrisində əyanilik əsas meyarlardandır. Tədris resursları mənimsənilərkən alınan informasiyalar idrakda yığılır, bütövləşir. Ona görə də informasiya mübadiləsi intellektual əlaqələr formalaşdırır, savadlı şagird kütləsi yetişdirir. Aparılan tədqiqatlar göstərir ki, inteqrativlik dərs prosesində şagirdlərdə müəyyən keyfiyyətlərin yaxşılaşdırır:

- nəticəçıxarma bacarığı;
- sərbəst fikirləşmə;

- şəxsi təcrübə qazanmaq;
- təşəbbüskarlıq etmək;
- hazırcavablıq;
- şəxsi intizam və əməkdaşlıq.

Tədqiqatlarda göstərilir ki, təbiət fənləri arasında əlaqənin qurulması təkcə əqli inkişafa təsir etmir, eyni zamanda psixoloji funksiya yerinə yetirir [2, s.228].

Respublikamızın ayrı-ayrı məktəblərində təbiət fənlərindən müxtəlif mövzularda inteqrativ nümunəvi dərslər keçirilir.

Təbiət fənləri şagirdlərə coğrafiya, fizika, kimya, biologiya haqqında bilik və bacarıqları müstəqil şəkildə aşılayır. Nəticədə şagirdlərin əldə etdiyi bilikləri təhlil edəndə aydın olur ki, onlar Kainat sisteminin quruluşu haqqında verilənləri rabitəsiz əldə edir, əsas qanunauyğunluqları müəyyənləşdirməkdə çətinlik çəkirlər. Lakin inteqrasiya olunmuş dərslərdə biliklərin sintezi aparılır, dərsin mənimsənilmə keyfiyyəti artır. Müəllim təbiət fənlərindən inteqrasiya olunmuş dərs hazırlayarkən nəzərə almalıdır ki, mövzu aydın və anlaşılan izah olunsun, şagirdlərdə məntiqi təfəkkürü formalaşdıra bilsin. Məhz belə dərs modellərində şagirdlərin interaktivliyi və marağı təmin olunur. Fənlərarası inteqrasiya zamanı şagirdlərin təbiət fənlərindən biliklərini ümumiləşdirib cəmləşdirmək yüksək effektivliyə səbəb olur. Məsələn, "Atmosfer" mövzusu inteqrasiya olunarkən burada-kimya (azot, oksigen, karbon, təsirsiz qazlar), fizika – hündürlüyə doğru təzyiq və temperaturun dəyişməsi, havanın rütubətliliyi, fiziki (temperatur) aşınma, atmosferdə canlılar – biologiya, alınan biliklər bir-birini tamamlayır və tədris olunan mövzu daha asan qavranılır. İnteqrasiya metodunun məktəbdə tətbiqindən bu qənaətə gəlmək olur ki, təhsilin inkişaf etdirilməsi təcrübəsində yeni yanaşma özünü doğruldur.

**Nəticə**

Mövzunun araşdırılması nəticəsində aşağıdakı nəticələrin ortaya çıxdığını söyləmək mümkündür:

1. Təbiət fənləri kimi coğrafiya, fizika, kimya, biologiya fənləri ortaq mövzular üzrə uğurlu ineqrasiya olunur.
2. Fənlərarası inteqrasiya zamanı şagirdlərin təbiət fənlərindən biliklərini ümumiləşdirib yüksək effektivliyə nail olmaq mümkündür.

## İstifadə edilmiş ədəbiyyat

1. Əliyeva, L.Z. Coğrafiyanın tədrisində inteqrasiyanın təşkili yolları // Pedaqoji Universitetin Xəbərləri: Riyaziyyat və təbiət elmləri seriyası, 2020, C. 68, № 3, s. 92-98
2. Hacıyeva, V.E. Biologiyanın tədrisində istifadə olunan fənlərarası əlaqənin növləri və formaları // Pedaqoji Universitetin Xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası, 2020, C. 68, №1, s. 222-228
3. Vəliyeva, M.Ə. Coğrafiyanın tədqiqində inteqrasiya məsələləri və onun əhəmiyyəti // Elmi Əsərlər / Azərbaycan Respublikası Təhsil İnstitutu. 2021, C. 88, № 1. -s. 101-103

# INTEGRATIVE APPROACH IN NATURAL SCIENCE TEACHING SCIENTIFIC AND PEDAGOGICAL ASPECTS

**N.Aghamammadov**
Doctor of Philosophy in Geography
Institute of Education of the Republic of Azerbaijan

***Abstract:*** *The article analyzes the importance of the integrative approach as one of the quality improvement measures during the teaching of natural sciences. One of the main tasks facing modern educational curricula is to educate students in accordance with the intellectual background with socio-cultural characteristics for the prospective era. A complex approach to the content can have a positive effect when expanding students' knowledge and stimulating cognitive activity. So,*

*currently, "Nature" is taught in V and VI classes of general education schools. This subject has synthesized geography, chemistry, physics and biology. The main goal is that students can use interdisciplinary integration in the next classes. Renewal of content standards in education, intensification of humanization trends, formation of a single pedagogical view of methods and means of teaching are accompanied by integration of subjects. The fact that the taught subjects are based on specific sciences and are related to each other brings closer the interdisciplinary relations. In innovative forms of education, individual orientation and softening of the teacher-student aspect are the main criteria. The integration between natural sciences accelerates the formation of new scientific-methodical competencies as effective pedagogical technologies.*

***Keywords:*** *natural sciences, modern education, curriculum, integration, content standard, secondary schools*

## ИНТЕГРАТИВНЫЙ ПОДХОД В ПРЕПОДАВАНИИ ЕСТЕСТВЕННЫХ НАУК НАУЧНО-ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ

**Н.Т.Агамаммадов**
доктор философии по географии
Институт образования Азербайджанской Республики

***Резюме:*** *В статье анализируется значение интегративного подхода как одной из мер повышения качества преподавания естественных наук. Одной из основных задач, стоящих перед современными образовательными программами, является воспитание учащихся в соответствии с интеллектуальным фоном и социокультурными особенностями перспективной эпохи. Комплексный подход к содержанию может оказать положительное влияние при расширении знаний учащихся и стимулировании познавательной деятельности. Так, в настоящее время "Природа" преподается в V и VI классах общеобразовательных школ. Этот предмет синтезировал географию, химию, физику и биологию. Основная цель состоит в том, чтобы учащиеся могли использовать межпредметную интеграцию на следующих занятиях. Обновление стандартов содержания образования, усиление тенденций гуманизации, формирование единого педагогического взгляда на методы и средства обучения сопровождаются интеграцией предметов. То, что преподаваемые предметы основаны на конкретных науках и связаны друг с другом, сближает междисциплинарные связи. В инновационных формах образования главными критериями являются индивидуальная направленность и смягчение аспекта учитель-ученик. Интеграция естественных наук ускоряет формирование новых научно-методических компетенций как эффективных педагогических технологий.*

***Ключевые слова:*** *естественные науки, современное образование, учебная программа, интеграция, содержательный стандарт, средние школы*

**Elmi redaktor: f.-r.f.d., dos. T.Yusibova**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 12.02.2024**
**Çapa qəbul edilib: 19.02.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

УДК 517.96

# О РЕШЕНИИ ОПЕРАТОРНО-ДИФФЕРЕНЦИАЛЬНЫХ УРАВНЕНИЙ ВЫСОКОГО ПОРЯДКА НА ВЕСОВЫХ ПРОСТРАНСТВАХ

**Малахат Фаррух кызы Исмаилова**
доктор философии по математике, доцент
Мингячевирский государственный университет
malahat.ismayilova@mdu.edu.az

***Резюме:*** *В статье найдена связь между нижней границей спектра основного оператора операторно-дифференциального уравнения высокого порядка с двумя переменными и индексом весового пространства. Тем самым обеспечивается существование и единственность решения операторно-дифференциального уравнения высокого порядка с двумя переменными в весовых пространствах.*

***Ключевые слова**: операторно-дифференциальное уравнение, гильбертово пространство, множество, вектор-функция, самосопряженный оператор, промежуточные производные, регулярное решение*

**Введение**

Пусть $H$– сепарабельное гильбертово пространство, $A$ – положительно определенный самосопряженный оператор. Обозначим через $H_\theta$ шкалу гильбертовых пространств, порожденную оператором $A$, т.е. $D\left(A^\theta\right)=H_\theta$, $(x,y)_\theta=\left(A^\theta x, A^\theta y\right)$, $x,y\in D\left(A^\theta\right)$, $\theta\geq 0$. При $\theta=0$ считаем, что $H_0=H$. Пусть $R=(-\infty,\infty)$, $R^2=R\times R$ и $L_2\left(R^2;H\right)$ есть гильбертово пространство вектор-функции $f(x,y)$, определенные почти всюду в $R^2$, со значениями в $H$, измеримые по Бохнеру, для которых

$$\|f\|_{L_2\left(R^2;H\right)}=\left(\iint_{R^2}\left\|f(x,y)^2\right\|dxdy\right)^{\frac{1}{2}}<\infty .$$

Теперь рассмотрим следующее операторно-дифференциальное уравнение $n=2m$-го порядка

$$(-1)^n\frac{\partial^n u}{\partial x^n}+(-1)^n\frac{\partial^n u}{\partial y^n}+A^n u=f(x,y),\quad (x,y)\in R^2, \tag{1}$$

где $f(x,y)$, $u(x,y)$ – вектор-значные функции в пространстве $H$, со значениями а $A$ – самосопряженный оператор в $H$.

Далее введем множество $D\left(R^2;H_n\right)$ – бесконечно дифференцируемые вектор-функции $u(x,y)$ со значениями в $H_n$, имеющие компактные носители в $R^2$. В линейном множестве $D\left(R^2;H_n\right)$ определим норму

$$\|u\|_{W_2^n\left(R^2;H\right)}=\left(\left\|\frac{\partial^n u(x,y)}{\partial x^n}\right\|^2_{L_2\left(R^2;H\right)}+\left\|\frac{\partial^n u(x,y)}{\partial y^n}\right\|^2_{L_2\left(R^2;H\right)}+\left\|A^n u(x,y)\right\|^2_{L_2\left(R^2;H\right)}\right)^{\frac{1}{2}}.$$

$\gamma\in(-\infty,\infty)^2=R^2$ $(\gamma=(\gamma_1,\gamma_2))$ и определим гильбертовы пространства

$$L_{2,\gamma}(R^2;H)=\left\{f: f(x,y)e^{-\gamma_1 x-\gamma_2 y}\in L_2(R^2;H)\right\}$$

с нормой

$$\|f(x,y)\|_{L_{2,\gamma(R^2;H)}}=\left(\int_{R^2}\|f(x,y)\|e^{-2\gamma_1 x}e^{-2\gamma_2 y}dxdy\right)^{\frac{1}{2}}.$$

Знаем, что при $\gamma=0$ $L_{2,0}(R^2;H)=L_2(R^2;H)$. Тогда пространство $W_{2,\gamma}^n(R^2;H)$, определим в пространстве $D\left(R^2;H\right)$ с нормой

$$\|u\|_{W_2^n\left(R^2;H\right)}=\left(\left\|\frac{\partial^n u(x,y)}{\partial x^n}\right\|^2_{L_{2,\gamma}\left(R^2;H\right)}+\left\|\frac{\partial^n u(x,y)}{\partial y^n}\right\|^2_{L_{2,\gamma}\left(R^2;H\right)}+\left\|A^n u(x,y)\right\|^2_{L_{2,\gamma}\left(R^2;H\right)}\right)^{\frac{1}{2}}$$

Полагаем, что $W_{2,0}^n(R^2;H)=W_2^n(R^2;H)$

**Определение 1.** Пусть для $f(x,y)\in L_{2,\gamma}\left(R^2;H\right)$ существует вектор-функция $u(x,y)\in W_{2,\gamma}^n(R^2;H)$, которая удовлетворяет уравнению (1) в $R^2$, то её будем называть регулярным решением уравнения (1).

**Определение 2.** Пусть для любого $f(x,y)\in L_{2,\gamma}\left(R^2;H\right)$ существует регулярное решение уравнения (1) $u(x,y)$, для которого существует следующая оценка

$$\|u\|_{W_{2,\gamma}^n\left(R^2;H\right)}\le const\|f(x,y)\|_{L_{2,\gamma}(R^2;H)}$$

то уравнению (1) будем называть регулярно разрешимым в пространстве $W_{2,\gamma}^n(R^2;H)$.

В данной работе мы найдем условия на спектр коэффициента $A$ операторного уравнения (1) и на вектор $\gamma=(\gamma_1,\gamma_2)$, при выполнении которых уравнение (1) окаяывается регулярно разрешимым в пространстве. Отметим, что когда $A$ – эллиптический оператор с дискретным спектром, эта задача для одного переменного исследована в работе [1]. Для операторно-дифференциальных уравнений четвертого порядка эта задача рассмотрена в работе [2]. При некоторых условиях на рост резольвенты соответствующего пучка $\left(\lambda^n E+\mu^n E+A^n\right)^{-1}$ эта задача исследована в работах [2, 3]. При $\gamma=0$ эта задача для одного переменного исследована в работах [4, 5].

Обозначим через

$$P_0 u=\frac{\partial^n u}{\partial x^n}+\frac{\partial^n u}{\partial y^n}+A^n u, \qquad u(x,y)\in W_{2,\gamma}^n\left(R^2;H\right).$$

Справедлива следующая теорема.

**Теорема.** Пусть $A$ – положительно самосопряженный оператор, причем $\inf_{\sigma\in\sigma(A)}\sigma=\mu_0>0$, тогда для $\gamma=(\gamma_1,\gamma_2)$

$$\|\gamma\|=\sqrt[n]{\gamma_1^n+\gamma_2^n}<\frac{1}{\sqrt[n]{8}}\mu_0.$$

В этом случае уравнение (1) регулярно разрешимо [6].

**Доказательство.** Пусть $f(x,y)\in L_{2,\gamma}\left(R^2;H\right)$. В уравнении (1) сделаем замену $u(x,y)=v(x,y)e^{\gamma_1 x+\gamma_2 y}$

тогда получаем следующее уравнение в $L_{2,\gamma}\left(R^2;H\right)$:

$$\left(\frac{\partial}{\partial x}+\gamma_1\right)^n v(x,y)+\left(\frac{\partial}{\partial x}+\gamma_2\right)^n v(x,y)=f(x,y)e^{-\gamma_1 x-\gamma_2 y}.$$

Очевидно, что $v(x,y)=u(x,y)e^{-\gamma_1 x-\gamma_2 y}\in L_2(R^2;H)$, $f(x)e^{-\gamma_1 x-\gamma_2 y}\in L_2(R^2;H)$.

Здесь

$$\left(\frac{\partial}{\partial x}+\gamma_1\right)^n v(x,y)=\frac{\partial^n v}{\partial x^n}+4\gamma_1\frac{\partial^{n-1}v}{\partial x^{n-1}}+6\gamma_1^{n-2}\frac{\partial^{n-2}v}{\partial x^{n-2}}+4\gamma_1^{n-1}\frac{\partial v}{\partial x}+\ldots+\gamma_1^n$$

а

$$\left(\frac{\partial}{\partial y}+\gamma_2\right)^n v(x,y)=\frac{\partial^n v}{\partial y^n}+4\gamma_2\frac{\partial^{n-1}v}{\partial y^{n-1}}+6\gamma_2^{n-2}\frac{\partial^{n-2}v}{\partial y^{n-2}}+4\gamma_2^{n-1}\frac{\partial v}{\partial x}+\ldots+\gamma_2^n.$$

Обозначим через $g(x,y)=f(x,y)e^{-\gamma_1 x-\gamma_2 y}$. Тогда получаем следующее уравнение

$$\left(\frac{\partial}{\partial x}+\gamma_1\right)^n v(x,y)+\left(\frac{\partial}{\partial y}+\gamma_2\right)^n v(x,y)=g(x,y) \tag{2}$$

в пространстве $W_2^n(R^2;H)$.

Пусть $\hat{g}(\xi,\eta)$ – преобразование вектор-функции $g(x,y)$

$$\hat{g}(\xi,\eta)=\frac{1}{2\pi}\int_{R^2} g(x,y)e^{-ix-iy}dxdy \tag{3}$$

и рассмотрим вектор-функцию

$$v(x,y)=\frac{1}{2\pi}\int_{R^2}\left((i\xi+\gamma_1)^n E+(i\eta+\gamma_2)^n E+A^n\right)^{-1}\hat{g}(\xi,\eta)e^{ix+iy}d\xi d\eta. \tag{4}$$

Очевидно, что вектор-функция удовлетворяет уравнению (2) почти всюду в $R^2$. Покажем, что выполнение условия теоремы вектор-функция $v(x,y)$ принадлежит пространству $W_2^n(R^2;H)$.

Очевидно, что

$$\hat{v}(\xi,\eta)=\frac{1}{2\pi}\int_{R^2} v(x,y)e^{-ix-iy}dxdy=\left((i\xi+\gamma_1)^n E+(i\eta+\gamma_2)^n E+A^n\right)^{-1}\hat{g}(\xi,\eta)$$

Покажем, что $v(x,y)\in W_2^n(R^2;H)$. По теореме Планшереля

$$\left\|\frac{\partial^n v}{\partial x^n}\right\|^2_{L_2(R^2;H)}+\left\|\frac{\partial^n v}{\partial y^n}\right\|^2_{L_2(R^2;H)}+\left\|A^n v\right\|^2_{L_2(R^2;H)}=\left\|\xi^{n-2}\hat{v}(\xi,\eta)\right\|^2_{L_2(R^2;H)}+$$
$$+\left\|\eta^{n-2}\hat{v}(\xi,\eta)\right\|^2_{L_2(R^2;H)}+\left\|A^n\hat{v}(\xi,\eta)\right\|^2_{L_2(R^2;H)} \tag{5}$$

Поэтому, достаточно показать, что $\xi^n\hat{v}(\xi,\eta)\in L_2(R^2;H)$, $\eta^n\hat{v}(\xi,\eta)\in L_2(R^2;H)$ и $A^n\hat{v}(\xi,\eta)\in L_2(R^2;H)$

Очевидно, что

$$\left\|\xi^n\hat{v}(\xi,\eta)\right\|_{L_2(R^2;H)}=\left\|\xi^n\left((i\xi+\gamma_1)^nE+(i\eta+\gamma_2)^nE+A^n\right)^{-1}\hat{g}(\xi,\eta)\right\|_{L_2(R^2;H)}\le$$

$$\le\sup_{(\xi,\eta)}\left\|\xi^n\left((i\xi+\gamma_1)^nE+(i\eta+\gamma_2)^nE+A^n\right)^{-1}\right\|\cdot\left\|\hat{g}(\xi,\eta)\right\|_{L_2\left(R^2;H\right)}\le \tag{6}$$

$$\le\sup_{(\xi,\eta)}\left\|\xi^n\left((i\xi+\gamma_1)^nE+(i\eta+\gamma_2)^nE+A^n\right)^{-1}\right\|\cdot\left\|g(x,y)\right\|_{L_2(R^2;H)}$$

Теперь оценим норму $\left\|\xi^n\left((i\xi+\gamma_1)^nE+(i\eta+\gamma_2)^nE+A^n\right)^{-1}\right\|$ при любом $(\xi,\eta)\in R^2$. Из спектрального разложения оператора $A$ следует, что при любом $(\xi,\eta)\in R$ имеет место оценка

$$\left\|\xi^n\left((i\xi+\gamma_1)^nE+(i\eta+\gamma_2)^nE+A^n\right)^{-1}\right\|=\sup_{\mu\in\sigma(A)}\left\|\xi^n\left((i\xi+\gamma_1)^nE+(i\eta+\gamma_2)^nE+A^n\right)^{-1}\right\|\le$$

$$\le\sup_{\mu\ge\mu_0}\frac{\xi^n}{\left|(i\xi+\gamma_1)^n+(i\eta+\gamma_2)^n+\mu^n\right|}\le\sup_{\mu\ge\mu_0}\frac{\xi^n}{\mathrm{Re}\left((i\xi+\gamma_1)^n+(i\eta+\gamma_2)^n+\mu^n\right)}\le$$

$$\le\sup_{\mu\ge\mu_0}\frac{\xi^n}{\xi^n+\gamma_1^n+\eta^n+\gamma_2^n+\mu^n-6\xi^{n-2}\gamma_1-6\eta^{n-2}\gamma_2}\le$$

$$\sup_{\mu\ge\mu_0}\frac{\xi^n}{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2+\left(\eta^{n-2}-3\gamma_2^{n-2}\right)^2+\left(\mu^n-8\gamma_1^n-8\gamma_2^n\right)}\le$$

$$\le\sup_{\mu\ge\mu_0}\frac{\xi^n}{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2+\left(\mu^n-8\gamma_1^n-8\gamma_2^n\right)}=\sup_{\mu\ge\mu_0}\frac{-\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2-9\gamma_1^n+6\xi^{n-2}\gamma_1^{n-2}}{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2+\left(\mu^n-8\gamma_1^n-8\gamma_2^n\right)}\le$$

$$\le\sup_{\mu\ge\mu_0}\frac{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2+6\xi^{n-2}\gamma_1^{n-2}}{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2+\left(\mu^n-8\gamma_1^n-8\gamma_2^n\right)}\le\frac{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2}{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2+\left(\mu_0^n-8\gamma_1^n-8\gamma_2^n\right)}+$$

$$+6\gamma_1^{n-2}\cdot\frac{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)+3\gamma_1^{n-2}}{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2+\left(\mu_0^n-8\left(\gamma_1^n+\gamma_2^n\right)\right)}\le1+6\gamma_1^{n-2}\cdot\frac{1}{2\sqrt{\mu_0^n-8\left(\gamma_1^n+\gamma_2^n\right)}}+$$

$$+3\gamma_1^{n-2}\frac{1}{\mu_0^n-8\left(\gamma_1^n+\gamma_2^n\right)}.$$

Таким образом, из (4) получаем, что

$$\left\|\xi^n\hat{v}(\xi,\eta)\right\|_{L_2(R^2;H)}\le const\left\|g(x,y)\right\|_{L_2\left(R^2;H\right)},$$

т.е. $\xi^n\hat{v}(\xi,\eta)\in L_2(R^2;H)$. Аналогично получаем, что $\eta^n\hat{v}(\xi,\eta)\in L_2(R^2;H)$.

Теперь покажем, что $A^n\hat{v}(\xi,\eta)\in L_2\left(R^2;H\right)$

Очевидно, что

$$\left\|A^n\hat{v}(\xi,\eta)\right\|_{L_2(R^2;H)}=\left\|A^n\left((i\xi+\gamma_1)^nE+(i\eta+\gamma_2)^nE+A^n\right)^{-1}\hat{g}(\xi,\eta)\right\|_{L_2(R^2;H)}$$

При любом $(\xi,\eta)\in R^2$ из спектрального разложения получаем, что

$$\left\| A^n\left((i\xi+\gamma_1)^n E+(i\eta+\gamma_2)^n E+A^n\right)^{-1}\right\| \le \sup_{\mu\in\sigma(A)}\left\| \mu^n\left((i\xi+\gamma_1)^n E+(i\eta+\gamma_2)^n E+\mu^n\right)^{-1}\right\| \le$$

$$\le \sup_{\mu\ge\mu_0}\frac{\mu^n}{\operatorname{Re}\left((i\xi+\gamma_1)^n+(i\eta+\gamma_2)^n+\mu^n\right)}=\sup_{\mu\ge\mu_0}\frac{\mu^n}{\xi^n+\gamma_1^n+\gamma_2^n+\mu^n-6\xi^{n-2}\gamma_1^{n-2}-6\eta^{n-2}\gamma_2^{n-2}}=$$

$$=\sup_{\mu\ge\mu_0}\frac{\mu^n}{\left(\xi^{n-2}-3\gamma_1^{n-2}\right)^2+\left(\eta^{n-2}-3\gamma_2^{n-2}\right)^2+\left(\mu^n-8(\gamma_1^n+\gamma_2^n)\right)}\le\sup_{\mu\ge\mu_0}\frac{\mu^n}{\mu^n-8\left(\gamma_1^n+\gamma_2^n\right)}\le$$

$$\le\frac{\mu_0^n}{\mu_0^n-8\left(\gamma_1^n+\gamma_2^n\right)}.$$

Таким образом

$$\left\|A^n\hat{v}(\xi,\eta)\right\|_{L_2(R^2;H)}\le\frac{\mu_0^n}{\mu_0^n-8\left(\gamma_1^n+\gamma_2^n\right)}\left\|g(x,y)\right\|_{L_2(R^2;H)}$$

т.е. $A^4\hat{v}(\xi,\eta)\in L_2\left(R^2;H\right)$. Следовательно, что $v(x,y)\in W_2^n(R^2;H)$ тогда $u(x,y)\in W_2^n(R^2;H)$. Так как $v(x,y)$ удовлетворяет уравнению (5), то $u(x,y)$ удовлетворяет уравнению (1). Отсюда видно, что уравнение $P_0u=0$ имеет только нулевое решение из $W_{2,\gamma}^n(R^2;H)$. С другой стороны

$$\left\|P_0u\right\|_{W_{2,\gamma,}^n\left(R^2;H\right)}\le const\left\|u\right\|_{W_{2,\gamma}^n\left(R^2;H\right)}.$$

Поэтому из теоремы Банаха об обратном операторе вытекает, что существует обратный $P_{0,\gamma}^{-1}:L_{2,\gamma}\left(R^2;H\right)\leftrightarrow W_{2,\gamma}^n\left(R;H\right)$, и поэтому

$$\left\|u\right\|_{W_{2,\gamma}^n(R^2;H)}\le const\left\|f\right\|_{L_{2,\gamma}\left(R^2;H\right)}.$$

Теорема доказана.

## Использованная литература

1. Дублинский Ю.А. Смешанная задача для некоторых классов уравнений с частными производными. Труды Московского Математического общества, 1969, т.XX, с.203-298

2. Исмаилова М.Ф. О разрешимости операторно-дифференциальных уравнений четвертого порядка на весовых пространствах. Вестник. БГУ, 2008, № 3, с. 47-52.

3. Исмаилова М.Ф. Исследование разрешимости операторно-дифференциальных уравнений четвертого порядка в частных производных. Автореферат диссертации. Баку, 2011, 22 с.

4. Исмаилова М.Ф. О разрешимости операторно-дифференциальных уравнений четвертого порядка в частных производных поведении резольвенты соответствующего операторного пучка на мнимых осях / "Riyaziyyatın nəzəri və tətbiqi problemləri" Beynəxalq Elmi konfransın materialları, Sumqayıt Dövlət Universiteti, 2017, c.152,153

5. Исмаилова М.Ф. Условия разрешимости одного класса операторно-дифференциальных уравнения четвертого порядка / «Riyaziyyatın nəzəri və tətbiqi problemləri» Beynəxalq Elmi konfransın materialları, Sumqayıt Dövlət Universiteti, 2017, c.151-152

6. Исмаилова М.Ф. О регулярной разрешимости одного класса операторно-дифференциальных уравнений высокого порядка на весовых пространствах / "Davamlı inkişaf

strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda I Beynəlxalq elmi konfransın materialları, Mingəçevir Dövət Universiteti, 2021, c.590-592

## ÇƏKİLİ FƏZALARDA YÜKSƏK TƏRTİBLİ OPERATOR-DİFERENSİAL TƏNLİKLƏRİN HƏLLİNƏ DAIR

**M.F.İsmayılova**
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Məqalədə bütün oxda iki dəyişənli yüksək tərtibli operator-diferensial tənliyin əsas operatorunun spektrinin aşağı sərhəddi ilə çəkili fəzanın göstəricisi arasında əlaqə tapılır. Bununla da çəkili fəzalarda ikidəyişənli yüksək tərtibli operator-diferensial tənliyin həllinin varllığı və yeganəliyi təmin edilir.*

***Açar sözlər:*** *operator-diferensial tənlik, Hilbert fəzası, çoxluq, vektor-funksiya, öz-özünə qoşma operator, aralıq törəmə, requlyar həll*

## ON THE SOLUTION OF THE HIGH ORDER OPERATOR-DIFFERENTIAL EQUATIONS ON WEIGHT SPACES

**M.Ismailova**
Doctor of Philosophy in Mathematics, Associate Professor
Mingachevir State University

***Abstract:*** *In the article, a connection is found between the lower bound of the spectrum of the main operator of a high-order operator-differential equation with two variables and the index of the weighted space. This ensures the existence and uniqueness of the solution of a high-order operator-differential equation with two variables in weighted spaces.*

***Keywords:*** *operator differential equation, Hilbert space, set, vector function, self-adjoint operator, intermediate derivatives, regular solution*

**Elmi redaktor: f.-r.f.d., dos. S.Mustafayev**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 14.02.2024**
**Çapa qəbul edilib: 21.02.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

UOT 620.9:005

# QEYRİ-SƏLİS MƏNTİQ VƏ K-ORTA KLASTERLƏŞDİRMƏ TEXNİKASININ TƏTBİQİ İLƏ ELEKTRİK ENERJİSİ İSTEHSALININ PROQNOZLAŞDIRILMASI

**Möhübbət Zaməddin oğlu Əhmədov**
texnika üzrə fəlsəfə doktoru
mahabbat.ahmedov@mdu.edu.az

***Xülasə:*** *Məqalədə elektrik enerjisi istehsalının K-orta klasterləşdirmə texnikası və qeyri-səlis məntiqi münasibətlər əsasında proqnozlaşdırma modeli təqdim olunur. Əvvəlcə, xronoloji verilənləri müxtəlif uzunluqlu intervallara uyğunlaşdırma üçün K-orta klasterləşdirmə alqoritmi istifadə olunur. Sonra yeni intervallara əsaslanaraq, xronoloji verilənlər qeyri-səlis çoxluqlar şəklində ifadə olunur və təklif olunan metodla elektrik enerjisi istehsalının proqnoz nəticələri hesablanmış və bu metodun tətbiqinin səmərəliliyi əsaslandırılmışdır.*

***Açar sözlər:*** *qeyri-səlis zaman sıraları, K-orta klasterləşdirmə, qeyri-səlis münasibət*

## Giriş

Son vaxtlar hədləri linqvistik dəyərlərlə təmsil olunan zaman sıralarının proqnozlaşdırılması məsələləri bu problemlə məşğul olan mütəxəssislərin çox böyük marağına səbəb olmaqdadır. Problem onunla bağlıdır ki, klassik zaman sıralarına əsaslanan ənənəvi proqnozlaşdırma metodları xronoloji verilənlər müəyyən bir linqvistik dəyişənin qiymətlərindən ibarət olan halda proqnozlaşdırma prosesinin aparılması üçün yararlı deyil. Məhz bu cür məsələlərin həlli dahi həmyerlimiz Lütfi Zadənin 1965-ci ildə kəşf etdiyi qeyri-səlis çoxluqlar nəzəriyyəsinin tətbiqi və istifadə olunması nəticəsində mümkün olmuşdur. 1993-cü ildə ABŞ Alabama Universitetinin professorları Q.Song və B.Chissom tərəfindən qeyri-səlis zaman sıraları nəzəriyyəsi təklif olunmuşdur. Onlar qeyri-səlis zaman sıraları əsasında Alabama Universitetinə tələbə qəbulunun proqnozlaşdırılması məsələsini test məsələ kimi təklif edərək həll etmişlər [1-3]. Onlar tərəfindən test məsələ həm zamana görə dəyişən, həm də zamana görə dəyişməyən qeyri-səlis zaman sıraları əsasında max-min əməliyyatlarından istifadə etməklə həll olunmuşdur. Bu metodların əsas çatışmazlığı çox böyük hesablama yükü ilə bağlıdır. Sonralar daha səmərəli hesablama metodları tətbiq etməklə bir neçə proqnozlaşdırma modelləri təklif olunmuşdur [4; 6]. Son vaxtlar daha yaxşı proqnozlaşdırma xətası əldə etmək məqsədilə qeyri-səlis zaman sıraları üçün müxtəlif uzunluqlu intervalların tədqiqi və mümkünlüyü mütəxəssislərin marağına səbəb olmuşdur [5; 7]. Məqalədə qeyri-səlis münasibətlər və K-orta klasterləşdirmə texnikasını birləşdirən proqnozlaşdırma modeli elektrik enerjisinin istehsalının proqnozlaşdırılması məsələsinin həlli üçün tətbiq olunmuşdur. Eksperimental nəticələr göstərmişdir ki, təklif olunan metod mövcud metodlarla müqayisədə daha yaxşı orta proqnozlaşdırma xətasına malikdir.

## 2. Qeyri-səlis zaman sıraları və K-orta klasterləşdirmə

Qeyri-səlis çoxluqlar nəzəriyyəsi ilk dəfə 1965-ci ildə L.Zadə tərəfindən linqvistik terminlərdən istifadə etməklə qeyri-müəyyənliklə məşğul olmaq üçün işlənib hazırlanmışdır. 1993-cü ildə Alabama universitetinin professorları Q.Song və B.Chissom qeyri-səlis zaman sıraları üçün qeyri-səlis çoxluqları qəbul etməklə qeyri-səlis proqnozlaşdırma prosesinin uğurla modelləşdirdi. Fərz edək ki, U universal çoxluqdur və aşağıdakı kimi verilmişdir: $U = \{u_1, u_2, \dots u_n\}$. U universal çoxluğunun A qeyri səlis çoxluğu aşağıdakı kimi təyin olunur:

$$A = \mu_A(u_1)/u_1 + \mu_A(u_2)/u_2 + \dots + \mu_A(u_n)/u_n$$

Burada: $\mu_A$ - mənsubiyyət funksiyasıdır, $\mu_A : U \Rightarrow [0, 1]$, $\mu_A(u_i)$ - $u_i$ - nin A-ya mənsub olma dərəcəsini bildirir. $\mu_A(u_i) \in [0, 1]$, / - ayırıcı işarədir. + - birləşdirmə əməliyyatıdır (toplama əməli deyil).

**Tərif 2.1.** Fərz edək ki, *Y(t)* (... 0, 1, 2, 3, ...) $R^1$ həqiqi ədədlər çoxluğunun altçoxluğudur. *Y(t)* çoxluğunda $\mu_i(t)$ ($t$=1,2,...) qeyri-səlis çoxluğu təyin olunur və onun üçün universal çoxluqdur. *F(t)* isə $\{\mu_i(t)$ ($t$=1, 2, ...)$\}$ çoxluğudur. Onda *F(t)*-yə *Y(t)* ($t$=... 0, 1, 2, ...) universal çoxluğunda qeyri-səlis zaman sırası deyilir.

**Tərif 2.2.** Əgər $F(t) = F(t-1) \circ R(t,t-1)$ bərabərliyini şərtləndirən $R(t,t-1)$ mövcud olarsa, bu halda $F(t)$ ($t$ anındakı müşahidə/qiymət) ancaq $F(t-1)$ ilə şərtlənir və bu münasibət simvolik olaraq $F(t-1) \to F(t)$ kimi yazılır. Burada $R(t,t-1)$ qeyri-səlis münasibətlər matrisi, $F(t)$ –1-tərtibli qeyri-səlis zaman sırası modeli, “$\circ$”– isə Max-Min kompozisiya operatoru adlanır.

**Tərif 2.3.** Əgər istənilən $t$ zaman anı üçün $F(t)$ qeyri-səlis zaman sırası ancaq və ancaq $F(t-1)$-dən asılıdırsa, bu halda bu cür əlaqə $F(t) = F(t-1) \circ R(t,t-1)$ şəklində ifadə olunur. Eyni zamanda ixtiyari $t$ zamanı $R(t,t-1) = R(t-1,t-2)$ şərti ödənərsə, bu halda $F(t)$– qeyri-səlis zaman sırası zamana görə dəyişməyən (time-invariant), əks halda isə zamana görə dəyişən (time-variant) qeyri-səlis zaman sırası adlanır.

**Tərif 2.4.** Əgər $F(t-1)$-i $A_i$ və $F(t)$ isə $A_j$ kimi işarə etsək, bu halda $F(t-1)$ və $F(t)$ arasındakı münasibət $A_i \to A_j$ məntiqi implikasiya münasibəti kimi yazılır.

**K-orta klasterləşdirmə texnikası**

Qərar qəbuletmə məsələlərinin həlli üçün təqdim edilən K-orta klasterləşdirmə müasir dövrdə klasterləşmə probleminin həlli üçün ən populyar öyrənmə alqoritmlərindən biridir. K-orta klasterləşdirmə metodunda verilənlər bir-birinə yaxınlığı nəzərə almaq məqsədilə Evklid məsafəsinə görə qruplaşdırılır [8, 9]. Klaster yanaşmasında istifadəçi neçə klasterin olması lazım olduğuna qərar verir və klasterlər xronoloji verilənlər vektorunun mərkəzə yaxınlığına əsasən təyin edilir. Nəticə klaster sayından və K-orta alqoritmi ilə aparılan seçimdən asılıdır. K-orta alqoritmi aşağıdakı addımlardan ibarətdir:

**Addım 1**. Klasterləşdirmə prosesində $j$ nöqtələrini qruplaşdırılan obyektlərin göstərdiyi boşluğa qoyun. Bu nöqtələr ilkin qrup mərkəzlərini təmsil edir.

**Addım 2**. Hər bir obyekti ən yaxın mərkəzi olan qrupa təyin edin.

**Addım 3**. Bütün obyektlər təyin edildikdən sonra $j$ mərkəzlərinin mövqelərini yenidən hesablayın.

**Addım 4**. Mərkəzlər artıq hərəkət etməyənə qədər 2 və 3-cü addımları təkrarlayın. Bu, obyektlərin minimuma endirilməli olan metrikanın hesablana biləcəyi qruplara ayrılmasını təmin edir.

**3. K-orta klasterləşdirmə əsasında qeyri-səlis zaman sıraları modeli**

Bu bölmədə elektrik enerjisi istehsalı göstəriciləri ilə bağlı ststistik verilənlər əsasında təsnifat aparmaq üçün K-orta klasterləşdirmə texnikası tətbiq olunur. Ədədi məlumatlardan intervallar yaratmaq üçün klasterlər bitişik intervallara uyğunlaşdırılır. Sonra müəyyəm edilmiş interval əsasında xronoloji verilənlərdə qeyri-səlis münasibət və klaster vaxtı müəyyən edilir. Nəhayət qeyri-səlis münasibət qruplarına əsaslanaraq proqnozlaşdırma prosesi aparılır və proqnoz nəticələr əldə olunur.

Proqnozlaşdırma prosesi əvvəlcə xronoloji verilənlər əsasında K-orta klasterləşdirmə alqoritmi ilə intervalların generasiyası ilə başlayır. Xronoloji verilənlər Cədvəl 1-də verilib.

**Cədvəl 1**

**Elektrik enerjisi istehsalı göstəriciləri**

| İllər | İstehsal olunan elektrik enerjisi (Mvt saat) | İllər | İstehsal olunan elektrik enerjisi (Mvt saat) | İllər | İstehsal olunan elektrik enerjisi (Mvt saat) |
|---|---|---|---|---|---|
| 1982 | 1764 | 1995 | 8384 | 2008 | 9185 |
| 1983 | 3651 | 1996 | 9076 | 2009 | 6759 |
| 1984 | 4619 | 1997 | 8110 | 2010 | 5237 |
| 1985 | 6689 | 1998 | 10090 | 2011 | 6289 |
| 1986 | 7174 | 1999 | 10157 | 2012 | 8127 |
| 1987 | 8172 | 2000 | 10863 | 2013 | 7633 |
| 1988 | 9154 | 2001 | 11020 | 2014 | 7684 |
| 1989 | 9562 | 2002 | 10099 | 2015 | 7403 |
| 1990 | 10613 | 2003 | 10566 | 2016 | 6763 |
| 1991 | 11832 | 2004 | 10236 | 2017 | 8160 |
| 1992 | 9679 | 2005 | 10412 | 2018 | 7464 |
| 1993 | 8650 | 2006 | 11601 | 2019 | 7051 |
| 1994 | 8650 | 2007 | 9662 | 2020 | 5920 |

**Addım1:** Statistik göstəricilər əsasında xronoloji məlumatları $p$ çoxluqlarına bölmək və məlumatları artan ardıcıllıqla klasterlərdə çeşidləmək üçün K-orta klasterləşdirmə alqoritmi tətbiq olunur. Baxılan məsələ üçün p=17 klaster təyin olunmuşdur və nəticələr aşağıdakı kimidir:

{1764}, {3651}, {4619}, {5237}, {5920}, {6289}, {6689, 6759, 6763},
{7051, 7174, 7403, 7464}, {7633, 7684},
{8110, 8127, 8160, 8172}, {8384, 8650, 8650},
{9076, 9154, 9185}, {9562,9662,9679},
{10090, 10099, 10157, 10236},
{10412, 10566}, {10613, 10863},
{11020, 11601, 11832}.

**Addım 2:** Klaster mərkəzlərinin yaradılması

Bu mərhələdə avtomatik klasterləşdirmə texnikasından istifadə edərək, addım 1-də verilən klasterlər əsasında Cədvəl 2-də təsvir olunan hər klaster üçün cluster $j$ aşağıdakı düstur əsasında yaradılır:

$$Center_j = \frac{\sum_{i=1}^{n} d_i}{n}, \qquad (1)$$

burada $d_i$ – klasterin verilənidir, $n$ – cluster $j$-də verilənin nömrəsidir və $1 \leq j \leq p$.

**Cədvəl 2**

**Klaster mərkəzlərinin generasiyası**

| | | | | | |
|---|---|---|---|---|---|
| 1764 | | | | | 1764 |
| 3651 | | | | | 3651 |
| 4619 | | | | | 4619 |
| 5237 | | | | | 5237 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 5920 | | | | | 5920 |
| 6289 | | | | | 6289 |
| 6689 | 6759 | 6763 | | | 6737 |
| 7051 | 7174 | 7403 | 7464 | | 7273 |
| 7633 | 7684 | | | | 7659 |
| 8172 | 8110 | 8127 | 8160 | | 8142 |
| 8384 | 8650 | 8650 | | | 8561 |
| 9076 | 9154 | 9185 | | | 9138 |
| 9562 | 9662 | 9679 | | | 9634 |
| 10090 | 10099 | 10157 | 10236 | | 10146 |
| 10412 | 10566 | | | | 10489 |
| 10613 | 10863 | | | | 10738 |
| 11020 | 11601 | 11832 | | | 11484 |

**Addım 3:** Çoxluqları uyğun olaraq intervallara uyğunlaşdırın. Qaydalara aşağıdakı kimi əməl olunmalıdır. Fərz edək ki, $Center_k$ və $Center_{k+1}$ bitişik klaster mərkəzləridir, onda $cluster_j$-nin yuxarı həddi - $UB_j$ və $Cluster_{j+1}$-in aşağı həddi olan $LB_{k+1}$ aşağıdakı kimi hesablana bilər:

$$Cluster_UB_k = \frac{Center_k + Center_{k+1}}{2}, \tag{2}$$

$$Cluster_LB_{k+1} = Cluster_UB_k, \tag{3}$$

burada $k$=1, .., $p$-1.

Birinci klasterdən əvvəl, əvvəlki klaster olmadığına və sonuncu klasterdən sonra növbəti klaster olmadığına görə birinci klasterin aşağı həddi – $LB_1$ sonuncu klasterin yuxarı həddi olan Klaster $_UB_p$ açağıdakı kimi hesablana bilər:

$$Cluste_LN_1 = Center_1 - (Center_1 - Cluster_UB_1) \tag{4}$$

$$Cluste_UB_p = Center_p + (Center_p - Cluste_LB_p) \tag{5}$$

**Addım 4:** Hər bir klaster $j$-yə uyğun olaraq intervallar yaradılır. Hər bir interval üçün orta qiymət $Mid_value_i$ aşağıdakı kimi hesablanır:

$$Mid_value_j = \frac{interval_LB_j + interva\ _UB_j}{2}, \tag{6}$$

burada interval $_UB_j$ və interval $_LB_j$, müvafiq olaraq, intervalların yuxarı və aşağı sərhədləridir və $j$=1, ..., $p$.

Aparılan hesablamaların nəticələri Cədvəl 3-də təsvir olunmuşdur:

**Cədvəl 3**

**Klasterlər üzrə təyin olunan intervalların orta nöqtələri**

| İntervallar | | Termlər | Mid |
|---|---|---|---|
| 1200 | 2708 | A1 | 1954 |
| 2708 | 4135 | A2 | 3422 |
| 4135 | 4928 | A3 | 4532 |
| 4928 | 5579 | A4 | 5253 |
| 5579 | 6105 | A5 | 5842 |
| 6105 | 6513 | A6 | 6309 |
| 6513 | 7005 | A7 | 6759 |
| 7005 | 7466 | A8 | 7235 |
| 7466 | 7900 | A9 | 7683 |
| 7900 | 8352 | A10 | 8126 |

| | | | |
|---|---|---|---|
| 8352 | 8850 | A11 | 8601 |
| 8850 | 9386 | A12 | 9118 |
| 9386 | 9890 | A13 | 9638 |
| 9890 | 10317 | A14 | 10104 |
| 10317 | 10614 | A15 | 10465 |
| 10614 | 11111 | A16 | 10863 |
| 11111 | 11923 | A17 | 11517 |

## 4. Elektrik enerjisi istehsalının proqnozlaşdırılması

K-orta klasterləşdirmə alqoritmi və zamana görə dəyişən qeyri-səlis zaman sıraları əsasında elektrik enerjisi istehsalının proqnozlaşdırılması prosesi aşağıdakı kimi təqdim olunur

**Addım 1**. Elektrik enerjisi istehsalı ilə bağlı statistik xronoloji verilənlərin aid olduğu universal çoxluq intervallara bölünür. Bu məqsədlə K-orta klasterləşdirmə proseduru tətbiq edildikdən sonra Cədvəl 3-də verilmiş intervalların orta qiyməti hesablanır.

**Addım 2.** Xronoloji verilənlərin fazzifikasiyası aparılır. 1-ci addımda yeni əldə edilmiş 17 interval Cədvəl 1-də göstərilən statistik verilənlər əsasında müvafiq qeyri-səlis çoxluqlar təyin olunur. Burada 17 interval üçün Ai 17 linqvistik term təyin olunur. Hər bir linqvistik term qeyri-səlis çoxluğu təmsil edir. Bu qeyri-səlis çoxluqıarı müəyyən etmək üçün addım mənsubiyyət funksiyasından istifadə etmək olar. Cədvəl 1-də təsvir olunan statistik göstəricilər mənsubiyyət funksiyasının ən yüksək qiymətinə görə qeyri-səlisləşdirilir. Məsələn, 1983-cü il üçün 3651 qiyməti u2=(2708, 4135) intervalına daxildir. Burada isə mənsubiyyət funksiyasının maksimum qiyməti A2 qeyri-səlis çoxluğunu göstərir. Beləliklə, bütün statistik göstəricilər Cədvəl 4-də verilmiş qeyri-səlis çoxluqlar şəklində ifadə olunur.

**Cədvəl 4**

**Enerji istehsalı göstəriciləri üçün linqvistik termlər**

| İllər | Fakt | Termlər | İllər | Fakt | Termlər | İllər | Fakt | Termlər |
|---|---|---|---|---|---|---|---|---|
| 1982 | 1764 | A1 | 1995 | 8384 | A10 | 2008 | 9185 | A12 |
| 1983 | 3651 | A2 | 1996 | 9076 | A12 | 2009 | 6759 | A7 |
| 1984 | 4619 | A3 | 1997 | 8110 | A10 | 2010 | 5237 | A4 |
| 1985 | 6689 | A7 | 1998 | 10090 | A14 | 2011 | 6289 | A6 |
| 1986 | 7174 | A8 | 1999 | 10157 | A14 | 2012 | 8127 | A10 |
| 1987 | 8172 | A10 | 2000 | 10863 | A16 | 2013 | 7633 | A9 |
| 1988 | 9154 | A12 | 2001 | 11020 | A16 | 2014 | 7684 | A9 |
| 1989 | 9562 | A13 | 2002 | 10099 | A14 | 2015 | 7403 | A8 |
| 1990 | 10613 | A15 | 2003 | 10566 | A15 | 2016 | 6763 | A7 |
| 1991 | 11832 | A17 | 2004 | 10236 | A14 | 2017 | 8160 | A10 |
| 1992 | 9679 | A13 | 2005 | 10412 | A15 | 2018 | 7464 | A9 |
| 1993 | 8650 | A11 | 2006 | 11601 | A17 | 2019 | 7051 | A8 |
| 1994 | 8650 | A11 | 2007 | 9662 | A13 | 2020 | 5920 | A5 |

**Addım 3**. Qeyri-səlis keçid qaydaları müəyyən edilir. Beləliklə, Cədvəl 4-ə və tərif 2.2-yə görə bir tərtibli qeyri-səlis zaman sıralarına müvafiq olaraq, Cədvəl 5-də qeyri-səlis keçid qaydaları aşağıdakı kimi təyin edilir:

Əgər i ili üçün enerji istehsalı $A_i$ olarsa, onda $i$+1 ili üçün enerji istehsalı $A_k$ olacaq və bu fakt $A_i \rightarrow A_k$ kimi işarələnir.

**Cədvəl 5**

**1 tərtibli qeyri-səlis keçidlər**

| N | Keçidlər | N | Keçidlər |
|---|---|---|---|
| 1 | A1 - > A2 | 20 | A16 - > A14 |
| 2 | A2 - > A3 | 21 | A14 - > A15 |
| 3 | A3 - > A7 | 22 | A15 - > A14 |
| 4 | A7 - > A8 | 23 | A14 - > A15 |
| 5 | A8 - > A10 | 24 | A15 - > A17 |
| 6 | A10 - > A12 | 25 | A17 - > A13 |
| 7 | A12 - > A13 | 26 | A13 - > A12 |
| 8 | A13 - > A15 | 27 | A12 - > A7 |
| 9 | A15 - > A17 | 28 | A7 - > A4 |
| 10 | A17 - > A13 | 29 | A4 - > A6 |
| 11 | A13- > A11 | 30 | A6 - > A10 |
| 12 | A11 - > A11 | 31 | A10 - > A9 |
| 13 | A11 - > A10 | 32 | A9 - > A9 |
| 14 | A10 - > A12 | 33 | A9 - > A8 |
| 15 | A12 - > A10 | 34 | A8 - > A7 |
| 16 | A10 - > A14 | 35 | A7 - > A10 |
| 17 | A14 - > A14 | 36 | A10 - > A9 |
| 18 | A14 - > A16 | 37 | A9 - > A8 |
| 19 | A16 - > A16 | 38 | A8 - > A5 |

**Addım 4.** Proqnoz nəticələrin hesablanması. Qeyri-səlis keçid qaydalarına müvafiq olaraq proqnoz qiymət kimi qeyri-səlis çoxluğa müvafiq intervalın orta nöqtəsi götürülür. Beləliklə, aparılan hesablamalrın nəticələri Cədvəl 6-da verilmişdir.

**Cədvəl 6**

**Elektrik enerjisi istehsalının proqnoz nəticələri**

| İllər | Termlər | Proqnoz | N | Termlər | Proqnoz |
|---|---|---|---|---|---|
| 1982 | A1 | Not Forecast | 2002 | A14 | 10104 |
| 1983 | A2 | 3422 | 2003 | A15 | 10465 |
| 1984 | A3 | 4532 | 2004 | A14 | 10104 |
| 1985 | A7 | 6759 | 2005 | A15 | 10465 |
| 1986 | A8 | 7235 | 2006 | A17 | 11517 |
| 1987 | A10 | 8126 | 2007 | A13 | 9638 |
| 1988 | A12 | 9118 | 2008 | A12 | 9118 |
| 1989 | A13 | 9638 | 2009 | A7 | 6759 |
| 1990 | A15 | 10465 | 2010 | A4 | 5253 |
| 1991 | A17 | 11517 | 2011 | A6 | 6309 |
| 1992 | A13 | 9638 | 2012 | A10 | 8126 |
| 1993 | A11 | 8601 | 2013 | A9 | 7683 |
| 1994 | A11 | 8601 | 2014 | A9 | 7683 |
| 1995 | A10 | 8126 | 2015 | A8 | 7235 |
| 1996 | A12 | 9118 | 2016 | A7 | 6759 |
| 1997 | A10 | 8126 | 2017 | A10 | 8126 |
| 1998 | A14 | 10104 | 2018 | A9 | 7683 |
| 1999 | A14 | 10104 | 2019 | A8 | 7235 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2000 | A16 | 10863 | 2020 | A5 | 5842 |
| 2001 | A16 | 10863 | | | |

Məqalədə proqnoz nəticələrini müqayisəli şəkildə təhlil etmək məqsədilə orta proqnozlaşdırma xətası (*ing. Average Forecasting Error Rate)* və orta kvadratik xətalardan (*ing. Mean Square Error*) istifadə olunmuşdur.

a) Orta proqnozlaşdırma xətası (*ing. Average Forasting Error Rate*):

$$AFER = \frac{\sum_{i=1}^{n} \frac{|A_i - F_i|}{A_i}}{n} * 100\% \quad (7)$$

b) Orta kvadratik xəta (*ing. Mean Square Error):*

$$MSE = (\sum_{i=1}^{n} (A_i - F_i)^2)/n \quad (8)$$

Cədvəl 7-də universal çoxluğun müxtəlif bölgüləri üçün xətaların müqayisəsi verilibdir [6, 7]:

**Cədvəl 7**

| | N=5 | N=6 | N=7 | N=8 | N=9 | Təklif olunan metod |
|---|---|---|---|---|---|---|
| ***AFER*** | 6,97% | 3,62% | 2,98% | 3,36% | 3,21% | 0.99% |
| ***MSE*** | 523626,63 | 142266,56 | 97996,43 | 116406,60 | 93747,86 | 11915,49 |




**Şək. 1.** Elektrik enerjisi istehsalı

**İstifadə edilmiş ədəbiyyat**

1. Q.Song, B.S.Chissom. Fuzzy time series and its models // Fuzzy Sets and Systems, 54 (1993), pp. 269-277.
2. Q.Song, B.S.Chissom. Forecasting enrollments with fuzzy time series - part I // Fuzzy Sets and Systems, 54 (1993), pp.1-9.
3. Q.Song, B.S.Chissom. Forecasting enrollments with fuzzy time series - part II // Fuzzy Sets and Systems, 62 (1994), pp.1-8.
4. S.M.Chen. Forecasting enrollments based on fuzzy time series // Fuzzy Sets and Systems, 81 (1996), pp.311-319.
5. S.M.Chen, K.Tanuwijaya. Fuzzy forecasting based on high-order fuzzy logical relationships and automatic clustering techniques // Expert Systems with Applications 38 (2011), pp.15425–15437.
6. Əhmədov M.Z. Elektrik enerjisi istehsalının qeyri-səlis zaman sıralarının tətbiqi ilə proqnozlaşdırılması // İnformasiya Texnologiyaları Problemləri, № 2 , 2013, s.53-63
7. Əhmədov M.Z. Qeyri-səlis məntiq əsasında elektrik enerjisi istehsalının proqnozlaşdırılması // İnformasiya Texnologiyaları Problemləri, № 2, 2021, s.30-40

## FORECASTING ELECTRICITY PRODUCTION USING FUZZY LOGIC AND K-MEANS CLUSTERING METHOD

**M.Ahmedov**
Doctor of Philosophy in Technics
Mingachevir State University

***Abstract:*** *The article presents a model for predicting electricity production based on the clustering method of K-means and fuzzy logical relations. First, the K-means clustering algorithm is used to match historical data at intervals of varying lengths. Then, on the basis of new intervals, chronological data are expressed in the form of fuzzy sets, the predicted results of electricity production are calculated using the proposed method, and the effectiveness of this method is substantiated.*

***Keywords****: fuzzy time series, K-means clustering, fuzzy relation*

## ПРОГНОЗИРОВАНИЕ ПРОИЗВОДСТВА ЭЛЕКТРИЧЕСКОЙ ЭНЕРГИИ С ИСПОЛЬЗОВАНИЕМ НЕЧЕТКОЙ ЛОГИКИ И МЕТОДА КЛАСТЕРИЗАЦИИ K-СРЕДНИХ

**М.З.Ахмедов**
доктор философии по технике
Мингечевирский государственный университет

***Резюме:*** *В статье представлена модель прогнозирования производства электроэнергии, основанная на методе кластеризации K-средних и нечетких логических отношениях. Во-первых, алгоритм кластеризации K-средних используется для сопоставления хронологических данных с интервалами различной длины. Затем на основе новых интервалов хронологические данные выражаются в виде нечетких множеств, по предложенному методу рассчитываются прогнозные результаты производства электроэнергии и обосновывается эффективность применения этого метода.*

***Ключевые слова:*** *нечеткий временной ряд, кластеризация K-средних, нечеткое отношение*

**Elmi redaktor: tex.f.d., A.Mustafayeva**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 16.02.2024**
**Çapa qəbul edilib: 23.02.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

UOT 517.95

# CIRLAŞAN ELLİPTİK TƏNLİKLƏRİN MÜSBƏT HƏLLƏRİNİN ARAŞDIRILMASI

[1,3]**Murğuzəli İslam oğlu Əliyev,** [2,3]**Gülnar Nizaməddin qızı İsgəndərova,**
[4]**Səriyə İnqilab qızı Allahverdiyeva**
[1]fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
aliyevm@list.ru
[2]fizika-riyaziyyat üzrə fəlsəfə doktoru
[3]Bakı Dövlət Universiteti
[4]sariya.allahversiyeva@mdu.edu.az
Mingəçevir Dövlət Universiteti
Bakı Dövlət Universitetinin dissertantı

***Xülasə:*** *Məqalədə cırlaşan tənliklər üçün müsbət həllərin varlığı öyrənilir. Bunun üçün Grin funksiyası qurulur və məsələnin həlli Grin funksiyası vasitəsi ilə ifadə olunur.*
***Açar sözlər:*** *cırlaşan elliptik tənliklər, müsbət həll, Grin funksiyası*

## Giriş

Xüsusi törəməli diferensial tənliklər nəzəriyyəsi müasir riyaziyyatın inkişaf etmiş sahələrindən birirdir. Qeyd edək ki, xüsusi törəməli diferensial tənliklər üçün qoyulmuş sərhəd məsəslələri son dövrlərdə geniş tədqiq olunur. Bu sərhəd məsələlərindən cırlaşan elliptik tənliklər üçün qoyulmuş sərhəd məsələləri mühüm rol oynayır. Bu məsələlər mexanikadan və fizikadan irəli gələn məsələlərdir. Ona görə də bu tip məsələlər həm nəzəri, həm də praktiki xarakterə malikdir. Bu məsələlər son dövrlərdə geniş tədqiq olunur. [3-5]

## 1. Məsələnin qoyuluşu. Həllin yeganəliiyi

Tutaq ki, D oblastı sərhədi $x$ oxunun $AB$ parçası və $y>0$ yarımmüstəvisində yerləşən ucları $A$ və $B$ nöqtələrinə söykənən $\sigma$ əyrisindən ibarətdir. Bu oblastda

$$yu_{yy}+u_{xx}+ku_y+f(x,y,u)=0 \tag{1}$$

tənliyinə baxaq. Burada $k<1$ – sabit, $f$ isə öz arqumentlərinə nəzərən verilmiş funksiyadır. (1) tənliyi $D$ oblastında elliptik olmaqla, oblastın sərhədinin $AB$ hissəsində parobolik cırlaşır.

$D$ olaraq normal oblast adlanan oblastı götürəcəyik. Bu oblastda $\sigma$ əyrisi tənkiyi $x^2+4y=a^2$ şəklində olan və ucları $A(-a,0)$ və $B(a,0)$ nöqtələrində yerləşən əyridir.

Normal $D$ oblastında (1) tənliyinin iki dəfə kəsilməz törəmələrə malik elə həllini tapmalı ki, bu həll qapalı $\overline{D}$ oblastında kəsilməz olsun və oblastın $\partial D=\sigma+[-a,a]$ sərhəddində verilmiş qiymətləri almış olsun.

Ümumiliyi pozmadan fərz edək ki, $\partial D$ sərhədinə sıfır qiymətləri verilmişdir.

İsbat etmək olur ki, əgər $f$ funksiyası $(x,y)\in D$ və istənilən $u$ üçün

$$\frac{\partial f}{\partial u}\le 0 \tag{2}$$

şərtini ödəyirsə, onda (1) tənliyi üçün Dirixle məsələsinin birdən çox həlli ola bilməz.

Əvvəlcə

$$Tu\equiv yu_{yy}+u_{xx}+ku_y=f(x.y) \tag{3}$$

tənliyinə baxaq və bu tənliiyin normal $D$ oblastının $\partial\Omega=\sigma+AB$ sərhədində sıfra çevrilən həllini quraq. Laqranj mənada $Tu$ operatoru ilə qoşma operator

$$T^{*}v\equiv yv_{yy}+v_{xx}+(2-k)u_y \tag{4}$$

operatorudur.

Məlumdur ki, [1] $k<1$ olduqda

$$g(x,y;\xi,t) = jr_1^{-2\beta}F(\beta,\beta,2\beta,1-\frac{r^2}{r_1^2}) \qquad (5)$$

funksiyası $(x,y)$ və $(\xi,t)$ dəyişənlərinə nəzərən $T^*v=0$ tənliyinin həllidir və $x=\xi, y=t>0$ nöqtəsində loqarifmik məxsusiyyəti var, burada

$$\left.\begin{matrix} r_1^2 \\ r^2 \end{matrix}\right\} = (x-\xi)^2 + 4\left(\sqrt{y}\pm\sqrt{t}\right)^2, \ \beta = \frac{3}{2}-k,$$

$F$ – hiperhəndəsi funksiya, $j$ isə hər hansı ədəddir.

(3) və (4) bərabərliklərində istifadə edərək, göstərək ki,

$$T(y^{1-k}u) = y^{1-k}T^*u \qquad (6)$$

münasibəti doğrudur.

$$T(y^{1-k}u) = y(y^{1-k}u)_{yy} + y^{1-k}u_{xx} + k(y^{1-k}u)_y =$$
$$= y\left[(1-k)y^{-k}u + y^{1-k}u_y\right]_y + y^{1-k}u_{xx} +$$

$$+k\left[(1-k)y^{-k}u + y^{1-k}u_y\right] = y\left[-k(1-k)y^{-k-1}u + \right.$$
$$\left.+(1-k)y^{-k}u_y + y^{1-k}u_{yy}\right] + y^{1-k}u_{xx} + k(1-k)y^{-k}u +$$
$$+ky^{1-k}u_y = y^{2-k}u_{yy} + 2(1-k)y^{1-k}u_y + y^{1-k}u_{xx} =$$
$$= y^{1-k}\left[yu_{yy} + u_{xx} + (2-k)u_y\right] = y^{1-k}T^*u$$

(6) bərabərsizliyindən alınır ki, (5) bərabərliyi ilə təyin olunmuş $g(x,y;\xi,t)$ funksiyası üçün $y^{1-k}g(x,y;\xi,t)$ funksiyası $(x,y)$ dəyişənlərinə nəzərən $Tu=0$ tənliyinin həllidir. Digər tərəfdn göstərmək olar ki, $w(x,y)$ funksiyası $T^*w=0$ tənliyinin həllidirsə, onda

$$v(x,y) = \left(\frac{R}{a}\right)^{2k-3} w\left(\frac{a^2x}{R^2},\frac{a^4y}{R^4}\right), R^2 = x^2+4y$$

funksiysı da $T^*v=0$ tənliyinin həllidir. Bu isə o deməkdir ki,

$$y^{1-k}\left(\frac{\rho}{a}\right)^{2k-3} g\left(x,y;\frac{a^2\xi}{\rho^2},\frac{a^4t}{\rho^4}\right), \ \rho^2 = \xi^2+4t$$

funksiyası da $(\xi,t)$ dəyişənlərinə nəzərən $T^*v=0$ tənliyi, $(x,y)$ dəyişənlərinə nəzərən isə $Tu=0$ tənliyini ödəyəcək.

**2. Grin funksiyasının qurulması. Həllin varlığı və yeganəliyi.**

İndi

$$G(x,y;\xi,t) = y^{1-k}g(x,y;\xi,t) - y^{1-k}\left(\frac{\rho}{a}\right)^{2k-3} g\left(x,y;\frac{a^2\xi}{\rho^2},\frac{a^4t}{\rho^4}\right) \qquad (7)$$

funksiyası düzəldək [2].

Bu funksiya aşağıdakı xassələri ödəyir:

1) $(x,\ y)$ dəyişənlərinə nəzərən $Tu=0$ tənliyini, $(\xi,t)$ dəyişənlərinə nəzərən $T^*v=0$ tənliyini ödəyir.

2) $x=\xi, \quad y=t>0$ nöqtəsində loqarifmik məxsusiyyəti var;

3) $(x,y)\in\sigma$ və $y=o$ üçün $G=0$

Asanlıqla göstərmək olar ki, hissə-hissə hamar sərhədi olan $D$ oblastı üçün

$$\iint_{D_1}\left(vTu-uT^*v\right)d\xi dt=\int_{\Gamma_1}\left(v\frac{\partial u}{\partial \xi}-u\frac{\partial v}{\partial \xi}\right)dt-\int_{\Gamma_1}\left[t\left(v\frac{\partial u}{\partial t}-u\frac{\partial v}{\partial t}\right)+(k-1)uv\right]d\xi \quad (8)$$

Grin düsturu doğrudur. Normal oblastın ixtiyarı daxili nöqtəsinin kiçik $\varepsilon$ ətrafını ayıraq:

$$d_\varepsilon:(x-\xi)^2+4\left(\sqrt{y}-\sqrt{t}\right)^2\leq\varepsilon \text{ və } D-d\varepsilon$$

oblastına (8) düsturunu tətbiq edək.

Bu zaman u funksiyası olaraq (3) tənliyinin $\partial D$ üzərində sıfra bərabər olan həlli $v(\xi,t)$ olaraq, $G(x,y;\xi,t)$ götürək. Bu bərabərlikdə $e\to 0$ şərtilə limitə keçsək,

$$u(x,y)=-\iint_D G(x,y;\xi,t)f(\xi,t)d\xi dt \quad (9)$$

alarıq.

**Lemma.** Əgər $F(x,y)$ funksiyası $\overline{D}$ oblastında kəsilməz, $D$ oblastında kəsilməz törəmələrə malikdirsə, onda (9) bərabərliyinin təyin etdiiyi $u(x, y)$ funksiyası (3) tənliyinin $\partial D$ sərhədində sıfra bərabər olan həllidir.

(9) bərabərliyi ilə təyin olunan funksiyanın (3) tənliyini ödəməsi və $\sigma$ sərhədi üzərində sıfra çevrilməsi potensiallar nəzəriyyəsində olan kimi göstərilir. Göstərək ki, (9) bərabərliyi ilə təyin olunan $u(x,y)$ funksiyası $y=0$ olduqda sıfra çevrilir. (9) bərabərliyində $G$ əvəzinə (7) ifadəsini yazsaq inteqral iki inteqrala bölünür. Bu bərabərliyin ikinci inteqralı $y\to 0$-da $y^{1-k}$ kimi sıfra yaxınlaşır. Birinci toplanana uyğun inteqrala baxaq:

$$J(x,y)=y^{1-k}\iint_D g(x,y;\xi çt)f(\xi,t)d\xi dt\,.$$

(5) ifadəsini nəzərə alsaq,

$$|J|\leq j\mathrm{M}y^{1-k}\int_d r_1^{-2\beta}\left|F(\beta,\beta,2\beta,1-\frac{r^2}{r_1^2})\right|d\xi dt$$

yaza bilərik, burada

$$\mathrm{M}=\max_{\overline{D}}|f(x,y)|\,.$$

Kafi qədər kiçik $y$-lər üçün

$$|J|\leq O(1)y^{1-k}\iint_D r_1^{-2k-3}d\xi dt$$

Qiymətləndirməsi doğrudur. Buradan alırıq:

$$|J_1|\leq a(1)y^{1-k}\int_0^{\frac{a^2}{4}}\left\{\int_{-\sqrt{a^2-4t}}^{\sqrt{a^2-4t}}\left[(x-\xi)^2+4\left(\sqrt{y}+\sqrt{t}\right)^2\right]\frac{2k-\xi}{2_{d\xi}}\right\}dt$$

Burada

$$\xi=x+2\left(\sqrt{y}+\sqrt{t}\right)\lambda$$

əvəz etsək, alarıq:

$$|J|\leq O(1)y^{1-k}\int_0^{a^2/4}\left(\sqrt{y}+\sqrt{t}\right)^{2k-2}\times\left\{\int_{\frac{-x+\sqrt{a^2-4t}}{2(\sqrt{y}+\sqrt{t})}}^{\frac{-x+\sqrt{a^2-4t}}{2(\sqrt{y}+\sqrt{t})}}(1+\lambda)^{\frac{2k-3}{2}}d\lambda\right\}dt\leq$$

$$\leq O(1)y^{1-k}\int_{-\infty}^{\infty}(1+\lambda^2)^{\frac{2k-3}{2}}d\lambda\int_0^{a^2/4}\left(\sqrt{y}+\sqrt{t}\right)^{2k-2}dt\leq O(1)y^{1-k}\int_{\sqrt{y}}^{\frac{a}{2}+\sqrt{y}}z^{2(k-1)}(z-\sqrt{y})dz$$

Bir sözlə,

$$|u| \le \begin{cases} O(1)(y^{1-k}+y) & k \ne 0 \\ O(1)(y\ln y + y) & k = 0 \end{cases}.$$

Bununla, lemma isbar olunur.

Lemmanın köməyilə (1) tənliyinin oblastın sərhədində sıfra bərabər olan Dirixle məsələsinin həllini

$$u(x,y) = -\iint_D G(x.y;\xi,t) f(\xi,t;u)\, d\xi dt \tag{10}$$

şəklində yaza bilərik.

**Teorem**. Normal $D$ oblastında $(x,y)\in D$ və ixtiyari $u$ üçün $\frac{\partial f}{\partial u} \le 0$ və $f(x,y,u)\le 0$ şərtləri daxilində (1) tənliyi üçün Dirixle məsələsinin yeganə müsbət həlli var.

**Nəticə**

İşdə cırlaşan elliptik tənlik Dirixle məsələsinə baxılır. Burada baxılan məsələnin cırlaşan tənliklər üçün müsbət həllinin varlığı və yeganəliyi isbat olunur.

## İstifadə edilmiş ədəbiyyat

1. Алиев М.И. Задача Дирихле для вырождающихся нелинейных эллиптических уравнений // ДУ, 3 , № 1, (1967)

2. Кароль И.Л. К теории краевых задач для уравнений смешанного эллиптико-гиперболического типа // Матем. сб. 38(80), № 3, с.261-281 (1956)

3. Манапова А.Р. О конечно-разностном методе решения задачи Дирихле для нелинейных эллиптических уравнений с условиями неидеального контакта //Вестник Башкирского университета, 2015, Т. 20, № 3

4. Lubyshev F.V. Finite difference approximations of optimal control problems for semilinear elliptic equations with discontinuous coefficients and solutions // Comp. Math. and Math. Physics. 2012, Vol. 52. No. 8, pp. 1094–1114. DOI:10.1134/S0965542512080088

5. Manapova A.R., Lubyshev F.V. Accuracy estimate with respect to state of finite-dimensional approximations for optimization problems for semilinear elliptic equations with discontinuous coefficients and solutions // Ufa Mathematical Journal. 2014, Vol. 6. No. 3, pp. 69–84. DOI: 10.13108/2014-6-3-69

# INVESTIGATION OF POSITIVE SOLUTIONS OF DEGENERATE ELLIPTIC EQUATIONS

**[1,3]M.Aliyev, [2,3]G.Isgenderova, [4]S.Allahverdiyeva**
[1]Doctor of Philosophy in Physics and Mathematics, Associate Professor
[2]Doctor of Philosophy in Physics and Mathematics
[3]Baku State University
[4]Mingachevir State University

***Abstract:*** *In the article, the existence of a positive solution of reducing equations is studied. For this, the Green's function is constructed, and the solution to the problem is expressed using the Green's function.*

***Keywords:*** *complex elliptic equations, positive solution, Green's function*

# ИССЛЕДОВАНИЕ ПОЛОЖИТЕЛЬНЫХ РЕШЕНИЙ КРУГОВЫХ ЭЛЛИПТИЧЕСКИХ УРАВНЕНИЙ

**[1,3]М.И.Алиев, [2,3]Г.Н.Исгендерова, [4]С.И.Аллахвердиева**

[1]доктор философии по физико-математике, доцент

[2]доктор философии по физико-математике

[3]Бакинский государственный университет

[4]Мингячевирский  государственный университет

***Резюме:*** *В статье изучается существование положительного решения уменьшительных уравнений. Для этого строится функция Грина, и решение задачи выражается с помощью  функции Грина.*

***Ключевые слова:*** *сложные эллиптические уравнения, положительное решение, функция Грина*

**Elmi redaktor: f.-r.f.d., dos. S.Mustafayev**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 19.02.2024**
**Çapa qəbul edilib: 26.02.2024**

UOT 517.2/.3

# VEKTORLARIN SKALYAR HASİLİNİN BƏZİ OLİMPİADA TİPLİ ÇALIŞMALARA TƏTBİQİ

[1,3]**Vaqif Şahismayıl oğlu Abdullayev**, [2,3]**Sabir Nəriman oğlu Babuşov**

[1]vaqif.abdullayev@mdu.edu.az

[2]sabir.babushov@mdu.edu.az

[3]Mingəçevir Dövlət Universteti

***Xülasə:*** *Məqalədə vektorların skalyar hasilinə dair bəzi bərabərsizliklərdən istifadə etməklə, bir çox olimpiada xarakterli çalışmaların səmərəli üsullarla həlli yolları qeyd olunmuşdur. Cəbri yolla çətin həll olunan və ya heç həll oluna bilməyən olimpiada tipli tənliklərin və tənliklər sisteminin vektorların skalyar hasili düsturlarından istifadə etməklə asan və orjinal həlli yolları göstərilmişdir. Həmçinin bəzi çətin yolla isbat olunan cəbri və həndəsi bərabərsizliklərin asan üsulla isbatı açıqlanmışdır.*

***Açar sözlər:*** *vektor, skalyar hasil, bərabərsizlik, tənlik, triqonometrik funksiya, kosinus, sinus, ekstremum, üçbucaq*

## Giriş

Olimpiadalar şagird və tələbələrin riyazi qabiliyyətlərinin ortaya çıxarılmasında, inkişaf etdirilməsində mühüm və əhəmiyyətli yer tutur. Olimpiadalarda yalnız əlaçı şagir və tələbələrin deyil, mühakimə qabiliyyəti güclü inkişaf etmiş şəxslərin iştirakı çox mühüm və vacibdir. Bəzən belə şagird və tələbələr olimpiadalardan sonra riyaziyyatla ciddi məşğul olur və gələcəkdə böyük müvəffəqiyyət qazanırlar. Olimpiadalarda iştirak edən şagirdlər edən şagird və tələbələr, çalışmaları həll etmək üçün müxtəlif üsullar tapmaq vərdişlərinə, qeyri-standart həll yolları axtarmaq qabiliyyətlərinə yiyələnirlər.

Olimpiadaların keçirilməsi riyaziyyata həvəsi və xüsusi istedadı olan şagird və tələbənin aşkar edilməsinə,ortaya çıxarılmasına şərait yaradır.

Qeyri-standart çalışmaların, orta məktəb proqramından kənar xüsusi həll tələb edən məsələlərin seçilməsi müəllimin qabiliyyət göstəricisidir. Sinifdənxaric məşğələlərdə bu materiallardan istifadə etmək üçün riyaziyyatın bir sıra bölmələrindən istifadə olunur ki, onlardan ən mühümü vektorların skalyar hasilidir.

Vektorların skalyar hasili,iki düz xətt arasındakı bucaq verildikdə həndəsi məsələlərin həllinin tapılmasında çox geniş tətbiq olunur. Cəbrdə isə vektorların skalyar hasili, bir sıra bərabərsizliklərin isbatında, bərabərsizliklər sisteminin həllində geniş istifadə olunur. Eyni zamanda bəzi cəbri yolla çətin həll olunan tənliklər sisteminin həllində, funksiyanın ekstremumunun tapılmasında, çətin triqonometrik bərabərsizliklərin isbatında vektorların skalyar hasili düsturlarından istifadə etmək daha məqsədəuyğundur. Bu kimi məsələlərin həlli həmişə müəllimlər arasında geniş mübahisəyə səbəb olur. Ona görə də bu tip məsələlərin həllini sinifdənxaric məşğələlərdə öyrənmək və öyrətmək daha əlverişlidir.

Ümumi halda bilirik ki, $\vec{u}$ və $\vec{v}$ vektorların skalyar hasili, onların uzunluqları ilə aralarındakı $\varphi$ bucağının kosinusu hasilinə bərabərdir, yəni $\vec{u}\cdot\vec{v} = |\vec{u}|\cdot|\vec{v}|\cos\varphi$.

Əgər $\cos\varphi \le 1$ olarsa, onda

$$\vec{u}\cdot\vec{v} \le |\vec{u}|\cdot|\vec{v}| \text{ və ya } |\vec{u}\cdot\vec{v}| \le |\vec{u}|\cdot|\vec{v}| \qquad (1)$$

olar. Buna görə də əgər $\vec{u}$ və $\vec{v}$ vektorları koordinatları ilə verilərsə, yəni $\vec{u}(u_1, u_2)$ və $\vec{v}(v_1, v_2)$ olarsa, onda:

$$\vec{u}\cdot\vec{v}=u_1v_1+u_2u_2, |\vec{u}|=\sqrt{u_1^2+u_2^2}, \quad |\vec{v}|=\sqrt{v_1^2+v_2^2}$$

olduğundan

$$u_1v_1+u_2v_2 \le \sqrt{u_1^2u_2^2}\cdot\sqrt{v_1^2+v_2^2}, \qquad (2)$$

$$|u_1v_1+u_2v_2| \le \sqrt{{u_1}^2+{u_2}^2}\cdot\sqrt{{v_1}^2+{v_2}^2}. \qquad (2')$$

Anoloji olaraq, üçölçülü fəzada

$$u_1v_1+u_2v_2+u_3v_3 \le \sqrt{{u_1}^2+{u_2}^2+{u_3}^2}\cdot\sqrt{{v_1}^2+{v_2}^2+{v_3}^2}, \qquad (3)$$

$$|u_1v_1+u_2v_2+u_3v_3| \le \sqrt{{u_1}^2+{u_2}^2+{u_3}^2}\cdot\sqrt{{v_1}^2+{v_2}^2+{v_3}^2} \qquad (3')$$

alarıq.

**Bəzi cəbri bərabərsizliklərin isbatı**

**Çalışma 1.** $x+y+z=t$ olarsa, $\sqrt{2x+1}+\sqrt{2y+1}+\sqrt{2z+1}\le\sqrt{6t+9}$ olduğunu isbat edin [2].

**İsbatı:** $\vec{u}$ və $\vec{v}$ vektorlarının koordinatlarını uyğun olaraq, $\vec{u}(\sqrt{2x+1};\ \sqrt{2y+1};\sqrt{2z+1})$, $\vec{v}(1;1;1)$ kimi götürək. (3) düsturuna görə alarıq:

$$\sqrt{2x+1}\cdot 1+\sqrt{2y+1}\cdot 1+\sqrt{2z+1}\cdot 1 \le \sqrt{\sqrt{(\sqrt{2x+1})^2}+(\sqrt{(\sqrt{2y+1})^2}+\sqrt{(\sqrt{2z+1})^2}\cdot\sqrt{1^2+1^2+1^2}}\ ;$$

$$\sqrt{2x+1}+\sqrt{2y+1}+\sqrt{2z+1}\le\sqrt{2x+1+2y+1+2z+1}\cdot\sqrt{3}\,;$$

$$\sqrt{2x+1}+\sqrt{2y+1}+\sqrt{2z+1}\ \le\sqrt{2(x+y+z)+3}\cdot\sqrt{3}.\ \ x+y+z=t$$

olduğu üçün

$$\sqrt{2x+1}+\sqrt{2y+1}+\sqrt{2z+1}\le\sqrt{6t+9}$$

olar.

**Çalışma 2.** $x+y+z=1$ olarsa, $\sqrt{4x+1}+\sqrt{4y+1}+\sqrt{4z+1}\le\sqrt{21}$ olduğunu isbat edin [3].

**İsbatı:** $\vec{u}(\sqrt{4x+1};\sqrt{4y+1};\sqrt{4z+1})$ və $\vec{v}(1;1;1)$ vektorlarını götürək. (3) düsturuna görə:

$$\sqrt{4x+1}\cdot 1+\sqrt{4y+1}\cdot 1+\sqrt{4z+1}\cdot 1\le\sqrt{(\sqrt{4x+1})^2+(\sqrt{4y+1})^2+(\sqrt{4z+1})^2}\cdot\sqrt{1^2+1^2+1^2}=$$

$$=\sqrt{4x+1+4y+1+4z+1}\cdot\sqrt{3}=\sqrt{4(x+y+z)+3}\cdot\sqrt{3}=\sqrt{4\cdot 1+3}\cdot\sqrt{3}=\sqrt{21}.$$

Beləliklə, alırıq ki,

$$\sqrt{4x+1}+\sqrt{4y+1}+\sqrt{4z+1}\le\sqrt{21}.$$

**Çalışma 3.** $a,\ b,\ c\ge 0$ olarsa, $\sqrt{ab}+\sqrt{bc}+\sqrt{ac}\le a+b+c$ olduğunu isbat edin. [4]

**İsbatı:** $\vec{u}(\sqrt{a};\sqrt{b};\sqrt{c})$ və $\vec{v}\big(\sqrt{b},\sqrt{c},\sqrt{a}\big)$ qəbul edək. (3) düsturuna görə:

$$\sqrt{a}\cdot\sqrt{b}+\sqrt{b}\cdot\sqrt{c}+\sqrt{c}\cdot\sqrt{a}\ \le\sqrt{(\sqrt{a})^2+(\sqrt{b})^2+(\sqrt{c})^2}\cdot\sqrt{(\sqrt{b})^2+(\sqrt{c})^2+(\sqrt{a})^2};$$

$$\sqrt{ab}+\sqrt{bc}+\sqrt{ac}\le\sqrt{(a+b+c)^2}.$$

*a, b, c* $\ge 0$ olduğu üçün

$$\sqrt{ab}+\sqrt{bc}+\sqrt{ac}\le a+b+c$$

olar.

**Çalışma 4.** Katetləri *a* və *b*, hipotenuzu *c* olan düzbucaqlı üçbucaqda $a+b\le c\sqrt{2}$ olduğunu isbat edin. [7]

**İsbatı:** $\vec{u}$ və $\vec{v}$ vektorlarını aşağıdakı kimi götürək: $\vec{u}(1;1)$, $\vec{v}(a,b)$

(2) düsturuna görə

$$1\cdot a+1\cdot b\le\sqrt{1^2+1^2}\cdot\sqrt{a^2+b^2}\ \Rightarrow a+b\le\sqrt{2}\sqrt{a^2+b^2}.$$

Pifoqor teoreminə görə $a^2+b^2=c^2$ olduğu üçün $a+b\le c\sqrt{2}$ alarıq.

**Çalışma 5.** $x\in[2{,}5;16]$ olduqda $\sqrt{x+2}+\sqrt{2x-5}+\sqrt{48-3x}\ \le 12$ olduğunu isbat edin. [6].

**İsbatı:** $\vec{u}(\sqrt{x+2};\sqrt{2x-5};\sqrt{48-3x})$ və $\vec{v}(1;1;1)$ olsun. Onda (3) düsturuna görə:

$$1\cdot\sqrt{x+2}+1\cdot\ \sqrt{2x-5}+1\cdot\sqrt{48-3x}\le\ \sqrt{1^2+1^2+1^2}\cdot\sqrt{(\sqrt{x+2})^2+(\sqrt{2x-5})^2+(\sqrt{48-3x})^2}\ ;$$

$$\sqrt{x+2}+\sqrt{2x-5}+\sqrt{48-3x}\le\sqrt{3}\sqrt{x+2+2x-5+48-3x};$$

$$\sqrt{x+2}+\sqrt{2x-5}+\sqrt{48-3x}\ \le 3\sqrt{15}\ \Rightarrow\sqrt{x+2}+\sqrt{2x-5}+\sqrt{48-3x}\le 12.$$

**Bəzi triqonometrik bərabərsizliklərin isbatı**

**Çalışma 6**. Göstərin ki, $|3\sin\alpha - \cos\alpha| \le 5$ bərabərsizliyi $\alpha$-nın istənilən qiymətində doğrudur. [1]

**İsbatı:** $\vec{u}(3; -4)$ və $\vec{v}(\sin\alpha\,; \cos\alpha)$ götürək. $(2')$ düsturuna görə

$$|3\sin\alpha - 4\cos\alpha| \le \sqrt{3^2 + (-4)^2} \cdot \sqrt{sin^2\alpha + cos^2\alpha}$$

və

$$|3\sin\alpha - 4\cos\alpha| \le \sqrt{9 + 16} \cdot 1 \Rightarrow |3sin\alpha - 4cos\alpha| \le 5$$

olar. Bərabərsizlik isbat olundu.

**Çalışma 7.** Bərabərsizliyi isbat edin: $\sin x \cdot \sin y \cdot \sin z + \cos x \cdot \cos y \cdot \cos z \le 1$ . [3]

**İsbatı:** $\vec{u}(\sin x \sin y, \cos x \cos y)$ , $\vec{v}$ $(\sin z, \cos z)$ götürək. Onda (2) düsturuna görə:

$$\sin x \cdot \sin y \cdot \sin z + \cos x \cdot \cos y \cdot \cos z \le \sqrt{sin^2x \cdot sin^2y + cos^2xcos^2y} \cdot \sqrt{sin^2z + cos^2z}\ ;$$

$$\sin x \cdot \sin y \cdot \sin z + \cos x \cdot \cos y \cdot \cos z \le \sqrt{\frac{1-\cos}{2} \cdot \frac{1-\cos 2y}{2} + \frac{1+cos}{2} \cdot \frac{1+\cos}{2}} =$$

$$= \frac{1}{2}\sqrt{1 - \cos 2y - \cos 2x + \cos 2x \cdot \cos 2y + 1 + \cos 2y + \cos 2x + \cos 2x \cdot \cos 2y} =$$

$$= \frac{1}{2}\sqrt{2 + 2\cos 2x \cdot \cos 2y} = \frac{\sqrt{2}}{2}\sqrt{1 + \cos 2x \cdot \cos 2y}.$$

1+$\cos 2x \cdot \cos 2y \le 2$ olduğu üçün

$$\sin x \cdot \sin y \sin z + \cos y \cdot \cos y \cos z \le 1.$$

İndi vektorların skalyar hasilinin tənliklərin və tənliklər sisteminin həllinə tətbiqinə aid bir neçə çalışma həlli nümunələrinə baxaq.

**Çalışma 8.** Tənliyi həll edin: $x\sqrt{1+x} + \sqrt{3-x} = 2\sqrt{x^2+1}$ . [7]

**Həlli:** Əvvəlcə DMQ-nu tapaq:

$$\begin{cases} 1 + x \ge 0 \\ 3 - x \ge 0 \end{cases} \Leftrightarrow -1 \le x \le 3$$

$\vec{u}(x; 1), \vec{v}(\sqrt{1+x}, \sqrt{3-x})$ qəbul edək. (2) düsturuna görə

$$x\sqrt{1+x} + 1 \cdot \sqrt{3-x} \le \sqrt{x^2+1} \cdot \sqrt{(\sqrt{1+x})^2 + (\sqrt{3-x})^2}\ ;$$

$$x\sqrt{1+x} + \sqrt{3-x} \le 2\sqrt{x^2+1}.$$

-1$\le x \le 3$ aralığında $x\sqrt{1+x} + \sqrt{3-x} < 2\sqrt{x^2+1}$ olduğu üçün verilən tənliyin həlli yoxdur.

**Çalışma 9.** Tənliklər sistemini həll edin: [5]

$$\begin{cases} x^6 + y^4 + z^2 = 1 \\ x^3 + 2y^2 + 3z = 4 \end{cases}$$

**Həlli:** $\vec{u}(x^3, y^2, z)$ və $\vec{v}(1, 2, 3)$ vektorlarına baxaq. Bu vektorların uzunluqlarını tapaq:

$$|\vec{u}| = \sqrt{x^6 + y^4 + z^2}\,, |\vec{v}| = \sqrt{1^2 + 2^2 + 3^2} = \sqrt{14}$$

$\vec{u}$ *və* $\vec{v}$ vektorlarının skalyar hasili

$$\vec{u} \cdot \vec{v} = x^3 \cdot 1 + y^2 \cdot 2 + z \cdot 3 = x^3 + 2y^2 + 3z$$

olar. Beləliklə, alırıq ki,

$$x^3 + 2y^2 + 3z \le \sqrt{x^6 + y^4 + z^2} \cdot \sqrt{14} = 1 \cdot \sqrt{14} = \sqrt{14}\,.$$

4< $\sqrt{14}$ alındığı üçün verilən tənliklər sisteminin həlli yoxdur.

**Nəticə**

Olimpiada xarakterili bəzi məsələlər ənənəvi üsullarla çətin həll olunur və ya bəzən heç həll olunmur. Belə hallarda bəzən vektorların skalyar hasili və skalyar hasilə dair müəyyən bərabərsizliklərdən istifadə etməklə, bu tip çalışmaların asan yolla həll üsullarını tapmaq mümkündür.

## İstifadə edilmiş ədəbiyyat

1. Babaverdiyev A., Yaqublu H. və başqaları. Riyaziyyat test bankı. Müəllimlərin işə qəbulu. Bakı: MHM, 2022-2023, 390 s.

2. Balakişiyev A., Soltanova M. Qeyri-standart və düşündürücü çalışmalar. Bakı: MBM, 2015, 288 s.
3. Qəhrəmanlı M.İ. Riyaziyyatdan olimpiada məsələləri. Bak: MBM, 2008, 298 s.
4. Quliyev R.M., Qarayev F.A. Riyaziyyatdan olimpiada iştirakçıları üçün 200 variant. Bakı: Təhsil, 2009, 388 s.
5. MBA (MBA proqramı üzə hazırlaşanlar üçün vəsait). Bakı: "İQM" MMC, 2013, 560 s.
6. Yaqubov M.H., İsmayılov T.X. Riyaziyyat (I hissə). Dərs vəsaiti. Bakı: Şərq-Qərb, 2019, 552 s.
7. Агаханов Н.Х., Богданов И.И и др. Всероссийские олимпиады школьников по математике 1996-2006. М.: МЦНМО, 2007, 472 с.

## AN APPLICATION OF SCALAR MULTIPLICATION OF VECTORS IN SOME OLYMPIC TYPE EXERCISES

**V.Abdullayev, S.Babushov**
Mingachevir State University

***Abstract:*** *The article speaks about effective solution of some Olympic type exercises by using some inequalities. In addition. In addition, the article also shows the easiest and original ways of solution of some Olympic type system of equations which cannot be solved or hard solved by algebraic ways by means of scalar sum formulas. The article also explains easy ways of proving algebraic and geometrical inequalities that are very difficult to prove.*
***Keywords:*** *vector, scalar multiplication, sum, inequality, equation, trigonometric function, cosinus, sinus, ektremum, triangle*

## ПРИМЕНЕНИЕ СКАЛЯРНОГО ПРОИЗВЕДЕНИЯ ВЕКТОРОВ К НЕКОТОРЫМ УПРАЖНЕНИЯМ ОЛИМПИАДНОГО ТИПА

**В.Ш.Абдуллаев, С.Н.Бабушов**
Мингячевирский государственный университет

***Резюме:*** *В статье отмечены эффективные способы решения многих задач олимпиадного характера применением некоторых неравенств, связанных скалярным произведением векторов. Для уравнении и систем уравнений, которые трудно решать или вообще невозможно решить алгебраическим способом, приведены более простые и оригинальные способы решения с применением формул скалярного произведения векторов. Также разъяснены более легкие способы доказательств некоторых алгебраических и геометрических неравенств, доказываемых относительно трудным способом.*
***Ключевые слова:*** *вектор, скалярное произведение, неравенство, уравнение, тригонометрическая функция, косинус, синус, экстремум, треугольник*

**Elmi redaktor: f.-r.f.d., dos. S.Mustafayev**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 21.02.2024**
**Çapa qəbul edilib: 28.02.2024**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 4, № 1, 2024*

UOT 002.6:004.89

# İDARƏETMƏ SİSTEMLƏRİNDƏ ELEKTRON SƏNƏD SİSTEMİNİN TƏTBİQİ ÜSTÜNLÜKLƏRİ VƏ PERSPEKTİVLƏRİ

**Mürsəl Əbil oğlu Paşayev**
Mingəçevir Dövlət Universiteti
mursal.pashayev@mdu.edu.az

***Xülasə:*** *Hazırda müəssisə və ya təşkilatların "rəqəmsal" infrastrukturunun əsas və ən vacib elementi sənəd idarəetmə sistemidir. Xarici və daxili sənədlərlə işləmək müəssisənin fəaliyyətinin ən mürəkkəb, əməktutumlu və "problemli" sahəsi hesab olunur. Müasir idarəetmə sistemlərinin əksəriyyəti ofis kağızlarını rəqəmsal formada yaradır, lakin məlumat mübadiləsi proseslərinin qeyri-kafi olması səbəbindən istifadəçilər onları çap etməyə, "fiziki" formada köçürməyə, vaxt və səyləri lazımsız işlərə sərf etməyə məcbur olurlar. Səmərəli format dəyişdirmək xeyli vaxt və gəlir itkisinə səbəb ola bilər. Bunun üçün idarəetmə sisteminin fəaliyyətinin kompleks şəkildə avtomatlaşdırması tələb olunur. Avtomatlaşdırılmış elektron həllər bu prosesi əhəmiyyətli dərəcədə sadələşdirməyə və optimallaşdırmağa imkan verir. Qloballaşan və rəqəmsallaşan cəmiyyətdə Elektron Sənəd İdarəetmə Sistemi (ESİS) artıq seçim deyil, bir zərurətə çevrilmişdır. Düzgün seçilmiş elektron sənəd sistemi idarəetmə xidmətləri də daxil olmaqla, yaxşı təşkil edilmiş elektron sənəd sisteminin bütün səviyyələrində məlumat və sənəd axınlarını səmərəli və keyfiyyətli idarə etməyə kömək edəcəkdir.*

*Məqalədə kagızlı və elektron sənəd texnologiyanın təhlili aparılaraq, üstün və çatışmayan cəhətləri təyin olunmuş, həmçinin idarəetmədə iqtisadi səmərəlilik mexanizmi formalaşdırılmışdır. Nəticədə elektron sənəd sisteminin müxtəlif üsullarla tətbiqi mexanizmləri təklif olunmuşdur.*

***Açar sözlər:*** *elektron sənəd dövriyyəsi, sənəd axını, informasiya təhlükəsizliyi, elektron imza*

## Giriş

Klassik idarəetmə sistemlərində ənənəvi ofis işləri xeyli vaxt itkisi, yorğunluq və kommunikasiyanın düzgün qurulmaması kimi problemlərin ortaya çıxması ilə nəticələnir. Texnologiyanın inkişafı və rəqəmsallaşmanın fəaliyyət sahələrinə inteqrasiyası inzibati sənədləşdirmənin inkişafına müsbət təsir göstərmişdir. Elektron Sənəd İdarəetmə Sisteminin (ESİS) mövcud strukturu istənilən ölçülü müəssisə və qurumlar üçün əlverişli və səmərəli mexanizm olduğunu sübut edib [3-6].

## Problemin qoyuluşu

Artıq ESİS-nin bazarı fəal şəkildə inkişaf edir. Belə ki, həm dövlət sektoru (aktiv istehlakçı), həm də biznes strukturları elektron sənəd dövriyyəsi xidmətlərinə maraq göstərir. Həmçinin, elektron imzaların əhatə dairəsinin genişləndirilməsi və informasiya təhlükəsizliyi məsələlərinə diqqətin artırılması sistemlərin inkişafına təkan verir. Bu məqsədlə, keyfiyyətli elektron sənəd proqramlarını təyin etmək üçün ilk öncə ənənəvi sənədləşdirmə, daha sonra elektron sənədləşdirmə sisteminin mahiyyəti, iş prinsipi təhlil olunaraq, mövcud vəziyyətə uyğun qiymətləndirmənin aparılması vacib və zəruri şərtdir [1-8].

## Problemin həlli

Ənənəvi sistemlərdə sənədlərlə işin təşkili idarəetmənin səmərəliliyinə və keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərən proseslərin və qərarların qəbulunun vacib bir hissəsidir. İdarəetmə qərarlarının qəbulu prosesi məlumatın əldə edilməsi, onun işlənməsi, təhlili və

hazırlanması mərhələlərindən ibarətdir. Bütün bu proseslər rəhbərliyin sənədləşdirmə sistemi ilə sıx bağlıdır. Ümumiyyətlə, müəssisədə sənədləşmə aşağıdakı idarəetmə funksiyalarının həyata keçirilməsinə xidmət edir:

- planlaşdırma (planlar);
- təşkilati (nizamnamə və əsasnamələrin, ştat cədvəlinin, daxili nizamnamələrin tərtibi);
- motivasiya (əmək müqavilələri, kadrlar üçün əmrlər, testlərdən istifadə, anketlər);
- nəzarət (məlumatlarin, hesabatların toplanması);
- mühasibat uçotu (statistik, mühasibat, texniki sənədlərin işlənməsi);
- təlimat (təlimatların tərtib edilməsi).

İqtisadi səmərəliliyi əldə etmək üçün ilk növbədə məlumatın keyfiyyəti vacibdir ki, bu da onun kəmiyyət, səmərəlilik və mürəkkəblik göstəriciləri ilə müəyyən edilir. Məlumdur ki, müəssisədə sənədlərlə işin dəqiq və çevik təşkili yoxdursa, bunun nəticəsi olaraq dizayn, struktur və tamlıq baxımından keyfiyyətsiz məlumatların meydana çıxması problemləri yüksələ bilər. Bundan əlavə sənədlərin emal müddətinin artması, idarəetmənin keyfiyyətinin pisləşməsinə və qərarların qəbulu vaxtının və yanlış qərarların sayının artmasına səbəb ola bilər. İdarəetmənin etibarlılığı və keyfiyyəti, informasiyanın qəbulu və ötürülməsinin səmərəliliyindən, arayış-informasiya xidmətlərinin düzgün qurulmasından, sənədlərin axtarışı, saxlanması və istifadəsinin dəqiq təşkilindən asılıdır. Rəqəmsallaşmanın və informasiya kommunikasiya texnologiyalarının sürətli inkişafı qeyd olunan problemlərin həllini sürətləndirir. Ancaq elektron sənəd dövriyyəsinin tətbiqinin sürətləndirilməsi qeyd olunan problemlərin həllinə nail olursa, digər tərəfdən informasiya təhlükəsizliyi, verilənlər anbarının bulud serverlərdə təhlükəsiz saxlanması və s. kimi problemləri qabardır. Buradan da belə bir nəticəyə gəlmək olar ki, hər hansı bir problemin həlli, digər yeni bir problemin yaranmasının başlanğıcıdır [3-8].

**Elektron sənəd sisteminin əsas mahiyyəti və iş prinsipi**

Sənəd idarəetməsi üçün informasiya texnologiyalarının inkişafı ilə böyük imkanlar açılıb. Qlobal internetin və onun mühüm atributu – elektron poçtun yaranması və inkişafı ilə məsafə məsələsi problem olmaqdan çıxdı. Elektron poçtla elektron sənəd bir neçə dəqiqə ərzində istifadəçiyə çatır. Lakin bir problemin aradan qaldırılması ilə başqa bir problem – elektron sənəddə olan məlumatların qorunması problemi ortaya çıxır.

İnformasiya təhlükəsizliyi bizim dövrümüzdə xüsusilə vacibdir, ona görə də elektron mübadilə prosesinin təmin edilməsi üçün bəzi imkanları ehtiva edir. Elmdə, biznesdə, istehsalatda, mədəniyyətdə informasiya axınının artması informasiya texnologiyalarından adekvat reaksiya tələb edir. Cəmiyyət üçün külli miqdarda kağız xərcləmək ağırdır və belə daşıyıcılarda alınan informasiya elektrondan daha az dinamikdir [1-5].

İqtisadiyyatı inkişaf etmiş ölkələrdə elektron sənədləşdirmə 10 ildən artıqdır ki, təkcə iri deyil, həm də orta və kiçik müəssisələrdə istifadə olunur. Artıq son illərdə ölkəmizdə də bu istiqamətdə canlanma müşahidə olunur. Araşdırma zamanı məlum olub ki, elektron sənəd dövriyyəsi, əsasən, dövlət qurumlarında və xarici firmaların yerli nümayəndəliklərində tətbiq edilir. Region universiteti olmağımıza baxmayaraq, artıq elektron sənədləşmənin tətbiqi üzrə strateji fəaliyyət planına uyğun realizasiyalar həyata keçirilmək üzrədir [3].

Bu gün kağızsız texnologiyanın fəaliyyət sahələrinə qismən tətbiqinin əsas səbəblərinə aşağıdakılar aiddir:

1. İnformasiyanın elektron şəkildə qəbulu vərdişinin formalaşmaması;
2. Kağızsız texnologiyaların tətbiqinin hərtərəfli texniki dəstəyin tələb etməsi;
3. Kağızsız texnologiyaların möhkəm hüquqi və təşkilatı dəstəyin tələb etməsi.

Hər hansı bir müəssisənin fəaliyyətində səmərəli idarəetmə üçün sənəd axınları aydın şəkildə izlənilən və idarə olunan proses olmalıdır. Məlumdur ki, müəssisənin fəaliyyətini tənzimləyən tipik informasiya obyekti – sənəddir. Müəssisə daxilində sənədlərin ötürülməsinin təşkili fəaliyyəti adətən ofis işi adlanır. Ofis işinin mərkəzində informasiya mübadiləsinin strukturunun fundamental konsepsiyası – sənəd dövriyyəsi dayanır. İstər kağız, istərsə də elektron sənəd axını 3 hissədən ibarətdir (Cədvəl 1):

- daxil olan informasiya,
- daxili sənədləşmə,
- xaric olan informasiya.

**Cədvəl 1**

**Sənəd axınının təqdim edilmə formaları**

| **Sənədin forması** | **Sənəd axını** | | |
|---|---|---|---|
| | **Daxil olan informasiya** | **Daxili sənədləşmə** | **Xaric olan informasiya** |
| Kağız sənəd dövriyyəsi | Məktub<br>Müqavilə və razılaşmalar<br>Qanunverici aktlar<br>Normativ sənədlər<br>Periodik sənədlər<br>Kitab<br>Reklam<br>Anket | Əmrlər<br>Qayda qanun<br>Xidməti yazışma<br>Məzuniyyət sənədləri<br>Maliyyə-uçot sənədləri | Məktublar<br>Müqavilə və razılaşmalar<br>Press-reklamlar |
| Elektron sənəd dövriyyəsi | Elektron poçt məlumatları | Korporativ şəbəkə məlumatları<br>Faks | Elektron məktublara elektron məktub cavabların göndərilməsi<br>Faksmil informasiya |

Elektron sənəd dövriyyəsinin idarəetmə sisteminə tətbiqi işçilərin işini asanlaşdıraraq aşağıdakı üstünlükləri əldə etməyə imkan verir:

- sənədlərin qeydiyyatının aparılması;
- sənədlərin icrasına nəzarət edilməsi;
- həm kağız, həm də elektron sənədlərin dövriyyəsinə nəzarət edilməsi;
- təşkilatın sənəd dövriyyəsi haqqında hesabatların yaradılması;
- sənədlərin həm kompüterdən, həm şəbəkə üzərindən yüklənməsi;
- şablonlardan istifadə edərək sistemdə yeni sənədlərin yaradılması;
- sənədlərin elektron şəkildə göndərilməsi və qəbul edilməsi;
- saxlanılan məlumatlara girişin məhdudlaşdırılması.

Elektron sənəd dövriyyəsi sistemi sənədləri yaratmağa, əlaqələndirməyə və mübadilə etməyə imkan verir. Proses kağız əsaslı ofis işlərində istifadə olunan prosesə bənzəyir. Prosesin sadə mexanizmini əks etdirən funksional sxem şək. 1-də təsvir edilmişdir.




**Şək. 1**. Elektron sənəd dövriyyəsinin funksional sxemi

Şək. 1-dən göründüyü kimi, funksional sxem 3 hissədən ibarətdir:
- göndərən tərəf;
- server;
- qəbul edən tərəf.

Göndərən, qəbul edən tərəf – müəssisə, dövlət qurumları ola bilər. Serverlər həmin müəssisə və dövlət qurumlarını təmsil edən kompüter bulud-hesablama texnilogiyalarıdır. Onu da qeyd edək ki, göndərilən və qəbul edilən sənədlər elektron imzanın təsdiqi ilə həyata keçrilir. Elektron imzanın təsdiqi prosesi birbaşa informasiyanın təhlükəsizliyini təmin edən əsas faktorlardan biridir. Buradan belə nəticə çıxır ki, elektron sənəd dövriyyəsinə keçməyə qərar vermiş müəssisənin mürəkkəb transformasiyalara və bahalı əməliyyatlara ehtiyacı yoxdur. İlk növbədə, bütün sənədləşmə işlərini elektron formaya keçirmək lazımdır. Bunun üçün Microsoft Office və ya onun pulsuz analoqu OpenOffice.org kimi sadə proqram təminatından istifadə etməklə həyata keçirilməsi təklif olunur [5]. Yəni bütün sənədlər və formalar kompüterdə elektron şəkildə yaradılmalıdır. Müəssisələrin işçiləri və vəzifəli şəxslər elektron sənədlərlə kağız sənədlərdə olduğu kimi işləməli, lakin kompüter avadanlığı ilə doldurmalı və elektron imza ilə möhür atmalıdırlar. İmza tələb olunmayan kağız sənədlərdə də var, məsələn, izahat və ya açıq məktublar. Onlar üçün elektron sənədin mülkiyyət hüququnu müəyyən etmək üçün identifikator kimi istifadə edilməsi təklif olunur. Elektron sənəd dövriyyəsinin həyata keçirilməsi üçün elektron qarşılıqlı əlaqənin bütün iştirakçıları ilə eyni işləmə vasitələrinə malik olması, yəni informasiya sistemindəki istənilən kompüterdə, əks halda elektron sənədin imzasını imzalamaq və yoxlamaq mümkün olması vacibdir.

**Elektron sənəd sisteminin tətbiqi ilə iqtisadi səmərəliliyin təyini mexanizmi**

Fərz edək ki, elektron sənədin tətbiqi ilə iqtisadi təhlil aparmaq üçün xərclər istehsalın sabit məsrəfləri ilə bağlı olduğu üçün müəssisənin iş axınının iqtisadi səmərəliliyi aşağıdakı kimi təyin edilir:

$$E_S=\sum E_{İE}/G, \qquad (1)$$

burada *Es* – iş axınının səmərəliliyi, $\sum E_{İE}$ – sənəd idarəetməsinin ümumi iqtisadi effekti, *G* – sənədləşmə ilə bağlı əldə olunan gəlirlərdir.

Sənəd idarəetməsinin ümumi iqtisadi effekti aşağıdakı kimi hesablanılır:

$$\sum E_{İE} = (N_1+N_2+\ldots+N_m)-Z_x, \quad (2)$$

burada $N_1, N_2, N_m$ – iş prosesində fəaliyyət nəticələridir. $Z_x=Z_1+Z_2+\ldots Z_n$ – iş prosesində fəaliyyət xərcləridir. Beləliklə, səmərəliliyi artırmaq üçün aşağıdakı şərt lazımdır:

$$\begin{cases} N_1 + N_2 + \cdots N_m & \rightarrow max \\ Z_1 + Z_2 + \cdots Z_n & \rightarrow min \end{cases} . \quad (3)$$

Avtomatlaşdırılmış elektron sənəd dövriyyəsinin tətbiqi kağız iş axınının funksionallığını itirmədən ötürülməsi vəzifəsini qoyduğundan, iş axını prosesində fəaliyyətin birbaşa nəticəsi (müvafiq məktubların, mühasibat kartlarının, hesabat sənədlərinin tərtibi) dəyişməyəcək, lakin əlaqəli fəaliyyətlərin nəticələri yüksək səviyyədə artacaqdır:

1. Yüksək sürətli şəbəkə texnologiyalarının tətbiqi ilə informasiya mübadiləsi hesabına məlumatların ötürülməsi səmərəliliyinin artırılması;
2. Elektron sənədlərin avtomatlaşdırılmış işlənməsi hesabına sənədlərin doldurulması və yoxlanılmasının düzgünlüyünə nəzarətin artırılması.

Xərclərə gəlincə, sistem tətbiq olunduqdan sonra birinci ildə lazımi avadanlıqların alınması və kadrların yenidən hazırlanması ilə bağlı xərclərin artırılması gözlənilir. Bununla belə, ikinci ildən onların bir neçə dəfə azalması planlaşdırılır:

- kağız, dəftərxana ləvazimatları üçün material xərclərinin azalması;
- sənədlərin ötürülməsi üçün əlavə nəqliyyat xərcləri;
- kargüzarlıqla məşğul olan işçilərin ixtisarı.

Beləliklə, müəssisədə idarəetmənin səmərəliliyi aşağıdakı kimi təyin olunur:

$$Sid=1/(T_1+T_2+T_3), \quad (4)$$

burada *Sid* – idarəetmənin səmərəlilik göstəricisidir. $T_1$ – məlumat əldə etmə vaxtı, $T_2$ – informasiyanın emalı vaxtı, $T_3$ – qərarvermə vaxtıdır.

Beləliklə, sənəd dövriyyəsi sistemi qərar qəbul etmə müddətinə təsir göstərə bilməz, lakin digər iki göstərici - elektron sənəd dövriyyəsi və elektron imza tətbiq edilərkən məlumat əldə etmək vaxtı və məlumatların emalı vaxtı yüzlərlə, bəzi hallarda isə min dəfələrlə azaldılır. Yüksək sürətli informasiya sistemində qarşılıqlı əlaqə və məlumat mübadiləsi sayəsində məlumat göndəricidən alıcıya demək olar ki, dərhal çatır və məlumatın avtomatlaşdırılmış işlənməsi sayəsində nəinki qəbul edilmiş məlumatların təhlili vaxtı azalır, həm də müəyyən məlumatları çıxarmaq, əlavə etmək və ya müxtəlif formatlarda təqdim etmək mümkündür.

İqtisadi hesablamalar müəssisəyə elektron imza sisteminin və kriptoqrafik şifrələmənin seçilməsi kimi ən vacib məsələni həll etməyə kömək edə bilər. Burada əsas məqsəd müəyyən bir sistemlə işləməyin nəinki etibarlılığı, rahatlığı, həm də iqtisadi faydasıdır. Qeyd olunan keyfiyyət göstəricilərini aşağıda təklif olunan üsullardan birini seçməklə əldə etmək olar:

1. Hazır proqram təminatının alınması və dilerdən işçilərin hazırlanması üçün kursların təşkil olunması;
2. Profilli şirkətlərdən fərdi şifrələmə sisteminin və elektron imza üçün açarların təyini üçün sifarişin verilməsi;
3. Elektron imza və xüsusi proqram təminatı ilə məşğul olacaq bir şöbənin yaradılması.

Birinci üsul fərdi elektron sənəd idarəetmə vasitələrini inkişaf etdirmək üçün maliyyə imkanları olmayan kiçik şirkətlər üçün uyğundur. Müəssisə ya müəyyən müddətə lisenziyalar ala bilər, ya da dilerlə müddətsiz xidmət müqaviləsi bağlaya bilər. Ancaq az işçi heyəti olan kiçik bir təşkilat üçün vahid rəqəmsal imzaların alınması ucuz bir həll yoludursa, böyük bir müəssisə üçün,

əksinə, bütün işçiləri təmin etmək və çox istifadəçiyə xidmət müqaviləsi bağlamaq nəzəri olaraq tətbiqetmənin səmərəliliyini azalda bilər.

İkinci üsul birincidən bir qədər fərqlidir. Bundan istifadə edərkən şirkət həm də lisenziyalar almalı və hazır məhsul satan eyni şirkətlərlə xidmət müqaviləsi bağlamalı olacaq. Təbii ki, unikal şifrələmə protokollarının və rəqəmsal imzaların istehsalı texniki xidmət xərclərini də artıracaq. Buna görə də, bu üsul yalnız məxfi məlumatı olan müəssisələrə tövsiyə edilə bilər. Əvvəla, bunlar məlumatın mümkün qədər səmərəli şəkildə şifrələnməni təmin edən müdafiə müəssisələridir.

Üçüncü üsul ən yüksək xərcləri əhatə edir. Elektron sənəd dövriyyəsinin həyata keçirilməsi və onun texniki dəstəyi üçün bir neçə proqramçı və mühəndis, həmçinin ən azı bir menecer tələb olunur. Əlavə işçilərin əmək haqqı xərclərinə əlavə olaraq onların iş yerlərinin saxlanması və bununla bağlı xərclər də əlavə olunacaq. Bununla belə, əgər müəssisənin sənəd dövriyyəsində iştirak edən bir neçə yüz, hətta minlərlə işçi ştatı varsa, lisenziyalar almaq və çox istifadəçiyə xidmət müqaviləsi bağlamaqdansa, ixtisaslaşdırılmış şöbə və ya bölmə yaratmaq daha ucuz başa gələ bilər. Bu iş üsulu dövlət qurumları – xəzinədarlıq, müxtəlif nazirlik və idarələr, dövlət satınalma saytları, mütəmadi olaraq böyük həcmdə qarşılıqlı əlaqədə olan dövlət şirkətləri üçün əlverişsizdir.

**Elektron sənəd dövriyyəsinin tətbiqi perspektivləri**

Avtomatlaşdırılmış sistemin tətbiqi zamanı aşağıdakı nəticələr gözlənilir:

- bütün səviyyələrdə fəaliyyət şəffaf olduğundan səmərəli sənəd idarəetmə mexanizminin formalaşması imkanı;
- məlumatın çoxsaylı çevrilməsi prosesinin minimuma endirilməsi;
- işçilərin öz hərəkətlərinə görə məsuliyyətinin artırılması və daxili araşdırmaların avtomatik nəzarət sisteminin təyini;
- təşkilatın struktur bölmələrinin fəaliyyətinin qiymətləndirilməsi imkanlarını artıran səlahiyyətli kommersiya məlumatları;
- kağız sənədlərin dövriyyədən çıxarılması.

Ofisin avtomatlaşdırılması həlli şaxələnmiş müəssisəyə öz funksiyalarını vahid informasiya mühitində yerinə yetirməyə imkan verir. Bu, müəssisə idarəetmə məlumat bazalarından məlumatları yeniləyən müasir server - bulud məlumat bazası yaratdıqda təmin edilir. Bütün sənədlər verilənlər bazasına bir dəfəyə daxil edilir və saxlandıqdan sonra digər alt sistemlər üçün əlçatan olur. Elektron sənəd dövriyyəsindən istifadə aşağıdakı üstünlükləri təmin edir:

- idarəetmə və biznes prosesləri təkmilləşdirilir;
- sənədlərin itirilməsi ehtimalı azalır;
- elektron və kağız arxivlər arasında əlaqənin mövcudluğu sənədlərin emalı üçün vaxta qənaət edilir;
- performans intizamı yaxşılaşır;
- sənədlərin axtarışı sürətləndirilir və məlumatlar əlavə olaraq qorunur;
- sənədlər bir dəfəyə qeydə alınır və müxtəlif əməliyyatları paralel şəkildə yerinə yetirmək mümkün olur.

**Nəticə**

Mütəxəssislər bildirirlər ki, avtomatlaşdırılmış proqram təminatı sistemlərinin inkişaf tendensiyası onların universallaşdırılmasıdır. Beləliklə, elektron sənəd idarəetmə sisteminin tətbiqi xərclərin azaldılmasına, səmərəliliyin və iqtisadi gəlirin artmasına gətirib çıxarır, lakin elə elektron sənəd dövriyyəsi sistemlərini seçmək və elə qərarlar qəbul etmək lazımdır ki, yeni müəssisənin informasiya məlumat sistemi təkcə innovasiya prinsiplərinə deyil, həm də etibarlılıq, təhlükəsizlik, dayanıqlıq və çeviklik prinsiplərini ödəsin.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" (11 avqust 2010).

2. “Elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının Qanunu (9 mart 2004-cü il, № 602-IIQ).

3. Bayramov Ş.V. MDU modernləşən universitet: strateji hədəflər və əsas nəticələr / “Azərbaycan müəllimi” qəz., 2023, 27 yanvar, s.9

4. https://scis.gov.az/az/pages/view/esd

5. https://www.microsoft.com/ru-ru/microsoft-365/microsoft-office

6. Ələkbərov R., Zeynalova D., Paşayev İ. Elektron Sənəd Dövriyyəsi Sisteminin Yaradılması Məsələləri / Proqram mühəndisliyinin aktual elmi-praktiki problemləri‖ I respublika konfransı, Bakı, 17 may 2017-ci il, s.232-235. DOI: 10.25045/NCSoftEng.2017.62

7. Днепровский М.С, Дубнищева Т.Я. Система электронного документооборота предприятия // II Международный студенческий научный вестник. 2016. № 3, с.64-65

8. Янковая В.Ф. Документ на бумажном носителе, электронный документ / В.Ф.Янковая // Справ. секретаря и офис-менеджера. 2011. № 2. с. 39-44

## ADVANTAGES AND PERSPECTIVES OF APPLICATION OF ELECTRONIC DOCUMENT SYSTEM IN MANAGEMENT SYSTEMS

**M.Pashayev**
Mingachevir State University

***Absract:*** *At the present time the main and most important element of the "digital" infrastructure of enterprises or organizations is the document management system. Working with external and internal documents is considered the most complex, time-consuming and "problematic" area of the enterprise's activity. Most modern management systems create office papers in digital form, but due to the insufficiency of data exchange processes, users are forced to print them, transfer them in "physical" form, and waste time and effort on unnecessary work. Conversion of an effective format can lead to significant loss of time and income. This requires complex automation of the control system. Automated electronic solutions allow to significantly simplify and optimize this process. In a globalized and digitized society, the system of electronic document management (ED) is no longer an option, but a necessity. A competently organized system of electronic document management, including properly selected services of electronic document management, will help to effectively and efficiently manage information and document management at all levels.*

*In the article, the technology of paper and electronic document management is analyzed, its advantages and disadvantages are determined, and the mechanism of economic efficiency in management is formed. As a result, the mechanisms of application of the electronic document management system were proposed in various ways.*

***Keywords:*** *electronic document management, document flows, information security, electronic signature*

## ПРЕИМУЩЕСТВА И ПЕРСПЕКТИВЫ ПРИМЕНЕНИЯ СИСТЕМЫ ЭЛЕКТРОННОГО ДОКУМЕНТООБОРОТА В СИСТЕМАХ УПРАВЛЕНИЯ

**М.А.Пашаев**
Мингячевирский государственный университет

***Резюме:*** *В настоящее время основным и важнейшим элементом «цифровой» инфраструктуры предприятий или организаций является система документооборота. Работа с внешними и внутренними документами считается наиболее сложной, трудоемкой и «проблемной» областью деятельности предприятия. Большинство современных систем*

*управления создают офисные бумаги в цифровом виде, но из-за недостаточности процессов обмена данными пользователи вынуждены распечатывать их, передавать в «физическом» виде, тратить время и силы на ненужную работу. Преобразование эффективного формата может привести к значительной потере времени и дохода. Это требует комплексной автоматизации системы управления. Автоматизированные электронные решения позволяют существенно упростить и оптимизировать этот процесс. В глобализированном и оцифрованном обществе система электронного документооборота (СЭД) уже не вариант, а необходимость. Грамотно организованная система электронного документооборота, включающая правильно подобранные сервисы электронного документооборота, поможет эффективно и результативно управлять информационными и документооборотами на всех уровнях.*

*В статье анализируется технология бумажного и электронного документооборота, определяются ее преимущества и недостатки, формируется механизм экономической эффективности в управлении. В результате были предложены механизмы применения системы электронного документооборота различными способами.*

***Ключевые слова:*** *электронный документооборот, документопоток, информационная безопасность, электронная подпись*

**Elmi redaktor: tex.f.d. A.Mustafayeva**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 04.03.2024**
**Çapa qəbul edilib: 11.03.2024**

UOT 006.91

# METROLOGİYANIN MÜASİR İNKİŞAF PERSPEKTİVLƏRİ

**Sima Vəli qızı Mahmudova**
Mingəçevir Dövlət Universiteti
sima.mahmudova@mdu.edu.az

***Xülasə:*** *Metrologiyanın müasir inkişaf perspektivləri, yüksək dəqiqliklə ölçmə cihazlarının nanotexnologiyadan istifadəsi, İnternetə qoşulmuş cihazlar və büyük məlumatın metrologiya sahəsinə tətbiqi, 3D printerlər və additiv istehsal texnologiyalarının metrologiyada rolu, kvant metrologiya kimi bir sıra sahələrdə mövcud standartları və texnologiyaları dəyişdirəcək potensial inkişafları əks etdirir. Bu inkişaf perspektivləri, metrologiya sahəsində daha yaxşı və dəqiq ölçmələrə imkan verir və bir çox sahələrdə daha effektiv texnologiyaların inkişafına səbəb olur. Bu, bir çox sahədə daha yaxşı məhsullar və xidmətlərin təmin edilməsində, həmçinin mühitə müsbət təsir etmədə potensialı olan müasir inkişaf perspektivlərini əks etdirir.*

***Açar sözlər:*** *metrologiya, inkişaf, dəqiqlik*

## Giriş

Metrologiya, ölçü və ölçmə prosedurlarının elmi qanunauyğunluğu və mühitin yaxşı idarə edilməsinin əsas ünsürü olaraq təsnif edilir. Bu sahə, müxtəlif sahələrdə (sənaye, tibb, mühəndislik, energetika, informasiya texnologiyaları və daha çoxu) və hətta günlük həyatımızın bir hissəsində (suyun və qazın sərfinin, zaman, temperatur və s.) mövcud olur. Metrologiya, ölçmələrin standartlaşdırılması və yoxlanılmasında olduğu kimi, ölçmə cihazlarının inkişafı və istifadəsini də tənzimləyir.

Bu məqalədə, metrologiyanın müasir inkişaf perspektivlərini və potensial inkişaflarını təhlil edəcəyik. Metrologiya sahəsində inkişaflar, texnologiyaların və tədqiqatın sürətlə inkişaf etməsi ilə birlikdə, ölçmələrin də daha yüksək dəqiqliklə və effektivliklə həyata keçirilməsinə imkan verir.

Birinci əsas mövzumuz, daha yüksək dəqiqliklə ölçmə vasitələrinin inkişafı ilə bağlıdır. Nanotexnologiya və nanometrik materiallar, metrologiya sahəsində daha yüksək dəqiqliklə ölçmə tətbiqatlarının inkişafına kömək edir. Bu, çox hassas ölçmələrin daha asan və daha təhlükəsiz bir şəkildə aparılmasını təmin edir.

İkinci perspektiv, İnternetə qoşulmuş cihazlar (IoT) və böyük məlumatın metrologiya sahəsinə tətbiqi ilə bağlıdır. IoT texnologiyası və sensorlar, böyük həcmli məlumatların toplanması və analizi üçün istifadə edilir. Bu, məlumatların daha tez ötürülməsinin vəziyyətini yaxşılaşdırmağa kömək edir və müasir metrologiya standartlarının inkişafını təmin edir.

Üçüncü olaraq, 3D printerlər və digər additiv istehsal texnologiyaları da metrologiya sahəsində dəyişikliklərə səbəb olur. Bu texnologiyalar, məhsul və hissələrin tədqiqatını və yoxlamanı daha səmərəli və effektiv edir. 3D printerlər ilə istehsal olunan məhsulların ölçüsünün müəyyənləşdirilməsi üçün yeni metroloji metodlar inkişaf etdirilir.

Nəhayət, kvant metrologiyası sahəsində də ciddi inkişaf mövcuddur. Kvant effektlərdən istifadə edən cihazlar, daha yüksək dəqiqliklə ölçmələrin aparılmasına imkan verir. Bu, bir sıra sahələrdə (navigasiya, tibb texnologiyaları, kriptovalyuta və s.) daha yaxşı və daha dəqiq ölçmələri təmin edir.

Metrologiya sahəsində müasir inkişaf perspektivləri, ölçmələrin daha dəqiq və effektiv həyata keçirilməsini təmin edir və bir çox sahələrdə (sənaye, tibb, mühəndislik, informasiya texnologiyaları və s.) daha yaxşı texnologiyaların inkişafına əlavə olacaq. Bu inkişaf perspektivləri, dünya əhalisinin günlük həyatında daha yaxşı məhsullar və xidmətlər təmin etmək üçün böyük bir potensial daşıyır.

## Metrologiyanın əsas rolu və əhəmiyyəti

Metrologiya, ölçü və ölçmə prosedurlarının elmi əsası və ətraf mühitin yaxşı idarə edilməsinin vacib elementi olaraq qəbul edilir. Bu sahə, dünyanın mövcud vəziyyətinin və gələcək

perspektivlərini anlamaq və tədqiq edilməsi üçün əhəmiyyətli bir rəsmi sistem təşkil edir. Standartlaşdırma metrologiya, ölçü və ölçmə prosedurlarının təyin edilməsində və standartların yaradılmasında əsas rol oynayır. Standartlar, məhsulların və xidmətlərin keyfiyyətinin yüksəldilməsi və təhlil edilməsi üçün müəyyənedici normativ sənədlər toplusudur [1].

Metrologiya, dəqiq ölçmələrin və ölçmə nəticələrinin təhlükəsizliyini təmin edir. Mühəndis, tibb, aviasiya, energetika, kimya və digər bir çox sahədə dəqiqlik çox vacibdir və bu sahələrdəki səhvlər ciddi nəticələrə səbəb ola bilər. Metrologiya, məhsulların və xidmətlərin ticarəti və idarəedilməsi üçün vacibdir. Bu, istehsalçılar və müştərilər üçün ədalətli və dəqiq ölçmələri təmin edir.

**Cədvəl 1**

**Metrologiya, ölçü və ölçmə prosedurlarının əhəmiyyəti** [1].

| Mövzu | Əhəmiyyəti və rolu |
|---|---|
| Standartlaşdırma | Metrologiya ölçmələrin və ölçmə prosedurlarının müəyyən edilməsində və standartların yaradılmasında əsas rol oynayır. Standartlar məhsul və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və təhlili üçün həlledici rol oynayır. |
| Dəqiq ölçmə və təhlükəsizlikdə rolu | Mühəndis, tibb, aerokosmik, enerji, kimya və bir çox digər sahələrdə dəqiqlik çox vacibdir və bu sahələrdə səhvlər ciddi nəticələrə səbəb ola bilər. Metrologiya təhlükəsizliyi və dəqiq ölçmələri təmin edir. |
| Ticarətdə və idarəçilikdə əhəmiyyəti | Metrologiya istehsalçılar, treyderlər və müştərilər üçün ədalətli və dəqiq ölçmələr təqdim edərək, ticarət və idarəetmənin effektiv aparılmasına kömək edir. |
| Texnoloji innovasiyalara töhfə | Metrologiya yeni və inkişaf edən texnologiyaların sürətli inkişafını təmin edir. Bu, cihazların, sensorların və ölçmə sistemlərinin daha effektiv və dəqiq olmasına imkan verir. |
| Tədqiqatın və texnoloji innovasiyaların sürətləndirilməsi | Metrologiya tədqiqatın və texnoloji innovasiyaların sürətli inkişafı üçün əsas tələbdir. İnnovativ texnologiyaların tətbiqi və təhlili üçün dəqiqlik və standartları təmin edir. |
| Əşyaların İnterneti (IoT) və Big Data istifadəsi | İnternetə qoşulan qurğular (IoT) və böyük verilənlərdən istifadə metrologiyanı daha da vacib edir. Bu texnologiyalar məlumatları toplamaq və təhlil etmək üçün ölçmə və metrologiyanın prinsiplərini tətbiq edir. |
| Genişlənmə və Gələcək İnnovasiyalar | Metrologiya sahəsində inkişaf və yeniliklər fasiləsiz olaraq genişlənir və müasir dünyada onun əhəmiyyətini artırır. Tibb, mühəndislik, iqtisadiyyat və bir çox başqa sahələrdə həyatımızın bir hissəsidir. |

Metrologiya, yeni və inkişaf edən texnologiyaların və innovasiyaların sürətlə inkişaf etməsini təmin edir. Bu, cihazların, sensorların və ölçmə sistemlərinin daha da effektiv və dəqiqliyə malik olmasına imkan verir. Metrologiya, texnologiyanın və texnoloji yeniliyin inkişafı üçün vacibdir. İnovativ texnologiyaların səmərəli tətbiqi və təhlil edilməsi üçün dəqiqlik və standartları təmin edir.

Dəqiq ölçmələr, müxtəlif sahələrdə ticarət və iqtisadiyyatın effektiv idarə olunmasına kömək edir. Daha dəqiq ölçmələr ticarətin və iqtisadiyyatın effektivliyini artır. Metrologiya, tibbi, aviasiya, nüvə energetikası və digər təhlükəli sahələrdə təhlükəsizliyin təmin edilməsinə kömək edir. Dəqiq ölçmələr və standartlar səhvləri azaltmağa və təhlükələri minimalizə etməyə kömək edir [2].

İnternetə qoşulmuş cihazlar (IoT) və büyük məlumatın (Big Data) istfadəsi, metrologiyanın daha da əhəmiyyətli olmasına səbəb olur. Bu texnologiyalar, məlumatların toplanması və analizi üçün ölçmə və metrologiyanın prinsiplərini tətbiq edir. Metrologiya, modern dünyada dəqiq ölçmələrin və standartların əsasını təşkil edir və tibbi, mühəndislik, iqtisadiyyat və digər bir çox sahədə həyatımızın bir hissəsidir. Metrologiya sahəsindəki inkişaf perspektivləri və yeniliklər, müasir texnologiyaların və tədqiqatın sürətlə inkişaf etməsi ilə daha da genişlənir və əhəmiyyətini artırır.

**Nanotexnologiya: dəqiq ölçmələrin yeni imkanlari**

Nanotexnologiya, ölçmə və metrologiya sahəsində müasir inkişafın ən gözəl nümunələrindən biri kimi ortaya çıxır. Bu sahədəki inkişaf, ölçmələrin dəqiq təyini və laboratoriyalarda tətbiqi üçün yeni imkanlar yaradır. Nanotexnologiya, çox kiçik ölçü sahəsində işləmək üçün nano sensorlarının inkişafına imkan verir. Bu sensorlar, çox hassas ölçmələr və təhlillər üçün istifadə edilir. Məsələn, tibb və əczaçılıq sahəsində nanosensorlar laboratoriyalarda və hətta insan orqanizmində olan maddələrin analizində tətbiq edilir [3].

Nanotexnologiya, nanoskala quruluşların yaradılmasına və müayinəsinə kömək edir. Bu, materialların strukturu və xüsusiyyətlərinin daha yaxşı anlaşılmasına və tədqiqatına imkan verir. Həmçinin, nanoquruluşlar, elektronik və optik sahələrdə istifadə olunmağa başlanır. Nanotexnologianın tətbiqi ilə, nanomaterialların yaradılması və inkişafı mümkün olur. Bu materiallar, yüksək dərəcədə dayanıqlı və təşkilatlı quruluşlara sahibdir və bir çox sahədə istifadə edilir. Əlavə olaraq, nanomateriallar daha effektiv sensorlar və cihazlar üçün istifadə olunur [4].

Nanotexnologiya, dəqiq ölçmə və monitorinq sistemlərinin yaradılmasında və inkişafında böyük rol oynayır. Nano sensorlar və cihazlar, çox kiçik məsafələrdə vaxtı, zamanı izləmək və ölçmək üçün istifadə olunur. Nanotexnologianın ən maraqlı tətbiqlərindən biri də maddələrin və təbii sahələrin nanoskala səbəbli xüsusiyyətlərinin izahıdır. Bu, təbii və sənaye mühitlərindəki proseslərin daha yaxşı izah edilməsinə və idarə edilməsinə imkan verir [5].

Nanotexnologianın bu tətbiqatları, ölçmə və metrologiya sahəsində dəqiqliyi artırmağa və yeni imkanlar yaratmağa kömək edir. Bu perspektivlər, tibb, mühəndislik, material elmi, vəziyyət və nəzarət sahələrində dəyişikliklərə səbəb olur və daha effektiv texnologiyaların inkişafına təkan verir. Nanotexnologianın gələcək inkişafı, inkişaf etməkdə olan sahələrdə gələcək innovasiya və inkişaf üçün yeni imkanlar yaradır.

**İnternetə qoşulmuş cihazlar (IoT) və metrologiya: ümumi baxiş**

İnternetə qoşulmuş cihazlar (IoT), dünyanın hər tərəfini birləşdirən böyük bir texnologiyanın inkişafıdır. Bu, cihazların və sensorların internetə qoşulmasını və məlumatların paylaşılmasını təmin edir. IoT, bir çox sahədə (sənaye, tibb, energetika, transport və s.) dəyişikliklərə səbəb olur və metrologiya sahəsində də büyük bir rol oynayır. IoT, sensorların daha da yayılmasına və müxtəlif verilənlərin toplanmasına imkan verir. Bu sensorlar, sənaye məhsullarının, energetika qurğularının, istilik və soyutma sistemlərinin və daha bir çox parametrlərin ölçülməsi və izlənməsi üçün istifadə edilir. Metrologiya, bu sensorlar vasitəsilə daha dəqiq ölçmələrin aparılmasına imkan verir.

IoT, mühəndislik və energetika sahələrində uzaqdan monitorinqi və texniki cihazların yuxarıda saxlanmasını təmin edir. Bu, texniki işləri daha effektiv hala gətirir və səhvləri azaltır. IoT, böyük məlumat (Big Data) təmin edir. Metrologiya, bu məlumatların analizini və ölçmə nəticələrinin təhlilini təşkil edir. Bu, sənaye proseslərinin daha yaxşı nəzarət edilməsinə, problemlərin daha sürətli müəyyən edilməsinə və yüksək dərəcədə dəqiqlik tələb edən sahələrdə məlumatların effektiv şəkildə istifadəsinə imkan verir [6].

IoT, energetikanın idarəedilməsində istifadə edilir və energetika sahəsində dəqiq ölçmələr üçün sensorlar təklif edir. Bu, enerji effektivliyini artırmağa və enerji sərfələrini azaltmağa kömək edir. IoT, sağlamlıq sahəsində monitorinq və məlumatların paylaşılmasına imkan verir. Bu, tibbi cihazların və sensorların istifadə imkanlarını daha genişləndirir və sağlamlıq üçün daha dəqiq ölçmələrə imkan verir.

Əsasən, IoT metrologiya sahəsində dəqiqliyi və təhlili artırır və çox müxtəlif sahələrdə daha effektiv ölçmələr və monitorinq sistemi təqdim edir. Bu, texnoloji inkişafın və innovasiyanın sürətlə inkişaf etməsinə imkan verir və sənaye, energetika, tibb və digər sahələrdə daha yaxşı və səmərəli proseslərə səbəb olur. IoT-nun metrologiya sahəsində daha da inkişaf etməsi, daha çox innovasiya və tədqiqat üçün yeni imkanlar təmin edir [7].

**Büyük Məlumat (Big Data) və Metrologiyanın İnkişafı**

Büyük Məlumat (Big Data), son illərdə informasiya texnologiyalarının inkişafı və internetin yayılması nəticəsində dünyada böyük məlumat həcmi yaranmış bir fenomendir. Bu məlumat həcmi, müxtəlif sahələrdəki məlumatların toplanması, saxlanılması, təhlil edilməsi və tədqiq edilməsi üçün

böyük imkanlar yaradır. Metrologiya sahəsində isə Big Data, ölçmə və təhlil prosedurlarında dəyişikliklərə səbəb olur və inkişafın yeni perspektivlərini açır. Metrologiya, ölçmələrin dəqiq təyini və etibarlığı üçün əsas məqsəd daşıyır. Big Data, daha çox məlumatın toplanması və analizi ilə bu məqsədlərə çatmağa kömək edir. Daha çox məlumatın təhlili, ölçmələrin dəqiqliyinin artmasına səbəb olur.

Big Data, metrologiya standartlarının inkişafına təkan verir. Daha böyük məlumat həcmi, standartların təhlil edilməsi və yeni standartların təyin edilməsi üçün böyük imkanlar yaradır. Big Data, sənaye sahədə proseslərin idarə olunması və nəzarəti üçün tətbiq edilir. Metrologiya, bu proseslərin daha dəqiq ölçmələrlə izlənilməsinə və daha effektiv nəzarət edilməsinə kömək edir. Big Data ilə əlaqəli olan sensorlar və IoT cihazları, metrologiya sahəsində daha çox məlumat toplanmasına imkan verir. Bu sensorlar və cihazlar, məlumatların daha sürətli və dəqiq şəkildə toplanmasına və ölçmələrin daha dəqiq aparılmasına kömək edir [8].

Big Data, məlumat analitikası və tədqiqat sahəsində inkişafı təşvik edir. Metrologiya, bu tədqiqatın daha dəqiq nəticələrin əldə edilməsinə və məlumatın daha yaxşı nəzərdən keçirilməsinə kömək edir. Büyük Məlumatın metrologiyanın inkişafına təsiri, ölçmə və tədqiqat sahələrində daha effektiv və dəqiq proseslər təmin edir. Bu, sənaye, energetika, tibb və digər sahələrdə daha yaxşı nəticələrin əldə edilməsinə və daha effektiv texnologiyaların inkişafına səbəb olur. Big Data-nın əhəmiyyəti artdıqca, metrologiya sahəsində daha çox innovasiya və tədqiqat gözlənilir.

**Müasir Standartların İnkişafı və Texnologiyaların İstifadəsi**

Müasir standartlar, bir çox sahədə tətbiq olunan ölçü və nizamnamələrdir və bu standartlar məhsulların keyfiyyətinin yüksəldilməsi, təhlil edilməsi, nəzarət edilməsi və ticarətin effektiv şəkildə aparılması üçün əhəmiyyətli bir rol oynayır. Müasir standartların inkişafı isə yeni texnologiyaların istifadəsi ilə əlaqəlidir.

IoT cihazları, standartların monitorinqi, ölçmə və nəzarət proseslərinin sürətli və effektiv şəkildə aparılmasına imkan verir. Bu cihazlar, standartların avtomatlaşdırılması və texnoloji dəyişikliklərə əsas göstərməklə, səhvlərin minimalizə edilməsini və daha dəqiq ölçmələrin təmin edilməsini təmin edir. Big Data, standartların təhlil edilməsi, monitorinqi və nəzarəti üçün daha böyük məlumat həcmi təqdim edir. Bu, standartların daha dəqiq təyin edilməsinə və daha yaxşı nəticələrin əldə edilməsinə imkan verir [9].

3D printerlər, müasir standartların tətbiq edilməsi üçün yeni imkanlar yaradır. Bu printerlər, orijinal məhsulların və hissələrin istehsalını təmin edir və bu, standartların dəyişdirilməsi və yenilənməsi üçün böyük imkanlar yaradır. Nanotexnologiya, standartların daha dəqiq ölçmələrin aparılmasına və materialların strukturlarının daha yaxşı izah edilməsinə kömək edir. Bu, nanoskala materialların və sensorların inkişafına səbəb olur və bu da standartların daha yaxşı nəticələrinə səbəb olur.

**Cədvəl 2**

**Müasir standartlarin inkişafi və teknologiyalardan istifadə** [9].

| **Texnologiya / İnnovasiya** | **Rolu və faydaları** |
|---|---|
| IoT Cihazları | Standartların sürətli və avtomatik monitorinqinə, ölçülməsinə və nəzarətinə imkan verir.<br>Texnoloji dəyişikliklərə tez uyğunlaşır və səhvləri minimuma endirir. |
| Böyük verilənlər | Standartların təhlili, monitorinqi və nəzarəti üçün böyük məlumat həcmini təmin edir.<br>Daha dəqiq standartlar müəyyən etməyə və daha yaxşı nəticələr əldə etməyə kömək edir. |
| 3D printerlər | Yeni məhsul və hissələrin istehsalını asanlaşdırmaqla standartların hazırlanmasına töhfə verir. |
| Nanotexnologiya | Daha dəqiq ölçmələrə və maddi strukturların daha yaxşı başa düşülməsinə kömək edir. Nanoölçülü materialların və sensorların inkişafına gətirib çıxarır. |

| | |
|---|---|
| Kvant effektləri | Daha yüksək dəqiqliklə ölçməyə imkan verir və məhsulun keyfiyyətini artırır. |
| İnformasiya texnologiyaları | Məlumatların daha sürətli və effektiv istifadəsinə imkan verir və ölçmə və nəzarət proseslərini təkmilləşdirir. |

Kvant effektlərdən istifadə edən metrologiya cihazları, daha dəqiq ölçmələr üçün yeni bir perspektiv açır. Bu, standartların daha yüksək dərəcədə dəqiq olmasını və məhsulların keyfiyyətinin yaxşılaşmasını təmin edir. Məlumat texnologiyaları, standartların təhlil edilməsi, monitorinqi və nəzarəti üçün məlumatların daha sürətli və effektiv şəkildə istifadəsini təmin edir.

Müasir standartların inkişafı və texnologiyaların istifadəsi, ölçmə, monitorinq və nəzarət sahələrində daha effektiv və dəqiqli prosesləri təmin edir. Bu, sənaye, tibb, mühəndislik və digər bir çox sahədə daha yaxşı nəticələrin əldə edilməsinə və innovasiyaların tətbiqinə imkan verir. Metrologiyanın bu texnoloji inkişaf perspektivləri, standartların daha dəqiq və effektiv şəkildə təyin edilməsini və həyatımızın bir çox aspektinə təsir göstərir. Məhsulun, işin və xidmətlərin keyfiyyətinin standartların keyfiyyətindən nə qədər asılı olduğunu yaxşı bilirik.

**Metrologiya tədqiqatinin inkişaf tərəqqiləri**

Metrologiyanın müasir inkişaf perspektivləri, bir çox sahədə dəqiq ölçmələr və nəzarət proseslərinin təhlilinə imkan verir. Kvant metrologiyasının, nanotexnologiya və sensorların inkişafı, ölçmələrin daha dəqiq və hassas təyin edilməsinə imkan verir. Bu, sahələrdə daha dəqiq və etibarlı məlumatların əldə edilməsinə səbəb olur [10].

Metrologiya tədqiqatı, yeni sensorlar, cihazlar və protokolların istifadəsinə səbəb olur. Bu innovasiyalar, sənaye, sağlamlıq, energetika və digər sahələrdə daha effektiv texnologiyaların inkişafını təmin edir. İnternetə qoşulmuş cihazlar (IoT) və büyük məlumat (Big Data) istifadəsi, proseslərin uzaktan monitorinqini və nəzarətini effektiv şəkildə aparılmasına kömək edir. Bu, sənaye proseslərinin daha sürətli nəzarət edilməsinə və səhvlərin minimalizə edilməsinə yardım edir.

Metroloji tədqiqat, standartların yaradılmasına və təyin edilməsinə imkan verir. Bu, məhsulların və xidmətlərin dünya səviyyəsində uyğunluğunu təmin edir və ticarətin genişlənməsinə imkan verir. Metroloji tədqiqatın nəticələri, mühəndislik, aviasiya, sənaye, tibb və daha bir çox sahədə tətbiq edilir. Bu, daha keyfiyyətli məhsulların və işlərin təmin edilməsinə səbəb olur.

Metrologiyanın inkişafı, mühəndislik və başqa sahədə daha çox tədqiqat və təlim imkanlarına səbəb olur. Bu, texnologiya sahəsində yeni mütəxəssislərin yetişdirilməsinə və sahənin daha geniş yayılmasına imkan verir. Büyük məlumat (Big Data) və məlumat texnologiyalarının istifadəsi, məlumatların daha effektiv şəkildə təhlil edilməsinə və tədqiqatın daha yaxşı nəticələrinə imkan verir [10].

Metrologiyanın bu müasir inkişaf perspektivləri, bir çox sahədə ölçmə və nəzarət proseslərinin daha dəqiq və effektiv olmasını təmin edir və texnoloji innovasiyaların sürətlə tətbiqinə imkan verir.

**Nəticə**

Metrologiyanın müasir inkişaf perspektivləri və əsas avantajları, ölçmə və nəzarət sahəsində dəqiqliyi artırmağa və texnoloji innovasiyaların tətbiqinə səbəb olur. Kvant metrologiyası, nanotexnologiya, sensor texnologiyalarının inkişafı, büyük məlumat (Big Data), 3D metrologiya, İnternetə qoşulmuş cihazlar (IoT) və daha bir çox texnoloji innovasiya, metrologiyanın daha effektiv olmasını təmin edir.

Bu inkişaf perspektivləri, sənaye, mühəndislik, tibb və digər sahələrdə daha yaxşı nəticələrin əldə edilməsinə və texnoloji innovasiyaların tətbiqinə imkan verir. Metrologiyanın öyrənilməsinin nəticələri, daha dəqiq ölçmələr, standartlar və monitorinq prosesləri təmin edir və bu da həyatımızın bir çox aspektinə təsir edir. Bu inkişaf perspektivləri, metrologiyanın daha da əhəmiyyətli bir sahəyə çevrilməsini təmin edir və texnoloji innovasiyaların genişlənməsinə səbəb olur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Weckenmann, A., Kraemer, P., & Hoffmann, J. (2007, November). Manufacturing metrology–state of the art and prospects. In Proc. ISMQC (Vol. 9, No. 1, pp. 568-601).
2. Tarbeev, Y.V. (1990). Quantum metrology: Problems, results, prospects. Measurement Techniques, 33(1), 1-6.
3. Hurevich, V.L., & Liakhova, N.D. (2021). 30 Years to Coomet: Results and Prospects of Cooperation. Measurement Techniques, 64(7), 529-540.
4. H.S.Orucov, Ç.İ. Əbilov, O.M.Sadıqov, M.Ş.Həsənova. Elektronikada nanotexnologiyalar və nanomateriallar. I hissə. Nanotexnologiyalar.Dərs vəsaiti. Bakı, AzTU. 2017. 196s.15-39
5. Angelsky, O.V., Maksymyak, P.P., Zenkova, C.Y., Hanson, S.G., & Zheng, J. (2020). Current trends in development of optical metrology. Optical Memory and Neural Networks, 29, 269-292.
6. Gogolinskiy, K.V., & Syasko, V.A. (2019). Prospects and challenges of the Fourth Industrial Revolution for instrument engineering and metrology in the field of non-destructive testing and condition monitoring. Insight-Non-Destructive Testing and Condition Monitoring, 61(8), 434-440.
7. Григорьев, С.Н., Мастеренко, Д.А., Телешевский, В.И., & Емельянов, П.Н. (2012). Современное состояние и перспективы развития метрологического обеспечения машиностроительного производства. Измерительная техника, (11), 56-59.
8. Собина, Е.П. (2018). Состояние и перспективы развития метрологии порометрии. Альманах современной метрологии, (14), 58-71.
9. Булгаков, О.Ю., & Катушкин, Ю.Ю. (2014). Состояние и перспективы компонентной базы. Вестник метролога, (1), 15-17.
10. Попов, А.А. (2022). Цифровизация обеспечения метрологической прослеживаемости средств измерений и стандартных образцов через облачные технологии: современное состояние и перспективы развития. Эталоны. Стандартные образцы, (3), 57-70.

## MODERN PROSPECTS FOR THE DEVELOPMENT OF METROLOGY

**S.Mahmudova**
Mingachevir State University

***Abstract:*** *The current outlook for metrology reflects potential developments that will change existing standards and technologies in a number of areas, such as the use of nanotechnology for high-precision measuring instruments, the use of Internet-connected devices and big data in the field of metrology, the role of 3D printers and additive manufacturing technologies in metrology and quantum metrology. These development prospects enable better and more accurate measurements in the field of metrology and lead to the development of more efficient technologies in many areas. It reflects modern development perspectives that have the potential to provide better products and services in many areas, as well as a positive impact on the environment.*

***Keywords***: *metrology, development, accuracy*

## СОВРЕМЕННЫЕ ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ МЕТРОЛОГИИ

**С.В.Махмудова**
Мингячевирский государственный университет

***Резюме:*** *Современные перспективы развития метрологии отражают потенциальные разработки, которые изменят существующие стандарты и технологии в ряде областей, таких как использование нанотехнологий для высокоточных измерительных приборов, применение подключенных к Интернету устройств и больших данных в области*

*метрологии, роль 3D-принтеров и технологий аддитивного производства в метрологии и квантовой метрологии. Эти перспективы развития позволяют проводить более качественные и точные измерения в области метрологии и ведут к разработке более эффективных технологий во многих областях. Он отражает современные перспективы развития, которые потенциально могут обеспечить более качественные продукты и услуги во многих областях, а также положительно повлиять на окружающую среду.*

***Ключевые слова:*** *метрология, развитие, точность*

**Elmi redaktor: tex.f.d., dos. V.Mustafayev**
**Çapa təqdim edən redaktor: tex.f.d., dos. A.Əliyeva**
**Daxil olub: 06.03.2024**
**Çapa qəbul edilib: 13.03.2024**

**HUMANİTAR ELMLƏR BÖLMƏSİ**

UDC 811.1/2

# SOME NOTES ON CLASSIFICATION OF ENGLISH NEW VOCABULARY

**Mehdi Rahimov**
Doctor of Philosophy in Philology, Associate Professor
Mingachevir State University
mehdi.rahimov@mdu.edu.az

***Abstract:*** *This study is devoted to the problem of neology in modern English. Neologisms - words that are part of the vocabulary and are felt by the speakers as new; some neologisms pass into the popular vocabulary, some do not. The object of the study is the development of new trends in the vocabulary of modern English. The subject of the research is neologisms in modern English. The purpose of the study is to identify the main trends in the development of vocabulary in the pragmatic aspect. Under the pragmatic aspects of vocabulary, we mean, first of all, those features of its use that are associated with the social status of speakers, with the real conditions of communicative acts and their impact on the listener. Therefore, in the description of vocabulary, the emphasis is not so much on how and in what way it is created how much on how it is used and for what purpose.*
***Keywords:*** *semantics, neologisms, language, borrowings, vocabulary, word-formation system*

## Introduction

One of the unresolved problems of neology is the problem of the term "neologism". Neologisms differ from traditional canonical words in their special connections with time, which are fixed by the collective consciousness. Lexicologists and lexicographers consider new words to be units that appear in the language later than some time limit, which is assumed to be the original one. So, some researchers consider the end of the Second World War to be such a limit. Others associate the emergence of new words with space exploration and define the border of 1957 - the year the first satellite was launched. Thus, the criterion of neologism, on the one hand, is arbitrary, on the other hand, it is objective. “Any era is accompanied by the introduction of new words. Thus, the central point in the development of any language is the enrichment and expansion of its vocabulary. Newly created or borrowed words, known as neologisms, after a certain period are perceived as an integral part of it.” [1, p.203]

Our world does not stand still: every day there are thousands of events that lead to large-scale changes in human life. Starting from politics, economics and ending with the transformation of scientific and technical, social and spiritual nature.

## Expansion of vocabulary

Changes in all spheres of the life of society are most clearly reflected in speech. Vocabulary is the most variable and leaky side of the language. It is the language that is in constant motion, and one of its main tasks, along with communicative, cognitive and others, is a one-time reflection of all the realities of reality. The penetration of new words into the vocabulary is a direct proof of the ability of the language to transform and adapt to the expansion of human knowledge and capabilities, due to the endless improvement of civilization.

A neologism is a word, meaning of a word or phrase that has recently appeared in a language. From this definition it is clear that the concept of neologism is changeable in time and relative: a word remains a neologism as long as speakers feel novelty in it. But one should take into account the fact that not all new words are permanently fixed in the language. This can be explained by the possibility of the disappearance of words and phenomena both from application, as well as from usage in speech. Thus, lots of scientific works have been carried out concerning this issue [4; 5; 6].

Each social or political change, revolution, innovation leads to the introduction of new words and terms, for example, one of the latest: "Butskellism (Batskellism, conservative R.A.Butler + Hugh Gaitskel, Labor); the Butskellite economy (the economy of the period of Batskelism); Blairites (supporters of Blair); Thatcherites (Thatcher supporters); Grexit (Greece exit from the European Union); Brexit (Britain's exit from the European Union); Brexiteers (supporters of Britain's exit from the European Union or they are also Eurosceptics)" [3, p.9].

**The change in nomination**

The unit of language evolution, as is known, is the change in nomination, i.e. relationship between the signified and the signifier. According to general view of some prominent scientists, there are four elementary changes in the naming process: the use of a given language to designate a new object, the introduction of a new sign to designate an object that already has a name in the language, the introduction of a new sign with a new signifier, and, finally, the non-use of the sign in connection with the deactivation of the signified. In other words, neologism is a new word (a stable combination of words), new either in form or in content (both in form and content). Based on this, in the vocabulary of neologisms we can distinguish:

1) neologisms proper (the novelty of the form is combined with the novelty of the content): *bio-computer* computer that simulates the nervous system of living organisms;

2) trans-nominations that combine the novelty of a word form with a meaning that has already been conveyed previously by another form: *sudser* – soap opera;

3) semantic innovations, or rethinking (the new meaning is indicated by previous words, already in the language): *bread* - money, *drag* - boredom.

The language of the last decades is dominated by units of the first group, which is associated with the increased need of society to give names to new realities that have arisen in connection with scientific and technological progress.

Trans-nominations that appear in the language with the aim of giving a new, more emotional name to an object that already has a neutral name reflect a tendency towards the use of more expressive forms. This trend, along with others, reflects the processes associated with the need to improve the language mechanism: *bubble-headed. airhead, airbrain* (new slang units, limited in use to the American version) --frivolous, stupid; *burned-out* exhausted, tired; *bail-out* revenue, help.

Semantic innovations are understood as new meanings of already existing words. In this case, the following options are possible:

1) old words completely change their meaning, losing the wound that existed;

2) in the semantic structure of the word, one more lexical-semantic variant appears while maintaining all the traditional ones.

Among the semantic innovations of recent decades, units of the second type predominate. Thus, the word *mafia* expanded its meaning and began to mean "any secret society, vicious circle, clan." Among the most common new meanings in modern English, one can note *charisma* - a strong personal attraction, magnetism; *go-go* - dynamic, modern.

In general, among semantic innovations, there is a tendency towards the formation of more abstract LSV (lexico-semantic variant) of the word, the expansion of meaning prevails. The specialization of meanings is less characteristic of the last decades.

Taking into account the method of creation, neologisms are divided into: 1) phonological, 2) borrowings, 3) semantic, 4) syntactic, created by combining signs existing in the language (word formation, phrase). It would be advisable to divide the 4th type of neologisms into morphological (word formation) and phraseological (phrase combinations).

Let us consider in more detail each of the types of neologisms.

**Types of neologisms**

We have to note that new words, of course, like any other phenomenon, can be considered from different points of view, so as without a detailed study of individual aspects of development each specific layer of vocabulary, no more or less serious generalizations. However, any typology involves the classification of objects, phenomena according to the commonality of such features,

which are immanent, essential. In relation to innovations, such a sign is the nature of the called reality and the ways of its verbalization, which motivated ontologically, that is, by the very nature functional purpose of the word as a nominative language unit. "A word is a fundamental unit of speech. When defining the word one must distinguish it from other linguistic units such as a phoneme, a morpheme or a word group. All these linguistic units are significant and therefore must be investigated as a form and a meaning" [2, p.20]

1) Phonological neologisms are created from individual sounds. They are unique configurations of sounds. Such words are sometimes called "artificial" or "invented". New sound configurations are sometimes combined with morphemes of Greek or Latin origin: *perfol* - plastic film, *acryl, perlon* (synthetic materials).

To the group of phonological neologisms, we conditionally include new words formed from interjections: *zizz* (British slang) short sleep (imitation of sounds made by a sleeping person, often conveyed in comics using three letters zzz).

New interjections can conditionally be attributed to the same group: *yech* [jek] or *yuck* (limited in use by American slang) - an interjection expressing strong disgust (the adjective *yucky / yukky* disgusting was formed from this interjection, used mainly by children and adolescents).

These neologisms have the highest degree of novelty connotation and can be classified as "strong neologisms". The high degree of their novelty is explained by the unusual and freshness of their form.

2) Strong neologisms include borrowings that differ in phonetic distribution, which is not typical for the English language, as well as atypical morphological division and lack of motivation. The English language continues to expand through borrowing, but to a much lesser extent than it did during the Middle Ages and the Renaissance.

The main source language continues to be French. Over the past 25 years, the number of Scandinavian borrowings has sharply decreased.

A new trend is the growth of loanwords from African and Asian languages, especially from Japanese. The main centers of attraction for new borrowings are:

1) culture: *cinematheque, anti-roman* (from French.);

2) social and political life: *ayatollah* (from Arabic) religious leader of the Shiit Islamic sect in Iran (the word has become widely known since January 1979, when Ayatollah Khomeini came to power after the overthrow of the Shah of Iran);

3) daily life (drinks, food, sports, clothing): *petit dejeuner* (french.) small breakfast;

4) scientific and technical: *biogeocoenose* (from Russian) ecological system.

The greatest degree of novelty is distinguished by barbarisms, non-assimilated units that prevail among the new borrowed vocabulary.: *lunokhod* (from Russian); *gonzo* (from Italian) wild, crazy. Chiasms are close to them (borrowed units reflecting the specifics of the life of the source country): *gyro* (from Greek.); *kung fu* (from Chinese) kung fu fight.

The difference between barbarisms and xenisms lies in the fact that the former have synonyms in the recipient language, the latter denote phenomena, objects that exist only in the source country and are absent in the receiving country. Consequently, xenisms have a greater degree of novelty, although, according to the results of our study, they account for only 14 % of all borrowings.

Among all borrowings, the most common in colloquial speech are units from Yiddish, it is they, to a greater extent than others, that are marked in the dictionaries of new words with the mark "slang": yenta - gossip, zoftig - pleasantly well-fed (used by men in relation to a woman).

At the same time, borrowings do not replace native English units, as was the case in the Middle Ages, when the proportions of German vocabulary in the English dictionary changed markedly. The consequence of borrowing is not only the replenishment of the vocabulary, in its process the stylistic coloring of lexical units, their internal structure changes, homonymous relations are formed. Borrowing also contributes to the variability of lexical units and partly determines it.

3) To a lesser extent, morphological neologisms created according to patterns that exist in the language system and from morphemes that are present in this system are illogical. We are talking about word formation, such regular word-building processes as affixation, conversion, word formation, and less regular ones, such as reduction, lexicalization, etc.

For the first time, an attempt to create a taxonomy of word-forming means was made by Plato in his Critilus. And although in the twentieth century. Several new types of word formation have appeared, such as acronomy and telescopic, we can talk about the existence of a traditional taxonomy of word formation. However, despite the traditional nature of word formation, for a long time it was not the subject of scientific research and only in the 20th century acquired its linguistic status. The word-formation system is the result of the tendency towards typification. The main thing that distinguishes morphological neologisms from phonological ones and from borrowings is the presence of analogy and typification at the basis of their formation.

**Conclusion**

In general, morphological neologisms differ from phonological and borrowings as holistic signs by a higher degree of dismemberment and motivation, as well as by the presence in most of them of an implicit predicative connection (internal predication). We can say that in the English language there is a tendency towards an increase in compositional semantic structures. For 40 % of all neoplasms of the last 25 years were divided nominative units (derivative and complex).

On the other hand, the growth of multi-component, dissected units, paradoxically, corresponds to the trend towards rationalization and economy, because new multi-component units are the result of the contraction of phrases, units characterized by a greater degree of dissection. In this case, the process of univerbation takes place, the activity of which has been noted repeatedly.

Structurally, modern morphological neologisms repeat some models that have long been productive in the English language. However, there is an accumulation of neoplasms based on newer models.

**References**

1. Арнольд И.В. Лексикология современного английского языка: учеб. пособие / И.В.Арнольд. -2-е изд., перераб. -М.: Наука, 2013, 308 с.
2. Hajiyeva A. English Lexicology (Textbook). Bakı: Elm və təhsil, 2011, 248 s.
3. The Economist, 2017, June, 3rd, p. 9-10.
4. O’Dell, F. (2016). Creating new words: affixation in neologisms. ELT Journal, 70(1), pp.94-99.
5. Rets, I. (2014). Studying the new vocabulary of the Dutch language in the context of globalization. Philological sciences. Theoretical and practical questions, 6, pp.149-152.
6. Sari, M.P. (2013). A stylistic analysis of neologisms in JRR Tolkien’s the fellowship of the ring (Doctoral dissertation, Universitas Negeri Yogyakarta).

## İNGİLİS DİLİNİN YENİ LÜĞƏTİNİN TƏSNİFATI İLƏ BAĞLI BƏZİ QEYDLƏR

**M.N.Rəhimov**
filologiya üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti

***Xülasə:*** *Tədqiqat işi müasir ingilis dilində neologiya probleminə həsr edilmişdir. Neologizmlər - lüğət tərkibinə daxil olan, dil daşıyıcıları və o dildə danışanlar tərəfindən yeni anlam kimi qəbul olunan sözlərdir. Bəzi neologizmlər məşhurluq və işləklik qazanaraq dilin lüğət fonduna keçir, bəziləri isə bu prosesi keçə bilmir. Tədqiqat işinin obyekti müasir ingilis dilinin lüğətində yeni tendensiyaların inkişafı, tədqiqatın mövzusu isə müasir ingilis dilində mövcud olan bəzi neologizmlərdir. Araşdırmanın məqsədi praqmatik aspektdə lüğətin inkişafının əsas tendensiyalarını müəyyən etməkdir. Lüğətin praqmatik aspektləri dedikdə, ilk növbədə, onun*

*istifadəçisinin, yəni danışanların sosial vəziyyəti, kommunikativ aktların real şəraiti və dinləyiciyə təsiri ilə bağlı olan xüsusiyyətləri nəzərdə tutulur. Ona görə də araşdırmada əsas diqqət onun necə və hansı şəkildə yaradıldığına deyil, əksinə nə qədər, necə və hansı məqsədlə istifadə edildiyi ilə bağlıdır.*

***Açar sözlər:*** *semantika, neologizmlər, dil, alınmalar, lüğət, sözyaratma sistemi*

## НЕКОТОРЫЕ ЗАМЕТКИ ПО КЛАССИФИКАЦИИ НОВОГО АНГЛИЙСКОГО СЛОВАРЯ

**М.Н.Рагимов**
доктор философии по филологии, доцент
Мингячевирский государственный университет

***Резюме:*** *Исследовательская работа посвящена проблеме неологии в современном английском языке. Неологизмы – это слова, которые входят в словарный запас и воспринимаются как новое значение носителями этого языка. Одни неологизмы, набирая популярность и функциональность, переходят в лексику языка, другие не проходят этот процесс. Объектом данной исследовательской работы является развитие новых тенденций в лексике современного английского языка, а предметом исследования являются некоторые существующие в современном английском языке неологизмы. Цель исследования - определить основные тенденции развития словарного запаса в прагматическом аспекте. Под прагматическими аспектами словаря подразумеваются, прежде всего, характеристики, связанные с социальным положением его пользователя, то есть говорящего, реальными условиями коммуникативных актов и их воздействием на слушателя. Поэтому основное внимание в исследовании уделяется не тому, как и каким образом он создается, а наоборот, сколько, как и с какой целью используется.*

***Ключевые слова:*** *семантика, неологизмы, язык, заимствования, лексика, словообразовательная система*

**Elmi redaktor: fil.f.d., dos. N.Manafov**
**Çapa təqdim edən redaktor: tar.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 08.02.2024**
**Çapa qəbul edilib: 15.02.2024**

UOT 82.0:37.016; 82:37.016

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN NİTQ FƏALİYYƏTİNİN MOTİVASİYASI VƏ XÜSUSİYYƏTLƏRİ

**Rahilə Mirzəli qızı Məmmədova**
filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
rahile.mammadova@mdu.edu.az

***Xülasə:*** *Tədris prosesində motivasiyanın yaradılması ilə əlaqədar işin icrası zamanı fənni tədris edən müəllimin üzərinə ağır psixoloji və intellektual yük düşür. Müəllim tədris prosesini elə təşkil etməlidir ki, dərslərdə şagirdlərə yeni biliklərin verilməsi ilə bağlı edilən hər bir pedaqoji cəhd təhsil alanlarda idraki bacarıqların artırılmasına, onlarda əqli fəaliyyətin ümumiləşdirmə, sintez, abstraksiya (mücərrəd düşüncə), analiz (təhlil) və müqayisə kimi üsullarının formalaşdırılmasına xidmət etsin. Motivasiya yaradılması ilə bağlı yuxarıda göstərilən hər mərhələdə müəllim dərs prosesini dərin psixoloji məzmunla tamamlamalıdır. Dərsi psixoloji baxımdan yüksək səviyyədə təşkil etmək üçün müəllim həmin dərsin motivasiya və şagirdlərin oxumaq bacarığının real vəziyyəti ilə bağlı olan inkişafetdirici və tərbiyəvi hissəsini yüksək səviyyədə planlaşdırmağı bacarmalıdır. Müəllim ədəbiyyat fənninin proqramına uyğun planlaşdırma apararkən şagirdlərdə daha aktiv fəaliyyət motivləri yaratmaq məqsədi ilə öyrənilən bədii əsərlərin daha çox Azərbaycan ədəbiyyatına aid olmasını mütləq nəzərə almalıdır.*

***Açar sözlər:*** *tədris, motivasiya, ədəbiyyat, dərs, nitq fəaliyyəti*

Tədris prosesində motivasiyanın yaradılması ilə bağlı problem pedaqogikada və pedaqoji psixologiyada ən mühüm məsələlərdən biri sayılır. Bu məsələ təlim-tərbiyə prosesində iştirak edən bütün subyektlər üçün (müəllimlər, təhsil alanlar, valideynlər) həmişə fövqəladə aktuallıq kəsb edir. Tədris prosesində motivasiyanın əsaslarını bilik və bacarıqların əldə edilməsi ilə bağlı tələbat təşkil edir. Beləliklə, pedaqoji prosesdə motivasiya məqsədə çatmaq üçün özündə və başqalarında fəaliyyətə maraq oyatmaq prosesidir. Tədris prosesində təhsil alanların intellektual səviyyəsinin davamlı inkişafı ilə bağlı vəziyyəti ardıcıl şəkildə nəzarətdə saxlamaq və onu idarə etmək sözügedən prosesdə iştirak edənlərin təhsillə əlaqədar şəxsi məqsədlərinə çatmaları üçün adekvat mühitin, quruluşun və ssenarinin formalaşdırılması aktıdır. Bu aktın uğurlu icrası isə tədris prosesində fəal iştirak üçün motivasiyanın yaradılması deməkdir.

Bir qayda olaraq, tədris prosesində yaradılan motivlər sırasına aşağıdakıları aid edirlər:

- tədris prosesində şəxsi inkişafa yüksək meylin formalaşması;
- başqaları ilə (digər şagirdlərlə) birlikdə həm özü, həm də başqaları üçün fəal şəkildə çalışmaq marağının yaranması;
- naməlum olan, yeni bilikləri mənimsəməyə can atılması;
- biliyin gələcək üçün həyati əhəmiyyət kəsb etməsinin dərki;
- tədris prosesinin ünsiyyət qurulması və nitq fəaliyyətinin inkişafı üçün əlverişli imkanlar yaratması faktının dərk edilməsi;
- tədrisin liderlik keyfiyyətlərinin formalaşdırılmasında rolunun başa düşülməsi;
- tədris prosesində diqqət obyektinə çevrilməyin əhəmiyyətinin dərk edilməsi;
- tədris prosesində əldə olunan biliklərin şagird üçün pozitiv imic yaratmasının, müəllimlərin, valideynlərin, sinif yoldaşlarının gözündə təhsil alanların yüksək nüfuz qazanmasının əhəmiyyətinin dərk edilməsi.

Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramının (kurikulum)" (V-XI siniflər) "Təlim strategiyaları" adlı II Fəslində ədəbiyyat təliminin təşkilinə verilən tələblərdə (elmiliyin, əyaniliyin, emosionallığın, inteqrativliyin və intensivliyin olması, texniki vasitələrdən fəal isitifadə olunması və ideyalılıq) və pedaqoji prinsiplərdə (pedaqoji

prosesin tamlığı, təlimlər zamanı təhsil alanlara bərabər imkanların yaradılması, şagirdyönümlülük, inkişafyönümlülük) bədii əsərlərin oxucusu kimi təqdim olunan şagirdin tərbiyəsi, onun oxu, təhlil və nitq bacarıqlarına yiyələnməsi, həmçinin, dəstəkləyici mühitin (təhsil alanlarda yaradıcılıq imkanları formalaşdırmağa istiqamətlənmiş adekvat tədris atmosferi) və ən başlıcası, nitq fəaliyyətinin stimullaşdırılması (motivasiyanın yaradılması) ön plana çəkilir [1, s.43]. Beləliklə, bəlli olur ki, ədəbiyyat dərslərində pedaqoji vəzifələrin uğurla həyata keçirilməsinin əsasında motivyaratma aktı durur.

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün nəzərdə tutulmuş dərslikdə tədris prosesi “Oxu haqqında nə bilirik?”, “Bədii əsərlərdə təsvir”, “Bədii əsərlərdə nəqletmə” və “Sinifdənxaric oxu” bölmələri üzrə həyata keçirilir. Dərsliyin əvvəlində şagirdlərin “Ədəbiyyat” fənni vasitəsi ilə nə öyrənəcəkləri qısa şərh olunur, bununla da onlarda ilkin motivlər yaradılır. Daha sonra təhsil alanların V sinifdə öyrənəcəkləri materialın onlarda oxu, yazı, ədəbi əsərin təhlili və s. üzrə yeni bacarıqlar formalaşdıracağı və köhnə bilik, bacarıq və vərdişlərin təkmilləşdiriləcəyi haqqında məlumat verilir [4, s.8-9].

Tədris prosesində motivasiyanın yaradılması ilə əlaqədar işin icrası zamanı fənni tədris edən müəllimin üzərinə ağır psixoloji və intellektual yük düşür. Müəllim tədris prosesini elə təşkil etməlidir ki, dərslərdə şagirdlərə yeni biliklərin verilməsi ilə bağlı edilən hər bir pedaqoji cəhd təhsil alanlarda idraki bacarıqların artırılmasına, onlarda əqli fəaliyyətin ümumiləşdirmə, sintez, abstraksiya (mücərrəd düşüncə), analiz (təhlil) və müqayisə kimi üsullarının formalaşdırılmasına xidmət etsin.

Tədris prosesində təhsil alanlarda motivasiya yaratmaq onlara hazır motivlərin verilməsi və məqsədlərin qoyulmnası demək deyil. Burada başlıca vəzifə elə münbit şərait və aktivlik mühiti yaratmaqdır ki, arzu olunan motiv və məqsədlər şagirdlərin keçmiş təcrübəsi, onların fərdi xüsusiyyətləri və daxili istəkləri üzərində qurulsun. Tədris prosesində fənn müəllimi şagirdlərin motivasiya sferasına mqəsədyönlü təsir göstərmək üçün elə tapşırıqlar və çalışmalar seçməlidir ki, onlar öz məzmunu və təsir gücü ilə kreativ atmosfer yarada bilsin.

Ədəbiyyat dərslərində motivasiyanın formalaşdırılması mərhələlər üzrə həyata keçirilir:

1. İlkin motivasiyanın yaradılması mərhələsi. Bu mərhələdə müəllim təhsil alanlara münasibətdə elə təsir mexanizmi seçməlidir ki, onların bütün diqqəti dərsdə öyrəniləcək növbəti materialın üzərində köklənsin: məsələn, əvvəlki dərslərdə və ya aşağı siniflərdə ədəbi-bədii əsərlərin öyrənilməsi ilə bağlı əldə olunmuş nailiyyətlərin aktuallaşdırıması (nümunə: “biz əvvəlki mövzu üzərində çox səmərəli işlədik və çox sayda müvafiq biliklər, bacarıqlar və vərdişlər əldə etdik”), şagirdlərin əqli cəhətdən potensial imkanalrını səfərbər etmək üçün onlarda nisbi qeyri-qənaətbəxşlilik motivi oyatmaq (nümunə: “lakin bizim mövzuda sonadək araşdıra bilmədiyimiz bir sıra incə detallar qalıb”), şagirdləri qarşıda duran işlərə (yeni mövzunun öyrənilməsi və yaxud köhnə mövzunun təkrarı) yönəltmək üçün motivlərin gücləndirilməsi (nümunə: “keçən dərslərdə öyəndiyimiz və bu gün öyrənəcəyimiz mövzunun ideoloji, estetik-mədəni və etik-mənəvi məzmunu sizin idrakınıza və dünyagörüşünüzə güclü pozitiv-dəyişdirici təsir göstərəcək, o mövzulardan götürəcəyiniz dərslər gələcək həyatınızın və fəaliyyətinizin müxtəlif situasiyalarında sizə yardımçı olacaq”), şagirdlərdə təqdim olunacaq mövzu ilə bağlı fövqəladə heyrət, dərin təəccüb və güclü maraqla müşayiət olunan qeyri-ixtiyari motivlər yaratmaq (nümunə: “bu gün öyrənəcəyimiz əsər dünya ədəbiyyatının inciləri siyahısına daxil edilib”).

2. Şagirdlərdə yaradılan motivasiyanın möhkəmləndirilməsi və gücləndirilməsi. Bu mərhələdə fənn müəllimi idraki və sosial motivlərə istiqamət götütür. Bununla da o, təhsil alanların diqqətini tapşırıqların və çalışmaların həllini nəzərdə tutan bir neçə üsula yönəldir və onları müqayisə edərək şagirdlərdə idraki motivasiya yaradır. Eyni zamanda fənn müəllimi tədris prosesində şagirdlərdə əməkdaşlıq hissi yaratmaqla onları həm də sosial motivlərə kökləyir. Bu mərhələ ona görə vacibdir ki, fənn müəllimi dərsin birinci mərhələsində motivasiya yaratsa da, tədricən yalnız dərsin predmetinə konsentrasiya olunduğu üçün motivasiya amilini, sanki unudur. Buna görə də bu cür situasiyalarda şagirdlərə növbəli şəkildə müxtəlif fəaliyyət növlərini (yazılı və şifahi, asan və çətin tapşırıqlar) təqdim etmək tələb olunur.

3. Dərsə yekun vurulması mərhələsi. Bu mərhələdə ən vacib amil hər bir şagirdin tədris prosesində müsbət təəssürat yaşaması və şəxsi təcrübə qazanması ilə əlaqədardır. Bu isə fənn müəlliminə imkan verir ki, dərsin sonunda yaranmış pozitiv elementlərdən növbəti təlimlərin qurulması işində istifadə etsin və şagirdlərdə daha fəal motivlər yaratsın.

Fəxrəddin Yusifovun "Ədəbiyyatın tədrisi metodikası" kitabında ənənəvi dərsin mərhələləri içərisində ilk yerdə "Sinifin təşkili" durur. Bu mərhələ ilə bağlı izahatda qeyd olunur ki, müəllimin başlıca vəzifəsi təhsil alanları dərsin başlanmasına səfərbər etməkdir. Bu səfərbərlikdə əsas element isə şagirdlərdə dərsin uğurlu keçməsi üçün motivasiya yaratmaqdır. Bu zaman fənni tədris edən müəllim pedaqoji, psixoloji və metodiki elementləri elə sintez etməlidir ki, bu mərhələ növbəti mərhələlər üçün bir növ təməl rolu oynasın [5, s.91-92].

Motivasiya yaradılması ilə bağlı yuxarıda göstərilən hər mərhələdə müəllim dərs prosesini dərin psixoloji məzmunla tamamlamalıdır. Dərsi psixoloji baxımdan yüksək səviyyədə təşkil etmək üçün müəllim həmin dərsin motivasiya və şagirdlərin oxumaq bacarığının real vəziyyəti ilə bağlı olan inkişafetdirici və tərbiyəvi hissəsini yüksək səviyyədə planlaşdırmağı bacarmalıdır. Qeyd edək ki, tədris prosesində təlimlə bağlı vəzifələri (bu və ya digər səviyyələrdə tapşırıqların və çalışmaların həlli) icra etmək, inkişafetdirici vəzifələri icra etməkdən qat-qat çətindir. Müəllim ədəbiyyat fənninin proqramına uyğun planlaşdırma apararkən şagirdlərdə daha aktiv fəaliyyət motivləri yaratmaq məqsədi ilə öyrənilən bədii əsərlərin daha çox Azərbaycan ədəbiyyatına aid olmasını mütləq nəzərə almalıdır. Ümumiyyətlə, bu gün ümumtəhsil məktəblərində tədris olunan ədəbiyyat dərslərinin ali məqsədi ideya-bədii dəyər kəsb edən əsərlərin öyrənilməsi olmalıdır. Məhz belə əsərlərin öyrənilməsi şagirdlərin dünyagörüşünün inkişafına, onların milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə və nəticə etibarı ilə vətənpərvərlik ruhunda tərbiyə olunmalarına xidmət edir [4, s.3]. Ümumtəhsil məktəblərinin 7-ci sinifləri üçün Ədəbiyyat dərsliyində ideya-bədii dəyər kəsb edən və əsasən Azərbaycan ədəbiyyatına aid əsərlərin öyrənilməsinə daha çox yer ayrılır. Həmin əsərlərdə və onlardan götürülmüş ayrı-ayrı mətnlərdə vətən sevgisi (Səməd Vurğun "Azərbaycan" şeiri) motivlərinə və xalqın qəhrəmanlıq tarixini əks etdirən bədii epizodlara (Rahil Məmməd "Qələbə müjdəsi", Zahid Xəlil "Sonuncu güllə" və s.), əxlaqi-mənəvi dəyərlərə və həmişəyaşar hikmətlərə (Abbasqulu ağa Bakıxanov "Hikmətin fəziləti", Fikrət Qoca "Anamın sözləri" və s.) üstünlük verilir [2, s.50-54, 74-77, 78-81, 84-89, 105-108].

Onu da qeyd edək ki, təhsil alanlarda təlim motivasiyasının səviyyəsini artırmaq olduqca çətin, uzun və məqsədyönlü prosesdir. Bununla əlaqədar şagirdlərdə təhsil fəaliyyətinə marağın formalaşdırılamsı müxtəlif üsul və vasitələrlə (səyahət dərsləri, oyun dərsləri, viktorina dərsləri, tədqiqat dərsləri, görüş dərsləri, yaradıcı tapşırıqların müdafiəsi dərsləri, süjet dərsləri və s.) təşkil olunan dərslərdə həyata keçirilir.

Ədəbiyyat dərslərində şagirdlərin nitq fəaliyyəti ilə bağlı motivasiya yaratmaq üçün tədris prosesinin təşkil edilməsi və reallaşdırılması metodlarının bütün mövcud arsenalından - sözlü, əyani və praktiki, reproduktiv və axtarış, müstəqil tədris işi və müəllimin rəhbərliyi altında iş və s. istifadə etmək zəruri hesab olunur. Bu metodların hər biri dərslərdə şagirdlərin nitq fəaliyyətilə bağlı özünəməxsus motivasiya yaratmaq qabiliyyətinə malikdir. Məsələn, sözlü metod (hekayə, mühazirə və söhbət) şagirdlərə imkan verir ki, onlar təlimin əsl mahiyyətini təkcə ictimai planda deyil, həm də şəxsi planda (cəmiyyətin ictimai-mədəni həyatında fəal iştirak etmək üçün) başa düşsünlər. Təsadüfi deyildir ki, parlaq və obrazlı hekayə qeyri-ixtayari olaraq şagirdlərin nəzər-diqqətini öyrənilən mövzuya yönəldir və bununla da onlarda motivasiyanın daha da gücləndirilməsini gerçəkləşdirir. Ədəbiyyat dərslərində əyani və praktiki metodların tətbiqi zamanı təhsil alanlar çox güclü stimullaşdırıcı təsirə məruz qalır və bu onlarda təqdim olunan suallarla bağlı marağın artmasına səbəb olur, onlarda yorğunluğu qət eləməyə qadir olan yeni yaradıcı güc oyanır. Ədəbiyyat dərslərində istifadə olunan reproduktiv və problem axtarışı metodu da güclü stimullaşdırıcı təsir gücünə malikdir. Bu metod o şəraitdə daha effektli olur ki, problem situasiyalar şagirdlərin real təhsil imkanları dairəsinə daxil olur, yəni onlar dərsdə öyrənilən mövzu ilə bağlı müvafiq tapşırıqları müstəqil şəkildə həll edə bilirlər. Bu zaman şagirdlərin fəaliyyətinin əsas motivlərini onlara verilən tapşırıqları keyfiyyətlə yerinə yetirmək istiqamətində aktiv cəhdlər təşkil

edir. Tədris prosesində şagirdləri ruhlandıran, onlarda əlavə stimullar yaradan və motivasiya formalaşdıran metodlardan biri də müstəqil iş elementlərindən istifadə olunmasıdır. Bunun üçün şagirdlər ən zəruri bilik, bacarıq və vərdişlərə sahib olmalı, əvvəlki fəaliyyətlərində əldə etdikləri təcrübədən fəal və məqsədyönlü şəkildə istifadə etməyi bacarmalıdırlar.

Ədəbiyyat dərslərində şagirdlərin nitq fəaliyyəti ilə bağlı motivasiyanı inkişaf etdirmək üçün aşağıdakı mühüm pedaqoji üsullardan və təsir mexanizmlərindən də istifadə olunur:

1. Diqqətin cəlb edilməsi. Bu zaman dərslə və ya dərsdə öyrənilən mövzu ilə bağlı şagirdlərdə fövqəladə maraq oyadacaq əşayanın (predmetin) təqdimatı tələb olunur.

2. Dərsə emosional giriş (hər hansı poetik və ya prozaik hissəcikdən istifadə edilməsi və onun xüsusi pafosla və intonasiya ilə təqdim olunması).

3. Şagirdləri fəallaşdırmaq və onların idrak aparatını (qavrama imkanlarını) hərəkətə gətirmək üçün bədii əsərlərdən götürülmüş maraqlı sitatlardan, hikmətli sözlərdən və emosional söz birləşmələrindən istifadə etmək (bu zaman fənn müəllimi daha yüksək fəallıq göstərən şagirdlərə əlavə balların veriləcəyini də qeyd etməlidir).

4. Dərsin motivasiya yaradılması ilə bağlı müxtəlif mərhələri üçün məntiqi ilişkilərin qurulması. Bu zaman şifahi sorğu, fərdi və ya qrup şəklində praktiki iş və s. kimi üsullardan istifadə etmək məqsədəuyğundur.

5. Məqsədin təyin edilməsi – bu zaman tədris prosesinin qarşısında duran əsas vəzifə kimi motivasiya yaratmağın mühüm elementi sayılan məqsədin müəyyən edilməsi çıxış edir. Şagird bu zaman bir sıra vacib məqamları özü üçün müəyyən etməlidir: məsələn, niyə görə nitq fəaliyyətində motivasiyanın yaradılması vacibdir?, şifahi və yazılı nitqin durmadan inkişaf etdirilməsi onun nitq fəaliyyətinin inkişafına necə təsir göstərir? və s. Qeyd etmək lazımdır ki, şagirdlərin nitq fəaliyyətinin motivasiyası ilə bağlı müəllim tərəfindən qoyulan məqsəd şagirdlər üçün də əsas məqsəd olmalıdır. Həmin məqsədin motiv-məqsədə çevrilməsində isə şagirdin öz uğurlarını dərk etməsi və yeni idraki səviyyələrə çıxmasını anlaması xüsusi əhəmiyyət kəsb edir.

Ümumtəhsil məktəblərində tədris olunan ədəbiyyat dərslərində şagirdlərin nitq fəaliyyəti özünəməxsus xüsusiyyətlərə malikdir. Bu prosesdə ilkin məsələ isə oxu ilə bağlıdır. Oxu - ədəbi təhsilin əsası kimi şifahi nitqin inkişafına təkan verən ən effektli prosedurdur. Digər bir vacib məqam isə yazılı nitqin öyrənilməsi və bu prosesdə ayrı-ayrı üsul və vasitələrdən istifadə edilməsidir. Şagirdlərin nitq fəaliyyətinin səmərəli təşkili və onların nitq mədəniyyətinin inkişaf etdirilməsi ümumtəhsil məktəblərində iki predmet - Azərbaycan dili və ədəbiyyat dərsləri icra edir. Qeyd etmək lazımdır ki, ədəbiyyat dərslərində şagirdlərin nitq fəaliyyəti bədii əsərin təhlili üzərində icra edilir. Bu zaman təhsil alanların nitq qabiliyyətinin inkişafı iki fərqli istiqamətdə aparılır:

1) şagirdlərin lüğət ehtiyatının təsviri-ifadə vasitələri, nəzəri-bədii terminologiya və obrazların köməyilə sistemli şəkildə zənginləşdirilməsi.

2) təhsil alanlara bədii əsərlərin müxtəlif növ və janrlarından götürülən əlaqəli ifadələri yaratmaq işinin öyrədilməsi.

Ədəbiyyat dərslərində şagirdlərin nitq fəaliyyətinin xüsusiyyətlərində aşağıdakı prinsiplər xüsusi yer tutur [3, s.68-69]:

1. Şagirdlərin tərbiyəvi, intellektual, bədii və nitq imkanlarının paralel inkişafı.

2. Şagirdlərin nitq qabiliyyətinin inkişafı ilə əlaqədar təlimlərlə ədəbiyyat dərslərinin digər komponentləri arasında üzvi əlaqənin olması.

3. Ədəbiyyat dərslərində şagirdlərin nitq fəaliyyətini stimullaşdıran çeşidli üsullardan və vasitələrdən istifadə edilməsi.

4. Təhsil alanların ibtidai, orta və yuxarı siniflərdəki nitq fəaliyyətinin məzmunu və müxtəlifliyi ilə bağlı varisliyin və ardıcıllığın gözlənilməsi.

5. Nitqin inkişafı üzrə işin praktiki istiqamətlərinə üstünlük verilməsi.

6. Şagirdlərin nitq qabiliyyətinin daim təkmilləşdirilməsi üzrə işin sistematik xarakter alması.

7. Şagirdlərin nitq fəaliyyətinin təşkil edilməsi zamanı predmetlərarası (Azərbaycan dili, ədəbiyyat, tarix və s.) inteqrativ əlaqənin nəzərə alınması.

Qeyd etdiyimiz kimi ədəbiyyat dərslərində şagirdlərin nitq fəaliyyətinin inkişafı bir sıra xüsusiyyətləri özündə birləşdirir. Həmin xüsusiyyətlərdən biri də şifahi nitqin inkişafı ilə bağlıdır. Ədəbiyyat dərslərində şagirdlərin şifahi nitqinin inkişafı ilə bağlı proses 3 ardıcıl mərhələ üzrə həyata keçirilir:

1. Vizual-eşitmə: şagirdlərlə emosional kontaktın qurulması. Bu zaman təhsil alanlar müəllimin monoloji nitqini dinləməyi, və digər ifadələrlə müqayisə etməyi öyrənirlər.

2. Ünsiyyət: bu mərhələdə məqsəd şagirdlərə suallara cavab verməyi, dialoq qurmağı, fikir və rəy mübadiləsi etməyi öyrətməkdir. Bu zaman müəllim aşağıdakı üsullardan istifadə edir: problemli suallara açıq cavabların verilməsi, dinlənilən mövzunun təkrar söylənilməsi, mətn üzrə ssenari tərtibatı, şifahi təsvir, sözlərin mənasının izahı, sinonimlərin seçilməsi.

3. Özünüdərk və özünütəhlil: bu mərhələdə başlıca məqsəd şagirdlərə monoloji ifadələrin izahı ilə bağlı bacarıqların öyrədilməsidir. Sözügedən məqsədə çatmaq üçün fərqli üsullardan istifadə olunur: suallara açıq cavablar, konkret janrda verilmiş mövzu üzrə ifadələrin söylənilməsi və s. Bu mərhələdə ən mühüm məqamlardan biri təhsil alanları mövzu üzrə ifadələr hazırlamağa öyrətməkdir.

Şagirdlərin nitq fəaliyyətinin təşkilində dialoqların xüsusi əhəmiyyəti var. Orta siniflərdə şagirdlərin dialoji bacarıqları aşağıdakı üsulların köməyi ilə reallaşdırılır:

1. Mətn üzrə müvafiq sualların formalaşdırılması.
2. "Kim sualları daha tez və düzgün formalaşdıra bilər?" tipli suallar əsasında krossvord oyunları.
3. Reproduksiyalarla və illüstrasiyalarla şifahi iş.

Yuxarı siniflərdə tədris olunan ədəbiyyat dərslərində əsas diqqət şagirdlərin nitq fəaliyyətinin aktivləşdirilməsinə ayrılır. Bu zaman şagirdlərin nitq fəaliyyəti çıxışlar və şifahi monoloqlar qismində stimullaşmalara ehtiyac duyur. Ədəbiyyat dərslərində, adətən iki növ monoloji çıxışlardan istifadə edilir:

1. Reproduktiv (təkrar nəqletmə).
2. Produktiv (məruzə, bədii təkrar nəqletmə, publisistik çıxışlar və s.).

Ədəbiyyat dərslərində şagirdlərin nitq fəaliyyətinin xüsusiyyətləri sırasında ən vacib elementlərdən biri də nitq vəziyyətidir. Nitq vəziyyəti şagirdləri danışmağa və aktiv ünsiyyətə daxil olmağa sövq edən ən effektli stimullardan biridir. Ədəbiyyat dərslərində nitq vəziyyətinin fərqli növlərinə rast gəlinir: tədris-didaktik (problemli), fantastik (məsələn, şagirdlərin özlərini fantastik predmetlərin və müxtəlif əşyaların timsalında təsəvvür etməsi), hipotetik (məsələn, təhsil alanların özlərini müxtəlif peşə sahiblərinin rolunda təsəvvür etməsi). Ədəbiyyat dərslərində nitq vəziyyətinin təşkili bəzi vacib nüansların olmasını tələb edir: nitq situasiyasının (vəziyyət) fövqəlmaraqlı olması və şagirdlərin nitqinin inkişafına istiqamətlənməsi, ədəbiyyat sahəsində bilik və bacarıqların inkişafını təmin etməsi, şagirdlərin yaş və psixoloji xüsusiyyətlərinə cavab verməsi, ədəbiyyat dərsində öyrənilən əsərin xüsusiyyətlərinin nəzərə alınması.

Şagirdlərin nitq fəaliyyətində və onların dərslərdə ünsiyyət qurmaq bacarığının formalaşdırılmasında suallara cavabların tapılması və həmin cavanların düzgün ifadə olunması olduqca vacibdir. Müəllim təhsil alanlara suallara cavab vermək bacarığını öyrədərkən cavabların məzmunlu olması, leksik-qrammatik baxımdan quruluşlarının düzgünlüyü, leksik keyfiyyəti üzərində işləməlidir. Bu zaman ədəbi-bədii mətnlərdən, təsvirlərdən, illüstrasiyalardan, lüğətlərdən və s. köməkçi vasitə kimi istifadə etmək zəruridir. Hər növbəti sinifdə sualların məzmunu daha mürəkkəb olmalıdır. Bununla əlaqədar mövzu üzrə suallar elə qoyulmalıdır ki, onlar təhsil alanlarda adekvat nitq vərdişləri yarada bilsin. Dərs prosesində suallar aşağıdakı əlamətlərə uyğun qoyulur:

- oxunmuş mətnin faktiki məzmununa uyğun suallar;
- oxunmuş mətnin təhlili üzrə suallar;
İnsan fəaliyyətinin hər bir növü, həmçinin hər hansı elm və ya incəsənət sahəsi konkret tarixə sahibdir. Onların hər biri bu və ya digər ictimai fenomenin nəzəri təsvirini müəyyən tarixi istiqamət üzrə formalaşdırır. İnsan fəaliyyətinin spesifik tarixə malik istiqamətlərindən biri də tərcümə işidir. Tərcümə işi haqqında tarix təsdiq edir ki, o, ən qədim intellektual fəaliyyət növü, bütün zamanlarda tələb olunan xidmət sahəsidir. Əhdi-Ətiqin (Bibliyanın 1-ci hissəsi) Birinci Kitabı "Varlıq"da (ivr. *bᵊrē'šīθ – Be-reşit*, lat. *Genesis,* - yəhudi peyğəmbəri Həzrəti Musanın ilk kitabıdır) qeyd olunur ki, Ümumdünya selindən sonra bəşəriyyət vahid dildə danışan bir xalq kimi inkişaf etməyə başlayır. İnsanlar Dəclə və Fərat çaylarının aşağı axarında Senaar adlı yerdə Babil şəhərini və Babil qülləsini (ivr. *Miqdal Babel*) inşa etməyə başlayır [6, s. 11:1-9]. Tarixin ilk göydələni sayılan Babil qülləsini inşa etməklə onlar, "yeri fəth etməmiş göyü fəth etmək" və şöhrət qazanmaq məqsədi güdürdülər. Böyük Yaradan isə insanların bu hərəkətini tanrıtanımazlıq kimi qiymətləndirir və bu yersiz layihəyə mane olmaq üçün onları fərqli dillərdə danışmağa məcbur edir. Bundan sonra artıq bir-birilərni anlamayan insanlar dünyanın dörd bir tərəfinə yayılırlar. Beləliklə, Yer kürəsində indi də davam edən linqvistik müxtəliflik bərqərar oldu [8, s.499]. Həmin vaxtdan bəri müxtəlif dillərdə danışan insanlar arasında əlaqə yaratmağa qadir olan vasitəçi (tərcüməçi) zərurəti meydana çıxmış və qlobal trendlərin cəmiyyət həyatının məzmununa çevrilməsinə, informasiya-kommunikasiya texnologiyalarının misilsiz səviyyəyə çatmasına və çox sayda universal ünsiyyət vasitələrinin (ita. *lingua franka* - "frank dili" - müxtəlif dillərdə danışan insanlar arasında kommunikasiya yaratmaq məqsədilə sistematik şəkildə istifadə edilən dil, yaxud dialekt) [12, s.31] olmasına baxmayaraq, tərcüməçi amili bu gün də aktual olaraq qalır. Qeyd etmək lazımdır ki, ayrı-ayrı xalqlar və müxtəlif

dillərdə danışan insanlar arasında linqvistik uyğunluq yaratmaq işi bütün tarix boyu baş vermişdir. Bununla bağlı "*lingua franka*"ların yaradılması müxtəlif məqsədlərə (kommersiya, ticarət, dini, diplomatik, mədəni və s.) xidmət edir və onlardan ayrı-ayrı dillərdə danışan alimlər arasında bilik və təcrübə mübadiləsini təmin etmək üçün istifadə edilirdi [10, s.40-43]. Beləliklə, əsrlər boyu insan cəmiyyətində tərcüməçi xidmətinə olan ehtiyac ictimai həyatın bütün sferalarında - siyasətdə, diplomatiyada, ticarətdə, hərbi sahədə, incəsənətdə və elm sahəsində özünü büruzə verirdi. Hətta orta əsrlər dövründə tərcüməçiləri "*maarifçiliyin poçt atlari*" adlandırırdılar. Bu isə tərcümə işinin sivilizasiya tarixində icra etdiyi mütərəqqi missiyanın vacibliyini bir daha təsdiq edir. Məhz tərcümə işi sayəsində elmi-texniki biliklərin, dini və fəlsəfi ideyaların, dünya əhəmiyyətli fikirlərin yayılması üçün şərait yaranmışdır.

**Tərcüməçilik tarixindən: qədim Şərqdə və antik Avropada tərcüməçilik sənəti**

Yuxarıda qeyd edilənlərdən belə məlum olur ki, insan fəaliyyətinin xüsusi növü olan tərcümə işinin və tərcüməçi sənətinin yaranması kökləri ilə ən qədim əyyamlara gedib çıxır. İlk professional tərcüməçilərin fəaliyyəti isə Qədim Şərqdə mövcud olmuş dövlətlər arasında müxtəlif növ (ticarət, iqtisadi, siyasi, mədəni və s.) əlaqələrin bərqərar edilməsilə əlaqədardır. E.ə. III minilliyə aid olan Misir barelyefində ən qədim tərcüməçinin təsviri aşkar edilmişdir. Qədim tarixdə adı qalmış ilk tərcüməçi isə *Tinis* (Yuxarı Misirdə, Nil çayının sol sahilində qədim şəhər) şəhərində e.ə. XIV əsrdə yaşamış baş kahin *Anhurmes* olmuşdur. Qədim Şərqdə və Antik Avropada tərcümə işləri uzun müddət yazılı qeydiyyatlar aparılmadan, yalnız şifahi formada icra olunurdu. Bu tərcüməyə olan tələbatın ilk yazıdan xeyli əvvəl yaranması ilə izah olunur.

E.ə. VI-I yüzilliklər qədim yunan tarixində yazılı tərcümələrə rast gəlinmir. Bu onunla əlaqədar idi ki, yunanlar "özgə dilləri" (barbarların dilini) öyrənmək istəmirdilər. Lakin e.ə. 285-243-cü illərdə yunan ilahiyyatçı-alimləri Bibliyanı (Əhdi-Ətiq) əski yunan dilinə tərcümə etmişdilər. Romalılar isə e.ə. 280-ci ildən - *Epir* (Yunanıstanın şimal qərbində qədim əyalət) çarı *Pirrin* (lat. *Pyrrhus* - "Alovlu kürən" - e.ə. 319-272, - e.ə. 307-302 və 296-272-ci illərdə Epir çarı, Romaya qarşı apardığı müharibələrlə bağlı məşhurlaşmışdı) ordusu ilə müharibələr dövründən etibarən yunan dilində yazılan məlumatları latın dilinə tərcümə etməyə başlamışdı [11, s.448]. Qədim Roma tarixindən yadigar qalmış ilk tərcümə fraqmenti isə e.ə. 155-ci ilə aiddir. O zaman Roma senatoru Qay Atsilli yunan elçiləri ilə görüşlərdə tərəflər arasında olan ünsiyyəti tərcümə etmişdi. Bundan sonra tərcümə işi ayrı-ayrı xalqlar arasında siyasi-mədəni əlaqə vasitəsinə çevrilməyə başlamışdı. Roma tarixində yazılı tərcümə edən ilk mütəxəssis isə *Lusi Livi Andronik* (e.ə. 275-200) olmuşdu. O, Homerin "*Odisseya*" poemasını və əski yunan dilində yazılmış digər poetik və epik əsərləri latın dilinə tərcümə etmişdi. Məhz bu tərcümələr 200 il ərzində Roma Respublikasında məktəb proqramının əsas elementi olmuşdu [1, s.92-98]. Bundan sonra yunan yazılı irsinin latın dilinə tərcüməsi işi daha intensiv xarakter almışdı. Qədim Roma dramaturqu *Publius Terentius Afer* (e.ə. 190-159) qədim yunan dramaturqlarına məxsus 100 komediyanı latın dilinə tərcümə etmişdi. Məhz ədəbi latın dilinin formalaşması onun yüksək bədii tərcümələrilə bağlı olmuşdu. Əski Romada tərcümə işinin ilk nəzəriyyəçisi kimi görkəmli Roma filosofu, natiqi, dövlət və siyasət xadimi *Markis Tullius Siseron* (e.ə. 106-43) tanınmışdı. O, tərcümə haqqında söylədiyi fikirlərində hərfi tərcüməni tənqid edir və onu "kasıb" adlandırırdı. Siseron iddia edirdi ki, tərcümə zamanı digər dillərə yalnız mətnin formasını və məzmununu deyil, həm də mənasını çevirmək lazımdır. Qədim yunan filosofları *Platonun* (e.ə. 427-347) və *Demosfenin* (e.ə. 384-322) əsərlərini tərcümə edən Siseron, eləcə də "Poeziya elmi" adlı traktatın müəllifi olan Qədim Roma ədəbiyyatının "Qızıl dövrünün" şairi *Horatsi* (lat. *Quintus Horatius Flaccus* - e.ə. 65-8) əsərlərində "tərcüməçi" mənasını verən "*interpres*" terminindən istifadə edirdilər.

Misir hökmdarı *II Ptolemey Filadelf* (e.ə. 308-245, - e.ə. 285-245-ci illərdə Ptolemeylər sülaləsindən Misir fironu) Bibliyanın mətninin qədim yəhudi dilindən yunan dilinə tərcümə edilməsi haqqında əmr vermişdi. Bu məqsədlə 12 qədim yəhudi-israil nəslinin hər birindəm 6 tərcüməçi dəvət olunmuşdu. Onları *Faros* (Aralıq dənizində, Misir sahillərinə yaxın ərazidə ada) adasına gətirdilər və tərcümə prosesində onlara bir-biri ilə görüşməyi qadağan etdilər. İş başa çatandan sonra məlum oldu ki, hər tərcüməçinin (cəmi 72) təqdim etdiyi mətn bir-biri ilə tamamilə

oxşardır. Bibliyanın tərcüməsinin sözügedən versiyası dini ədəbiyyatda *Septuaginta* (lat. *Interpretatio Septuaginta Seniorum* - "Yetmiş qocanın tərcüməsi" - e.ə. III-I yüzilliklərdə İsgəndəriyyədə Əhdi-Ətiqin qədim yunan dilinə edilmiş tərcüməsinin külliyatıdır. O, ellinistik yəhudaizmdə geniş istifadə olunsa da "Talmud iudaizmi" tərəfindən qəbul edilmir) adlanır [2, s.241-242].

Bibliyanın latın dilinə ilk tərcüməsi isə IV-V yüzilliklərdə İlliriyadan olan kilsə yazıçısı *İeronim Stridonlu* (*Sofroni Yevsevi İeronim* - 345-420) tərəfindən edilmişdi. "*Vulqata*" (lat. *Biblia Vulgata* - "Ümumi Bibliya", Bibliyanın qədim latın dilinə tərcümə edilən ilkin variantı *Vetus Latina* adlanırdı) adlanan bu tərcümə XVI əsrdən Katolik kilsəsinin rəsmi dini kitabı hesab olunur [5, s.197-202]. IV əsrdən etibarən Bibliya həm də suriya, efiopiya, qot və s. kimi dillərə tərcümə edilmişdi. Bibliyanın qot dilinə tərcüməsi isə alman (qot) dilində yazılan ilk ədəbi əsər kimi qiymətləndirilir. Hazırda bəzi fraqmentləri qorunub saxlansa da o, "*Müqəddəs kitabın*" unikal və qiymətli variantlarından biri hesab olunur. Həmin tərcümə qot yepiskopu, qot əlifbasının banisi *Vulfilanın* (317-381) rəhbərliyi altında icra olunduğu üçün "*Vulfilanın Bibliyası*" adlanır [3, s.3-34].

**İntibah, humanizm və maarifçilik dövrü mədəniyyətində tərcüməçilik ideyası**

Avropada *İntibah* (fra. *Renaissance* - Avropada intellektual-mədəni cəhətdən möhtəşəm dəyişikliklərə səbəb olmuş tarixi dövr) dövründə (XIII-XVI əsrlər) tərcümə işinə münasibət dəyişir. Daha çox zadəgan mədəniyyətinə aid olan ədəbi və bədii əsərlər, siyasi, iqtisadi və mədəni xarakterli materiallar tərcümə predmetinə çevrilir. Həmin dövrün tərcüməçiləri tələb edirlər ki, tərcümə zamanı orijinal mətndə ifadə olunmuş mənanın başqa dilə köçürülməsi ilə kifayətlənmək olmaz, tərcümə edilən dildəki normaların nəzərə alınması da əsas şərt olmalıdır [7, s.471-472].

XIII əsrdən Fransada tərcüməçini "*droguement*","*truchement*", İtaliyada "*drogomanno*" adlandırırdılar. Bu dövrdə latın dilində məcaz kimi istifadə olunan "*translatio*" və "*traslator*" (nəyi isə kimə isə ötürən) terminləri tədricən indi ingilis dilində istifadə edilən "*translation*" (tərcümə) və "*translateur*" (tərcüməçi) sözlərinə çevrilir. Bu gün tərcüməçi (ing. *interpreter* – şifahi tərcüəmə edən və yaxud *translator* - yazılı tərcümə edən) adlandırdığımız mütəxəssis "tərcümə dili" sayılan müəyyən dildə yazılı və ya şifahi mətnin başqa dildə olan yazılı və ya şifahi mətnə ekvivalent olan varianta çevrilməsini reallaşdırır.

XVIII əsrin sonlarına qədər beynəlxalq dil, universal ünsiyyət vasitəsi (linqva franka) və tərcümə dili rolunu latın dili (*lingua latina*) oynamışdı. Latın dili, həmçinin 1733-cü ilə qədər İngiltərə krallığının rəsmi dili olmuşdu. Lakin Böyük Fransa inqilabından (1789-1799) sonra əvvəl Fransada, daha sonra digər Avropa ölkələrində universitet təhsili başqa dillərdə - ingilis, fransız, alman, ispan və s.) həyata keçirilirdi. XIX əsr ərzində isə artıq latın dili dövriyyədən çıxdı və onu fransız, ingilis, alamn və ispan dilləri əvəz etdi.

Müasir qlobal cəmiyyətin başlıca tərəqqi meyarlarını təşkil edən işgüzarlıq və işgüzar münasibətlər müxtəlif dillərdə danışan və partnyorluq telləri ilə bağlı olan insanların davamlı ünsiyyətini nəzərdə tutur. Lakin bu insanlar heç də həmişə bu ünsiyyəti vasitəçisiz reallaşdıra bilmir. Beləliklə, işgüzar münasibətlər zamanı fərqli dillərdə danışan partnyorlar arasında ünsiyyətin daha uğurlu olması üçün tərcüməçinin iştirakı zərurətə çevrilir. Belə situasiyalarda tərcüməçi müxtəlif linqvistik imkanlara sahib olan insanların arasında real və yaxud virtual ünsiyyətin qurulması işini icra edən vasitəçi mütəxəssis kimi çıxış edir. Tərcüməçi yazılı və yaxud şifahi (sinxron) şəkildə başqa dillərdə olan yazılı, yaxud şifahi mətni (sinxron söhbəti) onun konkret dillərdə olan ekvivalentinə çevirməklə tərəflər arasında müvafiq kontakt yaradır. Dövrün tələblərinə uyğun olaraq, belə mütəxəssis müvafiq təmayüllü ali təhsilə (ali tərcüməçi təhsili və yaxud daha geniş filoloji təhsil) malik olmalıdır. Spesifik sahələrin mənsubları olan şəxslər arasında olan söhbəti tərcümə etmək üçün isə adətən müvafiq sahədə (iqtisadi, hüquqi, texniki və s.) ali təhsili olan, ünsiyyət qurulan dilləri yüksək ədəbi səviyyədə bilən, linqvistik və tərcüməçi hazırlığı olan mütəxəssislərin (iqtisadçı, hüquqşünas, mühəndis, həkim və s.) xidmətindən istifadə olunur. Qeyd edək ki, XX əsrin sonlarından etibarən tərcüməçilər daha effektli və obrazlı tərcümələr etmək üçün avtomatlaşdırılmış elektron tərcümə sistemindən istifadə etmək imkanı qazandılar [4, s.173-190].

**Tərcüməçilik müasir işgüzar münasibətlər sistemində**

Bu gün işgüzar münasibətlər sistemində, əsasən şifahi (sinxron və ardıcıl) tərcümədən istifadə edilir. Lakin şifahi tərcümə (ing. *oral interpreting* və ya *oral translation*) bədii nitqin başqa dilə çevrilməsi işində tətbiq olunmur. Ondan istifadə yalnız işgüzar və siyasi danışıqlar prosesində, müşavirələrdə, konfranslarda (ing. *conference interpreting*) və s. məqbul sayılır. Burada tərcümə *ardıcıl* (ing. *consecutive interpreting* - şifahi tərcümənin bir formasıdır - bu zaman tərcüməçi ifadə olunan nitqi başqa dilə, nitq başa çatandan sonra və ya onun ayrı-ayrı hissələrində pauzalar zamanı, ardıcıl olaraq çevirir) və sinxron (ing. *simultaneous interpreting* - şifahi tərcümənin olduqca mürəkkəb və çətin formasıdır - bu zaman tərcüməçi ifadə olunan nitqi müvafiq dilə sinxron şəkildə tərcümə edir) tipli ola bilər. Müşavirələrdə və konfranslarda istifadə edilən ardıcıl tərcümə zamanı tərcüməçi nitq söyləyənin öncədən ona təqdim olunmuş çıxışının bütöv mətnindən və ya özünün tərtib etdiyi konspektlərdən istifadə edir. Bu zaman tərcüməçi *stenoqrafiyanın* (ing. *stenography* - yun. *steno* - dar, sıx və *graphy* - yazı - şifahi nitqi tez bir zamanda qeyd etməyə imkan verən və xüsusi işarələrin, ixtisar və qısaltmaların köməyi ilə tərtib olunan yazı) xüsusi növü olan "sürətli tərcümə yazısından" istifadə edə bilər. Ardıcıl tərcümə zamanı tərcüməçi orijinal mətni çox dəqiqliklə yadda saxlamağı bacarmalıdır (söyləniləcək nitq əvvəldən məlum olmayanda) [9, s.26-34]. Şifahi-sinxron tərcümə zamanı yalnız linqvistik vasitəçi rolu oynayan tərcüməçi özünün şəxsi fikrini ifadə etmək imkanına malik deyil. Lakin o, həm tərcümə etdiyi mətni, yaxud ifadələrin məzmununu iki və daha çox dildə, mütləq şəkildə dəqiq tərənnüm etməyi, həm də onların spesifik "emosional rənglərini", danışanın nitq üslubunu, hətta söylənilən nitqin və yaxud deyilən ifadənin tempini və vurğu quruluşunu təsvir etməyi bacarmalıdır. Bu tərcümə zamanı tərcüməçi nitq söyləyənin sözlərini və ifadələrini minimal pauza çərçivəsində başqa dilə çevirdiyi üçün ondan böyük intellektual gərginlik və bütün əqli və linqvistik imkanlarının səfərbər edilməsi tələb olunur. Bu minvalla tərcüməçi eyni vaxtda həm nitq söyləyənin ifadələrini dinləməli, yazılı mətnə istinad etmədən onları fikrində müvafiq dilə çevirməli, əsas fikri tərcümə edilən dildə son dərəcə aydın tərzdə formalaşdırmalı və tərcümə edilən nitqi çox dəqiq ifadə etməlidir. İşgüzar görüşlərdə və kiçik miqyaslı tədbirlərdə tərcüməçi ünsiyyətdə olanların və nitq söyləyənin yanında olur. Böyük tədbirlərdə isə o, səsə qarşı izolə olunmuş xüsusi kabində oturur. Onun tərcümə etdiyi nitq dinləyicilərə xüsusi yayım sistemi və qulaqcıqlar vasitəsi ilə ötürülür. Beynəlxalq tədbirlərdə (məsələn, BMT tədbirləri, Davos yığıncaqları və s.) müxtəlif dillərdə danışan nümayəndələr iştirak etdiyi üçün söylənilən nitq eyni vaxtda bir neçə dilə tərcümə olunur və bunun üçün prosesə çoxlu sayda tərcüməçilər cəlb edilir.

Müasir işgüzar münasibətlər sistemində yazılı tərcümə (ing. *written translation*) insan fəaliyyətinin bütün sferalarına aid edilə bilər. Ənənəvi olaraq, yazılı tərcüməçilər dövlətlər arasında bağlanılan ticarət-iqtisadi və siyasi müqavilələrin mətnini tərcümə etməklə məşğul olurdular. Bu gün isə yazılı tərcüməçilər ictimai-siyasi, kommersiya, texniki, maliyyə, tibb, həmçinin bədii və elmi yaradıcılıq sahələrində çalışır. Tərcüməçilik işinin müasir cəmiyyətdə olduqca vacib amilə çevrilməsini 1991-ci ildə "*Tərcüməçilərin Beynəlxalq Federasiyası*" (ing. *International Federation of Translators - FİT*) tərəfindən *Beynəlxalq Tərcüməçi Gününün* (ing.*International Translation Day*) təsis olunması da sübut edir. Beləliklə, hər il sentyabr ayının 30-da Bibliyanı ("Biblia Vulqata" - Ümumi Bibliya) ilk dəfə olaraq latın dilinə tərcümə etmiş illiriyalı (qədimdə Balkan yarımadasında yaşamış xalq idi) *Müqəddəs İyeronim Stridonlunun* (tərcüməçiliyin müqəddəs himayədarı hesab olunur) ölüm günü Beynəlxalq tərcüməçi günü kimi qeyd olunur.

Bu gün artıq xarici ölkələrin nümayəndələri ilə çoxsaylı kontaktlar gündəlik təcrübəyə çevrilmişdir. Qeyd etmək lazımdır ki, beynəlxalq danışıqlarda iştirak edənlərin ünsiyyəti çox vaxt tərcüməçinin iştirakı olmadan da keçə bilər. Xüsusilə də geniş yayılmış dillərdə (ingilis, fransız və alman) ünsiyyət qurulması zamanı, adətən tərcüməçi zərurəti yaranmır. Lakin bəzi dillərdə ünsiyyət qurulan zaman, adətən tərcüməçiyə kəskin ehtiyac duyulur. Bu isə ərəb, çin, koreya, fin və s. dillərdir.

İşgüzar danışıqlarda iştirak edən tərəflərin heyətində bir və ya bir neçə tərcüməçi təmsil olunur. İşgüzar görüşlərdə və danışıqlarda tərcüməçilər spesifik vəziyyətdə olurlar. Beləki bir tərəfdən onların xidmətinə fövqəladə ehtiyac duyulur, məhz buna görə onlar ünsiyyətin əsas

iştirakçısı hesab olunur. Digər tərəfdən isə onların prosesdə iştirakı nə qədər zərurət olsa da bu nəzər-diqqətdən kənarda qalmalıdır. Çünki tərcüməçi işgüzar danışıqların müstəqil (sərbəst) iştirakçısı deyil və o, ünsiyyət prosesinə (gedişinə) təsir edən "alət" kimi qiymətləndirilir.

Bu gün işgüzar sferada mövcud olan etik normalar danışıqlarda iştirak edənlərdən çox qısa və sadə cümlələrdən istifadə etmələrini tələb edir. Ünsiyyət zamanı, məcazlardan, atalar sözlərindən və zərb-məsəllərdən istifadə edilməsi istisna olunmalıdır. Bəzi hallarda tərcüməçi cümlənin mənasını anlamır və onu təkrar soruşmalı olur. Belə hallarda tərcüməçiyə narazılıq ifadə etmək lazım deyil. Əks halda isə bu onun işinin keyfiyyətinə mənfi təsir göstərə bilər. Əvvəlcədən tərcüməçiyə qarşıdakı danışıqların materiallarını, çıxış edəcək şəxslərin siyahısını vermək, onu mövzu ilə tanış etmək, tədbirin keçirilməsinə daha ciddi və dolğun hazırlaşmaq üçün şərtdir.

Adətən işgüzar danışıqlar zamanı tərcüməçi tərcümə etdiyi şəxsin sol tərəfində dayanır. Danışıqlar masa arxasında keçirilirsə, o zaman tərcüməçi nitqini tərcümə edəcəyi şəxsin arxa tərəfində, azacıq kənarda əyləşməlidir. İşgüzar münasibətlərdə iştirak edən bütün subyektlərin tərcüməçiyə münasibəti həssas və nəzakət qaydalarına uyğun olmalıdır. Onlar ağır linqvistik və psixoloji bir işi icra edən tərcüməçiyə yüksək qayğı göstərməli, ona hörmətlə yanaşmalı və danışıqların sonunda ünsiyyətdə köməyə görə personal təşəkkürlərini bildirməlidirlər. Mahir tərcüməçi isə "danışıqlarda görünməməli" və işini elə səviyyədə yerinə yetirməlidir ki, sanki iştirakçılar öz doğma dillərində ünsiyyət qururlar.

Qeyd etdiyimiz kimi beynəlxalq səviyyəli işgüzar münasibətlərdə tərcüməçinin rolu və onun əməl etdiyi işgüzar etiket normaları mühüm əhəmiyyət kəsb edir. Qlobal arenada xarici partnyorlar ilə aparılan danışıqlar və söhbətlər zamanı ən başlıca məsələ ünsiyyət üçün doğru dilin seçilməsidir. Onu da qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlər sistemində hər bir professional xarici partnyorlarının ana dilini mükəmməl bilsə belə, tərcüməçi xidmətlərindən istifadə etməyi üstün tutur və bu da təsadüfi deyil. Bu zaman söylənilən fikir dinləyən tərəfə iki dəfə (partnyorun və tərcüməçinin dilindən) çatdırıldığı üçün, partnyorun ifadələrini daha dəqiq anlamaq, onu analiz etmək, dərk etmək və qiymətləndirmək üçün əlavə vaxt və imkan yaranır.

Beynəlxalq münasibətlər sistemində çalışan professional tərcüməçi, təkcə filoloq deyil, həm də ölkəşünas, başqa xalqların özəl mədəni ənənələrini, onların xarakterik xüsusiyyətlərini dərindən bilən mütəxəssis olmalıdır. Belə biliklər tək tərcüməçi vəzifəsini uğurla icra etməyə deyil, həm də partnyorlar arasında qarşılıqlı etibar və inam atmosferi yaratmağa imkan verir. Tərcüməçinin belə, olduqca yüksək təşəkküllü səviyyəsi başqa xalqların və mədəniyyətlərin nümayəndələri ilə əlaqələr zamanı xüsusilə həlledici rol oynayır. Belə ki, çox sayda xalqların dünyagörüşü, etik-mənəvi xüsusiyyətləri və bununla əlaqədar onların istifadə etdikləri işgüzar protokolun və etiketin özəllikləri Qərbdə (Avropa, ABŞ və s.) qəbul olunmuş standartlardan əhəmiyyətli dərəcədə fərqli olur. Qeyd etmək lazımdır ki, tərcüməçinin fəaliyyəti beynəlxalq səviyyəli diplomatik əlaqələrlə bağlı olanda onun məsuliyyəti daha da artır. Belə ki, sözügedən sahədə çalışan tərcüməçilər beynəlxalq münasibətlər sistemində tələb olunan geniş biliklərə və məlumatlara malik olmalı, həm öz ölkələrində, həm də ünsiyyətdə iştirak edən partyorların ölkələrində mövcud olan sosial-iqtisadi və ictimai-siyasi situasiya haqda məlumatlı olmalıdır.

Diplomatiya sahəsində tərcümələr ilə məşğul olan mütəxəssisin məsuliyyəti bu sahənin spesifik xarakterinə uyğun olaraq ikiqat artır. Bu səbəbdən sözügedən sahədə tərcümə işini həyata keçirən şəxslər müəyyən sxem üzrə işləyir. Burada birinci və ən əsas qayda *punktual* (lat. *punctum* – nöqtə - fövqəladə səliqəsi və dəqiqliyi ilə seçilən insan xarakterinin bir cizgisi, qaydalara davamlı əməl olunması) olmaqdır. Qeyd etmək lazımdır ki, Qərb mədəniyyətində (Almaniya bu baxımdan istisna təşkil edir, bu ölkədə hər hansı gecikmə halı qınaq obyektinə çevrilir) üzürlü səbəblərə görə 10-15 dəqiqə gecikmək məqbul sayılır. Lakin bir sıra Qərb ölkələrində punktuallıq cəmiyyətin ən vacib tələbi kimi qiymətləndirilir. Məsələn, İsveçrədə punktuallıq milli xarakterin əsas əlaməti hesab olunur. Maraqlıdır ki, bu ölkədə, həm görüşə gecikmək, həm də görüş yerinə vaxtından əvvəl gəlmək, eyni səviyyədə qəbuledilməz sayılır. Lakin beynəlxalq münasibətlər sistemində tərcüməçinin təyin olunmuş görüş yerinə və yaxud tədbirin keçiriləcəyi yerə vaxtından əvvəl gəlməsi nəinki məqbul sayılır, həm də arzu olunan sayılır. Bu, mütəxəssisə görüşün keçiriləcəyi yer

və görüşün iştirakçıları ilə daha yaxşı tanış olmaq, ünsiyyət üçün zəruri olan bütün detalları dəqiqləşdirmək, iştirakçıların siyahısını (titul, ad, vəzifə və s. göstərilməklə) tərtib etmək imkanı qazandırır.

Beynəlxalq səviyyələrdə keçirilən işgüzar və diplomatik tədbirlərdə iştirak edən hər bir tərcüməçinin xarici görkəminin, qiyafəsinin (libas) və onları tamamlayan bütün aksessuarların adekvat olması və estetik tələblərə cavab verməsinin də çox mühüm əhəmiyyəti var. Bundan əlavə tərcüməçi iş prosesində mimikası və jestikulyasiyası haqqında da unutmamalıdır. Düz (şax) qamət, inamlı baxış, sakit, təmkinli nitq uğurlu işgüzar insanın, xüsusilə də tərcüməçinin əsas əlamətləri hesab olunur. Beynəlxalq münasibətlər sistemində diplomatik və kommersiya sirlərinin saxlanılmasına son dərəcə ciddi riayət etmək, tərcüməçinin üzərinə götürdüyü vacib öhdəliklərdən biri hesab olunur. Hətta ünsiyyət zamanı tərəflər konfidensiallığı qorumaq üçün tərcüməçidən yazılı qeydiyyatın aparılmamasını xahiş edə bilərlər.

Qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlər çərçivəsində həyata keçirilən tərcümə işləri zamanı rəsmi prosedurlar arasında fasilələr veriləndə, *kuluarlarda* (fra. *couloir* - dəhliz, koridor) və "*a lya furşet*" (fra. à la fourchette - tez, tələsik, fra. fourchette - "çəngəl" - əsasən, yüngül yeməklərdən və içkilərdən ibarət olan ayaqüstü qəlyanaltı) qəbulu zamanı tərcüməçi danışıq aparan şəxsi müşayiət edir, əcnəbilərin nitqini onun anladığı dilə çevirir və bir qayda olaraq, müşayiət etdiyi şəxsdən yarım addım arxada mövqe tutur. Əgər danışqlarda iştirak edən bir nümayəndə heyətinin tərkibində və yaxud tərcüməçilər arasında qadın varsa, mütləq qəbul edən tərəfdə də qadın nümayəndələr və tərcüməçilər olmalıdır. Bununla belə, unutmaq olmaz ki, fərqli mədəniyyətlərdə qadınlara münasibətlə bağlı mövcud etiketin xüsisiyyətləri müxtəlif olur (məsələn, işgüzar görüşdə Polşa qadınlarını salamlayarkən, onların əlini öpmək vacib sayılırsa, amerikalı işgüzar qadın bu cür münasibəti özü üçün təhqir hesab edə bilər). Buna görə də tərcüməçilər müxtəlif mədəniyyətlərin mənsubları olan insanların spesifik milli xarakterini tərənnüm edən özəlliklər haqqında təmsil etdiyi tərəfi mütləq məlumatlandırmalı və vəziyyətin bütün incəliklərini onlara əvvəlcədən izah etməlidir. Bir vacib məqamı da qeyd edək ki, beynəlxalq danışıqlar zamanı etiket qaydalarına uyğun olaraq, tərcüməçilərin sayı və cinsi tərkibi əvvəlcədən müəyyənləşdirilir. Məsələn, diplomatik və işgüzar danışıqlarda iştirak edən tərəfin lideri görüşə həyat yoldaşı və yaxud onu müşaiyət edən xanımla gəlirsə, o zaman tərcüməçilərin sayı, ən azı iki nəfər olmalı və onlardan biri mütləq qadın olmalıdır. Əcnəbi nümayəndə heyətinin başçısının titulu nə qədər yüksək olarsa, onun təqdimatı da bir o qədər davamlı olmalıdır. Vizit kartalarının təqdimatı zamanı tərcüməçi təqdim olunanın adını və soyadını yüksək səslə ifadə etməlidir. Pauzalar zamanı isə tərcüməçi səslənmiş mətndən əlavə hər hansı ifadə işlətməməli və artıq tərcümə olunmuş mətni yenidən təkrar etməməlidir. Masa arxasındakı söhbətləri tərcümə edərkən, tərcüməçinin əlləri masanın üstündə olmalı, o, əllərilə hər hansı jestlər etməməli, hətta qələmi belə barmağında fırlatmamalıdır. Bir incə məqamı da xüsusi olaraq vurğulamaq lazmdır ki, diplomatik danışıqlarda tərcüməçiyə bu və yaxud digər səviyyədə diplomatik səlahiyyətlər verilərsə, o, tərcümə etdiyi mətndə müvafiq korreksiyalar etmək hüququ qazanır.

**Nəticə**

Qlobal tendensiyalarla müşayiət olunan müasir dövrdə fərqli mədəniyyətlərin linqvistik baxımdan davamlı inteqrasiyasına,"*universal ünsiyyət vasitəsi*" statusuna malik olan dillərin (ingilis, fransız, alman, ispan və s.) öyrənilməsi dinamikasına baxmayaraq, tərcüməçilik sənəti yenə də beynəlxalq kommunikasiyanın predmeti və insanlar arasında kontakt yaratmağa qadir olan vasitə kimi özünün fövqəladə aktuallığını itirmir. Bu isə sözügedən mühüm işin nəzəri və praktiki əsaslarının durmadan təkmilləşdirilməsini, onun müasir dövrün texniki və intellektual tələblərinə maksimum uyğunlaşdırılmasını tələb edir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Albrecht M. von. Geschichte der römischen Literatur.Von Andronicus bis Boethius. 2. verbesserte und erweiterteAuflage. München, 1994.- pp. 92-98

2. Армстронг А.Х. Истоки христианского богословия. Введение в античную философию. СПб., 2016. С. 241-242

3. Artūras Ratkus. Greek ἀρχιερεύς in Gothic translation // NOWELE. North-Western European Language Evolution. -2018-04-05. -Vol. 71, iss. 1. pp. 3-34

4. Claudio Fantinuoli (2016), Specialized Corpora from the Web and Term Extraction for Simultaneous Interpreters. // Baroni, Bernardini, WaCky! Working Papers on the Web as Corpus, pp. 173-190

5. Clifford, Richard J. The Authority of the Nova Vulgata: A Note on a Recent Roman Document // Catholic Biblical Quarterly. - 2001. - Vol. 63. - P. 197-202

6. Beşkitab. I Kitab. Varlıq. 11: 1-9

7. Власов В.Г. Возрождение // Новый энциклопедический словарь изобразительного искусства. В 10 т. - СПб.: Азбука-Классика. -Т. II, 2004. -С. 471-472

8. JacobNeusner, editor. Religious Foundations of Western Civilization: Judaism, Christianity, and Islam. - 2010. - P. 499

9. Johnson N.F., Jajodia S. Exploring Steganography: Seeing the Unseen, IEEE Computer, - 1998, - vol. 31, no. 2, pp. 26-34

10. Nye, Mary Jo. Speaking in Tongues:Science's centuries-long hunt for a common language // Distillations : journal. - 2016. - Vol. 2, no. 1. - P. 40-43

11. Плутарх. Пирр и Гай Марий //Сравнительные жизнеописания / перевод с греческого В.А. Алексеева. - М.: Альфа-книга, 2014. - С. 448. - 1263 с.

12. Viacheslav A. Chirikba, «The problem of the Caucasian Sprachbund» in Pieter Muysken, ed., From Linguistic Areas to Areal Linguistics, 2018, - p. 31

# INTERPRETER AS THE MAIN ELEMENT OF INTERNATIONAL COMMUNICATIONS: HISTORY AND MODERNITY

**M.Ismayilova**
Mingachevir State University

***Abstract:*** *The article is devoted to the history and present day of translation as one of the important and specific forms of human activity. As a result of the analyzes carried out, the work of a translator is assessed as one of the most important types of mental and intellectual activity of a person, and it is presented as an area of service that is in demand for all times and peoples. In this regard, interesting facts have been discovered about the role and significance of ancient and modern languages, which have the corresponding status of a universal means of communication in the history of translation. The article also gives an appropriate assessment of the progressive role of translation in the history of civilization, determines its exceptional importance in the dissemination of scientific and technical knowledge, religious and philosophical teachings and the main progressive ideas of world significance. The essence and content of the important role that translation plays in international communications have been studied and positive factors have been approved about the participation of English, German, Spanish, French and other languages in the system of business communications, in communication between people with different linguistic competencies. The article also depicts the socio-cultural and moral-ethical image of a modern translator, defines all the characteristic features and signs that form his professional competence, and clarifies the true essence of the transformation of translation into a necessity in modern society. The article brings to the fore the fact that the translator's profession remains relevant, which implements hard mental and psychological work and is able to be the subject of international communication, as well as a means that can create verbal contact between people.*

***Keywords:*** *translation, translator, universal way of communication, translation etiquette, lingua franca, linguistic diversity, history of translation, Latin, English*

# ПЕРЕВОДЧИК КАК ОСНОВНОЙ ЭЛЕМЕНТ МЕЖДУНАРОДНЫХ КОММУНИКАЦИЙ: ИСТОРИЯ И СОВРЕМЕННОСТЬ

**М.М.Исмайылова**
Мингячевирский государственный университет

***Резюме:*** *Статья посвящена истории и сегодняшнему дню переводческого дела, как одному из важных и специфических форм деятельности человека. В результате проведенных анализов работа переводчика оценена как один из важнейших видов интеллектуальной и умственной деятельности человека и она представлена как область обслуживания, востребованного для всех времен и народов. В связи с этим обнаружены интересные факты о роли и значении древних и современных языков, имеющих соответствующий статус универсального средства общения в истории перевода. В статье также дана адекватная оценка прогрессивной роли переводческого дела в истории цивилизации, определено его выдающееся значение в распространении научно-технических знаний, религиозно-философских учений и главных прогрессивных идей всемирного значения. Исследована сущность и содержание той важной роли, которую переводческое дело играет в международных коммуникациях и утверждены высокие позитивные факторы об участии английского, немецкого, испанского, французского и др. языков в системе деловых коммуникаций, а также в общении между людьми, имеющими разнообразные лингвистические компетенции. Кроме этого, в статье изображен социально-культурный и нравственно-этический образ современного переводчика, определены главные черты и признаки, формирующие его профессиональную компетенцию и уточнена истинная суть превращения переводческого дела в необходимость в современном обществе. В статье на передний план выставлены реальные факты о чрезвычайной актуальности профессии переводчика, реализующей тяжелую умственно-психологическую работу, способной быть связующим компонентом международной коммуникации и средством, способствующим создать словесный контакт между людьми.*

***Ключевые слова:*** *перевод, переводчик, универсальный способ общения, переводческий этикет, «лингва-франка», лингвистическое разнообразие, история перевода, латинский язык, английский язык*

**Elmi redaktor: fil.f.d., dos. M.İsmayılov**
**Çapa təqdim edən redaktor: tar.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 19.02.2024**
**Çapa qəbul edilib: 26.02.2024**

UOT 82.1

# POEZİYADA TƏBİƏT VƏ CƏMİYYƏT ARASINDAKI ZİDDİYYƏTLƏR

**Ceyran Elşən qızı Vəliyeva**
Mingəçevir Dövlət Universiteti
Gəncə Dövlət Universitetinin doktorantı
ceyran.veliyeva@mdu.edu.az

***Xülasə:*** *Təbiətlə cəmiyyət arasındakı əlaqəni müxtəlif istiqamətlərdə öyrənmək olar. Bu əlaqələr çox fərqlidir. Təbiət hər şeydən əvvəl insanın təbii şəraitidir. İnsan başqa canlı orqanizmlər kimi təbiətin bir parçasıdır. İnsanın başqa canlılardan fərqliliyi onun sosial varlıq olmasıdır. Deməli, insan sosial və canlı varlıqdır.*

*İnsana görə təbiət, onun fəaliyyətinin məkan sahəsidir. İnsan təbiətin vasitəsi ilə həm dünyanı dərk etmək, həm də ömrünü mənalı etmək istiqamətində addımlar atır.*

*Dünya sürətlə dəyişilir və o dəyişikliyə müvafiq olaraq cəmiyyətlər ilə insanların münasibətləri də yeni zamanın tələblərinə uyğun təbiət-cəmiyyət münasibətlərinin korreksiyasını əks etdirir. Cəmiyyətlə təbiət arasındakı əlaqə təbii mühitdən istifadəni və təbiətin mühafizəsini, insan fəaliyyətinin iki əsas növünü əhatə edir.*

*Bu məqalədə yaraıcılığında təbiət-cəmiyyət münasibətlərindən bəhs edən bir çox sənətkarların adları çəkilmiş, xüsusilə də Mikayıl Müşfiqin, Əhməd Cavadın, Yaqub Mahirin, Səməd Vurğunun, Zəlimxan Yaqubun, Süleyman Rüstəmin, Nəbi Xəzrinin, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin mövzu ilə bağlı poeziyasından ətraflı danışılmış və bəzi şeirlərdən nümunələr göstərilmişdir.*

***Açar sözlər:*** *poeziya, təbiət, cəmiyyət, şair, ziddiyyət*

## Giriş

Təbiət və cəmiyyət arasında olan münasibətlər birmənalı olmamışdır. Hər zaman bir yaxınlıq və ziddiyətliliyin olması bu gündə öz aktuallığını saxlamışdır. Bu da insanın mövcudluğunu mühüm şərti kimi, bilavasitə həmin münasibətlər ilə əlaqəli olduğundan irəli gəlmişdir.

Tarixin ayrı-ayrı dövrlərində təbiət məfhumuna ifadə edilən məna müxtəlif olmuşdur. İstənilən xalqın danışıq dilindən tutmuş, qavrayışına kimi təbiət və cəmiyyət münasibətləri özünəməxsus xüsusiyyətlərilə Təbiətin əsası kimi meqa, makro və mikro aləmdə var olan obyektlər dərk edilirdi. Başqa bir tərəfdən də təbiət insanın yaşadığı cəmiyyətdə fəaliyyət mühiti kimi də qavranılır. Cəmiyyətin varlığı insanın o aləmdə ictimai münasibətləri olması nəzdində qəbul olunur. Yəni ictimai fəaliyyətin təbii aləmə aidliyi güman edilir. Bunlar da öz-özlüyündə insan həyatının mənasını, mahiyyətini və mövcud olmasını xarakterizə edir. Bu mahiyyətdən insanın təbiətə münasibətindəki tarixi dəyişiklik qaynaqlanır.

## Təbiət və insan

Təbiəti insansız, insanı da təbiətsiz təsəvvür etmək qeyri-mümkün olduğu kimi, cəmiyyəti də insansız, insanı cəmiyyətsiz təsəvvür etmək mümkün deyil. Məhz bu məsələnin dərkindən cəmiyyətin inkişafı tənzimlənir. Burada ziddiyyətin mövcudluğu mühüm məsələ kimi təbiət ilə cəmiyyətin münasibətlərində və həmin münasibətin tənzimlənməsində görülür. Nəticə etibarı ilə insan təbiəti dərk etdiyi qədər cəmiyyətin inkişafına da bir o qədər töhfə verir.

Təbiət elə bir varlıq şəklidir ki, onda baş verənlər təbiətin qanunlarının nəticəsində təzahür edir. Cəmiyyətdə isə insanlar bu cür münasibətləri özləri yaradır və tənzimləyir. Cəmiyyətdə insanların yaratdığı münasibətlər təbiətə zidd olmamalıdır. Fərdlər və cəmiyyətlər təbiətin mövcudluğuna və onun qorunmasına cavabdehdirlər. Təbiət insanın varlığını, yaşamını təmin etməklə yanaşı, həm də insan fəaliyyətində kəmiyyət və keyfiyyət dəyişikliklərinə səbəb olur.

Təbiət və cəmiyyət arasındakı ziddiyyət məsələlərinə elmin müxtəlif sahələrində fərqli yanaşmalar olmuşdur. Bu kimi yanaşmalara ədəbiyyatda da rast gəlirik. Xüsusilə poeziyamızda

şairlərin təbiət cəmiyyət münasibətlərinə toxunduğunun şahidi oluruq. Ədəbiyyatımızda istər təbiət və ictimai həyat əlaqaləri arasındakı münasibətlər haqqında yazan bir çox dahi şairlərimiz olub.

**Təbiət bədii nümunələrdə**

Həmin şairlərimizdən biri də Mikayıl Müşfiqdir. Bu şairimiz ən çox lirik-romantik şair olaraq məşhurdur. Azərbaycan ədəbiyyatında o, özünəxas üslubu ilə seçilir. M.Müşfiq lirik poeziyanın sərhədlərini yazıb-yaratmaq eşqi, coşğun ilhamı ilə sındıran, zamanın tələblərindən çıxış edərək şeirlər qələmə alan şair idi. Şair yazdığı fərqli formalı və fərqli məzmunlu şeirlərilə Azərbaycan ədəbiyyatının və poeziyasının inkişafında əhəmiyyətli yer tutur. Cəmiyyət həyatının xeyli nüanslarını əks etdirən şeirlərində Müşfiqin narahatlığı, ruhi iztirabları görünür.

M.Müşfiqin şeirlərindəki təsvirlər insan və təbiət əhval-ruhiyyəsinin harmoniyasını göstərir. Şair vurğulamaq istəyir ki, insanların təbiətə bağlı olduğu kimi, təbiətin gözəllikləri də insanlardan asılı vəziyyətdədir. M.Müşfiqin poeziyasında təbiət obrazı yalnız qəhrəmanın psixoloji vəziyyətinin əksi və gözəlliyinin tərkib hissəsi deyil. Həmçinin təbiət və insan uyğunlaşmasında ictimai obraz daşıyıcısı kimi aparıcı rola sahibdir.

İctimai-siyasi mövzular ilə yanaşı təbiət və insan hisslərilə bağlı mövzuları özündə ehtiva edən romantizm ədəbi cərəyanının əsas nümayəndələri bunlardır: A.Divanbəyoğlu, Ə.Cavad, A.Səhhət, H.Cavid və M.Hadi.

Əhməd Cavad müharibələrə nifrətlə yanaşır, o istəyirdi ki, belə savaşlar adamların şüurundan və həyatından silinsin. Ona görə də o, şeirlərində müharibənin bütün canlıların həyatına təsir etdiyini ifadə edir. Bəkir Nəbiyev yazır ki: "Əhməd Cavad müharibənin bütün mənfi formalarını bizə izah edərək göstərir ki, müharibə uşaqları məhv edir, yolları boş, təbiəti məhv edir, cəmiyyətin adət-ənənələrini korlayır. O, insanlara ondan uzaq durmağı tövsiyə edir" [9, s.60].

Bu günə qədər hərtərəfli şəkildə yaradıcılıq yolu tədqiq edilməmiş, yalnız sənət dostlarının və müasirlərinin haqqında xoş fikirlər səsləndirdiyi Yaqub Mahirin poetik irsi XX əsrin ikinci yarısı, XXI əsrin ilk onilliklərinə təsadüf edir. Şairin yaradıcılığının ilkin illərinin mühüm məzmununu tanınmış şair Mirzə Ələkbər Sabirin yaradıcılığından ilhamlanaraq qələmə aldığı satiralar olsa da, XX əsrin 90-cı illərinin ortalarından başlayaraq lirik şeir aparıcı mövqe tutur. İstedadlı şair yaradıcılığında qəzəl, gəraylı və qoşma janrlarına üstünlük verib. O, əxlaqi-didaktik, ictimai -siyasi, təbiət və məhəbbət mövzularında dünyanı əks etdirən əsərlər də yazmağa, dövrünün aktual məsələlərini canlandırmağa nail olmuşdur. Yaqub Mahir əsərlərində özünü milli ruhun canlı daşıyıcısı kimi göstərib. Şair Azərbaycan ədəbiyyatı poeziyasının zənginləşməsində mühüm rol oynamışdır.

Yaqub Mahir poeziyası öz müasirlərindən özünəməxsus ifadəliliyi, üslubu, bədii keyfiyyətləri ilə fərqlənir. Klassik janrın axıcı qəzəllərinin müəllifi Yaqub Mahir heca vəznində qələmə aldığı yazılarında vətənpərvərliyi, təbiət gözəlliklərini, saf məhəbbəti tərənnüm etmiş, dövrünün siyasi-ictimai nöqsanlarını tənqid etmişdir. K.F.Adışirinov onun haqqında yazmışdır: "Yaqub Mahir poeziyasında mövzu baxımından dövrünün nəbzini tuta bilmiş, cəmiyyətə zidd olan hərəkət və hadisələri satira atəşinə tutmuşdur" [2, s.13].

Təbiət hadisələrinin cəmiyyət hadisələrilə qarşılaşdırılması, paralellər, müqayisələr aparılması oxucuların zehnində təbii bir lövhəni formalaşdırır və onu həyata, real aləmə daha güclü şəkildə bağlayır.

Şairlərimizin və yazıçılarımızın yaradıcılığında "təbiət dünyanın şah əsəri" kimi hər zaman yüksək ruhla tərənnüm və təsvir edilmişdir. "Məhəbbət dediyin təbiətdədir, təbiət özü də məhəbbətdədir" - dahi şairimiz Səməd Vurğunun bu bədii fikrini yazarlarımız daima öz əsərlərində poetik meyar olaraq qəbul ediblər.

Çoxşaxəli və əhatəli ömür yolu keçmiş Səməd Vurğunun poeziyasında təbiətə, insana, cəmiyyətə həsr olunmuş şeirləri əsas yer tutur. Azərbaycan təbiətinin aşiqi olan şair yaradıcılığa başladığı günlərdən təbiətə, insana vurğunluqdan, ülvi və saf sevgidən söz açıb. Şairin bu mövzudakı əsərlərində sərin bulaqlarımızdan, qartallı qayalarımızdan, torpaqlarımızın barlı-bərəkətli olmasından, estetik zövqdən, məna gözəlliyindən bəhs edilir – ümumilikdə, yaşadığımız dünyanın füsunkar gözəlliyini gözlərimiz önündə canlandırır. Məmməd Cəfər "Estetik zövq"

adındakı məqaləsində qeyd edir ki: "Təbiət estetik gözəlliyin tükənməz qaynaqlarındandır. İnsanların təbiətdən əldə etdiyi zövq nəhayətsizcə sonsuzdur. İnsan üçün təbiət həm tükənməz estetik zövq qaynağı, həm sağlamlıq, həm də müəllimdir" [8, s.13].

Vətənini alovlu məhəbbət ilə sevən S.Vurğun poeziyasında xüsusi bir təbiəti hiss etmək bacarığı vardır. Bir rəssam həssaslığı ilə təbiətin gözəlliyini hiss edən şair o gözəlliyi ülvi və konkret obrazlarda verir və oxucularda rəğbət doğurur.

Şairin lirikasında kənd təbiəti, kənd həyatı əsas yer tutur, lakin şair kənd həyatına yeni insanın gözlərilə nəzər yetirir. S.Vurğun həm şeirlərində və poemalarında, həm də səhnə əsərlərində Azərbaycanın təbiətinin cazibədar gözəlliyini böyük məftunluqla təsvir etmişdir. Cəlal Abdullayev yazır ki: "Səməd Vurğunun poeziyasında Azərbaycanın təbiəti, torpağı, daşı dil açaraq danışır, əşyalar və predmetlər canlı kimi varlıq verilir, insan kimi təbiət də ölür, yaralanır, kədərlənir, sevinir. Sadəliyi, səmimiliyilə hər kəsin ürəyinə yol tapan, ahəngdar, ritmik, folklor mənşəli səciyyəyə sahib bu lirika, eyni zamanda da gözəl musiqi sədalarıdır. Təbiət S.Vurğunun qələmində insan ruhunun tərcümanı olaraq təqdim edilir. O, bütöv bir poetik mənzərə yaradanda sətirlər arasında təbiətə münasibətində bu məqsədinə müvəffəq olur" [1, s.85].

Ümumiyyətlə, Səməd Vurğunun Azərbaycan təbiətinin gözəlliklərinə həsr etdiyi şeirləri xüsusiyyətlərinə görə zəngindir... Yaradıcılığında xalq şeirinin və xalq hikmətinin ən yaxşı ənənələrini cəmləşdirməklə vətəndaşa və Vətənə olan məhəbbətini ən təsirli bədii üsullar ilə reallaşdıran yüksək sənət nümunələri yer alır.

Xalq şairi Zəlimxan Yaqubun poeziyasında ifadə tərzinin yaratdığı özünəməxsus intonasiya və ahəng, folklor təfəkküründən qaynaqlanan duyğu da mühüm yer tutur. Şair şeirlərinin birində insan və təbiətlə bağlı məqamlara diqqət çəkir ki, bu da onun yaradıcılıq ünsürünü belə qeyd edir:

*"Bir daş olam, dönəm burda kaş daşa,*
*Arxa durur, dayaq olur daş daşa.*
*Min illərdi dağlar verib baş-başa,*
*Xəbislikdən, xəyanətdən xəbərsiz."* [11, s.10].

Ədib daşa çevrilib onun sirdaşı olmaq istəsə də, bu istək əslində insanların hamısının bir-birinə səmimi münasibətinin vacibliyini və zəruriliyindən xəbər verir

Nizami Cəfərov Z.Yaqubun yaradıcı şəxsiyyəti barədə bu cür fikrə gəlir ki: "Zəlimxan Yaqub xalqın milli dövlətçilik duyğularının sözçüsüdür. Onun yaradıcılığı ədəbi tələblərin şərtlərinə uyğun olan bir yaradıcılıqdır" [3, s.8].

Təbiətin konkret parçası: çay, göl, ağac, qaya, dağ və sairə obrazların folklorun ruhunu daşımaqla 20-ci yüzilin ikinci yarısından başlayaraq poeziyada əsas mövzulardan biri olaraq aktuallıq kəsb etməsini şərtləndirən faktorlardan biri, şübhəsiz ki, poeziyada fəlsəfi ümumiləşdirmələrə doğru artan tendensiyanın aparıcı mövqeyi ilə sıx əlaqəli olmuşdur.

Bu dövrdə bədii ədəbiyyatın başqa sahələri kimi təbiət və folklor obrazı olan əsrarəngiz Muğan çölləri, tufanlı Xəzər, dəli Kür, dərdli Araz, qartal, palıd, dəmirağac, xan çinar və o cümlədən də Çıraqqala, Narınqala, Dəmirqapı Dərbənd, Möminə Xatun türbəsi, Çənlibel, Gəmiqaya, Qavaldaş, Qobustan qayaları, Gülüstan qalası, Əlincə qalası, Qız qalası kimi tarixi etnoqrafiq yerlərə çevrilən abidələr və ən Qaçaq Kərəm, Qaçaq Nəbi, Koroğlu, Babək kimi qəhrəmanlığının, Dədə Qorqud müdrikliyinin poetik yaradıcılıqda yeni bir rəmzi status daşıyır.

Palıd, çinar, Araz, Kür, Ərk qalası, Savalan, Təbriz kimi anlayışlar poeziyada milli hislərin bütöv, tam Vətənin obrazının təşəkkülü fəal bir mövqe tutması xalq şairləri İslam Səfərlinin, Xəlil Rza Ulutürkün, Bəxtiyar Vahahzadənin, Nəbi Xəzrinin, Hüseyn Arifın, Qasım Qasımzadənin, Söhrab Tahirin, Balaş Azəroğlunun, Rəsul Rzanın, Süleyman Rüstəmin şeirlərində bütün qabarıqlığı ilə özünü büruzə verir. Süleyman Rüstəmin "Düşüncələr" şeirindəki xalqın istiqlal bütövlük arzularının, milli təxəyyülün, adət-ənənənin poetik bir dil ilə tərənnüm olunması inandırıcı və olduqca təbii və təsirlidir.

*"Tutdu sağ əlimdən zamanın əli,*
*Şeirimin bülbülü o vaxtdan bəlli.*
*Talış meşəsində Babək gövdəli,*

*Dəmir ağacının budağındadır"* [10, s.106].

Şeirin bu bəndində maraqlı fakt ondan ibarətdir ki, dəmirağac kimi böyük olan ağacın Babəkə bənzədilişi gözlənilməzliyi, yaratdığı oxşarlıq düşüncəsilə diqqəti çəkir. Buradakı "dəmirağac" millətin qüdrətinin və gücünün rəmzidir.

Nəbi Xəzri "Çinar ömrü" şeirində şəxsi duyğularını ona təsir edən emosional ovqatı çinar ilə əlaqəli formada nəzərə çatdırır. O bu şeirində bir həyat boyunca yaşanılan və yaşanılacaq anları bu məfhumda yer alan ictimai məzmun və məna ilə cilalamağı bacarır:

*"Çinarla dil açdı söz də, ilham da.*
*Yarpaqlar üstümdə qızıllı kölgə.*
*Bir çinar ömrünü yaşamasam da,*
*Bir çinar səsində yaşadım bəlkə!"* [6, s.54].

Məşhur şairlərimizdən biri Məmməd Araz yaradıcılığında təbiət anlayışlarından söhbət açarkən akademik İsa Həbibbəyli onu belə dəyərləndirmişdir: "Məmməd Arazın poeziyasındakı Qaya və Dağ mövzusunda qələmə alınmış çoxlu şeirləri onun daş barəsindəki poetik düşüncələrindən irəli gəlmişdir. Məmməd Arazın "Əlvida, dağlar", "Şair qayalara, dağlara söykən", "İnsan - qayalar" şeirləri Azərbaycan poeziyasında şah əsər kimi meydana çıxan ən yaxşı şeirlərdəndir" [5, s.299].

Məmməd Araz çinar obrazı vasitəsi ilə xalqın taleyüklü qayğılarını, ən çətin yaşantılarını müvəffəqiyyətlə dilə gətirir. Bu baxımdan "Araz üstə çinar gördüm" şeiri diqqətləri cəlb edir. Bu şeirdə daş obrazı ilə bərabər, çinar da irəli sürülmüş əsas fikrin ifadəsi üçün bədii-estetik zəmin yaradır, ilkinliyin- qədimliyin, bütövlük və birliyin daşıyıcısı olmaqla simvolik-metaforik xarakterli poetik obraz dərəcəsinə yüksəldir.

Ümumiyyətlə, Məmməd Arazın poeziyasında təbiət-cəmiyyət problemi əsas yer tutur. Şair müxtəlif proseslərin, təbii komplekslərin təşəkkülünü, inkişafı və qarşılıqlı təsirini ictimai-siyasi proseslərlə birləşdirərək böyük məharətlə poeziyaya köçürür.

M.Araz Vətənimizin ölkəmizin dağ yamaclarında əmələ gələn qayaların hər birini vətənin keşiyində duran qəhrəman əsgərlə, qayaları isə bütövlükdə ölkəni qoruyan güclü ordu ilə müqayisə edir. Şair məşhur bir mütəfəkkir dərəcəsinə yüksələrək yazır ki, vətənin daşı olmayandan, olmaz ölkə vətəndaşı. Başqa insanlara adi görünən daş onun üçün obrazlılıq səviyyəsinə qalxır və təbiətin bir parçası kimi bədiiləşir.

M.Araz "Professor Gülə məktub" adlı şeirində özünün vətəndaş və ictimai-siyasi düşüncələrilə seçilir. Xəzərin ekoloji problemləri, onun ekoloji tarazlığının pozulması şairi ciddi narahat edir, o, şəhər əhalisi ilə təbiətin acınacaqlı taleyini əks etdirirdi. Həm özünün, həm də başqa qonşu dövlətlərin dənizini amansızca istismar etmək cəhdləri şairi hiddətləndirdi və o, bu sahə üzrə məsuliyyət daşıyan hökumət dairələrini, eləcə də elminə dərindən inandığı professor və coğrafiyaşünas Gülü bu məsələyə nəzər salmağa çağırırdı.

O, Azərbaycanın təbiəti və Xəzər dənizi ilə bağlı elmi məqalələrini nəzərə alaraq, onun bu məsələlərdə vətəndaş mövqeyi göstərməyinin mühümlüyünü ifadə edir:

*"Xəzər bir xəzinədir*
*Qoynu qoltuğu dolu.*
*Bir nənədir,*
*Yedirdir-süfrə salır,*
*Yatırdır-layla çalır,*
*Xəzər xəzərilərin*
*Gözəllik adını saxlayır"* [7, s.6].

Təbiətə qarşı biganə qalmağı böyük fəlakət kimi dəyərləndirən şair qeyd edir ki, Xəzərdə əbədi və əzəli neft yataqlarını mühafizə etmək mühüm şətlərdəndir. Bu sərvətin sovurulub tükənməsi gələcək nəsil üçün çətin problemlər yarada bilər. Millətin sərvətinin gələcək üçün saxlamanılması əsl ariflik olardı. Xəzər dənizindəki balıq sərvətinə sevgi və qayğı göstərmək vətəndaşlıq borcumuzdur.

Təbiətdəki hər bir şeyin adamların rifahı üçün olduğu Məmməd Araz şeirlərinin əsas qayəsini təşkil edir. Şairin fikrinə görə, təbiətdəki hər bir şey canlıdır. Təbiət hər zaman təzədir, cavandır, gözəldir və uludur. M.Arazın şeirlərini oxuduqca insan bir anlığa özünün onun yerinə qoyur, Azərbaycanın hər bir daşını belə sevməyə səy göstərir.

Təbiətdə olan bütün canlılara, cansızlara və hadisələrə həssaslıq göstərən şairin şeirlərinin hər bir insanlarda hər şeyə qayğı ilə yanaşmağı müdrikcəsinə aşılayır.

